ÜMUMİ DİLÇİLİK MÜNTƏXƏBATI

Bakı Dövlət Universitetinin Ümumi dilçilik kafedrasının 100 illiyinə

"Elm və təhsil"
Bakı- 2020

Tərtib edən: **Qismət Cəfərov**
BDU-nun Ümumi dilçilik kafedrasının magistri

Elmi redaktoru: **Məhəmməd Məmmədov**
filologiya üzrə fəlsəfə doktoru, dosent

Rəyçilər: **Məmmədəli Qıpçaq,**
filologiya elmləri doktoru, professor
Tofiq Müzəffəroğlu,
filologiya elmləri doktoru, professor
Nadir Məmmədli
filologiya elmləri doktoru, professor

Redaktor: **Dəyanət Osmanlı**

Ümumi dilçilik müntəxəbatı (*Bakı Dövlət Universitetinin Ümumi dilçilik kafedrasının 100 illiyinə*).
Bakı, "Elm və təhsil", 2020, 320 səh.

4602000000 qrifli nəşr
N-98-2020

© Qismət Cəfərov, 2020

ÖN SÖZ

Azərbaycanda ümumi dilçiliyin əsası Bəkir Çobanzadənin "Türk-tatar lisaniyyatına mədxəl" (1924) əsəri ilə qoyulmuşdur. Azərbaycan dilçiliyində ilk dəfə olaraq bu əsərdə dilçiliyin predmeti, tarixi, dilin daxili quruluş məsələləri, dilin mənşəyi, dillərin tipoloji və genealoji təsnifi və s. haqqında yığcam, lakin o dövr üçün əhəmiyyətli olan məlumat verilmişdir. Bundan sonra bu sahədə yaranmış boşluğun doldurulmasında N.Məmmədovun 1961-ci ildə nəşr edilmiş "Dilçiliyin əsasları" adlı dərs vəsaiti, ilk nəşri 1966-cı, ikinci nəşri isə 1980-ci ildə olmuş "Dilçiliyə giriş" (həmmüəllifli) dərsliyi mühüm rol oynamışdır.

Azərbaycanda ümumi dilçilik sahəsinin formalaşmasında A.Qurbanov və A.Axundovun da xidmətləri böyükdür. Onların "Ümumi dilçilik" dərslikləri Azərbaycanda ümumi dilçilik məsələlərinin tədrisi baxımından indi də öz əhəmiyyətini saxlamaqdadır. Bundan sonra A.Babayevin, Z.Verdiyeva, F.Ağayeva və M.Adilovun, Ə.Rəcəblinin, F.Veysəllinin, A.Məmmədovun, N.Cəfərovun və adını çəkmədiyimiz bir çox dilçilərin bu sahədə gördüyü işlər ümumi dilçilik sahəsinin daha da inkişafına xidmət etmişdir. Bununla yanaşı, nəzərə almaq lazımdır ki, Azərbaycanda ümumi dilçiliyin ayrıca ənənəsi olmayıb. Azərbaycandakı ümumi dilçilik dərslikləri də vahid bir ideologiyanın təsir dairəsində olan sovet dilçiliyində formalaşmış dərsliklərdəki sistemdən kənara çıxmayıb. Buna görə də belə dərsliklər, əsasən, informativ, ya da icmal xarakterli olub. Azərbaycanın filologiya yönümlü ali məktəblərində dilçilik tarixi məsələləri "Ümumi dilçilik" fənninin tərkib hissəsi kimi öyrədilir. Dilçilikdə mövcud olan əsərlərin böyük əksəriyyətinin Azərbaycan dilinə tərcüməsi olmadığı üçün tələbələr bu əsərlərdəki dilçilik fikri ilə ilk mənbələr əsasında deyil, onlar haqqında yazılmış əsərlər və ya sadəcə olaraq dərsliklər vasitəsi ilə tanış

olurlar. Lakin ədalət naminə demək lazımdır ki, son zamanlar bu sahədə də müəyyən işlər görülmüşdür.

Oxuculara təqdim olunan bu "Müntəxəbat" "Ümumi dilçiliy"in tədrisi işinə yardımçı vəsait kimi nəzərdə tutulmuşdur. Müntəxəbat Por-Royal qrammatikası haqqında məlumatla başlayır və sonra "Ümumi və rasional qrammatika"dan seçmələrin tərcüməsi verilir. Müxtəlif rasional qrammatikalar yazılsa da, onların heç biri "Por-Royal qrammatikası" qədər məşhurlaşa bilməmişdir. F. de Sössür bu əsəri F.Boppun qrammatikasından da üstün tutmuşdur. Hətta bəzən bu əsərlə ümumi dilçiliyin yarandığı göstərilir. Əlbəttə, bu fikirlə razılaşa bilməsək də, "Por-Royal qrammatikası"ndan seçmələrin müntəxəbata daxil edilməsini məqsədəuyğun sayırıq.

XIX əsrin əvvəllərində bir neçə dilçi bir-birindən asılı olmadan dillərin qohumluğunu sübutetmənin, müqayisə əsasında dillərin tarixini öyrənməyin, ilkin formaları bərpa etmənin prinsiplərini müəyyənləşdirirlər, beləliklə, müqayisəli-tarixi metod kəşf olunur, müqayisəli-tarixi dilçilik bu elmin əsas istiqamətlərindən birinə çevrilir. Müqayisəli-tarixi dilçiliyin nəzəri-ümumi dilçiliyin formalaşmasında da rolu olmuşdur. "Müntəxəbat"a Frans Boppun, Rasmus Raskın tədqiqatlarından seçmələrin tərcüməsi daxil edilmişdir.

Ümumi dilçiliyin banisi böyük alman alimi V.Humboldtdur. İxtisasca hüquqşünas olan V.Humboldt dilçiliyə gec gəlmiş, dil haqqında on yeddi əsər yazmışdır. Geniş dünyagörüşünə malik olan V.Humboldt dövrünün fəlsəfi biliklərini, xüsusən alman fəlsəfəsini dərindən mənimsəmiş, dilçilik görüşlərini də bu əsasda formalaşdırmış, lakin dilçiliyi fəlsəfədən ayıraraq dil haqqında özünəməxsus konsepsiya yaratmışdır. Dilçilik tarixində V.Humboldt müstəsna bir yerə malikdir. Özündən sonrakı dilçilik fikrinə də onun böyük təsiri olmuşdur. V.Humboldt dili bütün ilmələri bir-biri ilə bağlı olan hörülmüş parçaya bənzədir,

onu öz hissələri olan, hissələrindən təşkil olunan bir bütöv kimi qiymətləndirirdi. Dilin və nitqin bir-birinə qarşı qoyulması da V.Humbodtun adı ilə bağlıdır. Tədqiqatçıya görə, bir bütöv kimi mövcud olan dillə xalqın ağzındakı danışıq eyni şey deyil. V.Humboldt dili həm fəaliyyət, həm də fəaliyyətin məhsulu kimi qəbul etmiş, dilin fəaliyyətini onun mövcudluq forması kimi qiymətləndirmişdir. Dili bütün maddi və mənəvi sərvətlərinin məcmusu kimi qəbul etdiyi xalq ruhunun ifadəçisi kimi anlayan tədqiqatçı dünya dillərinin müxtəlifliyini xalqların ruhlarının müxtəlifliyində görür, dilin daxili və xarici formalarını bir-birinə qarşı qoyurdu. V.Humboldtun antinomiyalarında dilin çoxcəhətliliyi öz əksini tapmışdır.

"Müntəxəbat"a N.Cəfərovun tərcüməsində "İnkişaflarının müxtəlif dövrlərinə tətbiq edilməklə dillərin müqayisəli öyrənilməsi haqqında" (1820) məqaləsi və Ə.Rəcəblinin tərcüməsindən "Bəşər dilləri quruluşunun müxtəlifliyi və bunun bəşəriyyətin mənəvi inkişafına təsiri haqqında" əsərindən bir neçə bölmə daxil edilmişdir.

Dilçilik tarixində A.Şlayxerin də özünəməxsus yeri vardır. Müqayisəli-tarixi dilçiliyin də görkəmli nümayəndəsi olan A.Şlayxer ulu hind-Avropa dilini bərpa edən ilk tədqiqatçıdır. O, naturalizm dilçilik cərəyanının da banisi sayılır. Müntəxəbatda onun "Darvin nəzəriyyəsinin dil haqqında elmə tətbiqi" əsərindən seçmələr və "Hind-Avopa dillərinin müqayisəli qrammatikasının kompendiumu" əsərinin ön sözü daxil edilmişdir.

Görkəmli dilçi B.de Kurtenenin "Fonem" məqaləsindən sonra "Müntəxəbat"da F. de Sössürün "Ümumi dilçilik kursu" əsərinin "Giriş" hissəsinin beş fəsli verilmişdir. F. de Sössür müasir dilçiliyin banisi hesab edilir. Bu dahi dilçi dil haqqında özünəməxsus bir konsepsiya yaratmışdır. O, dilin mahiyyətini aydınlaşdırmış, dilçiliyin obyektini müəyyənləşdirmiş, dili işarələr sistemi kimi qiymətləndirmiş, dil işarəsinin strukturunu

açıqlamış, tədqiqatın sinxron və diaxron aspektlərini, sinxronik və diaxronik dilçiliyi fərqləndirmiş, daxili və xarici linqvistikanı bir-birindən ayırmışdır. XX əsrin əsas dilçilik cərəyanı olan strukturalizm dilçiliyin ümumi inkişafı fonunda formalaşsa da, F. de Sössürün dilə baxışı üzərində inkişaf etmişdir. Struktur dilçilik məktəbləri kifayət qədər müstəqil tədqiqat yönünə və tədqiqat üsullarına malik olan məktəblərdir. Lakin onları birləşdirən, bir cərəyan halına gətirən ümumi prinsiplər var və bunların içərisində F. de Sössürün "Ümumi dilçilik kursu"ndakı başlıca müddəalar xüsusi yer tutur:

1) dilçiliyin obyekti kimi dil; 2) dilin sistemliliyi; 3) dilin substansiya deyil, forma olması; 4) dildə hər şeyin münasibətlərə əsaslanması.

"Müntəxəbat"a N.Cəfərovun tərcüməsində "Praqa dilçilik dərnəyinin tezisləri", Lui Yelmslevin "Dil və nitq", "Dilçilikdə struktur təhlil metodu" məqalələri, Frans Boasın "Amerika hindu dillərinə dair əl kitabı"na giriş, E.Sepirin "Dil", V.Ərəbov, Q.Heybətovun tərcüməsində L.Blumfildin "Dil" əsərindən "Dil kollektivləri" başlıqlı hissə və A.Məmmədovun tərcüməsində N.Xomskinin "Dil və təfəkkür" əsərindən "Təfəkkürün tədqiqinə linqvistik töhfə (Keçmiş)" fəsli daxil edilmişdir.

Ümumən, "Müntəxəbat"ın tərtibçisi BDU-nun Ümumi dilçilik kafedrasının magistri Qismət Cəfərov qarşısına qoyduğu vəzifənin öhdəsindən gələ bilmiş, dilçilik fikrinin ümumi inkişafı haqqında aydın təsəvvür verən seçmələr toplusu yarada bilmişdir. Mən bu fikirdəyəm ki, bu müntəxəbat "Ümumi dilçilik" fənninin tədrisinə əhəmiyyətli dərəcədə yardımçı, köməkçi vasitə olaraq, tələbələrin nəzəri biliklərinin möhkəmləndirilməsinə kömək edəcək, yeni və daha mükəmməl topluların yaradılmasına da yol açacaqdır.

Məhəmməd Məmmədov
BDU-nun Ümumi dilçilik kafedrasının dosenti

POR-ROYAL QRAMMATİKASI
(1660)

XVII əsr fəlsəfəsində bir sıra cərəyanlar fəaliyyət göstərmişdir ki, onlardan biri də rasionalizmdir. Bu cərəyan daha çox idraka, məntiqə əsaslanırdı. Rasionalizmin dilçilikdə təzahürü özünü rasional (məntiqi) qrammatikaların meydana çıxmasında göstərə bilərdi.

Rasional (məntiq) qanunlara əsaslanan belə bir məşhur qrammatika məntiqşünas Antuan Arno və dilçi Klod Lanslonun 1660-cı ildə nəşr etdirdikləri "Ümumi və rasional qrammatika" kitabıdır. Bu əsər yarandığı yerin adı ilə "Por-Royal qrammatikası"da adlanır. A. Arno və K. Lanslo belə bir fikirdə olmuşlar ki, bütün insanlar üçün bir məntiq olduğundan, bütün dünya dilləri üçün də bir qrammatika vardır.

Akademik Nizami Cəfərov "Ümumi dilçilik" dərsliyində yazır: "Ümumi rasional qrammatika" və ya Por-Royal qrammatikasında qədim yəhudi, qədim yunan, latın və fransız dillərinin materiallarından istifadə edilərək ümumən dilin fonetik, morfoloji və sintaktik quruluşu barədə mükəmməl təsəvvür yaradır. Lakin həmin təsəvvür mükəmməlliyi dildən çox, məntiqin qanunlarına görə başa gəldiyindən, nəticə etibarilə dilin quruluş mexanizmini öyrənmək təşəbbüslərinin qarşısını almaqla dil haqqındakı elmin öz obyektinə lazımi səviyyədə nüfuz etməsinə, həqiqətən, mane olmuşdur".

"Por-Royal qrammatikası" 30 fəsildən ibarətdir ki, fəsillərin 6-sı fonetikaya, 23-ü morfologiyaya, 1-i isə sintaksisə həsr olunub. Əsərə dilçilər yüksək qiymət vermişlər. Müasir dilçiliyin banisi F.de Sössür "Por-Royal qrammatikası"nı

F.Boppun qrammatikasından üstün tutub. Törədici dilçiliyin (qrammatikanın) banisi Noam Xomski yaradıcılığında mötəbər bir mənbə olaraq məhz bu məntiqi, universal qrammatikaya istinad etmişdir.

Antuan Arno, Klod Lanslo
Ümumi və rasional qrammatika
Seçmələr

Ön söz*

Sərbəst seçimdən daha çox, taleyin iradəsilə özümü həsr etdiyim müxtəlif dillərin qrammatikaları ilə məşğul olmaq zərurəti məni tez-tez ya bütün dillər üçün ümumi olan, ya da onların yalnız bəzilərinə aid çoxlu hadisələrin ağıllı izah axtarışları yoluna gətirib çıxarırdı. Ancaq bəzən çətinliklərlə üz-üzə gəldiyimdən izahdan qaçırdım. O zaman mən öz çətinliklərim barədə, həmin məqama qədər belə bir elmlə heç zaman məşğul olmamasına baxmayaraq, dostlarımdan birinə** müraciət etdim ki, o, çox şeylərə gözümü açmaqda və şübhələrimi dağıtmaqda gecikmədi. Mənim suallarım həmçinin onu nitq sənətinin (l'art de parler) həqiqi əsasları barədə düşüncələrə çəkməyə səbəb oldu ki, o öz düşüncələrini söhbətimizdə mənimlə bölüşdü. Mən isə onun təsəvvürlərini olduqca əsaslı saydığımdan onların itkisinə imkan verə bilməzdim, xüsusilə ona görə ki, nə qədim, nə də yeni qrammatikaçılarda həmin sahə üzrə bu qədər maraqlı və dəqiq heç nə ilə qarşılaşmamışdım. Odur ki, əhəmiyyətli dərəcədə

* "Ön söz"ün müəllifi dilçi Klod Lanslodur.
** Söhbət məntiqçi Antuan Arnodan gedir.

onun xeyirxahlığına minnətdar olaraq nail oldum ki, sərbəst vaxtlarında öz düşüncələrini mənə diqtə etsin. Beləliklə, həmin düşüncələri qaydaya salmaqla bu kiçik Traktatı tərtib elədim. Kimlər bu cür izahlı araşdırmanı qiymətləndirirsə, ümid edirəm ki, mənim Traktatımda onların zövqünü oxşayan nə isə tapacaqlar. Düşünürəm ki, onlar izah edilən predmetə də dəyər verəcəklər, çünki nitq insanın ən böyük üstünlüklərindən biri olmaqla insan həmin üstünlüyə bacardığı qədər bütün mükəmməlliyi ilə yiyələnməyə tamamilə layiqdir. Bu isə o deməkdir ki, yalnız nitqə sahib olmaq azdır, onun əsaslarına nüfuz etmək, başqalarının yalnız mövcud ənənə ilə hərəkət etdiyi yerdə elmlə hərəkət etmək lazımdır.

***

Qrammatika – nitq sənətidir.

Danışmaq – öz fikirlərini insanların həmin məqsəd üçün icad etdikləri işarələrin köməyilə izah eləmək deməkdir.

Göründüyü kimi, bu işarələrdən daha rahatı səslər və sədadan ibarətdir.

Lakin həmin səslər keçici olduğundan başqa işarələr də icad edilmişdir ki, birinciləri dayanıqlı və görünən eləsin. Bunlar yunanların adlandırdıqları yazı işarələridir, *q r a m - m a t i k a* sözü də buradan gəlir.

Beləliklə, nitq işarələrinə iki tərəfdən baxmaq olar. Birincisi odur ki, onlar öz təbiətlərinə görə, məhz səslər və hərflər olaraq nədən ibarətdir.

İkincisi isə onların mənalarıdır, yəni öz fikirlərini ifadə etmək üçün insanların onlardan necə istifadə etməsi üsuludur.

Nitq işarələrinin birinci tərəfi barədə bu qrammatikanın birinci hissəsində, ikinci tərəfi barəsində isə onun ikinci hissəsində söhbət gedəcəkdir.

Hərflər və yazı işarələri barədə danışılan

Birinci hissə

... Bizim nitqdə istifadə etdiyimiz və hərf adlandırdığımız müxtəlif səslər təbii şəkildə müəyyən olunur ki, onlar üzərində ətraflı dayanmaq faydalıdır.

Ağız səslərin formalaşması orqanı olduğundan insanlara onları o qədər sadə hala gətirmək cəhdi əsasdır ki, səsin eşidilməsi və başqa səslərdən fərqlənməsi üçün ağızın aralanması kifayət eləsin. Ağızın müxtəlif cür aralanmaları sədanın müxtəlif cür səslərini formalaşdırır ki, həmin səslərin adı – *s a i t l ə r* buradan gəlmişdir.

Dişlər, dodaqlar, dil, damaq kimi orqanların istifadəsindən asılı olan digər səslərin təzahürü eyni dərəcədə təbiidir. Ancaq onlar yalnız ağızın aralanması şəraitində, yəni birinci tipə aid səslərlə birləşərkən mükəmməl səs ola bilərlər ki, onların da adı – *s a m i t l ə r* buradan yaranmışdır.

... Heca – bitmiş vahid səs olub bəzən bir, çox hallarda isə bir neçə hərfdən ibarətdir.

... Bir sait ayrıca heca yarada bilər.

... Samitlər öz-özlüklərində heca yarada bilməzlər.

... Söz ona deyilir ki, ayrı tələffüz olunur və yazılır.

... Sözlərin tələffüzündə vurğunun və ya sözün hecalarının birində sədanın yüksəlməsinin rolu daha çox nəzərə çarpır, ondan sonra isə səda mütləq alçalmağa başlayır.

... Biz artıq xatırladıq ki, səslər insanlar tərəfindən fikirlərin işarələri (s i g n e s) kimi istifadə edilmiş, sonra isə həmin səslərin işarələnməsi üçün ifadə fiqurları icad olunmuşdur. Həmin ifadələrin, yaxud yazı işarələrinin (caractéres) başlanğıcda nitqin səs tərəfinin bilavasitə verilməsinə xidmət etməsinə baxmayaraq, insanlar hər halda tez-tez ona, müvafiq səslərlə ifadə olunan şeylərin yazı işarəsi barədə təsəvvürlər əlavə etmişlər. Bu da onunla nəticələnmişdir ki, yazı işarələrinə iki tərəfdən baxmaq lazım gəlir: biri odur ki, sadəcə səs necə işarə olunur; o biri də odur ki, hər hansı səsin necə işarələndiyi barədə təsəvvür yaradılmasına kömək edir.

Sözlərin mənalarının müxtəlif növlərinin əsasında dayanan başlanğıclar və səbəblər barədə danışılan

İkinci hissə

İndiyə qədər biz nitqdə yalnız maddi tərəfə baxdıq ki, ən azından səslərə münasibətdə həm insanlar, həm də tutuquşular üçün ümumidir.

İndi bizim üçün o mənəvi olanı araşdırmaq zəruridir ki, sözdə ehtiva edilir və insanın bütün digər canlı varlıq qarşısında ən vacib üstünlüklərindən birini təşkil eləməklə onun şüurluluğuna başlıca şəhadətlərdən də birini verir. Bu isə odur ki, biz fikirlərimizi ifadə etmək üçün sözlərdən istifadə edirik. İnsan ağlının həmin möcüzəli icadı sayəsində biz 25, yaxud 30 səsdən sözlərin sonsuz çoxluğunu tərtib edirik ki, onlar öz-özlüyündə bizim mühakimələrimizdə nə baş verməsi ilə heç bir ümumiliyə malik olmadan bu sirri başqaları-

na açmağa imkan yaradır. Və başqa insanların ruhu bizim şüurumuza nüfuz etmədən söz qabiliyyəti sayəsində bütün fikirlərimizə və ruhumuzun cürbəcür hərəkətlərinə müdaxilə edə bilər.

Odur ki, sözü insanlar tərəfindən öz fikirlərini ifadə etmək üçün işarələr kimi istifadə etdikləri, üzvlərinə ayrılan səslər olaraq təyin etmək mümkündür. Ona görə də bizim fikirlərimizdə nə baş verdiyini dərk etmədən mənaların sözlərdə ehtiva olunmuş müxtəlif növlərini anlamaq çətindir, çünki sözlər yalnız fikirlərin ötürülməsi və dərki üçün yaradılmışdır.

Bütün filosoflar öyrədirlər ki, bizim dərrakəmiz üç əməliyyatı yerinə yetirə bilər: Müşahidə eləmək (Concevoir), Mühakimə eləmək (Juger) və Əqli nəticəyə gəlmək (Raisonner).

Müşahidə — bizim dərrakəmizin əşyaya; yaxud, məsələn, o hallarda ki varlıq, uzunluq, fikir, Allah kimi təsəvvürlərə gəlirik, tamamilə mənəvi olana; yaxud, məsələn, o hallarda ki kvadrat, dairə, it, at kimi təsəvvürlərə gəlirik, cism obrazına aid sadə baxışlarından başqa bir şey deyil.

Mühakimə — bu onun təsdiqidir ki, bizim müşahidə etdiyimiz əşya odur, ya o deyil. Təsəvvür edin ki, yer (terre) nədir və dairəvilik (rondeur) nədir, onda yer barədə təsdiq edə bilərik ki, o, dairəvidir.

Əqli nəticə — bu, iki mühakimədən üçüncüsünü çıxarmaq üçün istifadədir. Məsələn, belə bir əqli nəticəyə gəlmək olar: hər cür xeyirxahlığın tərifə layiq olması və təmkinin xeyirxahlıq olması dərrakəsindən belə bir nəticə çıxarmaq mümkündür ki, təmkin tərifə layiqdir.

Bütün bunlardan isə o hasilə gəlir ki, sizin dərrakənizin üçüncü əməliyyatı ikincisinin yayılmasıdır (extension) və be-

ləliklə, bizə ilk iki əməliyyatı nəzərdən keçirmək kifayət edəcəkdir. Başqa sözlə, bizə birinci əməliyyatdan ikinciyə nə qalırsa ona baxmaq lazım gəlir, çünki insanlar heç də ona görə danışmırlar ki, müşahidə etdiklərini ifadə eləsinlər, demək olar ki, həmişə ona görə danışırlar ki, predmetlər barəsində mühakimə yürütsünlər.

Məsələn, bizim yer dairəvidir (La terre est ronde) şəklində ətraf predmetlər barədə dediyimiz mühakimə cümlə (proposition) adlanır. Beləliklə, hər bir cümlə mütləq iki üzvə malikdir: onlardan subyekt (sujet) adlanan biri odur ki, onun barəsində nə isə təsdiq olunur, məsələn, yer; atribut (attribut) adlanan o biri nəyin təsdiq olunmasıdır, məsələn, dairəvi. Bunlardan başqa, cümlənin həmin iki üzvü arasında – dir (est) bağlaması (liaison) var.

Deməli, inanmaq çətin deyil ki, subyekt və atribut, əslinə qalsa, dərrakənin birinci əməliyyatına aiddir, çünki onlar bizim təsəvvür etdiklərimizin, bizim fikirlərimizi təşkil edən obyektin mahiyyətidir. Bağlama isə dərrakənin ikinci əməliyyatına mənsubdur ki, bizim şüurumuzun və təfəkkür üsulumuzun xüsusi fəaliyyətidir.

Beləliklə, bizim şüurumuzu səciyyələndirən ən mühüm cəhət bundan ibarətdir ki, orada fikrin predmeti ilə formasını ayırmaq olur. Fikrin əsas forması mühakimədir. Lakin sonrakına həm müxtəlif növdən birləşmələri (conjonctions), ayrılmaları (disjonctions), həm də dərrakənin onlara oxşar başqa əməliyyatlarını, eləcə də istək, göstəriş, sual və s. kimi ruhumuzun digər hərəkətlərini aid etmək mümkündür.

Buradan o hasil olur ki, insanlar şüurlarında baş verənləri ifadə etmək üçün işarələrə ehtiyac duyduqlarından, qaçılmaz olaraq, sözlərin daha ümumi bölgüsünə gəlməli idilər

ki, biri fikrin obyektini, digərləri isə fikrin forma və obrazını bildirməli idi.

... Birinci tipə, adətən, adlar (noms), artikillar (articles), əvəzliklər (pronoms), feli sifətlər (participes), önlüklər (prépositions) və zərflər (adverbes), ikinciyə isə feillər (verbes), bağlayıcılar (conjonctions) və nidalar (interjections) adlandırılan sözlər daxildir. Onların hamısı fikrin ifadəsinin təbii üsullarından zəruri ardıcıllıqla əmələ gəlmişdir...

... Bizim fikirlərimizin obyekti ya əşyalar, məsələn, yer, günəş, su, ağac ola bilər ki, adətən, onları substansiyalar (substance) adlandırırlar; ya da əşyaların mövcudluq üsulları, məsələn, dairəvi, qırmızı, bərk, alim olmaq kimi ola bilər ki, onlar aksidensiyalar adlanır.

Əşyalar və ya substansiyalar ilə əşyaların mövcudluq üsulları və ya aksidensiyalar arasında aşağıdakı fərq vardır:substansiya öz-özlüyündə mövcud olduğu halda, aksidensiya yalnız substansiya vasitəsilə mövcuddur.

Bu, fikrin obyektlərini ifadə edən sözlər arasında əsas fərqi şərtləndirmişdir; hansılar ki substansiyanı ifadə edir, isimlər adlandırılmışdır, hansılar ki uyğun gəldikləri subyektlərə yönələrək aksidensiyaları ifadə edir, sifətlər adlanır.

Adların isimlərə və sifətlərə ayrılmasının ilk səbəbi bundan ibarətdir..

... İnsanlar eyni bir mətndə tez-tez eyni şeylər barədə bəhs etməyə məcbur olduqlarından, eyni adların təkrarı isə usandırıcı ola biləcəyinə görə, elə sözlər fikirləşib tapmaq lazım gəlmişdir ki, nitqdə həmin adları əvəz etsin və odur ki, onları əvəzliklər adlandırmışlar.

... İndiyə qədər biz fikirlərin predmetlərini ifadə edən sözləri nəzərdən keçirdik. İndi isə onlara diqqət yetirək ki, fi-

kirlərin üsullarını (la maniére des pensées) ifadə edirlər: bunlar feillər, bağlayıcılar və nidalardır.

... Feil, xüsusi olaraq, əsas təyinatı etibarilə təsdiqin ifadəsindən ibarət sözdən başqa bir şey deyil.

... Feil öz-özlüyündə bizim şüurumuzda birləşdirdiyimiz iki cümlə üzvünün köməyi ilə yalnız əlaqələri ifadə etmək üçün işlənməli idi. Lakin təkcə bir feil – substantiv adlanan étre (olmaq) həmin məna elementarlığını qoruyub saxlamışdır.

... Beləliklə, feilin mahiyyəti izah olunandan və onun əsas aksidensiyaları yığcam təsvir ediləndən sonra, bizə elə gəlir ki, həmin aksidensiyalar üzərində daha ətraflı dayanmaq zəruridir. O aksidensiyalardan başlamaq lazım gəlir ki, bütün feillər üçün ümumidir – bu, feillərdə məhz şəxs, kəmiyyət və zaman rəngarəngliklərindən ibarətdir.

... Sintaksis və ya sözlərin nitqdə birləşməsi barədə yalnız bir neçə söz deməyimiz qalır...

... Sözlərin birləşmə (les constructions des mots) konstruksiyalarını, ən ümumi planda, onların birbiri ilə uzlaşmalı olduğu uzlaşma (de convenance) və bir sözün başqasında irəlicədən müəyyən dəyişməni şərtləndirdiyi idarə (de régime) konstruksiyalarına ayırmaq olar.

... Biz sintaksis barədə nə dediksə tamamilə kifayətdir ki, cümlənin bütün üzvlərinin öz təbii ifadələrini tapdığı və qısası, bizim fikrimiz tamamilə təbii surətdə ifadə olunduğundan heç bir əlavə sözə ehtiyac qalmadığı hallarda sözlərin frazadakı təbii sırası anlaşılsın.

Lakin insanlar mənaya, yəni onun ifadəsinə xidmət edən sözlərdən daha çox öz fikirlərinin məna və məzmununa diqqət yetirdiklərindən, adətən, nitqin qısaldılması üçün bəzi

sözləri buraxır, yaxud da, əksinə, ilk baxışda artıq saydıqları hansısa sözü daha zərif hesab edərək əlavə eləyirlər. Onlar həmçinin, sözlərin təbii sırasını dəyişə bilərlər.

Tərcümə edən: Nizami Cəfərov

Frans Bopp
(1791-1867)

Dilçilik elminin tarixində Frans Bopp müqayisəli-tarixi dilçiliyin banisi hesab olunur. Milliyyətcə alman olan F.Bopp gənclik illərindən müxtəlif dilləri (və yazılı abidələri) öyrənməyə başlamışıdır.

O, 1816-cı ilə nəşr etdirdiyi "Yunan, latın, fars və german dilləri ilə müqayisədə sanskrit dilinin təsrif sistemi haqqında" əsəri ilə müqayisəli-tarixi dilçiliyin (metodun) əsasını qoymuşdur. Dilçi-komparativist sələflərindən fərqli olaraq, müqayisəsini düzgün elmi prinsiplərlə aparmışdır. Belə ki, F.Boppu dilin qrammatik quruluşu daha çox maraqlandırırdı. Bildiyimiz kimi, dilin qrammatik sistemi hər bir dilin məxsusi sistemidir.

Ferdinand de Sössür "Ümumi dilçilik kursu"nda yazır: "Boppun xidməti təkcə Avropanın və Asiyanın bəzi dilləri ilə sanskritin qohumluğunu kəşf etməkdən ibarət deyildi; o həm də predmeti qohum dillər arasındakı münasibətdən ibarət olan müstəqil bir elm yaratmağın mümkünlüyünü dərk etmişdi. Bir dili başqa dilin əsasında təhlil etmək, bir dilin formalarını başqa dilin formaları ilə izah etmək – Boppun əsərindəki yenilik bundan ibarət idi".

F. Bopp hind-Avropa dillərinin müqayisəli qrammatikası ilə ardıcıl məşğul olmuşdur. Onun "Müqayisəli qrammatika" əsəri dilçiliyin klassik əsərləri sırasına daxildir.

Yunan, latın, fars və german dilləri ilə müqayisədə sanskrit dilinin təsrif sistemi haqqında

Ön söz

Feil, yaxud verbum adı altında, sözün məxsusi mənasında , predmetlə keyfiyyətin birləşməsini, eləcə də onların birbirlərinə münasibətlərini ifadə edən nitq hissəsini başa düşmək lazımdır .

Feil bu cür təyin olunması ilə heç bir real mənaya malik olmayıb subyektlə predmet arasında yalnız elə bir qrammatik əlaqələndiricidir ki, daxili dəyişmə vasitəsilə göstərilən əhəmiyyətli münasibətlər ifadə edilir .

Həmin anlayışa təkcə bir feil, necə deyərlər , məhz verbum abstractum esse (mövcud olmaq) uyğun gəlir. Funksiyası subyektlə predikat arasındakı münasibətləri ifadə etməkdən ibarət olduğundan həmin feildə biz özünə daxil etdiyi mövcudluq anlayışını ayırmalıyıq.Qrammatik funksiyası etibarilə o, subyektin mövcudluğunu ifadə etmir, çünki bu mövcudluq əlaqəyə girən subyektlə ifadə olunur .Belə ki, Homo est mortalis (hərfi tərcüməsi : insan mövcuddur öləri) cümləsində homo subyektinin mövcudluğunu est (mövcuddur) feili ifadə etmir .Mövcudluq anlayışı homo sözü ilə ifadə olunan anlayışa birinci və əsas əlamət kimi daxildir.Və həm ona , həm də homo anlayışı ilə əlaqədar digər əlamətlərə mortalis əlaməti est qrammatik köməkçi feili vasitəsilə bir-

ləşir. Der Gott ist seynd (Allah mövcuddur)cümləsində seyn sözü iki müxtəlif funksiya yerinə yetirir: birinci halda köməkçi feil olaraq yalnız subyektlə predikat arasındakı münasibəti bildirir,ikinci halda isə subyektlə birləşən keyfiyyəti ifadə edir.

Mənə elə gəlir ki, yalnız mücərrəd feilin qrammatik köməkçi feil rolunda tamamilə iştirak etməməsinə görə mövcudluq anlayışına malik feildən istifadə olunur .Belə bir dilin varlığını asanlıqla təsəvvür etmək olar ki , subyektlə predikat arasındakı münasibət hər cür mənadan məhrum köməkçi feilin dəyişməsi vasitəsilə ifadə olunur ...Subyektin öz predikatı ilə əlaqələnməsi heç də həmişə xüsusi nitq hissəsi vasitəsilə işarələnməyib yalnız ehtimal edilir ki , həmin halda məna münasibətləri və mənanın tamamlayıcı müəyyənlikləri atribut ifadə edən sözün özünün daxili dəyişməsi və fleksiyası vasitəsilə əksini tapır.Bu şəkildə dəyişən sifətlər sözün adi mənasında feil sahəsini təşkil edir.

Bizə məlum olan bütün dillər arasında hindlilərin müqəddəs dili ən müxtəlif münasibətləri tamamilə üzvi şəkildə daxili fleksiya və əsasın dəyişməsi vasitəsilə təqdim etmək baxımından çox böyük qabiliyyətlərə malikdir.Lakin bu heyranedici çevikliyinə baxmayaraq o bəzən kökə verbum abstractum birləşdirir ki, nəticədə kök və birləşdirilən verbum abstractum feilin qrammatik funksiyalarında fərqlənir.

Qədim hindcə ilə ümumi mənşədən olan dillər içərisində müxtəlif münasibətləri fleksiya vasitəsilə ifadə etməkdəki eyni qabiliyyətinə görə bizi ilk növbədə yunanca heyrətləndirməlidir.Feilin təsrifində o, yalnız sanskritin eyni prinsipini izləməklə qalmır, eyni münasibətləri ifadə edən eyni fleksiyaları işlədir, onları eyni temporada birləşdirməklə verbum abstractumu əsasla həmin üsulla əlaqələndirir.

Latın dili hindcə ilə yunancadan heç də az uyğun gəlmir, onda fleksiya münasibətlərinin heç olmasa bircə ifadəsini tapmaq mümkün deyil ki, sanskritlə ümumi olmasın.Lakin feilin təsrifində kökün köməkçi feillə birləşməsi onun hakim prinsipidir. Mübtəda hissəsinin bu birləşmələrində o, münasibətlərin müəyyənləşməsini hindcədə və yunancada olduğu kimi əsasın fleksiyası vasitəsilə ifadə eləmir,kökü tamamilə dəyişməz saxlayır.

Hazırkı araşdırmanın məqsədi onu göstərməkdən ibarətdir ki,qədim hind feilinin təsrifində münasibətlərin müəyyənləşməsi kökün müvafiq şəkildəyişmələrilə necə ifadə olunur və necə olur ki, bəzən verbum abstractum əsasla bir sözdə qovuşur,əsas və köməkçi feil isə feilin qrammatik funksiyalarında fərqlənir; sonra onu da göstərməkdir ki, yunancada biz analoji halla rastlaşırıq, latıncada isə kökün köməkçi feillə birləşməsi sistemi hakim olmuşdur ki, bunun da nəticəsində latın təsrifinin sanskrit və yunancadakı təsrifdən görünən fərqi meydana çıxmışdır ; nəhayət, sübut etməkdir ki , sanskritdən , yaxud onunla birlikdə ümumi əcdaddan törəmiş bütün dillərdə münasibətlərin heç bir müəyyənləşməsi xatırlatdığımız pradillə ümumi olmayan fleksiya ilə ifadə edilmir,zahiri özünəməxsusluqlar isə ya əsasın köməkçi sözlərlə bir sözdə qovuşmasından , ya da sanskritdə , yunancada və bir çox başqa dillərdə verba derivativa üsulu ilə yaranan artıq sanskritdə işlənmiş tempora derivativa feili sifətindən törəmə nəticəsində ortaya çıxır.

Sanskritlə yaxın qohum olan dillər dedikdə mən əsasən yunan ,latın, german və fars dillərini başa düşürəm.Heyrətləndiricidir ki, digər yeni hind ləhcələri arasında yad qarışıqlara daha az məruz qalmış benqal dili xatırladılan dillərlə

müqayisədə sanskritlə qrammatik baxımdan az uyğunluqlara malikdir, halbuki çoxlu sayda qədim hind sözünü qoruyub saxlamışdır.Qədim hind fleksiyalarının yeni üzvi şəkildəyişmələrlə əvəzlənməsi prosesi baş verməsə də, bu sonuncularda mənanın və ruhun tədricən puça çıxmasından sonra onların işlənməsi yavaş-yavaş dayanmış,tempora participialianı (mən bu ad altında heç də latınca amatus est kimi təsviri zamanları başa düşmürəm) sanskritdə əsasın daxili dəyişməsi vasitəsilə yaranan zamanlar əvəz etmişdir.Yeni german dillərində bir çox münasibətlər təsviri yolla bildirildiyi halda qot dilində eynilə sanskritdə və yunancada olduğu kimi fleksiya ilə ifadə olunmuşdur.

Dil tarixi üçün yüksək dərəcədə vacib olan bu vəziyyətin həqiqətini tam aydınlığı ilə göstərmək üçün , hər şeydən əvvəl, qədim hind dillərinin təsrif sistemi ilə tanışlıq; sonra onlarn eyniliyini müəyyənləşdirərək, həmçinin sadə dil orqanizminin tədrici və pilləvari dağılmasını, eləcə də onu mexaniki birləşmələrlə əvəz etməyə cəhd göstərərək nəticədə yeni orqanizm təəssüratı yaratmasını ki, əslində, bizim tanıdığımız köhnə elementlər qalmış olur, dərk etməklə yunan,latın,german və fars dillərində təsrifə müqayisəli baxmaq zəruridir.

Tərcümə edən: Nizami Cəfərov

Müqayisəli qrammatika
(Seçmələr)

Bu kitabda mən dil orqanizminin bütün qohum hadisələrinin müqayisəli və əhatəli təsvirini verməyi, onların fiziki və mexaniki qanunlarını, qrammatik münasibətlərini ifadə edən formalarının mənşəyini araşdırmağı qarşıma məqsəd qoymuşam. Yalnız köklərin və ya ilkin anlayışların adlandırma prinsiplərinin sirri toxunulmaz qalır; biz, məsələn, araşdırmışıq ki, nə üçün i kökü "gəzmək" yox, "dayanmaq", yaxud stha və ya sta səs kompleksi "dayanmaq" yox, "gəzmək" mənasını verir. Bundan basqa, biz dillərin həm yaranması, həm də inkişaf prosesini izləməyə cəhd edirik, ancaq bu şəkildə: kimlər ki, öz nöqteyi-nəzərlərinə görə, izah edilməz olan nəyisə izahsız qoymağı arzu edir, yəqin ki, bu kitabda, yəqin ki, yuxarıda qeyd olunan məqsədlə əlaqədar gözlənə biləcəyindən az sövqedici səbəblər tapacaqlar. Çox hallarda qrammatik formaların ilkin mənası və eynilə də mənşəyi öz-özlüyündə, bizim linqvistik dünyagörüşümüzün genişlənməsi vasitəsi və mənşəcə qohum olan hadisələrin müqayisəsi yolu ilə müəyyənləşir ki, min illərin axınında birbirindən ayrılsalar da, həmin hadisələr ailə xüsusiyyətlərinin heç bir şübhə doğurmayan izlərini daşıyırlar. Bizim Avropa dillərinin tədqiqində yeni dil aləminin kəşfi ilə əlaqədar olaraq, həqiqətən, yeni dövr başlamışdır – söhbət məhz sanskritdən gedir ki, ona münasibətdə müəyyənləşdirməyə nail olunmuşdur ki, öz qrammatik quruluşu etibarilə yunan, latın, german və s. dillərlə sıx əlaqədədir. Və nəticədə, adı çəkilən hər iki klassik dilin (yunan və latın dillərinin – tərc.)

qrammatik əlaqələrini, həm də onların germancaya, latıncaya, slavyancaya münasibətini anlamaq üçün möhkəm təməl yaranmışdır. Hansısa əlli il bundan əvvəl kim ümid edə bilərdi ki, uzaq Şərqdən bizə elə bir dil təşrif buyuracaq ki, öz formalarının mükəmməlliyinə görə yunancadan nəinki geri qalmır, hətta bəzən onu keçir və onlardan hansında daha qədim hadisələrin qorunub saxlandığını göstərməklə, yunancanın dialektləri arasında getmiş mübarizəyə aydınlıq gətirmək imkanı nümayiş etdirir.

Qədim hind dilinin öz avropalı qohumlarına münasibətləri o qədər aydındır ki, hətta həmin dillərə kənardan bir baxışla da müəyyən olunur; lakin digər tərəfdən, bu münasibətlər o qədər gizli, dil orqanizminin ən sirli prosesləri ilə o qədər dərindən bir-birinə hörülmüşdür ki, onunla müqayisəyə cəlb edilən hər bir dil müstəqil görünür və qrammatika elminin və qrammatik metodun bütün gücünü tətbiq etməyə məcburdur ki, müxtəlif qrammatikaların ilkin vəhdətini həm anlayaq, həm də təqdim edək.

Sami dilləri daha kompakt təbiətli olub, əgər leksikası və sintaksisi barədə danışmasaq, yüksək səviyyədə qənaətcil quruluşa malikdir; çox az şey itirmişlər, lap əvvəldən onlara nə verilmişdirsə, hamısını növbəti zamanlara ötürmüşlər. Həmin ailəni başqalarından fərqləndirən üçüzvlü samit kök tamamilə kifayətdir ki, ona mənsub olan hər bir fərdi seçib ayıraq. Digər tərəfdən, hind-Avropa dillərini əhatə edən qohumluq əlaqələri az ümumi deyil, ancaq bir çox hallarda intəhasız dərəcədə daha zərif səviyyəlidir. Bu ailənin üzvləri özlərinin daha ilkin vəziyyətindən fövqəladə dərəcədə zəngin təminat alıb gətirmişlər, eyni zamanda tərtibata və aqlütinasiyaya hədsiz qabiliyyətləri nəticəsində sərəncamlarında zəruri vəsait vardır. Çox şeyə malik olduqlarına görə, nə qə-

dər itirsələr də, dil həyatlarını davam etdirməyi bacarmışlar. Və çoxqatlı itkilərin, çoxqatlı dəyişmələrin, səs düşmələrinin, əvəzlənmələrinin və yerdəyişmələrinin nəticəsində bir ailənin qədim üzvləri bir-biri üçün, demək olar ki, tanınmaz hala gəlmişdir.

Ən azı belə bir fakt şübhəsizdir ki, latıncanın yunancayla daha aydın təzahür edən münasibəti, heç zaman inkar edilməsə də, indiyə qədər tamamilə qeyri-dəqiq şəkildə izah olunmuş, eləcə də romalıların qrammatik baxımdan yalnız öz-özü ilə, yaxud da həmin ailənin dilləri ilə tutuşdurula bilən dilinə hələ indinin özündə də qarışıq dil kimi baxılır, halbuki oxşar formaların əmələ gəldiyi elementlər yunancaya və digər qohum dillərə yad olmasa da, mənim artıq öz "Təsrif sistemi"mdə sübut etməyə cəhd göstərdiyim kimi, o (latınca-tərc.), doğrudan da, yunancaya mənsub çoxlu xüsusiyyətlərə malikdir. Əgər sözlərin tənqidə dözməyən hər cür prinsipdən və qaydadan uzaq çoxsaylı tutuşdurmalarını nəzərə almasaq, klassik dillərlə german dillərinin qohumluğu, əlaqələndirici Asiya həlqəsi əldə olunana qədər, demək olar ki, tamamilə müəyyən edilməmiş qalmışdı. Hərçənd qotca ilə tanışlıq artıq yüz əlli ildən çoxdur. Halbuki qotca öz qrammatikasına görə o qədər mükəmməl və öz münasibətlərində o qədər aydındır ki, əgər əvvəllər dillərin ciddi sistematik müqayisəsi və dilin anatomiyasının təsviri mövcud olsaydı, german dillərinin yunanların və romalıların dillərinə münasibəti, eləcə də həmin münasibətin bütün məcmusu artıq çoxdan kəşf edilə, bütün filoloqlar tərəfindən öyrənilə, dərk və etiraf oluna bilərdi. Və doğrudan da, klassik dillərin araşdırılmasından onların bizim doğma dilimizin ən qədim və ən müasir formaları ilə müqayisəsindən daha vacib nə ola

bilər və nəyi tələb etmək mümkündür? Sanskritin bizim dilçiliyin üfüqlərində təzahüründən bəri qohum dillər sahələrinin dərin qrammatik tədqiqi zamanı onun elementlərindən imtina etmək artıq mümkün deyil, halbuki əvvəllər elmin həmin sahələrinin hətta ən sınanılmış, ən miqyaslı tədqiqatçıları belə bunu nəzərə almırdılar[1].

Qorxub çəkinmək lazım deyil ki, olduqca çoxlu dillərin yayılmasından filoloqlar üçün daha vacib görünən utraque lingua nın praktik və əsaslı öyrənilməsi zərər görə bilər. Elə ki həqiqi oxşarlıqlar müəyyən ediləcək, ona ala-bəzəklik verən rənglər solacaqdır. Dili öyrənmək bir, onu öyrətmək, yəni orqanizmini və mexanizmini təsvir etmək ayrı şeydir. Öyrənən sıx hüdudlara qapanıb öyrənilən dilin sərhədlərindən kənara çıxmaya bilər, öyrədənin baxışı isə, onun əksinə olaraq, eyni ailənin bir və ya iki dili ilə məhdudlaşmamalı, bütün şəcərənin nümayəndələrini öz ətrafına yığmalıdır ki, tədqiq edilən dilin seçilmiş materialına həyat, nizam və üzvi əlaqə gətirə bilsin. Mənə elə gəlir ki, buna cəhd bizim zəmanəmizin xeyirxah tələbidir, son onillər isə bizə bunun üçün zəruri olan vəsaiti verir.

[1] Biz V.fon Humboldtun dilin tarixi və fəlsəfəsi üçün şübhəsiz zəruriliyi barədəki müstəsna dərəcədə əhəmiyyətli mülahizəsinə əsaslanırıq. Y. Qrimmin dəyərli qrammatikasının ikinci nəşrinə girişindən aşağıdakı sözləri xatırlamaq da yerinə düşərdi: "Latıncanın və yunancanın əsilzadə vəziyyəti ilə yanaşı, sözlərin daha sadə və sirri dərində gizlənmiş səslərə malik olduğu german qrammatikasına heç də bütün hallarda kömək edə bilməz, halbuki daha mükəmməl hind qrammatikası, A.Şlegelin dəqiq ifadəsilə desək, yaxşı bir təshihçilik xidməti göstərə bilər. Tarixin həm daha qədim, həm də daha az korlanmış olduğuna şəhadət verdiyi bu dil şəcərənin ümumi təsviri üçün zəruri qaydalar verə və heç birini ləğv etmədən, daha sonrakı dillərin bu günə qədər kəşf olunmuş qanunlarını şəkilcə dəyişdirə bilər".

***

Deməli, bu kitabda barəsində söhbət gedən dillər idrak vasitəsi olaraq deyil, onların özləri naminə şərh edilir. Və beləliklə, bu kitab çalışır ki, həmin dillərin praktik öyrənilməsinə giriş olmayıb onların fizika və fiziologiyasını təqdim etsin. Ona görə də bütövün səviyyəsi üçün heç bir əhəmiyyət daşımayan bəzi təfsilatlar buraxılır ki, dilin həyatı ilə daha vacib və daha sıx bağlı olanlar üçün yer qalsın. Həmin vasitələrə və bütün qarşılıqlı əlaqədə və qarşılıqlı aydınlaşdırmada olan hadisələrə vahid nəzər nöqtəsindən baxan ciddi metod əsasında, güman edirəm ki, çoxlu inkişaf etmiş dillərin və itmiş dil — əsasın zəngin dialektlərinin əsas hadisələrini bir bütövdə birləşdirmək mənə nəsib olmuşdur.

***

Sanskritdə və ona qohum olan dillərdə iki cür kök var. Birincidən və daha çoxsaylıdan feillər və adlar (isimlər və sifətlər) yaranır ki, feillərlə qohumluq əlaqəsindədirlər, ancaq onlardan inkişaf etmir, onlar vasitəsilə törəmir, eyni gövdədən çıxırmış kimi onlarla bir yerdə əmələ gəlirlər. Bununla belə, fərqləndirmək naminə və hakim olan ənənəyə uyğun olaraq biz onları "feil kökləri" adlandırırıq. Feil də onlarla yaxın formal əlaqədə olur ki, köklərin çoxundan zəruri şəxs şəkilçilərinin sadə yanaşması vasitəsilə indiki zamanın bütün şəxsləri yaranır. İkincidən əvəzliklər, bütün ilkin önlüklər, bağlayıcılar və ədatlar nəşət edir. Biz onları ona görə "əvəzlik kökləri" adlandırırıq ki, onların hamısı az və ya çox dərəcədə gizli şəkildə önlüklər, bağlayıcılar və ədatlarda ehtiva edilmiş əvəzlik mənalarında öz əksini tapır. Nə mənalarına, nə də formalarına görə sadə əvəzliklərin heç birini hansısa

daha ümumi olana gətirib çıxarmaq olmaz – onların hallanma teması eyni zamanda köküdür. Halbuki hind qrammatikləri feil köklərindən olan əvəzlikləri də daxil etməklə bütün sözləri, əvəzlik köklərinin əksəriyyəti öz formasına görə bununla ziddiyyət təşkil etsə də, ona görə misal gətirirlər ki, onlar çox hallarda -a ilə qurtarır, bəziləri isə yalnız -a-dan ibarət olur. Feil kökləri arasında sonu -a ilə bitən bircəciyi də yoxdur, hərçənd a^u istisna olmaqla feil köklərinin son hərflərində bütün digər saitlərə rast gəlinir. Təsadüfi zahiri uyğunluqlar da müəyyən yer tutur: məsələn, i feil kökü kimi "gəzmək", əvəzlik əsası kimi "bu" mənalarını verir.

Əvəzlik kökləri kimi feil kökləri də bir hecadan ibarətdir, çoxhecalı köklər kimi etiraf olunan formalar isə ya ja^gar, ja^gr – "ayıq olmaq" kimi qoşalaşmış hecalara, ya ava – dhir – "nifrət etmək" kimi önlüyün köklə qovuşmasını, ya da kuma^r – "oynamaq" kimi addan nəşət eləmiş (mən onun kuma^ra – "oğlan"dan törədiyi qənaətindəyəm) sözləri ehtiva edir. Sanskrit feil kökləri təkhecalılıq qanunundan başqa heç bir digər məhdudiyyətə məruz qalmır. Və təkhecalılıq həm ən qısa, həm ən geniş, həm də orta ölçülü olmaqla hər cür mümkün formada çıxış edə bilər. Həmin sərbəst məkan o zaman zəruri olur ki, dilə təkhecalılıq hüdudunda əsas anlayışların bütün hakimiyyətini əhatə etmək lazım gəlir. Sadə saitlər və samitlər kifayət eləmir, həmçinin elə köklər yaratmaq zərurəti əmələ gəlir ki, bir neçə samit eyni zamanda sadə səslər kimi çıxış etməklə bölünməz bir vahiddə qovuşmuş olsun; məsələn: stha – "dayanmaq" kök olub s və th qovuşmasının tarixiliyinə bizim dil ailəmizin, demək olar ki, bütün üzvləri üçün birmənalı şahidlik edir… Feil anlayışını ifadə etməkdən ötrü dilin ən qədim dövründə də bircə saitin kifayət eləməsi ehtimalı belə bir əlamətdar təsadüflə təsdiq olu-

nur ki, "gəzmək" anlayışı, demək olar, bütün hind-Avropa dilləri ailəsinin üzvlərində i kökü vasitəsilə ifadə edilir.

Deməli, dillərin Fridrix Şlegel tərəfindən aparılmış bölgüsü öz əsası etibarilə qəbul edilməz olsa da, onların təbii-tarixi təsnifi ideyasının özündə məlum fikir ehtiva edilmişdir. Ancaq biz Avqust Şlegellə birlikdə, aşağıdakı şəkildə fərqləndirməklə üç sinif müəyyənləşdirməyə üstünlük veririk: birincisi, əsl kökdən, birləşdiricilik qabiliyyətindən və buna görə də orqanizmdən, qrammatikadan məhrum dillər. Buraya Çin dili aiddir ki, görünür, bütünlüklə çılpaq köklərdən ibarətdir; qrammatik kateqoriyalar, eləcə də əsas anlayışların ikinci dərəcəli münasibətləri bu dildə sözün cümlədəki yerinə görə tanınır. İkincisi, təkhecalı köklərdən ibarət, birləşmək qabiliyyətinə malik olmaqla öz orqanizmlərini, öz qrammatikalarını, demək olar ki, yalnız bu yolla əldə edən dillər. Mənə elə gəlir ki, həmin sinifdə əsas söz yaradıcılığı prinsipi feil və əvəzlik köklərinin birləşməsində əks olunur ki, onun həm bədəni, həm də ruhudur. Buraya hind-Avropa ailəsi və ondan başqa, birinci və ya üçüncü sinfə düşməyən o dillər aiddir ki, söz formalarının ən sadə elementlərə keçməsi mümkünlüyünü qoruyub saxlayır. Üçüncüsü, ikihecalı feil köklərinə və əsas mənanın yeganə daşıyıcısı olmaqla üç mütləq samitə malik dillər. Bu sinif ancaq sami dilləri əhatə edir və onların qrammatik formaları ikinci sinifdə olduğu kimi birləşmə yolu ilə deyil, kökün daxili modifikasiyası ilə yaranır.

Təkhecalı köklərdən hecaların birləşməsi vasitəsilə adlar – isimlər və sifətlər törəyir ki, biz müvafiq araşdırma aparmadan onlara müstəqil mənadan məhrum, yaxud fövqəltəbii varlıqlar kimi baxa bilmərik. Və biz onların təbiətinin dərkin-

də passiv etiqada da yol verməməliyik. Şübhəsiz, onlar ya mənaya malikdir, ya da malik olmuşdur; belə ki, dilin orqanizmi mənalı olanla məna ifadə edəni birləşdirir. Dillər nə üçün də əlavə mənaları köklərə birləşdirilən əlavə sözlərlə ifadə etməsin? Hər şey dərrakəli və üzvi dil vasitəsilə məna və təcəssüm kəsb edir. Adlar şəxs və ya predmeti ifadə edir, onlara mücərrəd kökləri bildirənlər yanaşır, ona görə də sözyaradıcı elementlər arasında kökün in abstracto ifadə etdiyi əvəzliklərin keyfiyyət, hərəkət və vəziyyət daşıyıcısı olaraq seçilməsi yüksək dərəcədə təbiidir. Və doğrudan da, sözyaradıcılığı barədəki fəsildə göstərəcəyimiz kimi, mühüm sözyaradıcılığı elementləri ilə hələ təcrid olunmuş vəziyyətdə hallanan bəzi əvəzlik əsasları arasında, adətən, tam eyniyyət aşkar edilir. Əgər bəzi sözyaradıcı elementlər özlərinin söz müstəqilliyinin saxlanılması əsasında tam ehtimalla izah olunmalarının mümkünlüyünü nümayiş etdirmirsə, təəccüblənmək lazım deyil. Bu şişirtmə dilin tarixəqədərki dövrlərinin ən qaranlıq mərhələlərindən gəldiyinə görə sonrakı mərhələlərdə özləri də müəyyən edə bilmirlər ki, haradan əmələ gəlmişlər, nə üçün qoşulan suffikslər heç də həmişə zaman axarı ilə müvafiq təcrid olunmuş sözlərdəki dəyişiklikləri dəqiqliyilə təkrar etmir və ya onların dəyişməz qaldıqları halda özləri dəyişir. Və bununla belə ayrı-ayrı hallarda heyrətedici inam yaranır ki, birləşən qrammatik hecalar minillərlə dəyişməz olaraq qalmaqla, belə bir tam uyğunluqdan göründüyü kimi, hind-Avropa dilləri ailəsinin müxtəlif üzvlərində nəzərə çarpırlar ki, onlar çox qədim zamanlardan bir-birlərini nəzərdən qaçırmışlar və dil ailəsinin hər bir üzvü o zamandan öz taleyinə və təcrübəsinə ümid edir.

…

Dillərin tarixi öyrənilməsi, müxtəlif dillərin daha yaxın və daha uzaq dərəcədə qohumluğunun müəyyənləşdirilməsi zamanı söhbət ondan getmir ki, qrammatikanın məlum hissələrindəki zahiri fərqlər müəyyən olunsun, ondan gedir ki, həmin fərqliliklər ümumi qanunlarla şərtlənir və o gizli prosesləri açmaq olmazmı ki, dil özünün ehtimal olunan əvvəlki vəziyyətindən indikinə həmin proseslər vasitəsilə gəlib çıxmışdır. Elə ki əvvəllər müəyyən formaya malik, bu və ya digər şəkildə dəyişmiş, yaxud məlum sərbəstliklə əvvəlki görünüşünü qoruyub saxlamış, yaxud da köhnə formanın yerinə yenisini qoymuş olanın hesabına qanunlar müəyyənləşir, müxtəlifliklər müxtəliflikliyini itirir. Bir hissəsi vacib, bir hissəsindən isə imtina edilməsi mümkün olan həmin qanunları, güman ki, slavyancada kəşf eləmək, bununla da onun hallanma tipini ona qohum olan dillərin hallanma tipindən fərqlənməsi məsələsini həll etmək olar.

Tərcümə edən: Nizami Cəfərov

Rasmus Rask

(1787-1832)

Müqayisəli-tarixi dilçiliyin yaradıcılarından biri də Danimarka dilçisi Rasmus Raskdır. O, 1814-cü ildə yazdığı, amma 1818-ci ildə nəşr etdirdiyi "Qədim şimal dili sahəsində araşdırma, yaxud İsland dilinin mənşəyi haqqında" əsəri ilə müqayisəli dilçiliyin müqayisəli-tarixi qolunun formalaşmasına müstəsna xidmət göstərmişdir.Sual oluna bilər ki, nə üçün müqayisəli-tarixi dilçiliyin bütün parametrlərinə cavab ver-

diyi halda bu əsər müqayisəli-tarixi dilçiliyin əsasını qoya bilməmişdir? Çünki qeyd etdiyimiz kimi, R.Raskın əsəri yazıldığı ildən 4 il sonra çap edilmiş,həm də əsərin yazıldığı dil Danimarka dili(o dilin adı dat dilidir)tanınan dil deyildi. R.Rask bu araşdırmasında göstərirdi ki, islandcanın və ya qədim şimalcanın mənbəyi qədim frakiya dilidir; bütün hallarda o, əsas hissəsi etibarilə, ən qədim və yeganə qalıqları yunanca və latınca olan böyük frakiya tayfasının dilindən törəmişdir, ona görə də həmin yunanca və latıncaya islandcanın mənbəyi kimi baxmaq lazımdır. R.Rask dillərin qohumluğunu dəqiq müəyyənləşdirmək üçün dilin qrammatik quruluşunu əsas hesab edirdi.Çünki dilin qrammatik quruluşunu təşkil edən dil kateqoriyaları bir dildən digər dilə keçə bilməz.

Qədim şimal dili sahəsində araşdırma, yaxud İsland dilinin mənşəyi haqqında

Giriş

Qədim zamanların dini inamları, xalqların adət və ənənələri, vətəndaşlıq institutları, onlar haqqında bildiyimiz qədər, ən yaxşı halda həmin xalqların qohumluq əlaqələri və mənşəyi ilə bağlı bizə ancaq müəyyən işarələr verə bilər. Və onların qarşımızda birinci dəfə təzahür edən görünüşləri ilkin vəziyyətləri, yaxud indiyə qədər gəlib çıxdıqları yollar barədə də bəzi nəticələrə gəlməyə imkan açar. Lakin tarixin bizi tərk etdiyi qədim zamanlarda xalqların mənşəyinin və qohumluq əlaqələrinin dərki vasitələrindən heç biri dil qədər vacib ola bilməz. Bir insan nəsli ərzində xalq

öz etiqadlarını, ənənələrini, qərarlaşmış adət, qanun və institutlarını dəyişə, məlum dərəcədə təhsillilik səviyyəsinə yüksələ, yaxud qabalığa, cəhalətə qayıda bilər, ancaq dil bütün bu dəyişmələr zamanı öz ilkin vəziyyətində qalmasa da hər halda bütöv minilliklər ərzində tanınmasına imkan verəcək qədər qorunmaqda davam edir. Belə ki, məsələn, yunan xalqı taleyin hər cür dönüklüyünə məruz qalıb, ancaq yunan kəndlisinin nitqində hələ də Homerin dilini tanımaq mümkündür. Vəziyyətin daha əlverişli olduğu başqa ölkələrdə dil daha az dəyişmişdir; belə ki, ərəblər Məhəmməddən hələ neçə əsr əvvəl ərəbcə yazılanları başa düşür, islandlar isə Müdrik Arenin nə yazdığını oxuyur, Eyvin Skaldın nə dediyini anlayırlar. Dilin bütünlüklə kökünün kəsilməsi üçün xalqın tamamilə parçalanması, yaxud məhv olması lazım gəlir; hətta zorla təzyiq göstərmək və yad xalqlarla güclü qarışma belə, dildə yalnız çox əsrlərdən sonra dəyişikliklərə gətirib çıxarır ki, adətən, hər şey onun yalnız başqa, oxşar, ancaq öz qrammatik quruluşu baxımından daha sadə, öz xarakteri baxımından daha qarışıq görünüşü ilə kifayətlənmiş olur. Belə ki, hələ bizim eranın VI əsrində Fransada qall dilində danışırdılar, onun kökünü kəsmək üçün romalıların göstərdikləri güclü cəhdlərə baxmayaraq, hələ bu günə qədər Uelsdə kimrcə danışırlar, müasir ingilis dilində isə hələ anqlosaksoncanı aydın şəkildə seçmək olar.

Dilin mənşəyinə əvvəllərdən xalqın mənşəyinin və onun ən qədim məskəninin müəyyənləşdirilməsi zamanı ən əsas amil kimi baxılmışdır; özü və özünün ən qədim tarixi barədə bilməyi üçün maraqlı hesab edən bütün mədəni millətlər, bizim kimi, bu yöndə araşdırma aparmalı, ya da heç olmasa fərziyyələr irəli sürməlidirlər; ancaq bir çox ölkələrdə

bu mövzuya indiyədək o qədər az diqqət yetirilmişdir ki, xalqın qədim dilinin mənşəyi, eləcə də buraya aid olan hər şeyin az-çox tam elmi araşdırılması barədə çətin ki düşünmək mümkün olsun.

Ümumən etimologiya haqqında

... Elə ki dilin araşdırılmasına girişirsən, o saat görürsən ki, onun baxılmaq üçün iki tərəfi var ki, dilin iki hissəsinə uyğun gəlir. Onlardan birincisi kobud və sərbəst maddilikdir ki, onsuz dil ümumiyyətlə mövcud deyil, o biri isə az və ya çox rəngarəng forma və əlaqələrdən ibarətdir ki, onlarsız maddilik yazıda əks oluna bilər, ancaq xalq danışa, elə dilin özü də yarana bilməz; birincisi – ayrı-ayrı sözlər (leksika), ikincisi – onların formalarının dəyişməsi və əlaqə üsulları, yaxud dilin quruluşudur (qrammatika).

Əgər bir neçə dilin qohumluğu, qədimliyi və başqa münasibətləri barədə, tam olmaqla, bizə mühakimə yürütməyə imkan verən müqayisəsini aparsaq, dilin bu hər iki tərəfini nəzərə almalı, xüsusilə qrammatikanı unutmamalıyıq; təcrübə göstərir ki, leksik uyğunluqlar son dərəcədə etibarsızdır. Xalqların bir-biri ilə ünsiyyəti zamanı ehtimal edilməyəcək qədər çox söz həmin dillərin mənşəyinin və tipinin xarakterindən asılı olmayaraq birindən digərinə keçir. Belə ki, məsələn, əhəmiyyətli sayda dat sözü qrenlandçaya, çoxsaylı portuqal və ispan sözləri isə malay və tapaloq dillərinə düşmüşdür.

Qrammatik uyğunluqlar qohumluq və ya mənşə ümumiliyinin daha etibarlı göstəricisidir, çünki məlumdur ki, başqası ilə qarışan dil fövqəladə dərəcədə azdır, yaxud daha doğrusu, heç zaman başqa dildən hal və təsrif formalarını qəbul etmir, əksinə özünə məxsus olanları itirir. Belə ki, məsələn, ingilis dili skandinav və ya fransız dillə-

rindən hal və təsrif formalarını qəbul etməmiş, əksinə, çoxlu qədim anqlosakson fleksiyalarını itirmişdir. Eyni şəkildə, nə dat dili – alman, nə də ispanca – qot və ya ərəb sonluqlarını qəbul etməmişdir. Dilin araşdırılması zamanı uyğunluqların daha vacib və əhəmiyyətli olan bu tərəfinə indiyə qədər, demək olar ki, qətiyyən diqqət yetirməmişlər ki, bu, həmin sahədə bu günəcən yazılmış əsərlərin çoxunun ən böyük səhvi olmaqla onların olduqca şübhəliliyinin və olduqca az elmi dəyər daşımasının da səbəbidir.

Daha zəngin qrammatik formalara malik dil daha az qarışan, mənşəcə daha ilkin, daha qədim və ilkin mənbəyə daha yaxın olur; bu, o vəziyyətlə şərtlənir ki, hallanma və təsrif qrammatik formaları dilin uzunmüddətli inkişafının məhsuludur, onun yenidən inkişafı və təşkili üçünsə çox uzun zaman, başqa xalqlarla zəif əlaqələr tələb olunur. Belə ki, dat dili qrammatik baxımdan islandcadan, ingilis dili anqlosaksoncadan daha sadədir; eyni münasibət yeni yunanca və qədim yunanca, italyanca və latınca, almanca və miziqotca arasında da var, bizə məlum olan bütün hadisələrdə vəziyyət belədir.

Dil nə qədər qarışmış olsa da əgər dilin əsasını təşkil edən daha əhəmiyyətli, maddi, zəruri və ilkin sözlər onlarda ümumidirsə, başqaları ilə eyni bir dillər qrupuna mənsubdur. Əksinə, dilin ilkin,qohumluğu barədə qeyri-təbii yolla əmələ gəlmiş, yəni nəzakət bildirən, ticarətə aid sözlərə, yaxud xalqların qarşılıqlı münasibəti, təhsil və elmdən irəli gəlməklə dilin qədim leksik ehtiyat əlavə olunmaq zərurətindən yaranmış hissəsinə görə mühakimə yürütmək olmaz; dilin bu hissəsinin formalaşması ancaq tarixi baxımdan dərk oluna bilən çoxsaylı vəziyyətlərdən asılıdır. Yalnız

onların köməyi ilə müəyyənləşdirmək mümkündür ki, xalq müvafiq elementləri bilavasitə başqa dildən almış, yoxsa özü yaratmışdır. Deyək ki, qayda üzrə qot dilləri qrupuna, o cümlədən əsasında german hissəsi dayanan sakson budağına aid edilir, belə ki, ingiliscənin lüğət ehtiyatında bütöv bir sıra sözlər əsasən saksoncadır... Qeyd etmək lazımdır ki, digər eynicinsli olmayan dillə qarışarkən ən axırda əvəzliklər və saylar yoxa çıxır; məsələn, ingilis dilində bütün əvəzliklər qot, məhz sakson mənşəlidir.

O zaman ki iki dildə məhz həmin cinsdən və həmin kəmiyyətə sözlərdə elə uyğunluq var ki, bir dildən başqa dilə hərf keçidlərinə nisbətdə qaydalılıq verə bilir, onda bu dillər arasında sıx qohumluq əlaqəsi mövcuddur...

...Əgər dil barəsində mühakimə yürütmək istəyirsənsə, onu hər hansı digər predmet kimi bilməlisən. Və bu məqsədə çatmaq üçün hansısa dolama bir yol çətin ki mümkün olsun. Beləliklə, əgər yunancadan bir parçanı onun yaxşı bir latıncası ilə və ya əksinə müqayisə etsək, onda düşünmək çətin olar ki, həmin dillər arasında heç olmasa elə bir ən uzaq tarixi və ya etimoloji əlaqələr mövcuddur ki, latın dilinin mənbəyinin demək olar ki, bütünlüklə yunanca olduğunu sübut edir. Müxtəlif qrammatistlərin iki dildən eyni predmetə baxışlarından meydana çıxan müxtəlif nöqteyi-nəzərlər və onlardakı uyğunluqları irəli sürmək üçün istifadə etdikləri müxtəlif üsullar o kəsi asanlıqla kor edə bilər ki, onun özü dilin quruluşu və onun daxili mahiyyətini əsaslı şəkildə dərk eləmir...

Qot dillərinin, o cümlədən islandcanın mənbəyi haqqında

Frakiya və qot dillərində, xüsusilə islandcada, görünür, sıx qohumluq əlaqəsinə malik sözlər siyahısı rahatca genişləndirilə bilər, olsun ki, bir qədər şişirdilib, lakin mən hər iki dil qrupunda görünür oxşar olan bir çox sözlərin üstündən keçirəm... Mən sözləri oxşarlıqlarını görmək mümkün olan asanlıqlarından daha çox, mənasına görə seçib ayırıram göstərəm ki, elementar fikir predmetlərini ifadə edən ilkin və zəruri sözlər hər iki dil qrupunda eynidir...

... Bizim lüğət tərkibində və dilin quruluşunda tapdığımız uyğunluqlar əcdadlarımızın Skifiyadan şimala köçmələri barədə birmənalı tarixi şahidliklə uyğun gəlir; o cümlədən bu, köçənlərin sonuncu əsas dalğasına da aiddir ki, Tanais dilində poetik sənəti və ən qədim finikiya-yunan əlifbası ilə bu qədər gözə çarpan oxşarlığa malik run yazısını bizə gətirib çatdırmışdır. Görünür, skandinavlar və germanlar böyük frakiya tayfasının budaqlarıdır və onların dilləri də həmin ilk mənbədən gəlir. Bu, latış tayfasının dili və onun yunancaya münasibəti barədə məlum olanlarla da uyğundur. Latış tayfası frakiya, sonra skandinav və german tayfalarının ən yaxın budağıdır; sonuncusu, görünür, daha uzaq əlaqədədir ki, bunun nəticəsində, tamamilə təbii olaraq, bizim əcdadlarımızın məskəni cənub-şərqə düşmüşdür; ancaq bu fərq o qədər də böyük deyil və hər iki dil, yəqin ki, bir-biri ilə həmsərhəd imiş. Lakin skandinav tayfasının heç cür german tayfası vasitəsilə frakiya tayfasından əmələ gəldiyini hesab eləmək olmaz, çünki bu həm tarix, həm də dilin daxili mahiyyətilə ziddiyət təşkil edir.

Başqa tərəfdən, heç vəchlə demək mümkün deyil ki, island tayfası öz mənşəyini yunandan alır. Yunan tayfası qədim saf frakiyalı deyil; yunan haqqında danışarkən Attika ilə kifayətlənmək olur, çünki o, yunanın ən sonrakı müxtəliflikliərindən biridir və müxtəlifliyin o təzahürü deyil ki, onda qohumluq daha aydın ortaya çıxsın. Attika yaranma və ahəndarlıqda nə qədər üstünlüyə malikdirsə, qədimdə dori və eoli də o qədər mühüm olub dil haqqındakı elm üçün də zəruridir. Əgər bu sonuncular itirilmiş olsaydı, latınla və ya məsələn, islandla identiklik çətin ki təminedəcək qədər sübut oluna biləydi. Bütün bu deyilənlər əsasında biz belə bir nəticəyə gəlməyi mümkün sayırıq ki, islandcanın və ya qədim şimalcanın mənbəyi qədim frakiyacdır; bütün hallarda o əsas hissəsi etibarilə, ən qədim və yeganə qalıqları yunanca və latınca olan böyük frakiya tayfasının dilindən törəmişdir,ona görə də həmin yunanca və latıncaya islandcanın mənbəyi kimi baxmaq lazım gəlir. Bununla belə, onun tam etimoloji izahı üçün latış və slavyan dil qrupları böyük əhəmiyyət kəsb edir. Bunlardan başqa, fin dili də xeyli təsir göstərmişdir.

Asiya dilləri

Biz dairəni qapadıq və ətrafımızdakı bütün dilləri nəzərdən keçirdik, eyni zamanda qədim şimal dilinin mənbəyinə gəlib çıxdıq; lakin burası da var ki, onun daha yaxın bir mənbəyi də mövcuddur; həmin əlaqənin ardınca gedərək cənub-şərqdə, necə deyərlər, osterland dillər qrupuna rast gəlirik. Biz artıq gördük ki, müxtəlif sözlər, olsun ki, şəkilçilər də həmin qrupun əsasında dəqiq izahını tapa bilər

və bu dil qrupunun bəzi sözləri qot dilinə daha yaxındır, nəinki frakiya dilinə...

Ancaq iş burasındadır ki, osterland qrupu dilləri istər söz və formaların yaranmasına, istər həm adın, həm də feilin dəyişməsinə görə qot dillərindən tamamilə başqa struktura və tamamilə başqa düzülüşə malikdir, ona görə də oxşar uyğunluqlar alınmadan savayı heç nə ilə izah oluna bilməz. Bu alınmalar tayfaların mövcudluğunun ən qədim ibtidai dövründə baş vermişdir. Öncədən əmin olmayan heç kəs çox da olmayan ayrı-ayrı sözlərdəki bu cür uyğunluqları frakiya qrupu dilləri ilə sarsılmaz qohumluq və sıx birlik baxımından müqayisə etmək iqtidarında deyil...

... Sanskrit, zend, pəhləvi və fars dilləri bu qeyri-adi böyük ailənin (söhbət hind-Avropa dilləri ailəsindən gedir – tərcüməçi) əsas hissələridir.

Mübahisəsiz, bu dillər həm german, həm də şimal dilləri ilə dərhal gözə dəyən çoxlu uyğunluqlara malikdir, ancaq bununla yanaşı çox hallarda həmin eynilik birbaşa deyil, frakiya dilləri vasitəsilə gəlir. Lakin necə olursa olsun bütün müəyyənliyi ilə təsdiq etmək mümkündür ki, bu ehtimalı irəli sürənlərdən heç kəs hind və fars dilləri bir yana, qot qrupunun üç əsas qədim dilinin (məhz island, anqlosakson və miziqot) bütün əhəmiyyətini layiqincə qiymətləndirməmişdir. Və odur ki, həmin tezisi sübut etmək üçün müqayisə olunan hər iki predmetin ciddi tədqiqi tələb edilir, yoxsa ən yaxşı halda oxşar sözlərin müəyyən hissəsinə və ayrı-ayrı qrammatik uyğunluqlara əsaslanmaqla beyinə təlqin olunmuş, yaxud sübut edilməmiş, ancaq öz-özlüyündə maraqlı bir fərziyyədən başqa heç nə əldə etmək olmaz. Bu fərziyyə ona görə sübut edilməzdir ki, hind və fars dillərində

çox az yazılı abidə mövcuddur, qrammatika və ya lüğətlər isə qətiyyən yoxdur, əgər, məsələn, göstərilən bütün dillər içərisində ən qədim və vacibi olan sanskritdə bunlar varsa belə, olduqca əlçatmaz və ya yarımçıqdır.

Biz fin qrupunun nümunəsində gördük ki, həqiqi qohumluqla bağlanmayan dillərdə nə qədər çox söz, hətta qrammatik sonluqlar uyğun gələ bilər. Ona görə də tutuşdurmalara həddindən artıq tələsik inanarkən onunla risk edirsən ki, dillə daha dərindən tanış olan zaman öz hipotezlərindən əl çəkməli, yaxud təbəssümlə qarşılaşmalı olursan. İlkin araşdırmalarda qazanılmış azacıq nailiyyət heç cür kifayət etmir ki, bir dil qrupunun digərindən yarandığı sübut olunsun, xüsusilə o halda ki, tayfalar arasında din, adət və ictimai qurumlar sahələrində hər iki tayfanın özü qədər bizə çoxdan məlum olan əhəmiyyətli fərqlər bununla ziddiyyət təşkil edir.

Bundan başqa, ölkələrin coğrafi vəziyyəti artıq şəhadət verir ki, hind və fars dilləri island dilinin öz başlanğıcını aldığı əsl mənbə ola bilməz. Bizim əcdadlarımızın Hindistan və ya Farsistandan çıxmasına şahidlik edən tarixi sənəd yoxdur; əksinə,bütün vəziyyət diqqəti frakiya tayfası üzərinə cəmləşdirir ki, yuxarıda həmin nəticəyə gəlmişdik. Və şimal tayfası belə yaranmışdır. Lakin bu tayfanın da, əlbəttə, başqaları kimi öz kökləri olmuşdur. Və elə də ehtimal olunmaz deyil ki, hind tayfası da belə bir kök olub, əgər torpaq altında çox dərinliklərdə gizlənməmişsə, dərk edilməyə və araşdırılmağa layiqdir. Hələlik isə qədim dilimizin ən yaxın və aydın görünən mənbəyi ilə kifayətlənib, yunan alimlərinə onu araşdırmağı təklif edəcəyik ki, frakiya qrupu öz əsl mənşəyini haradan götürür. Ancaq biz əminik ki, heç onlara da hind dillərinə doğru getmək lazım gəlməyəcək,

çünki zəncir silsiləsi bir ucunda birhecalı dillər, digər ucunda isə öz növbəsində böyük Dünya okeanı ilə hüdudlanmış Malay və Avstraliya dilləri qrupu olmaqla qırılır. Bu geniş yayılmış hər iki dillər qrupu qot, frakiya hind qrupu dillərindən yerlə göy qədər fərqlənir.

Tərcümə edən: Nizami Cəfərov

Vilhelm fon Humboldt

(1767-1835)

Dilçilik elminin tarixində "Almaniyanın ən böyük adamlarından biri" olan Vilhelm fon Humboldtun yeri müstəsnadır.O, 1820-ci ildə Berlin Elmlər Akademiyasında etdiyi "İnkişaflarının müxtəlif dövrlərinə tədbiq edilməklə dillərin müqayisəli öyrənilməsi haqqında" məruzəsi ilə ümumi (nəzəri) dilçiliyin əsaslarını yaratmışdır.

Dahi dilçi-mütəfəkkirin ən böyük əsəri isə "Bəşər dilləri quruluşunun müxtəlifliyi və bunun bəşəriyyətin mənəvi inkişafına təsiri haqqında" (əslində, "Yavi adasındakı Kavi dili haqqında" kitabının ənənəvi olaraq müstəqil bir əsər sayılan girişi) kitabıdır. "Dil xalqın ruhudur" deyən V.fon Humboldt belə düşünürdü ki, bəşər ruhu müxtəlif olduğundan dünya dilləri də müxtəlifdir. Tədqiqatçılardan bu fikirdə olanlar vardır ki, V.fon Humboldt "xalq ruhu" dedikdə xalqa aid bütün xüsusiyyətlərin cəmini nəzərdə tuturdu. Amma dahi dilçinin "xalq ruhu" anlayışı kifayət qədər yayğın təsir bağışlayır. Bu klassik əsərində dillə bağlı görüşlərini təqdim etmiş, ümumi dilçiliyin ən kardinal sualı olan "dil nədir" sualına cavab tapmağa çalışmış. V.fon Humboldt həm də ona görə ümumi dilçiliyin banisidir ki, o, dilçiliyi fəlsəfədən ayır-

mış və dilçilik elminin obyekti olan dilin mahiyyətinə vara bilmişdir.

V.fon Humboldtun ideyaları sonrakı dilçilik məktəbləri üçün də meyar olmuşdur. Hətta XX əsrin əvvəllərində dilçiliyin dili hər cür fəlsəfi vüsətdən kənarda, adi həyat hadisələrinin üzvü tərkib hissəsi kimi izah edən ikinci dahisi Ferdinand de Sössür də öz "dərslər"ini, əvvəla, Vilhelm fon Humboldtla uzaqdan-uzağa (adını belə çəkmədən!) polemikada deyir, ikincisi isə, onun dilə baxış miqyasını əhatə edə bilmədiyi (dilçiliyi ənənəvi fəlsəfi təfəkkür üçün hər cəhətdən yad semiotikaya daxil eləməyə cəhd göstərdiyi) üçün çox keçmədən XX əsrin ortalarından etibarən müxtəlif dilçilik istiqamətlərinin – etnolinqvistika, psixolinqvistika, neohumboldtçuluq, koqnitiv dilçilik və s. yenidən Humboldtçuluğa müraciət etməsinə səbəb olur.

İnkişaflarının müxtəlif dövrlərinə tətbiq edilməklə dillərin müqayisəli öyrənilməsi haqqında

(1820)

1. Dillərin müqayisəli öyrənilməsi yalnız o halda dil, xalqların inkişafı və bəşəriyyətin təşəkkülü barədə inandırıcı və əhəmiyyətli nəticələrə gətirib çıxara bilər ki, o öz vəzifələrinin yerinə yetirilməsinə yönəlmiş və öz məqsədlərinin ardınca gedən müstəqil fənn olsun. Lakin hətta bir dilin belə bu cür öyrənilməsi xeyli çətin olacaqdır: hər bir dil barəsindəki ümumi təəssürat asan əldə edilən olsa da, onun nədən yaranmasını müəyyənləşdirməyə cəhd edən zaman olduqca çoxlu təfərrüatlar içində itirsən ki, onlar sənə əvvəlcə tamamilə əhəmiyyətsiz gəlir; ancaq tezliklə anlayırsan ki, dillərin

fəaliyyəti hansısa böyük və həlledici özünəməxsusluqlardan daha çox həmin dillərin elementlərinin mütənasibliyinin ayrı- ayrı, çətin fərqlənən izlərindən asılıdır. Müfəssəl öyrənmə məhz bu yerdə dilin zərif orqanizminə (feingewebten Organismus) nüfuz vasitəsinə çevrilir, belə ki, ümumən şəffaflıq dilin çoxtərəfli quruluşunun tədqiqini həmişə eyni şəkildə asanlaşdırır.

2. Necə ki dənizlər, dağlar və çaylar öz hazırkı relyeflərini əldə edənə qədər yer kürəsi nəhəng kataklizmlərdən keçərək, o zamandan bəri, demək olar ki, dəyişməz qalmışdır, dillər də eləcə, öz kamilləşmələrinin elə bir son hüdudundadırlar ki, əldə etdikləri nailiyyətlərdən sonra artıq nə üzvi quruluşları, nə də möhkəm strukturları etibarilə heç bir dəyişikliklərə məruz qalmırlar. Bunula belə məhz ruhun (Geist) canlı əsəri olaraq onlarda ola bilsin ki müəyyən edilmiş hüdud daxilində daha zərif dil yaradıcılığı baş verir. Əgər dil öz strukturunu əldə etmişsə, əsas qrammatik formaları daha heç bir dəyişikliyə məruz qalmır; cinsi, halları, icbar və ya orta növü bu dil fərqləndirmirsə, həmin qüsurları artıq aradan qaldırmaq mümkün deyil; böyük söz ailələri də eynilə əsas düzəltmə növlərilə az tamamlanır. Bunula belə, əgər tale ona öz mərhəmətini göstərsə, anlayışların daha zərif budaqlanmasının ifadəsi üçün yaranmış vasitələrlə onların üst-üstə gəlməsi, sözlərin strukturunun daxili yenidənqurulması, onların ilkin mənasından sərbəst istifadə, məlum formaların dəqiq bölünməsi, artıq şeylərin atılması, kəskin səslənmənin yumşaldılması öz formalaşması məqamında kifayət qədər primitiv və zərif inkişaf etmiş olan dilə yeni anlayışlar dünyası və o vaxta qədər ona, məlum olmayan nitiq gözəlliyi parlaqlığı qazandıra bilər.

3. Belə bir hal yada salınmağa layiqdir ki, hələ qərarlaşmış qrammatik quruluş hüdudundan kənarda qalan heç bir dil əldə olunmamışdır. Heç zaman heç bir dil öz formalarının tam təşəkkülü məqamına çatmamışdır. Bu mülahizənin tarixi etibarlılığını yoxlamaq üçün xüsusi məqsədlə ibtidai xalqların dillərini öyrənmək və dilin təşəkkülündə aşağı vəziyyəti təyin etməyə can atmaq lazımdır ki, dilin təşkili iyerarxiyasının heç olmasa birinci pilləsində o, təcrübədən dərk edilsin. Mənim bütün keçmiş təcrübəm göstərir ki, hətta, necə deyərlər, "kobud" və "barbar" dialektlər də mükəmməl istifadə üçün zəruri olan hər şeyə malikdirlər. Və onlar həmin formaları daşımaqla ən yüksək inkişaf etmiş və daha çox diqqəti çəkən dillər kimi zaman keçdikcə elə bir dil xarakteri kristallaşdıra bilərlər ki, istənilən fikri az çox kamil ifadə etsin.

4. Dil yalnız birdən və qəflətən yarana bilər və ya daha dəqiqi desək, onun varlığının hər bir məqamında dilə hər şeyin xas olması lazımdır ki, o, vahid bütöv olsun. Üzvi mahiyyətin bilavasitə emanasiyası olaraq özünün hissi (sinnlich) ruhi dəyərində dil hər cür üzviyyətin o fəaliyyətini bölüşdürür ki, orada bir şey o biri vasitəsilə, ümumi olan xüsusidə təzahür edir və hər şeyə nüfuz edən qüvvə vasitəsilə dil bütövü yaradır. Dilin mahiyyəti fasiləsiz olaraq onun özündə təkrarlanır və mərkəzləşmiş olaraq təzahür edir; qrammatik formaya əsaslanan sadə cümlədə də artıq onun başa çatmış vahidliyi görünür və beləliklə, ən sadə anlayışların birləşməsi təfəkkür kateqoriyalarının bütün parçalarını hərəkata sövq edir. Və burada müsbət olan mənfi olanı, hissə bütövü, tək cəmi, nəticə səbəbi, təsadüf zərurəti, nisbi olan mütləq olanı arxasınca çəkir, məkan və zamanın bir məqamı digərini tələb edir, bir hissiyyat öz əks-sədasını digərində, yaxınlıqdakı hissiyyatda tapır. Elə ki fikirlərin ən sadə birləşməsinin ifa-

dəsi üçün aydınlıq və müəyyənliyə, eləcə də müvafiq söz seçiminə nail olunur, dilin bütövlüyü göz qabağındadır. Hər bir deyilən hələ deyilməyənin formalaşmasında iştirak edir, yaxud onu hazırlayır.

5. Beləliklə, insanda iki sahə yerləşir onların hər biri kəmiyyətcə məhdud elementlərə bölünməklə onları qeyri-məhdud sayda birləşdirmə qabiliyyəti əldə edir ki, həmin halda ayrıca olanın təbiətinin özünəməxsusluğu onu təşkil edənlərin münasibəti vasitəsilə ortaya çıxır. Insan bu sahələri refleksiya vasitəsilə ruhən, tələffüz üzvlənməsi (Articulation) vasitəsilə fiziki ayırmaq, eləcə də hecaların sözlərdə birləşməsi, sözlərdən nitq tərtib edilməsi vasitəsilə onun hissələrini ruhən – mühakimə sintezi, fiziki olaraq – vurğu ilə yenidən birləşdirmək qabiliyyətinə malikdir. Odur ki, onun şüuru elə bir dərəcədə möhkəmlənmişdir ki, hər iki sahəyə eyni qüvvə ilə nüfuz edə, eyni nüfuzetmə qabiliyyətini dinləyən şəxsdə də doğura bilər – o hər ikisini artıq bütövlükdə mənimsəmişdir. Onların ikitərəfli qarşılıqlı nüfuzu yalnız eyni bir qüvvə ilə həyata keçirilə bilər. Və onu yalnız ağıl istiqamətləndirir. İnsanın üzvlərinə ayrılan səsləri tələffüz etməsi heyvanların dilsizliyi ilə insan nitqi arasında uçurumdur ki, tamamilə fiziki baxımdan izah oluna bilməz. Dilin maddi təbiətini dəqiq ayırmağa və ayrı ayrı səsləri fərqləndirməklə bizim artikulyasiya adlandırdığımız prosesi həyata keçirməyə yalnız özünüdərk qüvvəsi qadirdir.

6. Dilin daha zərif mükəmməlləşməsini onun təşəkkülünün başlanğıc mərhələsi ilə bağlamaq şübhəlidir. Bu mükəmməlləşmə elə bir vəziyyəti nəzərdə tutur ki, xalqlar ona öz inkişaflarının ancaq uzun illəri sayəsində çatırlar. Və həmin prosesdə onlar adətən öz üzərlərində digər xalqların gö-

zəl təsirlərini təcrübədən keçirirlər. Dialektlərin bu cür çarpazlaşması dillərin təşəkkülündə vacib məqamlardan biridir. Bu, o zaman baş verir ki, yenidən yaranan dil digərilərilə qarışaraq onlardan az-çox əhəmiyyətli elementləri əxz edir, yaxud mədəni dillər kobudlaşanda və yenidən doğulanda ki, bəzi yad elementlər onun rahat inkişafı gedişini pozur və mövcud forma dərk olunmaqdan qalır, təhrif olunur, başqa cür başa düşülür və başqa qanunlarla idarə olunur.

7. Bir neçə dilin bir-birindən asılı olmayaraq təşəkkülünün mümkünlüyü barədəki fikirlə çətin ki mübahisə etmək olsun. Və əksinə, dillərin ümumi qarşılıqlı bağlılığının hipotetik ehtimalının bir yana atılması üçün də heç bir əsas yoxdur. Yer kürəsinin ən təcrid olunmuş guşələri belə o qədər əl çatmaz deyil ki, əhali və dil oraya haradansa kənardan gələ bilməsin. Bizim sərəncamımızda elə faktlar mövcud deyil ki, materiklərin və dənizlərin indikindən fərqli relyefinin mövcudluğu barədə mübahisə aparaq. Dilin özünün təbiəti və insan cinsinin vəziyyəti formalaşmamışdan əvvələ qədər bu cür əlaqələrə qadirdir. Anlaşılan olmaq tələbatı artıq mövcud olana, anlaşılan olana müraciət etməyi məcbur eləyir. Və sivilizasiya xalqları hələ daha çox sıxlaşdırana qədər dillər uzun müddət kiçik tayfaların nailiyyəti olaraq qalacaqdır. O tayfaların ki, öz məskənləri olan yerə hüquqlarını təsdiq etməyə az meyilli olduqları kimi, onu uğurla müdafiə etməyə də qadir deyillər. Onlar tez-tez bir-birini sıxışdırır, bir birinə zülm edir, bir biri ilə qarışırlar ki, heç mübahisəsiz, bu, onların dilində də izlərini qoyur. Əgər hətta dillərin təşəkkülünün ilkin ümumiliyi barədəki fikirlə razılaşmasaq belə, inkişaf prosesində öz saflığını qoruyub saxlamış tayfa dili tapmaq mümkün deyil. Ona görə də dilin tədqiqi zamanı əsas prinsip o sayılmalıdır ki, izlənilmələri mümkün olana

qədər müxtəlif dillərin əlaqələrinin qurulması ilə yanaşı, həmin prinsip hər bir ayrıca dildə onun müstəqil yaranması, yaxud qrammatik və leksik tərkibində məhz hansı olmaqla yad dillə qarışmasının izlərinin göründüyünü dəqiq yoxlamağı tələb edir.

8. Beləliklə, dilin yoxlanılmalı təhlili zamanı üç məqamı fərqləndirmək lazımdır:

dilin ilkin, ancaq tam mükəmməl üzvi quruluşu;

stabillik vəziyyəti yenidən qazanılana qədər kənar qarışıqların doğurduğu dəyişikliklər;

digər dillərdən ayrıldığı, eləcə də quruluşunun bütövlükdə dəyişməz qaldığı zaman dilin daxili və daha zərif mükəmməlləşməsi (innere Ausbildung).

İki əvvəlki bəndi dəqiq hüdudlandırmaq hələ çətindir. Ancaq üçüncüsü əhəmiyyətli və həlledici fərqlərə əsaslanır. Onu digərlərindən ayıran sərhəd qurulmanın o bitkinliyidir ki, dil onlardan sərbəst istifadə etməklə özünün bütün funksiyalarını qazanmış olur; həmin sərhədin hüdudlarından kənarda dilə mənsub quruluş artıq heç bir dəyişikliklərə uğramır. Latın dilinin qızları kimi ərsəyə gələn yeni yunan və ingilis dillərinin faktları öyrədici nümunə və dilin olduqca müxtəlifcinsli elementlərindən təşəkkül tapma imkanlarını tədqiq etmək üçün zəngin materialdır. Dilin təşəkkülü mərhələsini tarixi baxımdan izləməklə müəyyən dərəcədə həmin prosesin son məqamını müəyyənləşdirmək olar; onun ilk təzahürü zamanı yunan dilində biz elə bir yüksək dərəcədə mükəmməllik tapırıq ki, heç bir digər dilə məxsus deyil; lakin elə həmin məqamdan – Homerdən iskəndəriyyəçilərə qədər də yunan dili təkmilləşmə yolu ilə getməkdə davam edir; biz görürük ki, onda daha zərif və inkişaf etmiş mədə-

niyyətin izləri meydana çıxmağa başlamazdan əvvəl Roma dili bir neçə on il ərzində sükut halında olmuşdur.

9.Yuxarıdakı hüdusuzlandırma traktovkasının yekun cəhdləri müqayisəli dilçiliyin iki müxtəlif hissəsini müəyyən edir ki, onların bitkinlik dərəcəsi traktovkanın mütənasibliyindən asılıdır. Dillərin fərqliliyi elə bir mövzudur ki, onu mövcud təcrübədən çıxış edərək və həmin fərqliliyə onun səbəbləri və nəticələrində bəşəriyyətin təbiətinə, taleyinə və məqsədlərinə münasibətdə baxaraq həll etmək lazım gəlir. Bunula belə, dillərin fərqliliyi iki şəkildə təzahür edir: birincisi, tayfa fərqliliyinin qaçılmaz nəticəsi olaraq təbii-tarixi hadisə və xalqların bilavasitə ünsiyyətinə mane olan təcridləşmə formasında; sonra isə intellektual teleoloji olaraq, millətləri formalaşdırma vasitəsi kimi, daha müxtəlifşəkilli və fərdi özünəməxsus intellektual məhsul aləti kimi, mədəniyyətin ümumiliyinə əsaslanan və bəşəriyyətin daha formalaşmış hissəsini ruhi bağlarla əlaqələndirən xalqlar birliyinin yaradıcısı kimi. Dilin təzahürünün son forması yalnız yeni dövrə məxsusdur, qədimdə o ancaq yunan və Roma ədəbiyyatlarında izlənirdi. Və sonuncuların çiçəklənməsi ya zamanla uyğun gəlmirdi, ya da bizim onun barəsindəki məlumatlarımız kifayət qədər tam deyil.

10. Şərhin qısalığı naminə mən nə isə kiçik bir qeyri-dəqiqliyə aydınlıq gətirmək istəyirəm ki, o, formalaşmanın, əlbəttə, dilin artıq formalaşmış orqanizminə təsir göstərməsindən, eləcə də həmin orqanizmin hələ indiki vəziyyətə gəlməmişdən, heç bir mübahisəsiz, formalaşmanın təsirinə məruz qalmasından ibarətdir. Və müqayisəli dilçiliyin yuxarıda nəzərdən keçirilmiş hissələri aşağıdakı şəkildə adlandırıla bilər:

dillərin orqanizmlərinin öyrənilməsi;

dillərin inkişaf vəziyyətində öyrənilməsi.

Dilin orqanizmi insana məxsus danışmaq qabiliyyət və tələbatından nəşət edir. Və onun formalaşmasında bütün xalq iştirak eləyir. Hər bir xalqın mədəniyyəti onun xüsusi qabiliyyəti və taleyindən asılıdır ki, əsası daha çox, xalqda hər dəfə yenidən təzahür edən ayrı-ayrı şəxsiyyətlərin fəaliyyətindən ibarətdir. Dilin orqanizmi intellektual insanın fiziologiyası sahəsinə, mədəniyyət isə tarixi inkişaf sahəsinə aiddir. Dilin orqanizminin analizi dil sahəsinin və insanın dil qabiliyyətinin ölçülməsinə və yoxlanılmasına gətirib çıxarır; yaradılmanın daha yüksək səviyyəsinin tədqiqi onu dərk etməyə aparır ki, dil vasitəsilə insan canatmalarının hansı zirvələrinə yüksəlmək olar. Dilin orqanizminin öyrənilməsi, nə qədər mümkündürsə, geniş tutuşdurmalar, mədəniyyətin inkişafının gedişinə nüfuz isə diqqətin bir dilə cəlb edilərək onun ən incə özünəməxsusluqlarının öyrənilməsini tələb edir ki, tədqiqatın əhatəcə genişliyi və dərinliyi buradan irəli gəlir. Nəticə etibarilə, əgər kimsə dilçiliyin həmin hər iki şöbəsinin öyrənilməsini həqiqətən birləşdirmək istəyirsə, olduqca çox, müxtəlif, imkan daxilində hətta bütün dillərlə məşğul olaraq həmişə yeganə bir dili, yaxud az sayda dilləri dəqiq bilməkdən çıxış edir. Bu cür dəqiqliyin olmaması tədqiqatın heç zaman əl çatmayacaq tamlığındakı boşluqlarda özünü hiss ediləcək qədər göstərir. Dillərin bu üsulla aparılan müqayisəsi ortaya çıxara bilər ki, dili insan hansı müxtəlif üsullarla yaratmışdır və fikirlər aləminin hansı hissəsini dilə gətirmək ona nəsib olmuşdur, xalqın fərdiyyəti dilə necə təsir göstərmişdir və dil ona hansı əks təsiri etmişdir. Yaxud dil və ümumən insanın onun vasitəsilə çatdığı məqsədlər, mütərəqqi inkişafda insan cinsi və ayrı-ayrı xalqlar o dörd

obyektdir ki, qarşılıqlı əlaqədə və müqayisəli dilçilikdə öyrənilməlidir.

11. Mən dillərin orqanizminə aid olan nə varsa Amerika dilləri materialları əsasında hazırlamağı nəzərdə tutduğum daha müfəssəl əsər üçün bir tərəfə qoyuram. Müxtəlif xalqların müxtəlif kütlələrinin məskunlaşdığı və gedib gəldiyi nəhəng kontinentin dilləri, başqa materiklərilə əlaqələri barədə heç bir mülahizə yürüdə bilmərik. Dilçiliyin bu sahəsi üçün lütfkar obyektdir. Əgər yalnız o dillərə müraciət etsək ki, barələrində kifayət qədər dəqiq məlumatlar var, görünəcək ki, onların uzaqbaşı təxminən 30-nu tamamilə naməlum dillərə aid etmək lazım gəlir ki, onlara eynilə dillərin müxtəlif yeni təbii növlərinə baxıldığı kimi baxılmalıdır, həmin dillərə isə barələrindəki faktların hələ kifayət qədər tam olmadığı daha çox sayda dilləri də birləşdirmək lazım gəlir. Ona görə də bütün bu dilləri dəqiq təsnif eləmək çox vacibdir. Ayrı-ayrı dillərin o qədər də dərindən araşdırmadığı dilçiliyin indiki vəziyyətində bu cür bir sıra dillərin indiki müqayisəsi çox az kömək verə bilər. Qəbul edilmişdir ki, dilin ayrı-ayrı qrammatik xüsusiyyətlərinin qeydə alınması və sözlərin az-çox geniş cərgələrinin tutuşdurulması kifayətdir. Ancaq ən primitiv dil belə təbiətin həddindən artıq lütfkar yaradılışı olduğundan bu qədər ixtiyari üzvlənməyə və fraqmentar təsvirə gəlir. O, canlı orqanizmdir (organisches Wesen) və onunla bu cür də rəftar etmək lazımdır. Ona görə də əsas qayda hər bir ayrıca dilin onun daxili bütövlüyündə və ondan əldə olunmuş bütün analogiyaların sistemləşdirilməsində öyrənilməsi hesab edilməlidir ki, bununla fikirlərin qrammatik birləşmə üsulları, işarə olunan anlayışların həcmi, onların işarələnməsinin təbiəti barədə biliklər əldə olunsun, eləcə də az və ya çox ölçüdə hər bir dilə məxsusu inkişaf və

mükəmməlləşmə tendensiyasına çatılsın. Bütün dillər haqqında bütövlükdə yazılmış bu cür monoqrafiyalardan başqa müqayisəli dilçilik üçün həmçinin dil quruluşunun ayrı-ayrı hissələrinin, məsələn, bütün dillərdə feilin araşdırılması zəruridir. Bu cür tədqiqatlarda bütün o əlaqələndirici sapların əldə edilməsi və bir bütövdə birləşdirilməsi lazım gəlir ki, bəziləri bütün dillərin eynicinsli hissələri vasitəsilə sanki eninə genişlənməyə, digərləri hər bir dilin müxtəlif hissələri vasitəsilə sanki dərininə çəkirlər. Bütün xalqların dil tələbatının və dil qabiliyyətlərinin eyniliyi birinci, hər birinin ayrı- ayrılıqda fərdiliyi ikinci istiqaməti müəyyən edir. Ancaq həmin ikili əlaqəni öyrənmək yolu ilə təyin etmək olar ki, insan cinsi nə dərəcədə fərqlənir və hər bir ayrıca xalqda dilin yaranması ardıcıllığı necədir; hər ikisi – həm ümumən dil, həm də xalqın dil səviyyəsi, bu qədər fərdi formalarda gerçəkləşən ümumən dil ideyasına eyni zamanda ümumini xüsusiyə qarşı qoymaqla millətin xarakteri və onun dili ilə qarşılıqlı münasibətdə baxsaq, daha parlaq işıqda görünəcəkdir. Dillər öz daxili strukturlarına görə bitki ailələri kimi siniflərə bölünürlərmi və bölünürlərsə məhz necə şəklindəki vacib suala yekun cavabı yalnız bu yolla əldə etmək olar. Lakin bu vaxta qədər bütün deyilənlər nə qədər inandırıcı olsa da, ciddi faktik yoxlama olmadan ancaq ehtimal olaraq qalır. Burada barəsində söhbət gedən dil haqqındakı elm birtərəfli, yaxud təsadüfi götürülmüş deyil, yalnız gerçək faktlara istinad edə bilər. Eləcə də onların dilləri əsasında xalqların bir-birindən törəməsi barədə mühakimə yürüdərkən qohumluğu tarixi baxımdan sübut edilmiş, lakin hələ kifayət qədər dəqiq təhlili aparılmamış dil və dialektlərin prinsiplərini dəqiq müəyyənləşdirmək lazım gəlir. Hələ ki həmin sahədə də araşdırı-

cılar məlum olandan məlum olmayana doğru hərəkət etmirlər, onlar şübhəli və təhlükəli yoldadırlar.

12. Dil orqanizmi nə qədər tam və əsaslı öyrənilərsə öyrənilsin, onun funksionallaşması barədə mühakimə yürütmək yalnız dilin işlədilməsinə (Gebrauch) görə mümkün olur. Və dilin məqsədəuyğun işlədilməsi anlayış sferasından əxz edildiyinə görə dili zənginləşdirə və formalaşdıraraq həmin sferaya əks təsir göstərir. Odur ki, məhz inkişaf etmiş dillərin materialı əsasında yerinə yetirilmiş tədqiqat yekun mükəmməlliyə malik olduğundan insan məqsədlərinin nailiyyətləri baxımından yararlıdır. Nəticə etibarilə, linqvistikanın yekun mərhələsi – onun elm və incəsənətlə təmas nöqtəsi burada qərar tutur. Əgər tədqiqatlar bu şəkildə aparılmasa, dil orqanizmindəki fərqlərə fikir verilməsə və bununla da yüksək və çoxüsullu istifadələrində dilin qabiliyyətinə bələd olunmasa, onda çoxlu dillərin öyrənilməsi ən yaxşı halda ümumən dilin ümumi quruluş qanunlarının müəyyənləşdirilməsi və ayrı -ayrı tarixi tədqiqatlar üçün faydalı ola bilər; o heç də əsassız olmadan dərrakəni (Geist), nəticə etibarilə, eyni bir məqsədə gətirən və eyni bir anlayışı fərqli səslənmələrin köməyi ilə işarələyən çoxlu forma və səslərin öyrənilməsindən uzaqlaşdırır. Bilavasitə, canlı işlədilmə ilə yanaşı, yalnız o dillərin tədqiqinin əhəmiyyətini qoruyub saxlayır ki, onların ədəbiyyatı var. Və bu cür tədqiqat filologiyanın məsələlərinin düzgün anlaşılmasına uyğun olaraq sonuncunu nəzər diqqətə almaqdan asılı olacaqdır. Çünki bu sonuncu ümumi dilçiliyə qarşı qoyulur – o elmə ki, həmin adı ona görə daşıyır ki, ümumən dili dərk eləməyə can atır, ona görə yox ki, bütün dilləri ehtiva etməyi arzulayır, nəyəsə onu məhz həmin məsələ məcbur edir.

13. İnkişaf etmiş dillərə bu cür yanaşma zamanı hər şeydən əvvəl belə bir məsələ ortaya çıxır: hər bir dil ümumi, yaxud hər hansı bir əhəmiyyətli mədəniyyətə çatmağa qabildirmi, yaxud ola bilər elə dil formaları mövcuddur ki, xalqların nitq vasitəsilə daha yüksək məqsədlərə çatmazdan əvvəl dağılmağa məruz qalır? Sonuncusu daha çox ehtimal ediləndir. Dilə, mənim dərin inamıma görə, insana bilavasitə verilmiş kimi baxmaq lazımdır, yoxsa insan düşüncələrinin şüurlu yaradıcılığı ilə dili izah etmək mümkün deyil. Əgər bu zaman dilin yaranmasını çox minillər geri çəksək də, biz heç nəyə nail olmayacağıq. Əgər onun tipi artıq insanın dərrakəsinə qoyulmasaydı, dili uydurmaq olmazdı. İnsanın heç olmasa bir sözə sadəcə hissi impuls kimi deyil, anlayışı işarə edən üzvlərinə ayrılmış səs kimi nail olması üçün bütöv dil tamamilə və özünün hər cür qarşılıqlı əlaqələri ilə ona bütünlükdə verilməli idi. Dildə təkcə olan heç nə yoxdur, onun hər bir ayrıca elementi özünü ancaq bütövün hissəsi kimi göstərir. Dillərin tədricən yaranması haqqındakı təsəvvür nə qədər təbii görünməsə də, onlar ancaq birdən- birə zühur etmişlər. İnsan yalnız dilə görə insandır, dili yaratmaq üçün o artıq insan olmalı idi. Nə zaman ki bu prosesin tədricən, ardıcıllıqla və sanki fasilələrlə getdiyini; dilin hər bir yeni hissəsini mənimsədikcə insanın daha çox insan olduğunu və bu üsulla kamilləşərək dilin yeni elementlərini fikirləşib tapdığını güman edirlər, o zaman insan şüurunun və insan dilinin bölünməzliyini nəzərdən qaçırır, bir sözün başa düşülməsi üçün zəruri olan, bununla birlikdə bütün dili anlamaq üçün kifayət edən dərrakənin təbiətini başa düşmürlər. Odur ki dil özünü nə isə əvvəldən verilmiş kimi təqdim edə bilməz, yoxsa bu halda tamamilə anlaşılmazdır ki, insan həmin veri-

ləni necə anlayacaq və onu özünə xidmət etməyə nə cür məcbur edəcək. Dil zərurətə görə insandan təşəkkül tapır. Və əlbəttə, az-az, ancaq elə olur ki, onun orqanizmi ruhun axınında ölü kütlə kimi düşüb qalmır, bir qanun olaraq insanın fikir gücünün funksiyasını şərtləndirir (bedingt); nəticə etibarilə, birinci söz artıq bütünlükdə dilin mövcudluğunu güman etməyə əsas verir. Əgər insanın heç nə ilə müqayisəyə gəlməyən bu qabiliyyətini nə isə başqa bir şeylə müqayisə etməyə cəhd göstərsək, onda heyvanların təbii instinktini (Naturinstinct) xatırlamaq və dili dərrakənin intellektual instinkti (intellektuellen İnstinct der Vernunft) adlandırmaq lazım gəlir. Necə ki heyvanların instinktini onların ənənəvi əqidəsi ilə izah etmək olmaz, eləcə də dilin yaranmasını onun yaradıcısı olan vəhşi və barbar tayfaların anlayış və təfəkkür qabiliyyətlərindən çıxarmaq mümkün deyil. Ona görə də mən heç zaman özüm üçün təsəvvür edə bilmirəm ki, dilin bu qədər ardıcıl və özünün rəngarəngliyində sənətkarcasına quruluşu böyük təfəkkür səyləri nəzərdə tutmalıdır və guya ki itmiş mədəniyyətlərin mövcudluğuna sübutdur. Belə bir dil məhz ibtidai təbii vəziyyətdən nəşət edə bilər, çünki onun özü təbiətin – insan idrakı təbiətinin yaradıcılığıdır. Ardıcıllıq, formaların eynişəkilliliyi hətta mürəkkəb quruluş halında belə hər yerdə həmin təbiətin yaradıcılıq möhürünü öz üzərində daşıyır. Və məsələnin mahiyyətini heç də dilin yaranmasının çətinliyində deyil. Dilin yaranmasının əsl çətinliyi qarşılıqlı əlaqədə olan münasibətlərin qeyri- məhdud çoxluğunun iyerarxiyasını qurmaqdan daha çox hətta tək- tək elementlərində belə, dilin anlaşılması və törəməsi üçün zəruri olan dərrakənin sadə hərəkətinin intəhasız dərinliklərindədir. Əgər bu, ortadadırsa, onda yerdə qalanlar öz- özünə gəlir, bunu öyrənmək mümkün deyil, bu əvvəldən insana

müncər olunmalıdır. Lakin insan instinkti az əlaqədardır, ona görə də fərdə daha çox azadlıq verir. Odur ki, dərrakə instinktinin məhsulu təkmilləşmənin müxtəlif səviyyələrinə çata bilər, halbuki heyvan instinkti həmişə daimi eynişəkilliliyini saxlayır. Və dil anlayışına belə bir hal zidd deyil ki, bəzi dillər bizə qədər gəlib çatdıqları görünüşdə öz vəziyyətlərinə görə hələ tam çiçəklənməyə nail olmamışlar. Olduqca müxtəlif dillərdən tərcümə təcrübəsi, eləcə də ən gizli dini kəşflərə həsr edilmə zamanı ən primitiv və inkişaf etməmiş dillərdən istifadə göstərir ki, fərqli dərəcədə uğurlu olsa da, hər bir ideya istənilən dildə ifadə oluna bilər, ancaq bu, yalnız dillərin ümumi qohumluğunun, anlayışlarının çevikliyinin və onların söz işarələrinin nəticəsi deyil. Dillərin özü və onların xalqlara təsirləri üçün sübut ancaq odur ki, ondan təbii şəkildə nəticə hasil olur; o deyil ki, ona nə isə sırınır; odur ki, ona özləri meyillənir və vəcdə gəlirlər.

14. Ayrı ayrı dillərin qeyri- mükəmməlliyinin səbəbləri, ola bilsin ki, tarixi araşdırmalarda ətraflı öyrənilmişdir. Ancaq bunula əlaqədar olaraq mən belə bir məsələni nəzərdən keçirmək istərdim: mümkündürmü hər hansı dil bəzi orta inkişaf mərhələlərinin – o mərhələlərin ki, ibtidai təqdim üsulları elə pozulmuşdur ki, elementlərin ibtidai mənaları artıq izah edilməzdir – yanından ötərək mükəmməlliyə çatmış olsun? Diqqətə layiq faktdır ki, ibtidai dillərin səciyyəvi xüsusiyyətləri ardıcıllıq, inkişaf etmiş dillərinki isə onların quruluşunun çox sahələrindəki anomaliyalardır. Əşyaların özünün təbiətindən alınmış faktlar da belə bir ehtimalı qəbul edir. Dildə hakim prinsip artikulyasiyadır: daimi və yüngül üzvlənmənin vacib üstünlüyü; bu öz növbəsində sadə və sonra üzvlənməyən elementlərin iştirakını təklif edir. Dilin

mahiyyəti ondan ibarətdir ki, fikirlər formasına əşyalar və hadisələr aləminin maddiliyini axıtsın (giessen). Özünün funksionallaşmasında dil formal olmağa cəhd edir. Odur ki sözlər əşyaları əvəz edir, materiya kimi sözlərə də onların tabe olacaqları formanın verilməsi lazım gəlir. Lakin məhz ibtidai dillər bir heca qrupuna çoxlu təyin yükləyir və onlar üçün formanın hakimiyyəti açıq şəkildə çatışmır. Həmin dillərin rasşifrovkaya da yol açan sirri belədir: bizə qrammatikanı tamamilə unudub, hər şeydən əvvəl mənaların cərgələrini qurmağa cəhd göstərmək lazımdır. Bu zaman forma fikrən və ya material kimi baxılan mənalı sözün özü vasitərilə anlaşılır. İkinci əhəmiyyətli pillədə material (stoffartige) mənanın inkişafı formal işlənmə imkanı qazanır və beləliklə, hallanma və qrammatik, yəni formal mənaya malik sözlər təşəkkül tapır. Ancaq forma yalnız orada qeydə alınır ki, onu materiya ilə bağlı olan və nitq sferasına aid ayrı- ayrı vəziyyətlər tələb edir; qətiyyən orada yox ki, o, formal olaraq təsəvvürlərin birləşməsi üçün zəruridir. Cəm halı cəmlik kimi, tək halı isə vacib deyil ki, təklik olsun, ümumən anlayış kimi düşünülür. Feillər və isimlər o zaman uyğun gəlir ki, şəxs və ya kəmiyyət dəqiq işarələnmir – qrammatika dil tərəfindən hələ idarə olunmur, özünü ancaq zəruri hallarda göstərir. Yalnız o zaman ki bircə element belə formadan kənarda təsəvvür olunmur, materialın özü isə nitqdə tamamilə formaya çevrilir, dil üçüncü pilləyə qədəm qoyur. Bununla belə, hətta əgər hər bir elementin forması eşitmə ilə fiksasiya olunursa, həmin bu üçüncü pilləyə çox inkişaf etmiş dillər çətin ki qalxa bilsin. Hərçənd ki, mərhələlərin qurulmasında arxitektonik evritmiya məhz onlara əsaslanır. Mənə həmçinin elə bir dil məlum deyil ki, onun qrammatik formalarının hətta ən yüksək mükəmməlliyində ibtidai heca iltisaqiliyinin silinməz

izləri görünsün. Hələ inkişafın ilk pillələrində ikən dil təsvirə qaçır və söz öz sadəliyiyində modifikasiya (modificrit) olunmuş olmur, elementlərə üzvlənmənin asanlığı müşahidə edilmir, ruh (Geist) forma hissinin olmaması ucbatından hər bir hissəciyi artıq dərəcədə yüklənmiş mənaların ağırçəkiliyi altında əzilir və formal təfəkkürə can atmır. İbtidai vəziyyətə yaxın olan insan, təsəvvürlərinin vərdiş edilmiş üsullarında həddindən artıq ardıcıldır, hər bir əşya və hər bir hərəkət barəsində bütün təsadüfi təfərrüatları ilə düşünür, bütün bunları dilə gətirir və sonra canlı anlayış substansiya əldə edərək onda donub, dilin əsirinə çevrilir. Dillərin və xalqların çarpazlaşması onları müəyyən bir çərçivəyə salmaq və maddi baxımdan dəyərli olanın sferasını məhdudlaşdırmaq üçün olduqca təsiredici vasitədir. Təsəvvürlərin yeni üsulları artıq mövcud olanla birləşir, qarışma zamanı ayrı- ayrı tayfalar yad dialektlərin mürəkkəb birləşmələrini anlamaya bilərlər və belə hallarda onları ancaq bütövlükdə formul olaraq qəbul edirlər. Seçim imkanı olan kimi narahat və ağırçəkili öz yerini daha yüngül və çevikə tərk edərək yox olur. Və ruh (Geist) ilə dil artıq yalnız birtərəfli əlaqə ilə bağlanmadıqlarından ruh dilə daha sərbəst təsir göstərir. Dilin ilk əvvəlki orqanizmi, əlbəttə, dağılır, lakin yeni yaranan qüvvə də məhduddur. Və beləliklə, proses kəsilmir, qol budaq atır və çoxtərəfli olaraq fasiləsiz davam edir. Deməli, qədim tayfaların olduqca xaotik və qaydasız görünən ibtidai vəziyyəti çox yüzillər əvvəl nitqin və nəğmənin çiçəklənməsini hazırlamışdır.

15. Burada bəzi dillərin qeyri- mükəmməlliyi üzərində çox dayanmayacağıq. Ancaq eyni cür mükəmməlləşmiş dillərin və ya müxtəlifliklәri yalnız mükəmməllik dərəcəsilə ölçülə bilməsi mümkün olmayanların tutuşdurulması belə bir

ümumi suala cavab verə bilər ki, dillərin bütün bu rəngarəngliyi insan nəslinin formalaşması prosesi ilə ümumən necə bağlıdır. Həmin vəziyyət xalqların həyatı ilə təsadüfi rastlaşmadırmı? Ondan rahatca və inamla istifadə etmək olmazmı? Və ya o, zəruridir, təsəsvvürlər aləminin (Ideengebiet)formalaşmasının heç nə ilə əvəz edilməyən vasitəsidir ki, uyuşan şüalar kimi ona bütün dillər can atır. Və onların ümumi məzmunu olan təsəvvürlər aləminə münasibətləri bizim araşdırmalarımızın son məqsədidir. Əgər bu məzmun dildən asılı deyilsə və ya dil ifadəsi həmin məzmuna laqeyddirsə, ondan dil fərqliliklərinin ortaya çıxarılması və öyrənilməsi asılı və tabe mövqe tutur, əks halda təxirəsalınmaz və həlledici əhəmiyyət qazanır.

16. Bu daha aydın şəkildə özünü sadə sözün anlayışla tutuşdurulmasında göstərir. Dil sözlə bitmir, hərçənd fəaliyyət canlı aləmdə necədirsə söz də eləcə, dilin ən vacib hissəsidir. Bir dilin təsviri vasitələrdən istifadə etdiyi yerdə digər dil onu bir sözlə ifadə edirsə, bu, şərtilik, hətta laqeydlik deyil; bu, qrammatik formalara aiddir, belə ki, sonuncular təsvir zamanı anlayışa münasibətdə saf forma kimi və artıq modifikasiya edilmiş ideyalar yox, modifikasiya üsulları kimi çıxış edir. Lakin bu, anlayışın işarələnməsinə də aiddir. Əgər o şey ki, anlayışda təklik kimi təsəvvür olunub ifadədə həmin şəkildə təzahür etmirsə, üzvlənmə qanununun pozulması qaçılmaz olacaqdır. Və fərdiyyət kimi ayrıca bir sözün də canlı hərəkəti o anlayış üçün ortadan qalxmış olacaqdır ki, haqqında bəhs olunan ifadəni əldə etməmişdir. Anlayışların vəhdətinin yarandığı dərrakə aktına sözün hissi işarə kimi vəhdəti uyğun gəlir. Və hər iki vəhdət təfəkkürdə və nitq vasitəsilə nə qədər mümkündürsə o qədər bir- birinə yaxınlaşmış olmalıdır. Təfəkkür analizilə üzvlənmənin aparılması və

artikulyasiya yolu ilə səslərin ayrılmasındakı kimi, əksinə olaraq da həmin artikulyasiya təfəkkür materialına üzvləndirici və ayırıcı təsir göstərməli və bir üzvlənməyən kompleksdən digərinə keçərək, üzvlənmə vasitəsilə mütləq vəhdətə nail olunmasına yol açmalıdır.

17. Lakin təfəkkür, sadəcə olaraq, ümumən dildən asılı deyil – o, məlum olan dərəcədə eyni zamanda hər bir ayrıca dillə şərtlənir. Doğrudur, müxtəlif dillərin sözlərini fiqurlar, rəqəmlər və cəbri tənliklər arasında qarşılıqlı- birmənalı uyğunluğun bariz şəkildə görüldüyü riyaziyyatın nümunəsi ilə ümumi qəbul edilmiş işaralərlə əvəzləməyə cəhdlər edilmişdir. Ancaq bu cür işarələrlə bütün ağıla gələnlərin yalnız az bir hissəsini nəzərə çarpdırmaq olar, çünki öz təbiətləri etibarilə həmin işarələr təkcə o anlayışlara yarayır ki, onlar ancaq dərrakə tərəfindən konstruksiya yolu ilə hazırlanmışdır. O yerdə ki daxili hiss və həyəcanlar anlayışlara öz möhürünü vurmalıdır, biz insan təsəvvürlərinin fərdi üsulları ilə əlaqədar oluruq ki, dil onlardan ayrılmazdır. Görülməsi və ya eşidilməsi mümkün olan işarələrdə müxtəlifliyin və ayrıcalığın rəngarəngliyini ümumiliyə gətirmək üçün edilmiş bütün cəhdlər yalnız ixtisarla tərcümə metoduna gətirib çıxara bilər. Və elə bir tərtəmiz ağılsızlıq olardı ki, həmin üsulla, mən demirəm ki, bütün dillərin, heç olmasa müəyyən bir dilin, dar sahədə hətta öz dilinin hüdudundan kənara çıxmağın mümkünlüyü fikri ilə aldadasan. Bunula belə, bütün dillər üçün haqqında söhbət gedən orta nöqtəni (Mittelpunkt) axtarmaq və onu həqiqətən tapmaq, eləcə də nəzərdən buraxmamaq olar. Həmçinin dillərin müqayisəli öyrənilməsi zamanı – onların istər qrammatik, istərsə də leksik hissələrində həm bu, həm də digərində bütöv bir sıra elementlər vardır

ki, tamamilə aprior olaraq təyin edilə və hər bir dilin bütün şəraitlərindəkindən fərqləndirilə bilər. Və əksinə, olduqca çoxlu sayda anlayışlar, eləcə də özünəməxsus qrammatik xüsusiyyətlər mövcuddur ki, öz dili ilə üzvi şəkildə qovuşduğundan bütün dillərin ümumi nailiyyəti ola və başqa dilə təhrifsiz keçirilə bilməz. Ona görə də hər bir dilin məzmununun əhəmiyyətli hissəsi bu dildən, heç bir mübahisəsiz, asılıdır və həmin məzmunun özünün dil ifadəsinə laqeyd qalması mümkün deyil.

18. Fikirlər aləmində anlayışı müstəqil vahid etmək qabiliyyətinə malik olmaqla yanaşı, söz ona özündən çox şeylər əlavə edir. Sözə görə müəyyənlik qazanan ideya eyni zamanda məlum hüdudlara salınır. Digər mənaca oxşar sözlərlə birlikdə sözün səslərindən, onda mühafizə edilsə də yeni əşyalara keçirilən anlayışlardan və onun hiss və həyəcanlara əlavə münasibətindən müəyyən təəssürat yaranır ki, vərdiş edilmiş olur, öz-özlüyündə az müəyyən, ancaq daha sərbəst anlayışın fərdiləşməsinə yeni məqam gətirir. Beləliklə, hər bir mənalı sözə onun tələb etdiyi yeni- yeni hisslər, qeyri- ixtiyari cuşə gətirilmiş obrazlar və təsəvvürlər əlavə edilir və müxtəlif sözlər öz aralarındakı münasibətləri o ölçüdə saxlayır ki, bir birinə qarşılıqlı təsir edə bilsinlər. Necə ki söz əşya barəsində təsəvvür tələb edir, həm öz təbiətinə, həm də obyektin təbiətinə uyğun olaraq, çox zaman hiss edilməz olaraq, eyni zamanda özünün təbiətinə uyğun hissiyyatlar obyektinə toxunur, eləcə də insanın fasiləsiz fikir axını həm dərəcəsinə, həm də çalarlarına görə, hər şeydən əvvəl, sözün və dilin təbiətinə müvafiq təqdim olunan obyektlər barədəki təsəvvürlərin eyni cür fasiləsiz ardıcıllığı ilə müşayiət edilir. Şüurdakı təzahürü hər dəfə dilin fərdiləşdirməsilə daim təkrar olunan bu cür təəssüratla yanaşı dayanan obyekt eyni za-

manda modifikasiya olunmuş şəkildə təsəvvür edilir. Ayrılıqda bu, az nəzərə çarpır, ancaq təsirin hakimiyyəti təəssüratların ölçü uyğunluğuna və daimi təkrarına əsaslanır. Dilin xarakteri hər bir ifadəyə və ifadələrin hər bir birləşməsinə hopduğuna görə bütün təsəvvürlər kütləsi dilə məxsus kolorit alır.

19. Bununla belə, dil ayrıca bir insanın sərbəst yaradıcılığı deyil, həmişə bütöv xalqa mənsubdur; sonrakı nəsil onu əvvəlkilərdən alır. Bunun da nəticəsində onda bütün yaşların, hər bir cinsin, zümrənin təsəvvür üsulları, bu və ya digər tayfanın xarakteri və mənəvi fərqlilikləri qarışır, son hesabla, bütövlükdə insan nəsli yaradaraq, xalqlar söz və dil mübadiləsini aparırlar, dil həmişə məhdud olan fərdidən hər şeyi əhatə edən varlığa keçməklə subyektiv olanı obyektiv olana çevirməyin böyük vasitəsi olur. Əvvəllər məlum olmayan səs işarəsinin kəşfi hər cür insan təcrübəsi hüdudundan kənara çıxan dillərin ancaq mənşəyinin etirafı zamanı ağlabatandır. O yerdə ki insan məna ifadə edən hər hansı səsləri nəsildən- nəslə qoruyub saxlayır, həmin yerdə onlardan dil yaradır və onlara uyğun olaraq öz dialektini formalaşdırır. Bu, anlamlı olma, bütün hissə və elementlərin bağlılığının hər bir dilə məxsusluğu və dil qabiliyyətlərinin eyniliyi tələbatının əsasına qoyulmuşdur. Hətta bilavasitə qrammatik izahlarda möhkəm yadda saxlamaq lazımdır ki, bizə qədər gəlib çatmış dilləri yaradan tayfalara onları icad etmək asan başa gəlməmiş, həmin tayfalar yalnız əldə etdiklərini üzvləndirmiş və istifadə etmişlər. Qrammatik formalarda çoxlu incə nüansların təzahürünü yalnız bu yolla izah etmək olar. Onlar üçün müxtəlif işarələnmə icad etmək çox mürəkkəb iş olardı; əksinə, artıq mövcud olan müxtəlif formaları müxtə-

lif surətdə işlətmək tamamilə təbiidir. Əsas etibarilə sözlər dilin aparıcı elementləri kimi xalqdan xalqa köç edir. Qrammatik formalar üçün keçid imkanı daha çətindir, çünki onlar incə intellektual təbiətlərinə görə maddi olmaqdan daha çox ağılda mövcud olur və özlərini büruzə verərək səslərdə möhkəmlənir. Bir- birini əbədi olaraq əvəz edən insan nəsilləri ilə obyektləri əks etdirən aləm arasında sonsuz sayda çoxlu sözlər vardır ki, onlar hətta başlanğıcda sərbəstlik qanunu əsasında yaranaraq, məhz həmin şəkildə işlənməklə davam edirlərsə də, onlara yalnız tarixən izah edilən, təbiətin, insanın və hadisələrin gücü vasitəsilə tədricən yaranmış müstəqil mahiyyət (Wesen) kimi baxmaq lazım gəlir. Sözlərin izləri tarixəqərki dövrün qaranlıqlarında itir, odur ki, başlanğıc müəyyən etmək mümkün deyil; onların şaxələnməsi bütün bəşəriyyəti, insanlar bir- birindən nə qədər uzaq olurlarsa olsunlar, əhatə edir: onların arasıkəsilməz hərəkəti və daimi ortaya çıxmaları o halda sona çata bilər ki, yaşayan bütün hazırkı nəsil qırılsın və bütün əlaqə kanallar birdəfəlik kəsilsin. Hələ ki xalqlar onlara qədər mövcud olan dilin elementlərindən istifadə edirlər, hələ ki onlar obyektlərin inikası işinə qarışırlar, dildən asılı olmamaq barədə anlayış belə mümkün deyil. Lakin dildən asılı olan insan ona əks təsir göstərir və odur ki hər bir ayrıca dil üç müxtəlif, lakin qarşılıqlı əlaqədə olan təsirin nəticəsidir: əşyaların gerçək təbiəti – o, ruha (Gemüth) təsir göstərir; xalqın subyektiv təbiəti; dilin özünəməxsus təbiəti. Və yad (fremd)qarışıq dilin əsas materiyasına və dil tərəfindən mənimsənilən nə varsa, ilk əvvəllər hətta sərbəst yaradılan – analogiya üzrə yaradılmalara ancaq müəyyən hüdudlarda imkan verir.

20. Fikirlə sözün qarşılıqlı şərtlənən asılılığı göstərir ki, dillər yalnız artıq dərk olunmuş həqiqətlərin ifadə vasitəsi

yox, həm də daha çox əvvəl məlum olmayanın kəşfi vasitəsidir. Onların fərqi təkcə səslərin və işarələrin müxtəlifliyində deyil, dünyagörümünün özünün fərqliliyindədir. Dilin hər cür tədqiqinin əsas və son məqsədi bundan ibarətdir. Dərk olunanın yekunu – insan fikrinin üzərində işlənməsini gözləyən xam torpaq kimi – bütün dillər arasında onlardan asılı olmayaraq qərar tutur. Bu büsbütün obyektiv sferaya insan başqa cür deyil, ona məxsus idrak və qəbul etmə üsulu, nəticə etibarilə, ancaq subyektiv yolla yaxınlaşa bilər. Məhz orada, harada ki tədqiqatın zirvəsinə və dərinliyinə çatılır, hər bir özünəməxsusluqdan rahat ayrılan dərrakənin (Verstandesgebrauch) mexaniki və məntiqi təsiri kəsilir və daxili qəbuletmə və yaradıcılıq prosesi başlayır ki, obyektiv həqiqətin subyektiv fərdiliyin gücünün dolğunluğundan axıb gəldiyi buradan tamamilə aydın olur. Bu, yalnız dil vasitəsi ilə və dilin gücünə mümkündür. Lakin dil xalqın və keçmişin məhsulu olaraq insan üçün nədəsə yaddır: ona görə də insan, bir tərəfədən, keçmiş nəsillərin dildə qoyub getdiyi irslə bağlıdır, digər tərəfdən isə, onunla zənginləşir, möhkəmlənir və ilhama gəlir. Dərk olunana münasibətdə subyektiv olan dil insana münasibətdə ona görə obyektivdir ki, hər bir dil insanın ümumi təbiətinin əks-sədasıdır. Əgər dillərin yekunu heç zaman bəşəriyyətin subyektiv xarakterinin mükəmməl surəti ola bilməzsə də, onlar hər halda fasiləsiz olaraq həmin məqsədə doğru yaxınlaşırlar. Bütün bəşəriyyətin subyektiv xarakteri öz-özünə yenidən nədəsə obyektiv olur. Kainatla insan arasında həqiqətin hər cür dərkinin mümkünlüyünə əsaslanan ilkin uyğunluq (Übereinstimmung), beləliklə, yenidən onu hissə hissə və tədricən əldə etmək yoluna düşür. Çünki obyektiv olan odur ki, əslində, gərək dərk edilə və nə

zaman ki insan dilin özünəməxsus xüsusiyyətləri vasitəsilə ona yaxınlaşır, o, yeni qüvvə sərf etməlidir ki, subyektiv olanı ayırıb, ondan obyektivi dəqiq üzvləndirsin – hətta bir dil subyektivliyi başqası ilə qarışdırılmış olsa belə.

21.Əgər müxtəlif dillərdə hissi olaraq qəbul edilməyən əşyaların ifadə üsullarını müqayisə etsək, görünəcək ki, eyni dərəcədə mənalı, başqa bir şeyi yox, yalnız onlara müncər ediləni əks etdirən olacaqdır. Yerdə qalanların hamısı mərkəzlərində dayanan sahə (əks etdirdikləri əşyanı əgər belə adlandırmaq mümkündürsə) ilə kəsilir və fərqli mənalar verir. Hissi qəbul edilən əşyalar üçün ifadələr o həddə qədər eyni dərəcədə mənalıdır ki, onlarda eyni bir əşya nəzərdə tutulsun, lakin həmin əşya barədəki təsəvvür müxtəlif üsullarla ifadə olunduğundan, onlar mənalarda ayrı düşə bilərlər. Əşya barəsindəki fərdi sözün yaranmasına təsiri o vaxta qədər təyinedici olur ki, həmin təsəvvür canlıdır və söz əşyanı tələb edir. Ancaq çox sözlər hissi olaraq qəbul edilən və hissi olaraq qəbul edilməyən əşyaların ifadələrinin birləşmələrindən və yaxud birincilərin əqli yenidənişlənməsindən əmələ gəlir, ona görə də onların hamısı, əgər hətta zaman keçdikcə birincilərdə itsə belə, həmin yenidənişləmənin təkrarolunmaz fərdi izlərini öz üzərlərində daşıyırlar. Beləliklə, dil bütünlüklə əşyalar barədəki təəssüratların məhsulu və danışanın sərbəst yaradıcılığı olmayıb, eyni zamanda həm inikas, həm də işarədir. Hər bir ayrıca dil hər bir elementdə işarə olunan xüsusiyyətlərdən birincisinin möhürünü öz üzərinə götürürsə də, məxsusi dəqiqlikdən əlavə, onun izlərinin anlaşılması hər bir halda ruhun sözü, başlıca olaraq, inikas və ya işarə kimi qəbul etmək meylinə dayanır. Ruh (Gemüth) mücərrədlik üzərində sərəncam vermək hakimiyyətinə qadir olaraq işarəyə qədər nüfuz etmək iqtidarındadır, lakin o da,

ola bilər, özünün bütün qabiliyyətini göstərərək, dilin özünəməxsus materialının təsir dolğunluğunu duyur. Danışan bu imkanlardan istədiyini seçə bilər. Və tez- tez nəsrə aid deyil, poetik nitq ifadələrinin işlədilməsi başqa heç bir məqsədə yox, məhz ruhun əhvali-ruhiyyəsini ona yönəltməyə xidmət edir ki, dilə işarə kimi baxılmasın. Əgər dilin bu cür ikili istifadəsinə iki müxtəlif surətlilik kimi baxılsa, onları gerçəklikdə olduğundan daha dəqiq fərqləndirməyə cəhd göstərsək, birini elmi, digərini nitqə məxsus adlandırmaq olar. Birincisi eyni zamanda həmçinin işgüzar olduğu halda, ikincisi gündəlik, təbiidir – hər halda sərbəst ünsiyyət ruhun hissiyyatının sərbəstliyinə meydan açır. Burada qəbul edilmiş mənada elmi işlədilmə ancaq tamamilə məntiqi quruluşa əsaslanan elmlərdə, eləcə də təbii elmlərin bəzi sahələrində və metodlarında istifadə olunur; insan gücünün bölünməz hərəkətini tələb edən hər bir idrak aktında nitq işlədilməsi ortaya çıxır.

İdrakın məhz bu növündən bütün digər sahələrə işıq və isti yayılır; ümumi mənəvi yaranmanın başlanğıc hərəkəti ancaq ona əsaslanır. Və o xalq ki poeziya, fəlsəfə və tarixdə bu idrakın zirvələrini axtarıb onlara yüksəlmir, dilin xeyirxah əks təsirindən məhrum olur. Ona görə ki o öz günahı ucbatından dili daha çox materialla qidalandırmır, halbuki yalnız bu cür qidalandırma dildə təzətərliyi və ifadəliliyi, parlaqlığı və gözəlliyi qoruyub saxlaya bilər. Bu, artıq natiqlik sahəsidir. Əgər doğrudan da, natiqlik adı altında tamamilə geniş və bütünlüklə adi olmayan mənada dilin izahını versək, razılaşmalıyıq ki, o, obyektlərin inikasına əhəmiyyətli təsir göstərir və ya bu məqsəd üçün şüurlu şəkildə istifadə olunur. Axırıncı halda natiqlik tam əsaslarla (yaxud heç bir

əsas olmadan) həm elmi, həm də işgüzar istifadəyə daxil ola bilər, elmi istifadə isə öz növbəsində konvensional istifadədən təcrid edilməlidir. Hər iki növ eyni bir sinfə aiddir, çünki onların hər biri dil materialının özünəməxsusluğunu öldürərək, sonuncunu ancaq işarə kimi istifadə etməyə can atır. Lakin elmi istifadə zamanı dil o sahəyə tətbiq edilir ki, ora məqsədə uyğundur və orada hər bir ifadənin subyektiv xarakterinin aradan qaldırılmasına, yaxud ruhun bütövlükdə obyektiv lad üzərində qərar tutmasına nail olunur. Dilin rahat və mühakiməli işgüzar işlədilməsi həmin prinsipə dayanır. Konvensial istifadə dilə duyğu azadlığına ehtiyac olan sahədə izahat gətirir; o hər bir ifadəyə dərəcəsinə və koloritinə görə xüsusi subyektivlik verir və insanda müvafiq əhval ruhiyyə oyatmağa can atır. Söz bu yolla nitq istifadəsi sahəsinə keçir və itirilmiş natiqlik və poeziyanı bərpa edir. Elə xalqlar var ki, öz xarakterlərindən irəli gələn xüsusiyyətlərin nəticəsi olaraq dilin inkişafının doğru olmayan yollarından birinə üz tutmuşlar, yaxud doğru yolla birtərəfli hərəkət etmişlər; elələri də var ki, çox və ya az dərəcədə dilə münasibətdə uğur əldə edir. Əgər tale üzünə gülürsə ki, danışığa, nəğməyə və musiqiyə meyilli olan xalq öz orqanizminin ən yüksək çiçəklənməsinə nail olsun, bütün zamanlar üçün ümumi heyrət doğuran möcüzəli dillər yaradırlar. Yunan dilinin mənşəyini ancaq belə bir xoşbəxt uğurla izah etmək olar.

22. Dilin bu sonuncu və daha vacib tətbiqi onun ilkin orqanizminə yad ola bilməz. Ona sonrakı inkişafın təməli qoyulmuşdur. Və bizim tərəfimizdən müqayisəli dilçiliyin əvvəldə bölünmüş hissələri indi bir- birinə qovuşur. Bütün xalqların qrammatika və söz ehtiyatının tədqiqi (o ölçüdə ki, bizim buna imkanımız vardır), eləcə də inkişaf etmiş dillərin

yazılı abidələri öyrənilməsi əsasında bəşər dillərinin nail olduğu ideyaların yaradılmasının (ideenerzeugung) növ və dərəcəsinin əlaqəli və aydın şərhi həyata keçirilməli və onların quruluşunda dillərin müxtəlif keyfiyyətlərinin onların mükəmməlliyinə təsirinin payı üzə çıxarılmalıdır.

23.Mənim məramım bütövlükdə dillərin müqayisəli öyrənilməsinin mənzərəsini yaratmaq, həmin öyrənilmənin məqsədlərini müəyyənləşdirmək, eləcə də həmin məqsədə çatmaq üçün dillərin mənşələrinə və kamilləşmə proseslərinə birlikdə baxmağın zəruriliyini sübut etmək idi. Əgər biz öz araşdırmalarımızı həmin istiqamətdə aparsaq, yalnız bu halda dili sərbəst işarələr kimi izah etməyə daha az meyil göstərərik. Və dərinə, mənəvi həyata nüfuz edərək onların özünəməxsus quruluşlarında öyrənmə və həqiqəti dərk etmə vasitələri, eləcə də şüur və xarakterin təşəkkül formasını əldə edərik. Əgər kamilliyin yüksək dərəcəsinə qalxmış dillərə xüsusi dünyagörüşü (Wettansichten) xasdırsa, yalnız onların bir- birinə yox, total şəkildə bütün ağıla gələnlərə münasibəti olmalıdır. Dillərlə də insan xarakterilə olanlar baş verir və ya müqayisə üçün daha sadə nümunə gətirsək, eyni ölçüdə həm totallığın, həm də fərdiliyin xas olduğu təsviri sənətdəki Tanrıların idealları ilə, hər halda hər bir təsvir bütün mükəmməlliklərin eyni zamanda təcəssümü kimi müəyyən baxımdan fərdiləşdirilmiş ideal deyil. Lakin ona hesablanmaq olmaz ki, hansısa bir dildə təmiz şəkildə bu cür üstünlüklər tapılacaqdır və xarakterlərin və dillərin tarixi fərqliliklərinin oxşar təsəvvürlərinə cəhd şeylərin həqiqi vəziyyətini təhrif etmək olardı. Dilin yalnız məlum meyli və onun dəqiq izlənilməyən istiqamətindən danışmaq olar. Insanın, eynilə xalqın və dilin xarakterinin təşəkkülü (bu halda müxtəlif təza-

hürlərin bir qanuna tabe olması yox, mahiyyətlərin hansısa ideala yaxınlaşması başa düşülməlidir), təsəvvür etmək mümkün deyil ki, əgər bir iddia haqqında təsəvvür vasitəsilə verilən istiqamətə uyğun yolda durmuşuqsa, hər tərəfdən iddialı digər istiqamətlər şübhə doğurur. Xalqların dillərə müncər edilən vəziyyəti tayfa fərqlilikləri üçün olduqca yüksək və mükəmməl göstəricidir. O, nisbətən böyük sayda xalq kütləsinin varlığını nəzərdə tutur ki, dillərin öz mükəmməlliyinə çatması üçün zəruridir. Bu zənginliyin əsasında kasıblıq dayanır. Və bizim mənşəyimiz oradan gəlir. O, insan nəslinin qaçılmaz bölünməsi və budaqlanmasından təşəkkül tapır. Həmin vəziyyətə dillər öz mənşələri ilə borcludur. O çoxlu kiçik insan cəmiyyətlərinə üstünlük verir ki, dillər üçün təşəkkül tapmaq asan olsun. Onların çoxu qarışmalı və itməlidir ki, zəngin və plastik dillər meydana gəlsin. Hər iki halda yer üzündə insan nəsillərinin kəşf etdiyi və qoruyub saxladığı nə varsa hamısı birləşir; təbii fiziki ehtiyaclardan nəşət edərək hər ikisi inkişaf prosesində yüksək mənəvi dəyər qazanır.

Tərcümə edən: Nizami Cəfərov

Bəşər dilləri quruluşunun müxtəlifliyi və bunun bəşəriyyətin mənəvi inkişafına təsiri haqqında. Fərdlər və millətlər arasında qarşılıqlı əlaqə

İndiyədək insan nəslinin mənəvi inkişafını təhlil edərək, biz onu nəsillərin ardıcıl dəyişməsində nəzərdən keçirdik və burada dörd əsas müəyyənləşdirici məqam qeyd etdik: bütün yer kürəsi ərazisində insanların təbii şəraitdə sakit mövcudluğu; onların qismən düşünülmüş və məqsədyönlü, ya-

xud ehtiraslar və ruhi coşğunluqların törətdiyi, qismən də onlara xaricdən – mühacirət, müharibə və s. zorla qəbul etdirilən fəaliyyəti; səbəb və nəticənin səliqəli zəncirinə hörülmüş əqli nailiyyətlər; nəhayət, mənəviyyatm təkcə onlarda büruzə çıxan daxili qüvvələrinin gizli fəaliyyəti ilə edilə bilən təzahürü. İndi irəliyə doğru hər hansı hərəkətin isnad etdiyi inkişafın hər bir ayrıca nəslin hüdudlarında necə baş verdiyini nəzərdən keçirmək bizim qarşımızda durur.

Fərdin fəaliyyəti, yəqin ki, məlum hüdudadək isə həqiqətən də onun bütün bəşər nəslinin fəaliyyəti ilə eyni istiqamətli olmasma baxmayaraq, tez ya gec həmişə kəsilir, belə ki, şərtləndirilmiş və şərtləndirilən keyfiyyətdə o, keçmiş və gələcək dövrlərlə fasiləsiz əlaqədə olur. Hər halda onun mahiyyətinə daha dərindən nəzər saldıqda fərdin müəyyən məqsədə yönəlməsinin bütün fəaliyyəti fonunda divergent olması məlum olur, belə ki, dünya tarixinin əzəli toxuması, bu sonuncu insanın mənəvi başlanğıcına toxunduğu üçün, bu iki uyğun gəlməyən və eyni zamanda, sıx əlaqəli fəaliyyətdən ibarətdir. Divergensiya onda təzahür edir ki, nəsillərin məhvinə baxmayaraq, nəslin taleləri, düz yolla olmasa da, hər halda bütövlükdə, biz nə qədər mühakimə yürüdə bilərikso, dönmədən onu kamilliyə apardığı halda, fərd və ümumi taledən nəinki düşür – həm də çox vaxt qəfildən və öz ən mühüm fəaliyyətinin qaynar çağında, hətta, bundan başqa, öz daxili şüuruna, öz qabaqcadan hiss etmə və öz əqidəsinə görə hər halda inanmır ki, öz həyat yolunun sonunda durur. İnsan öz şəxsi taleyində ümumi talelərin gedişindən götürülmüş nə isə görür və hələ həyatında onda şəxsiyyətinin təşəkkülü ilə gerçəkliyə daxil olaraq hər kəsin öz dairəsində işi olduğu dünyaquruluşu arasında rabitəsizlik baş ve-

rir. Bu rabitəsizliyin nə nəslin inkişafı üçün, nə də fərdin təşəkkülü üçün məhvedici olmayacağının zəmanəti insan təbiətinin özüdür. Şəxsiyyətin təşəkkülü yalnız dünyanın yenidən qurulması işində baş verə bilər, bir həyatın hüdudları ilə məhdudlaşdırılmayan ürək coşğunluqları, arzular, qohumluq əlaqələri, şöhrət ehtirası, gələcəyə bu və ya digər adamın başlanğıcını qoyduğu inkişafa olan sevinc dolu ümidlər onu iştirak etməkdən əl çəkdiyi talelərə və tarixə bağlayır. Bu əkslik öz əsası kimi ən qüdrətli və ən müqəddəs arzuların kök saldığı ruhi dərinliyi yaradır və bundan daha artıq, lap əvvəldən şərtləndirir. Onun təsiri onunla göstərilir ki, insan nəinki özünün, həm də eyni dərəcədə bütün adamların məqsədini bir həyatın hüdudlarından kənara yayılan inkişafda və özünütəkmilləşdirmədə görür, bunun sayəsində ürəyi ürəyə bağlayan talelər başqa və yüksək məna kəsb edir. Gerçəkliklə bağlanan, lakin eyni zamanda, onun daxilində xüsusiləşən bizim MƏN daxili həyatın nail olduğu müxtəlif intensivlikdən, onun ağalığının böyük, yaxud kiçik bütövlüyündən hər bir adam üçün nəticələrin inkişafı törəyir. Ruhun həyatının işıqlana biləcəyi təmizliyin, lakin həm də onun tamamilə dəyişmə prosesində çata biləcəyi kəskin təzadların qəribə nümunəsi Hindistan ola bilər və hind qədimliyini bu baxımdan daha asan başa düşmək olar. Mənəvi əhvali-ruhiyyə dilə xüsusi təsir göstərir. Uzaq gərgin tərəddüd yoluna həvəslə başlamış xalqlarda və əsas etibarilə xarici fəaliyyətlərində qarşılıqlı anlamaya çatmaq üçün dil vasitəçi kimi lazım olan millətlərdə bu təsir müxtəlif cür təşəkkül tapır. Birincilər simvolun təbiətini tamamilə xüsusi şəkildə qavrayır, ikincilərdə isə dil sahəsinin bütöv sferləri xalq qalır. Zərurət üzündən dil gələcəkdə əvvəllər hələ dumanlı və aydın olmayan duyğular vasitəsilə öz işığını yaymalı olduğu sferlərə

daxil olur. Fərdin yer üzündə qırılan həyatı nəslin fasiləsiz inkişafı ilə, olsun ki, bizim üçün əsrarəngiz sahədə necə yenidən birləşəcək, bu, bizim üçün anlaşılmaz sirr olaraq qalır. Lakin bu sirrin hiss edilməsi ruha öz təsirini göstərir və nə isə dərk edilməyən bir şey qarşısında müqəddəs cəsarətsizlik oyadaraq, daxili fəaliyyətin yaranmasında mühüm moment təşkil edir, lakin buna baxmayaraq hətta bütün dərk edilənlər itəndən sonra da mövcud olacaqdır. Bunu gecənin təəssüratı ilə müqayisə etmək olar: adi görünən aləmin əvəzinə yalnız bizə əsrarəngiz görünən cisimlərin seyrək sayrışması qalır.

Ayrı-ayrı nəsillərin məhvi zamanı tayfanın tarixinin davam etməsi belə daha mühüm nəticəyə də malikdir ki, hər yeni nəsil üçün keçmiş hər dəfə yeni işıqda təzahür edir. Xüsusən keçmiş haqqındakı məlumatları qorumaq üsullarının təkmilləşdirilməsi sayəsində sonrakı nəsillər səhnəsində onların öz həyatlarından daha zəngin və daha artıq parlaq drama inkişaf edən teatrda sanki tamaşaçıdırlar. Bundan başqa, hadisələrin qarşısıalmmaz axını nəsilləri, görünür, təsadüfən, gah daha dumanlı və məşum, gah daha işıqlı və asan qatlaşılan dövrlərdən keçirir. Real canlı fərdi təxəyyül üçün bu fərq tarixi təhlil üçün olduğu kimi o qədər də böyük görünmür: çoxlu hesablama nöqtəsi çatmır, insan hər dəqiqə tarixin təkcə hansı bir hissəsinisə yaşayır və öz hüquqlarını tələb edən gələcək onu özünün çala-çuxurlarından keçirir. Dumandan əmələ gələn bulud kimi dövr yalnız uzaqdan baxışda olduğu kimi hərtərəfli ümumi şəkildə təsvir edilmiş sima kəsb edir. Keçmişin hər dövrə təsirinin ölçüsü yalnız bu dövrün sonrakılara təsiri işığında aydınlaşır. Bizim müasir mədəniyyətimiz, məsələn, çox hissəsinə görə klassik qədim-

liyini bizə münasibətinə görə təşkil etdiyi ziddiyyətlər üzərində əsaslanır. Əgər antik dövrə mənsub olan nə varsa hamısından imtina etmək lazım gələrdisə, müasir mədəniyyətdən nə qalacağını göstərmək tələbi bizi çətin vəziyyətdə qoyardı və utandırardı. Qədim dünya xalqlarının vəziyyətini bütün tarixi təfərrüatlarında tədqiq etsək, onda məlum olar ki, onlar ürəyimizdə onlar haqqında mühafizə etdiymiz həmin surətə cavab vermir. Bizə olan ən qüdrətli təsir budur ki, biz onların ən yüksək və ən təmiz ehtiraslarından çıxış edərək onları qavrayırıq, onların ziddiyyətlərinə diqqət yetirmirik və onlara qarşı onların haqqında yaratdığımız təsəvvürlərə uyğun gəlməyən heç bir tələb irəli sürmürük. Onların xüsusiyyətlərinin bu cür dərk edilməsi heç də bizim şıltağımızla izah edilmir. Qədimdə yaşayanlar bizə bu hüququ verir; biz hər hansı başqa dövr haqqında buna oxşar təsəvvür yarada bilməzdik. Antik mədəniyyətin mahiyyətini dərindən dərk etməyimiz bizə onun səviyyəsinə qalxmaq bacarığı verir. Gerçəklik qədim adamlarda həmişə xoşbəxt bir asanlıqla ideya və fantaziyaya keçdiyi üçün ideya və fantaziyanın qüdrəti ilə onlar gerçəkliyə əks- təsir göstərdikləri üçün biz onları istisnasız olaraq bu işıqda dərk etmək hüququna malikik. Həqiqətən də hətta gerçəklik onlarda heç də həmişə ideala uyğun gəlməsə də, onların mənəviyyatına, onların ağıllarına gələn yazıya, onların yaratdıqları incəsənət və onların fəaliyyətinin istiqamətinə görə mühakimə yürütsək, onlar hər halda bəşəriyyət üçün mümkün olan azad inkişafın bütün mümkün dairəsini kamil təmizliklə, bütövlüklə və ahəngdaqlıqla cızmışlar və beləliklə, özlərindən sonra bizə ideal təsir edən ən yüksək və ideal insan təbiəti nümunəsi kimi obraz qoymuşlar. Günəşli səmanın buludlarla örtülmüş səma qarşısında üstünlüyü kimi, onların bizim qarşımızda

üstünlüyü də həyati obrazların xarakterinin özündən çox bütün dünyanı onlar üçün işıqlandıran heyrətli işıqdadır. Əksinə, yunanların özündə onlardan əvvəl gəlmiş xalqların təsiri nə qədər böyük olsa da, onları kənardan nurlandıran ideal tamamilə olmamışdır. Düzdür, onların Homer və ona qoşulan poeziyada buna bənzər nələri isə olmuşdur. Yunanlar öz oxşarı olmamazlıqlarında və yaradıcılıqlarının sövqedici səbəblərində bizə qısqanc təqlid üçün nümunə, çoxlu mənəvi nailiyyətin mənbəyi kimi xidmət edərək, bizə nə qədər əlçatmaz görünürlərsə, eləcə onlar üçün də Homer dövrü qaranlıq görünürdü və öz təkraredilməz incəsənəti və onun obrazları ilə hər halda onların yolunu işıqlandırırdı. Yunanlar bizim üçün nədirlərsə, romalılar üçün də ondan olmalıdır. Romalılar üçün onlar sadəcə müasir millətlərdən biri, daha savadlı və daha erkən ədəbiyyata malik olanı idi. Hindistan, onun tarixindən əvvəlki dövrü haqqında mühakimə yürütmək üçün, bizim üçün dumanlı uzaqlarda əriyir. O, Qərbə, heç olmasa, qədim zamanlarda, öz mənəviyyatının yaradıcılığının bənzəri olmayan forması vasitəsilə deyil, ən çoxu, Hindistandan Qərbə düşən ayrı-ayrı dünyagörüşləri, kəşflər, miflər vasitəsilə təsir etmişdir zira belə təsir izsiz əriyə bilməzdi. Kavi dili haqqında əsərimdə (I kitab, səh. 12) mən xalqların bir-birinə mənəvi təsirində bu fərqə təfərrüatı ilə toxunmuşam. Hindlilərə onların öz uzaq keçmişi, ehtimal ki, yunanlar öz uzaq keçmişini necə görürdülərsə, təxminən o şəkildə gəlirdi. Köhnə üslubda yazılmış əsərlərin nüfuzluluğu və kəskin fərqliliyi və onlardakı fəlsəfi təlimlər sayəsində uzaq keçmiş qarşısında sadəcə Çində daha aydın təzahür edir.

Madam ki, dillər, yaxud heç olmasa onların ünsürləri (əhəmiyyəti az olmayan fərq) bir dövrdən başqa dövrə verilir və yeni dillərin başlanğıcı haqqında biz bizim təcrübəmizin hüdudlarından tamamilə kənara çıxdıqda danışa bilərik, onda keçmişin müasirliyə münasibəti dil quruluşunun ən dərinliklərinə qədər işləyir. Bizə məlum olan dövrlər cərgəsində dövrün tutduğu yerin onu qoyduğu xüsusi vəziyyət hətta tamamilə inkişaf etmiş dillər üçün son dərəcə böyük əhəmiyyətə malikdir axı dil həm də əqli və hissi qavramanın müəyyən ukladıdır və bu uklad uzaq dövrlərdən xalqa çataraq, xalqa, onun dilinə təsir etmədən təsir edə bilməz. Əgər klassik uzaq keçmişin əvəzinə hind uzaq keçmişi bizə bu qədər uzun və israrla təsir etsə idi, bizim dillər bir çox münasibətdə başqa sima alardı.

Ayrıca adam həmişə bütövlə – mənsub olduğu öz xalqı, irqi, bütün insan nəslinin bütövü ilə bağlıdır. Hansı cəhətdən nəzərdən keçirməkdən asılı olmayaraq, fərdin həyatı mütləq ünsiyyətə bağlıdır. Xarici, tabe və daxili, yüksək hadisələr cərgəsinin təhlili bizi burada yuxarıda analoji hadisədə gördüyümüzə gətirib çıxarır. İnsanın geniş yer səthində sanki vegetativ yaşayışında yalqızlığın gücsüzlüyü onu özünəoxşarlarla qarşılıqlı əlaqəyə itələyir və mümkün olan kollektiv başlanğıclar naminə dil vasitəsilə qarşılıqlı anlaşmanı tələb edir. Mənəvi inkişaf, hətta xarakterin ifrat cəmlənmə və qapalılığında, yalnız dil sayəsində mümkündür, dil isə bizdən fərqlənən və bizi anlayan varlığa xitabı nəzərdə tutur. Başqa şəxsiyyətdə əks-səda oyatmaq üçün aydın səs köksdə axır ki, yenidən bizə qayıtsın və bizim eşitmə orqanlarımız tərəfindən dərk edilsin. Bununla da insan kəşf edir ki, onun ətrafında onunla eyni daxili tələbatı olan varlıqlar mövcuddur, ehtimal ki, onlar onu həyəcanlandıran müxtəlif ehtirasa

güzəştə getməyə qabildirlər. Həqiqətən, bütövlüyü irəlicədən duymaq və ona can atmaq onda fərdiyyətçilik hissi ilə bir yerdə doğur və fərdiyyətçiliyin dərəcəsi nə qədər artırsa, bütövlük hissinin dərəcəsi də bir o qədər artır, axı, hər bir şəxsiyyət inkişafın hansısa xüsusi yolunu seçmiş bütün insan təbiətini özündə daşıyır. Bizdə, əlbəttə, fərdi şüurdan başqa özgə şüur haqqında, hətta ən uzaq duyğu belə yoxdur. Lakin bütövlüyə təşəbbüs və bizim insanlığımız anlayışının özünün bizim daxilimizə qoyduğu sönməz ehtiraslar toxumu belə bir etiqadı zəifləməyə qoymur ki, ayrıca fərdiyyət məhdudlaşdırılmış mövcudluq şəraitində, ümumiyyətlə, yalnız mənəvi mahiyyəti olan hadisədir.

Fərdin onun gücünü və təşəbbüsünü artıran bütövlə əlaqəsi mənə belə ifadəyə icazə versələr, bəşər nəslinin mənəvi təsərrüfatında olduqca mühüm məqamdır ki, biz burada müəyyən şəkildə onun haqqında danışmaq borcundan özümüzü azad edə bilək. Xalqların və irqlərin təması, hər dəfə bununla yanaşı onların ayrılmasına də səbəb olan təmas, əlbəttə, hər şeydən əvvəl tarixi hadisələrin gedişindən, əsas etibarilə artıq xalqların məskun olduğu yerin və köçmə yollarının öz xüsusiyyətindən asılıdır. Lakin hətta – bunu mən o qədər də etmək istəməzdim – millətlər arasında daxili, qoy lap sadəcə instinktiv olsun, yaxınlaşmaların və uzaqlaşmaların hər hansı təsirini istisna etsək belə, yenə də onun xarici əlaqələrini nəzərə almazdan əvvəl hər bir xalqı daxilən bənzəri olmayan mənəvi yolla inkişaf edən insan fərdiyyətləri kimi nəzərdən keçirmək olar və lazımdır. Biz nə qədər çox bu qənaətə gəlirik ki, ayrıca şəxsiyyətlərin fəaliyyəti, öz dühaları ilə hansı bir pilləyə qoyulursa qoyulsun onlar öz xalqının mənəviyyatı ilə necə ilhamlanmışlarsa, özləri haqqında

yalnız o dərəcədə də silinməz iz buraxırlar və öz növbələrində öz xalqının həyatına yeni vüsət vermək qabiliyyətindədirlər, bir o qədər aydın şəkildə bizim müasir mədəniyyətimiz üçün əsası bu milli mənəvi fərdiyyətlərdə artırmaq zərurəti meydana çıxır. Xalqların daxili mədəniliyinin dərəcəsi haqqında mühakimə yürütmək üçün bizə harada məlumat saxlanmışsa, tarix bunun aydın cizgilərini hər yerdə bizə göstərir. Əlbəttə, sivilizasiya və mədəniyyət tədricən xalqlar arasındakı kəskin təzadları silir; daha dərin və yüksəldici təsiri olan təhsilə xas universal əxlaqi formaya meyil daha çox müvəffəqiyyətlidir. Milli məhdudiyyətlə buxovlanmasına baxmayaraq, həmişə ümuməhəmiyyətli idealları həyata keçirən elm və incəsənətin tərəqqisi də həmin istiqamətdə fəaliyyət göstərir. Lakin hər şeyin bir məqsədə doğru yönəlməsinə baxmayaraq, məqsədə yalnız fərdi yollarla çatmaq olar və kiçildici məhdudluğa düşmədən insan fərdiyyətinin özünü göstərməyə qabil olduğu müxtəliflik hüdudsuzdur. Həm də ümumi səyin müvəffəqiyyəti məhz tamamilə bu müxtəliflikdən asılıdır; axı bu, əlbəttə, heç vaxt izahı mümkün olmayan, lakin həmişə zərurətlə parlaq şəkildə ifadə edilmiş fərdiyyət kimi fəaliyyət göstərən mənəvi qüvvənin bütöv, bölünməz vəhdətini tələb edir. Buna görə də ümumi mədəniliyin tərəqqisinə səmərəli və qüdrətli təsir göstərmək üçün xalqa nəinki ayrı–ayrı elmlərin müvəffəqiyyəti, həm də hər şeydən əvvəl varlığının mərkəzini təşkil edən və dahi parlaq və tam şəkildə fəlsəfə, poeziya və incəsənətdə ifadə edilən, sonralar xalqın təfəkkür tərzinə və qavrayışına yayılan zəifləməyən diqqət lazımdır.

Fərdin onu əhatə edən xalq kütləsi ilə burada nəzərdən keçirilmiş əlaqəsinə görə birincinin hər hansı əhəmiyyətli mənəvi fəaliyyəti, qoy lap vasitəli və qismən olsun, həm də

ikinciyə mənsubdur. Lakin dilin mövcudluğu sübut edir ki, ruhun ayrıca fərddən bütün cəmiyyətə keçməyən, lakin yalnız hamının eyni zamanlı özfəaliyyəti sahəsində doğula bilən yaradıcılığı da olur. Dillərin forması milli olduğu üçün onlar həmişə həqiqi və birbaşa mənada millətlər tərəfindən yaradılır.

Lakin bu tezisin qeydsiz qəbulundan imtina etmək və bir vacib qeyd etmək lazımdır. Həqiqətən, dillər insanın daxili təbiəti ilə qırılmaz şəkildə qovuşmuşdur, onlar qəsdən onun tərəfmdən törədilməkdən daha çox xeyli böyük dərəcədə müstəqil şəkildə ondan üzə çıxır, buna görə də xalqların milli xüsusiyyətlərini müvəffəqiyyətlə onların dillərinin nəticəsi hesab etmək olar. Həqiqət bundadır ki, bu da, o biri də eyni zamanda qarşılıqlı razılıqda ruhun əlçatmaz dərinliklərindən nəşət edir. Biz təcrübədə dilyaratmanı müşahidə edə bilmərik və onun haqqında nəticə çıxarmaq üçün analogiyanı heç yerdə axtara bilmərik. Əgər biz hərdən ilkin dillər haqqında danışırıqsa, bunlar yalnız bizim onların daha erkən komponentlərini bilməməyimizə görə ilkin dillərdir. Cüzi məlumatımıza görə ən qədim adlandırdığımız nöqtəyə çatana qədər dillərin fasiləsiz zənciri min illərdən keçmişdir. Üstəlik, nəinki təkcə həqiqi ilkin dillərin yaranması, hətta bizim tərkib hissələrinə çox yaxşı parçalamağı bacardığımız çox sonrakı törəmə dil yaranmaları da məhz onların başlanğıc törəmə nöqtələrində bizim üçün izahedilməzdir. Təbitdəki hər hansı təşəkkül, hər şeydən əvvəl üzvi və canlı təşəkkül, bizim müşahidəmizdən yayınır. Biz hazırlıq vəziyyətini nə qədər dəqiqliklə öyrənsək də onlardan sonuncu ilə bizim indiki anda müəyyən etdiyimiz hadisə arasında həmişə bir şeyi heç şeydən ayıran uçurum uzanır; həmin şey itmə anına da

aiddir. Bütün insan qavraması bu və o birinin arasındakı fasilədə yerləşir. Dillərdə yaxşı məlum olan tarixi zamanlarda baş vermiş onların yaranmasının bir müəyyən dövrü bizə valehedici nümunə verir. Latın dilinin yoxa çıxması və məhvi əsasında keçirdiyi dəyişikliklərin mürəkkəb cərgəsini izləmək olar, basqın edən qəbilələrin ləhcələri ilə onun qarışmasını da xatırlamaq olar, lakin bu, yenidən inkişaf edən dillərin orqanizmi olub cürbəcür simada açılan canlı rüşeymin yaranması anını sezməyə, azacıq da olsa, kömək etməz. Hər bir dildə yenidən yaranan daxili başlanğıc dağılmaqda olan binanı bir daha özü istəyən kimi birləşdirdi. Bu başlanğıc fəaliyyətinin həmişə istər-istəməz törəmə nəticələri sahəsində olduğumuz üçün biz daxili dəyişiklikləri yalnız nəticələrin həcminə görə qavrayırıq. Buna görə də elə görünə bilər ki, yaxşı olardı ki, dilin mənşəyi məsələsinə heç toxunmaya idik, lakin əgər biz insan mənəviyyatının inkişafı gedişini, heç olmasa, ümumi cizgilərdə çəkmək istəyiriksə, bu mümkün deyil, çünki dillərin, hətta xüsusi dillərin yaranması onların bir-birindən törəməsini və bir-biri ilə qarışmasının bütün üsullarında bəşəriyyətin mənəvi inkişafını müəyyənləşdirən ən əzəmətli faktdır. Fərdlər arasındakı qarşılıqlı təsir burada hər yerdəkindən daha çox təzahür edir. Buna görə də, nə tarixi tədqiqatçıların, nə də fikrin azad uçuşunun bizi keçirə bilməyəcəyi maneə qarşısında qaldığımızı boynumuza alsaq da, fərqi yoxdur, biz istər yuxarıda adını çəkdiyimiz faktın özünün ümumi təsəvvürünü, istərsə onun bilavasitə nəticələrini düzgün təsəvvür etməyə borcluyuq.

Onlardan birincisi və ən təbiisi budur ki, fərdin öz xalqı ilə xatırladılan əlaqəsi məhz müştərək mənəvi qüvvənin özündə hər cür fıkir, hər cür duyğu və iradəni təyin etdiyi mərkəzdədir. Zira dil mənəvi qüvvədə olan hər şeyə, istər

bütöv, istərsə tək-tək olsun, qohumdur; mənəvi qüvvədə olan heç bir şey dilə yad deyil. Həm də bu zaman nəinki sadəcə passivdir, nəinki təkcə təəssüratları mənimsəyir, həm də mümkün əqli məqsədlərin bütöv sonsuz müxtəlifliyindən öz daxili fəaliyyətinin gedişində hər hansı xarici təsiri yenidən işləyərək bir müəyyəni seçir. Dili mənəvi xüsusiyyətlə yanaşı da nə isə ona nisbətən xarici və ondan ayrı da nəzərdən keçirmək olmaz, ona görə ki, hərçənd ilk baxışda başqa cür görünür, işin əslində dili öyrənmək olmaz, onu yalnız ruhda oyatmaq olur; biz ona yalnız sap verə bilərik, o bu sapdan tutub artıq müstəqil surətdə inkişaf edəcəkdir. Beləliklə, xalqların yaratması olan bu ifadəni hər hansı anlaşılmazlıqdan təkcə azad etmək lazımdır, dillər, hər halda, fərdlərin yaratmaları kimi qalır, çünki hər ayrıca adam tərəfindən törədilə bilər, həm də yalnız hər kəs hamının qavramasını sandıqda, hamı isə onun ümidini doğrultduqda törədir. Buna baxmayaraq, dili müəyyən dünyagörüşü kimimi, yaxud fikirlərin əlaqələndirilməsi üsulu kimimi nəzərdən keçirsək, zira dil özündə bunu da, o birini də birləşdirir, o, həmişə zəruri surətdə insanın mənəvi qüvvəsinin məcmusuna isnad edir; mənəvi qüvvədən heç bir şey istisna etmək olmaz, çünki o özündə hər şeyi əhatə edir.

Bu qüvvə xalqlarda – istər ayrıca dövrlərdə, istərsə ümumiyyətlə – eyni bir ümumi istiqamətdə fəaliyyətində müxtəlif ola bilən öz təzahürünə və yollarının xüsusiyyətlərinin dərəcəsinə görə fərdi şəkildə fərqlidir. Fərq son nəticədə də, yəni dildə də təzahür etməyə bilməz və təbii ki, əsas etibarilə xarici təsirin daxili özfəaliyyət üzərində üstünlüyü şəklində, yaxud əksinə onda təzahür edir. Bəzi dilləri müqayisə edərək, bəzi dillərin quruluşunun digərlərinin quruluşundan ne-

cə törədiyini xüsusi səy göstərmədən müşahidə etmək bəzən bizə müyəssər olur, lakin başqa dillərdən həqiqi uçurumla ayrılan dillərə də təsadüf edilir. Fərdlər öz bənzərsizliyinin gücü ilə insan mənəviyyatına indiyədək salınmamış yolla hərəkətində necə yeni vüsət verirlərsə, xalqlar da öz dil yaradıcılığında elə fəaliyyət göstərirlər. Həm də dilin quruluşu ilə əqli fəaliyyətin digər növlərinin müvəffəqiyyətləri arasında mübahisəsiz əlaqə mövcuddur. Bu əlaqə hər şeydən əvvəl biz də onu burada yalnız bu cəhətdən nəzərdən keçiririk dildə baş verən dünyanı fikrə çevirmə aktının özü vasitəsilə dilyaratma qüvvəsinin onun bütün sahələrinə ahəngdar yaydığı həyatverici yenilikdə gizlənir. Əgər ümumiyyətlə, xalqın elə bir dil yaratması mümkündürsə ki, o dildə maksimum dərk edilmiş və obrazlı söz dünyanı seyretmə ilə yaradılsın, özündə bu dünyabaxışın təmizliyi yenidən yaradılsın və öz formalarının kamilliyi sayəsində son dərəcə asanlıqla və çevikliklə fikirlərin hər hansı qoşulmasma daxil olmaq imkanı alsın, onda bu dil, hələ ki, öz həyat başlanğıcını heç olmasa az-çox qoruyursa, hər danışanda həmin istiqamətdə fəaliyyət göstərən eyni mənəvi enerjinin hökmən yüksəlişinə səbəb olmalı idi. Buna görə də belə, yaxud hətta heç olmasa buna yaxınlaşanda dilin dünya tarixinə daxil olması bəşəriyyətin inkişafı yolunda mühüm, həm də məhz onun ən yüksək və son dərəcə gözəl dövrünün başlanğıcını qoymalıdır. Ruhun elə yolları vardır ki, əqli qüvvənin elə coşğunluğu vardı ki, oxşar dillər yaranmazdan əvvəl ağlasığmazdır. Belə dillər bununla da insan nəslinin daxili tarixində həqiqətən dönüş nöqtəsi təşkil edir; onlar nə dərəcədə dilyaratmanın zirvəsidirsə, bir o dərəcədə ruhlandırılmış mədəniyyətin, həyatla dolu təsəvvürün başlanğıc pilləsi vəzifəsi ifadə edir, bu mənada belə bir hökm tamamilə doğrudur ki, xalqların yaradı-

cılığı fərdlərin yaradıcılığından əvvəl gəlməlidir – hərçənd, digər tərəfdən, bizim yuxarıda bütün dediklərimiz təkzibedilməz şəkildə sübut edir ki, bunların da, onların da fəaliyyəti onların birgə yaradıcılığında sarmaşmışdır.

Dilin yaxından baxılmasına keçid

Beləliklə, biz bunu qavramağa nail olduq ki, insan nəslinin yaranmağa başlanmasının lap əvvəlindən dil elə bir ilkin və zəruri pilləni təşkil edir ki, xalqlar ona əsaslanaraq yüksək məqsədlər dalınca getməyə qabil olurlar. Dillərin yaranması da mənəvi qüvvənin yaranmasının səbəbləri ilə şərtlənir, eyni zamanda, dil sonuncunun daimi stimulyatoru kimi qalır. Dil və mənəvi qüvvə bir-birindən ayrılıqda və biri digərinin ardınca ardıcıl şəkildə inkişaf etmir, əqli qabiliyyətlərin bölünməz fəaliyyətini təşkil edir. Xalq öz dilini insan fəaliyyətinin aləti kimi yaradır, ona öz dərinliklərindən azad şəkildə inkişaf etmək imkanı verir, bununla yanaşı nə isə real, nə isə yeni və yüksək olanı axtarır və tapır; poetik yaradıcılıq və fəlsəfi qabağı görmək yollarında buna nail olaraq, o, öz növbəsində dilə də əks təsir göstərir. Əgər əqli məqsədlərin ilk, ən bəsit və hələ bitkin şəklə düşməmiş təcrübələrini ədəbiyyat adlandırmaq olarsa, onda dil ədəbiyyatla qırılmaz əlaqədə inkişaf edir.

Xalqın dilinin mənəvi xüsusiyyəti və quruluşu bir-biri ilə o qədər sıx birlikdə olur ki, əgər biri mövcuddursa, bundan mütləq o birinin də mövcudluğu hasil olur. Həqiqətən də əqli fəaliyyət və dil yalnız elə formalara yol verir və həyata doğurur ki, bunlar onların ehtiyacını ödəyir. Dil xalqların mənəviyyətinin sanki xarıci təzahürüdür; xalqın dili onun mə-

nəviyyətidir, xalqın mənəviyyəti də onun dilidir və bundan daha çox eynilik təşkil edən bir şeyi təsəvvürə gətirmək çətindir. Necə olur ki, onlar vahid və dərk edilməsi anlaşılmaz olan bir mənbədə birləşir, bizim üçün sirr olaraq qalır. Ancaq birinin, yaxud digərinin üstünlüyünü müəyyənləşdirməyə cəhd etməyərək, biz xalqın mənəvi qüvvəsində dilləri fərqləndirmək üçün müəyyənləşdirici prinsip və həqiqi müəyyənləşdirici əsas görməliyik, belə ki, yalnız xalqın mənəvi qüvvəsi ən həyati və müstəqil başlanğıcdır, dil isə ondan asılıdır. Əgər dil öz yaradıcılıq müstəqilliyini büruzə verirsə, onda o, hadisə sferinin xaricində ideal mövcudluqda itir. Hərçənd həqiqətdə biz həmişə danışan adamlarla qarşılaşırıq, hər halda biz real münasibətləri də nəzərdən qaçırmamalıyıq. Hərçənd biz əqli fəaliyyəti və dili fərqləndiririk, həqiqətdə isə belə bölgü mövcud deyildir. Biz adətlə dili insan məhsulundan daha çox mənəvi fəaliyyətin digər məhsulları kimi nə isə daha yüksək bir şey kimi təsəvvür edirik; lakin əgər insanın mənəvi qüvvəsi bizə özünün ayrı-ayrı təzahürlərində mümkün olsa idi, ancaq onun mahiyyəti özünün dərkedilməz dərinliklərində bizə açılsa idi, biz insan fəaliyyətlərini birləşdirən həmin bütövü dərk edə bilərdik, belə ki, dil onların ayrılmasının fövqünə qalxır. Praktik məqsədlərdə dil fərqlərinin izahının aşağı pilləsində dayanmamaq, yüksək və son pilləyə qalxmaq və dillərin yaranmasına mənəvi başlanğıcın təsirini izah etmək üçün möhkəm əsas kimi belə bir müddəanı qəbul etmək zəruridir ki, millətlərin mənəvi xüsusiyyətləri müxtəlif olduğu üçün insan nəsli dillərinin quruluşu da müxtəlifdir.

Dillərin quruluşunda müxtəlifliyin izahına keçərkən, xalqların mənəvi xüsusiyyətlərini dildən ayrılıqda öyrənmək, sonra isə onun xüsusiyyətlərini dilə keçirmək lazım de-

yil. Erkən dövrlərdə yaşamış xalqlar haqqında biz, ümumiyyətlə, onların dili vasitəsilə öyrənirik və bu zaman çox vaxt biz dəqiq müəyyənləşdirə bilmirik ki, bu və ya digər dili mənşəyinə və tarixi əlaqələrinə görə bizə məlum olan xalqlardan məhz hansına aid edək. Məsələn, zend bizim üçün o xalqın dilidir ki, həmin xalq haqqında biz yalnız güman düzəldə bilərik. Vasitəsilə xalqın mənəviyyəti və xarakteri qavranılan bütün təzahürləri içərisində təkcə dil xalq mənəviyyətinin və xarakterinin ən xüsusi və ən incə cəhətlərini ifadə etməyə və onların ən gizli sirlərinə daxil olmağa qabildir. Əgər dilləri mənəvi inkişafın pillələrinin izahı üçün əsas kimi nəzərdən keçirsək, onda onların yaranmasını, əlbəttə, xalqın əqli xüsusiyyətlərinə aid etmək lazımdır, bu xüsusiyyətləri isə hər ayrıca dilin öz quruluşunda axtarmaq lazımdır. Mühakimənin nəzərdə tutulmuş yolunun bitə bilməsi üçün dilinin təbiətinə və müxtəlif dillərin mənəvi inkişafa əks təsiri imkanlarma dərindən diqqətlə yetirmək və beləliklə, müqayisəli dilçiliyi yüksək və son pilləyə qaldırmaq zəruridir.

Dilin forması

Yuxarıda nəzərdə tutulmuş yolla müvəffəqiyyətlə irəliləmək üçün, əlbəttə, dilin tədqiqində düzgün istiqamət müəyyənləşdirmək zəruridir. **Dili ölü məhsul** (Erzeugtes) kimi yox, **yaradıcı proses** (Erzeugung) kimi nəzərdən keçirmək lazımdır. Həm də bu zaman onun əşyalara işarə etməsi və ünsiyyət vasitəsi kimi funksiya göstərməsini təcrid etmək və bununla yanaşı onun daxili mənəvi fəaliyyətlə sıx əlaqəsinə və bu iki hadisənin qarşılıqlı təsiri faktına böyük diqqətlə yanaşmaq lazımdır. Dillərin son illərdə öyrənilməsinin mü-

vəffəqiyyətləri bütün tamlığı və cəhətlərinin məcmusu ilə predmetin icmalını bizim üçün asanlaşdırır. Biz indi o konkret yolların müəyyənləşdirilməsinə yaxından yanaşa bilərik ki, həmin yolları keçərkən ayrılmış və təcrid olunmuş, yaxud öz aralarında əlaqələnmiş xalqlar öz dillərinin yaradılmasında kamilliyə çatmışlar. Bəşər dilləri quruluşunda müxtəlifliyin səbəbini, eləcə də bu fərqin mənəviyyətin inkişafı gedişinə təsirini, yəni bizim tədqiqatımızm predmetini təşkil edən nə varsa, hamısını məhz burada axtarmaq lazımdır.

Lakin elə ki, biz belə tədqiqat yoluna qədəm qoyuruq, elə o dəqiqə ciddi çətinliklə qarşılaşmq: dil özünün çoxlu ünsürlərinin – sözlər, qaydalar, bütün mümkün olan analogiyalar və hər cinsli istisnalar – sonsuzluğu ilə qarşımızda durur və biz bununla əlaqədar xeyli çaşqınlığa düşürük ki, necə təsnif edirsən et, yenə də qarşımızda karıxdırıcı xaos kimi duran hadisənin bütün bu müxtəlifliyini biz insan mənəviyyətinin vəhdətinə qaldırmalıyıq. Əgər biz hətta hər hansı iki mühüm dil ailəsi, deyək ki, sanskrit və sami, üçün zəruri olan bütün leksik və qrammatik məlumatlara malikik, yenə də fərqi yoxdur, bu dilləri bir-biri ilə müvəffəqiyyətlə müqayisə etmək üçün lazım olan sadə əlamətlərdə onlardan hər birinin xarakterini təsvir edə və onların xalqın mənəvi qüvvəsinə münasibətinə görə bütün digər dil tipləri arasında onlara mənsub olan yeri müəyyənləşdirə bilmərik. Bunun üçün hələ ayrı-ayrı xüsusiyyətlərin ümumi mənbəyini axtarmaq və dağınıq əlamətləri vahid üzvi bütövdə birləşdirmək zəruridir. Yalnız bu yolla biz bütün təfərrüatları əlaqələndirə bilərik. Sonra müxtəlif dillərin quruluşunun səciyyəvi xüsusiyyətlərinin müqayisəsinin müvəffəqiyyətli olması üçün onlardan hər birinin formasını ciddi tədqiq etmək, bu yolla da dillərin hər cür sözyaratmanın əsas məsələsini həll etdiyi üsulu mü-

əyyənləşdirmək zəruridir. Lakin «forma» məfhumu dilin tədqiqatçıları tərəfindən müxtəlif cür başa düşüldüyü üçün mən onu bu əsərdə hansı mənada işlətdiyimi təfərrüatı ilə izah etməyi zəruri sayıram. Bu, bir də ona görə zəruridir ki, biz burada təkcə ümumiyyətlə, dil haqqında deyil, həm də müxtəlif xalqların ayrı-ayrı dilləri haqqında danışacağıq; bununla əlaqədar olaraq, ayrıca bir dili, bir tərəfdən, dil ailəsindən, digər tərəfdən, dialektdən ciddi ayırmaq və bununla yanaşı, öz inkişafı gedişində onun ciddi dəyişikliklərə uğradığını nəzərdə tutub hər dildə nəyi başa düşmək lazım olduğunu müəyyənləşdirmək vacibdir.

Öz həqiqi mahiyyətinə görə dil nə isə sabit və bununla yanaşı hər müəyyən anda keçicidir. Hətta onun yazı vasitəsilə təsbit edilməsi onun canlı nitqdə yenidən yaradılması nəzərdə tutulan xeyli qeyri-kamil mumiyaşəkilli vəziyyəti təsəvvürə gətirir. Dil fəaliyyətin məhsulu (*Ergon*) deyil, fəaliyyətdir (*Energeia*). Buna görə də onun həqiqi tərifi ancaq genetik ola bilər. Dil ruhun artikulyasiya edilən səsi, fikri ifadə etmək üçün yararlı etməyə yönəldilən, daim yenidən başlanan işidir. Ciddi mənada bu tərif nitq fəaliyyətinin hər bir aktı üçün yararlıdır, lakin həqiqi və gerçək mənada dil dedikdə yalnız nitq fəaliyyəti aktlarının bütün məcmusunu başa düşmək lazımdır. Bizim, adətən, dil adlandırdığımız söz və qaydaların pərakəndə xaosunda nitq fəaliyyətinin yenidən – həm də natamam – yaratdığı yalnız ayrı-ayrı ünsürlər göz qabağındadır; canlı nitqin mahiyyətini dərk etmək və canlı dilin düzgün mənzərəsini tərtib edə bilmək üçün bütün təkrar edilən fəaliyyət lazımdır. Dağınıq ünsürlərə görə dildə yüksək və ən zərif olanı dərk etmək olmaz; bunu yalnız əlaqəli nitqdə dərk etmək və duymaq olar, bu da bir daha onun

xeyrinə şahidlik edir ki, hər bir dil onun real törəməsi aktında tamamlanır. Məhz buna görə dilin canlı mahiyyətinə daxil olmağa cəhd göstərən, ümumiyyətlə, bütün tədqiqatlarda diqqəti hər şeydən əvvəl həqiqi və ilkin olanda toplamaq lazımdır. Dilin sözlərə və qaydalara parçalanması bu, elmi təhlilin yalnız ölü məhsuludur. Dilin ruhun fəaliyyətin kimi müəyyənləşdirilməsi artıq ona görə tamamilə düzgün və adekvatdır ki, ruhun mövcudluğu, ümumiyyətlə, yalnız fəaliyyətdə və keyfiyyətdə təsəvvür oluna bilər. Dilçilikdə dil orqanizminin dilləri öyrənmək üçün zəruri olan labüd parçalandırılması zamanı biz onları hətta müəyyən vasitələrə nail olmaq üçün xidmət edən nə isə üsul kimi nəzərdən keçirməyə, yəni onlarda, mahiyyətcə, millətlərin yaradılmasmı görməyə məcburuq.

Mənim əvvəllər artıq göstərdiyim kimi dilləri öyrəndikdə, biz, əgər mənə belə ifadə işlətməyə icazə verilərsə, həmişə onların tarixinin yarıyolunda oluruq və bizə məlum olan xalqlardan, yaxud dillərdən heç birini ilkin, başlanğıc adlandırınaq olmaz. Hər bir dil öz materialını bizim əlimizə çatmayan tarixdən əvvəlki dövrlərdən irsən aldığı üçün fikrin ifadəsinə yönəldilən mənəvi fəaliyyət artıq hazır materialla əlaqədar olur: o yaratmır, ancaq dəyişir.

Bu fəaliyyət daimi və yekcins şəkildə həyata keçirilir. Bu ona görə baş verir ki, o, yalnız müəyyən hüdudlar daxilində, o qədər də geniş olmayan sərhədlərdə şəklini dəyişən eyni bir mənəvi qüvvə tərəfindən törədilir. Onun məqsədi qarşılıqlı anlamadır. Bu isə o deməkdir ki, heç kim başqası ilə bu başqasının bərabər şəraitdə onunla danışmasmdan başqa cür danışa bilməz.

Bundan başqa, irs alınmış material sadəcə olaraq eyni cür deyil: vahid mənbəyi olara o, bir dildə danışanların mənəvi

əhvali-ruhiyyəsini ifadə edir. Öz əlaqələri və sistemliliyinin bütün məcmusunda götürülən, aydın səsləri fikrin ifadəsinədək yüksəldən ruhun bu fəaliyyətindəki daimi və yeknəsəq olan **dilin formasını** təşkil edir.

Belə tərifdə dilin forması sanki elmi mücərrədləşdirmənin məhsulu kimi görünür. Lakin onu bu keyfiyyətdə, yəni real mövcudluğu olmayan, ağlın məhsulu kimi nəzərdən keçirmək tamamilə səhv olardı. Həqiqətdə isə o, vasitəsilə bu və ya digər xalqın dildə öz fikir və hissinin ifadə etdiyi son dərəcə fərdi ruh yüksəkliyidir (*Drang*). Lakin bizə bu ruh yüksəkliyini onun vahid istiqamətli vəhdətində müşahidə etmək müyəssər olmadığı və həmişə yalnız konkret – tək-tək təzahürlərdə müşahidə etmək mümkün olduğu üçün bizə onun fəaliyyətinin yeknəsəqliyini ölü ümumiləşdirilmiş məfhuma endirməkdən başqa bir şey qalmır. Özü-özlüyündə bu ruh yüksəkliyi canlı və vahiddir.

Dilin ən mühüm və ən zərif ünsürlərinin tədqiqinin çətinliyi bundadır ki, dilin ümumi mənzərəsində bizim hisslərimiz böyük aydınlıq və inandırıcılıqla onun ayrı-ayrı və keçici ünsürlərini qavrayır, lakin tədqiqatçı qavradığını aydın məfhumlarda kifayət qədər tam ifadə etməyə nail olmur. Biz də belə çətinliklə mübarizə aparmalı olacağıq. Dilin səciyyəvi forması onun ən kiçik ünsürlərində əks olunur və onlardan hər biri bu, yaxud digər və heç də həmişə aşkar surətdə dil forması ilə müəyyənləşdirilmir. Digər tərəfdən, dildə elə nöqtələr çətin tapmaq olar ki, onların haqqında demək olsun ki, onlar öz-özlüyündə, ayrıca götürüldükdə forma üçün həlledicidir. Hər bir dildə kifayət qədər ünsür tapmaq olar ki, əlbəttə, onun formasının mahiyyətini təhrif etmədən, onları başqa cür təsəvvür edəsən və onda formanı təmiz şəkildə

sezmək üçün biz vahid bütöv haqqında təsəvvürə müraciət etməli oluruq. Lakin bu halda tam əks olan nəticəyə də nail olmaq olar. Kəskin fərdi xüsusiyyətlər aydın şəkildə gözə çarpır və labüd şəkildə hisslərə təsir edir. Bu münasibətdə dilləri insan fizionomiyası ilə müqayisə etmək olar: onları öz aralarında müqayisə edərək çox aydın hiss edirsən ki, fərdiyyət, şübhəsiz, vardır, oxşarlıq göz qabağındadır, lakin hər xüsusiyyətin ayrılıqda və onların əlaqəsində heç bir ölçülməsi və heç bir təsviri onların xüsusiyyətini vahid məfhumda qısa və dürüst şəkildə ifadə etmək imkanı vermir. Fizionomiyanın xüsusiyyəti bütün cizgilərin məcmusundadır, lakin fərdi qavramadan da asılıdır: məhz buna görə eyni bir fizionomiyanı müxtəlif adamlar müxtəlif cür qavrayır. Dil, hansı formanı qəbul etməsindən asılı olmayaraq, həmişə millətin fərdi həyatının mənəvi ifadəsi olduğu üçün biz bunu nəzərə almalıyıq; biz dildə təcəssüm etdirilən nə varsa, hamısını necə təsbit ediriksə edək, necə seçiriksə seçək, necə parçalayırıqsa parçalayar, yenə də onda çox şey dərkedilməz qalır və məhz burada dilin vəhdəti və ruhlandırılmış həyatiliyinin sirri gizlənir. Dillərin bu xüsusiyyətinə görə onların formalarının təsviri tam bitmiş ola bilməz, lakin dillər haqqında ümumi təsəvvür əldə etmək üçün kifayətdir. Beləliklə, forma məfhumu tədqiqatçıya dilin sirlərini dərk etmək üçün, onun mahiyyətini aydınlaşdırmaq üçün yol açır. Bu yola etinasızlıq etsə, o, mütləq çoxlu məqamları gözdən qaçırar və onlar öyrənilməmiş qalar; çoxlu faktlar da izahsız qalar və nəhayət, həqiqətdə canlı əlaqə ilə bağlanan ayrı-ayrı faktlar təcrid edilmiş şəkildə təqdim olunar.

Buraya qədər deyilmişlərdən tam aydınlığı ilə görünür ki, dilin forması ilə qətiyyən təkcə qrammatik forma adlanan nəzərdə tutulmur. Adətən, bizim qrammatika və leksika ara-

sında tətbiq etdiyimiz fərq yalnız dillərin öyrənilməsi üçün praktik əhəmiyyətə malikdir, lakin həqiqi dilçilik tədqiqatı üçün nə sərhəd, nə də qayda müəyyən etmir. Söz yaradıcılığı dedikdə, hərəkət, təsir edən, substansiya, əlamət və s. kimi ümumi məntiqi kateqoriyaların köklərə və əsaslara tətbiqini başa düşsək, dilin forması məfhumu söz birləşmələri və hətta söz yaradıcılığı qaydalarının hüdudundan çox kənara çıxır. Faktik olaraq, əsasların yaranması öz-özünə dilin forması ilə izah edilməlidir, çünki bu məfhumu tətbiq etmədən dilin mahiyyətinin özü də təyin edilməmiş qalar.

Formaya qarşı, əlbəttə, materiya (*Stoff*) durur; dilin formasına uyğun gələn materiyanı axtarıb tapmaq üçün dilin hüdudlarından kənara çıxmaq lazımdır. Dilin hüdudları daxilində materiyanın yalnız nəyə isə münasibətinə görə, deyək ki, sözün əsasının hallanmaya münasibətinə görə müəyyənləşdirmək olar. Lakin bu münasibətdə materiya hesab edilən başqa münasibətdə forma ola bilər. Yad sözləri alaraq dil onları materiya kimi şərh edə bilər, lakin onlar öz-özlüyündə deyil, təkcə bu dilə münasibətinə görə materiya olacaqdır. Mütləq mənada dildə heç bir formalaşdırılmamış materiya (*undeformten Stoff*) ola bilməz, çünki onda hər şey müəyyən məqsədi yerinə yetirməyə, məhz fikri ifadə etməyə yönəldilmişdir, həm də bu fəaliyyət artıq onun ilk ünsüründən ona forma verilməsi sayəsində aydınlaşan aydın səsdən başlanır. Dilin həqiqi materiyası – bu, bir tərəfdən, ümumiyyətlə, səsdir, digər tərəfdən, dilin köməyi ilə baş verən məfhumun yaranmasından əvvəl gələn ruhun hissi təəssüratları və qeyri-iradi hərəkətlərinin məcmusudur.

Öz-özünə aydındır ki, dilin forması haqqında təsəvvür yaratmaq üçün onun səslərinin real xüsusiyyətlərinə xüsusi

diqqət yetirmək lazımdır. Dilin formasının tədqiqi onun bütün hissələrini nəzərdən keçirdikdə əsas kimi xidmət etməli olan onun əlifbasından başlanır. Ümumiyyətlə, forma məfhumu ilə dildən faktik və fərdi olan heç bir şey heç də istisna edilmir; əksinə, ona yalnız tarixən əsaslandırılmış, eləcə də ən fərdi olan hər şey daxil edilir. Demək lazımdır ki, bu yolu seçərək biz başqa üsullarda asan gözdən qaçırılan bütün təfərrüatların tədqiqini təmin edirik. Belə yol, doğrudur, ayrı-ayrı ünsürlərin yorucu və çox vaxt əhəmiyyətsiz araşdırmalarına aparır; lakin axı məhz bu xırdalar dil haqqında bütöv təsəvvür yaradır və dilin tədqiqində onda yanlış mühüm, ideal, hakim olanı axtarmaqdan daha mənasız heç bir şey yoxdur. Onlar haqqında mühakimələrimizdə səhvdən qaçmaq üçün sözlərin, habelə onların ən sadə ünsürlərinin də bütün qrammatik incəliklərinə müfəssəl nüfuz etmək lazımdır. Bununla yanaşı, öz-özünə aydındır ki, bu təfərrüatlar dillərin forması məfhumuna təcrid olunmuş faktlar şəklində daxil edilməməlidir, yalnız o qədər daxil edilməlidir ki, nə qədər onlarda dilin yaranmasının vahid üsulu aşkara çıxarılır. Formanın təsviri vasitəsilə biz dilin, onunla birlikdə həmin dildə danışan xalqın fikri ifadə etmək üçün getdiyi spesifik yolu müəyyən etməliyik. İstər özünün müəyyən məqsədlərinə münasibətdə, istərsə millətin mənəvi fəaliyyətinə təsirinə görə müəyyən bir dilin başqalarından nə ilə fərqləndiyini görməyi bacarmaq lazımdır. Dilin forması öz təbiətinə görə dilin ayrı-ayrı, onun əksi olan materiya kimi nəzərdən keçirilən ünsürlərinin mənəvi vəhdətdə sintezidir. Belə bir vəhdəti biz hər bir dildə aşkar edirik və bu vəhdət vasitəsilə xalq ona irsən keçən dili mənimsəyir. Elə bu vəhdət dilin təsvirində də öz əksini tapmalıdır, dilin özü haqqında real təsəvvürü yalnız onda alırlar ki, pərakəndə ünsürlərdən bu

vəhdətə qədər yüksəlsinlər. Belə münasibət olmadan biz ayrı-ayrı ünsürləri onların həqiqi xüsusiyyətində, xüsusən onların real əlaqələrində, sadəcə olaraq, aşkar surətdə başa düşməmək təhlükəsi altına düşürük.

Lap əvvəldən qeyd etmək lazımdır ki, dillərin eyniliyi, eləcə də qohumluğu onların formalarının eyniliyinə əsaslanmalıdır, çünki nəticə yalnız səbəbə bərabər ola bilər. Buna görə də təkcə forma müəyyənləşdirir ki, bu dil hansı qrupa mənsubdur, digər hansı dillərlə qohumdur. Bu, xüsusən, kavi dilinə aiddir; çünki o, özünə nə qədər sanskrit sözü daxil edir etsin, malay dili olmaqdan qalmır. Bir neçə dilin formaları hansısa daha ümumi formada bir-birinə uyğun gələ bilər, əgər söhbət yalnız ən ümumi xüsusiyyətlərdən məzmunlara işarə üçün və nitqin tərtibi üçün zəruri olan təsəvvürlərin əlaqə və münasibətləri haqqında; öz təbiətinə görə yalnız müəyyən miqdarda aydın səslər ifadə edə bilən nitq orqanlarının oxşarlığından; nəhayət, bir tərəfdən; ayrı-ayrı samit və saitlər arasında, digər tərəfdən, məlum hissi qavrayışlar arasında mövcud olan münasibətlər haqqında (bu səbəbdən müxtəlif dillərdə genetik əlaqələrə heç bir münasibəti olmayan əlamətlərin eyniliyi baş verir) gedirsə, mahiyyətcə, bütün dillərin formalarıdır, ümumi formaya gedib çıxır. Dildə fərdi olan ümumi olanla elə qəribə şəkildə birləşir ki, bütün insan nəsli bir dildə danışır, hər adamın isə öz dili vardır, desək, eyni dərəcədə düzdür. Lakin dilləri birləşdirən bütün oxşar hadisələr içərisində dillərin genetik qohumluğuna əsaslanan ümumilik gözə xüsusilə çarpır. Əgər tarixi faktlarla bu qohumluq təsdiq edilmirsə, dillərin qohumluğu haqqında fərziyyəyə haqq qazandırmaq üçün bu ümumiliyin nə qədər dərin və hansı səciyyədə olması haqqında burada mü-

hakimə yürütmək yeri deyildir. Biz burada yalnız bizim inkişaf etdiyimiz dilin forması məfhumunun genetik qohum dillərə tətbiqini göstərməklə kifayətlənəcəyik. Bütün yuxarıda deyilənlərdən aydın olur ki, ayrı-ayrı genetik qohum dillərin forması bütün dil ailəsinin forması ilə uyğunluqda olmalıdır. Ümumi forma ilə uzlaşdırılmamış heç bir şey onlarda ola bilməz; bu harasıdır, onların hər hansı xüsusiyyəti, bir qayda olaraq, bu və ya digər şəkildə ümumi formada aşkar edilir. Həm də hər ailədə elə dillər vardır ki, hökmən ilkin formanı daha təmiz şəkildə və başqalarına nisbətən tam təzahür etdirəcəkdir. Söhbət bir-birindən inkişaf etmiş dillər haqqında, yəni elə hadisə haqqında gedir ki, hansısa real mövcud olan materiya (yuxarıda təsvir edilən mənada) müəyyən ardıcıllıqla xalqdan xalqa verilir (bunu nadir hallarda dəqiqliklə izləmək müyəssər olur) və dəyişikliyə məruz qalır. Həm də bu şəkildəyişmələr yalnız mənəvi qüvvənin səbəb olduğu təsəvvürlərin və ideyaların təmayülünün oxşar səciyyədə, nitq orqanlarının və irsən keçmiş tələffüz adətlərinin oxşarlığında və nəhayət, xarici tarixi təsirlərin eyniliyində həyata keçirilə bilər.

Dilin ümumiyyətlə təbiəti və xüsusiyyəti

Dillərin arasındakı fərqlər onların formasına əsaslandığı, hər dilin forması isə xalqın mənəvi istedadı və bu formanı törədən və şəklini dəyişən qüvvə ilə qırılmaz əlaqədə olduğu üçün bu məfhumları təfərrüatı ilə nəzərdən keçirmək və heç olmasa, dilin əsas aspektlərindən bəzilərini ciddi təhlil etmək zəruriyyət təşkil edir. Mən bu məqsəd üçün elə aspektləri seçirəm ki, bunlar daxili qüvvənin dilə, öz növbəsində dilin də

daxili qüvvəyə necə təsir etdiyini aydın göstərən ən böyük nəticələrə malikdir.

Ümumiyyətlə, dili nəzərdən keçirdikdə, yaxud konkret və bir-birindən fərqlənən dilləri təhlil etdikdə biz iki hadisə ilə – səs forması və onun əşyaları işarə etmək üçün və fikri əlaqələndirmək üçün işlənməsi ilə qarşılaşırıq. İşlədilmə prosesi təfəkkürün dilə qarşı irəli sürdüyü tələblərlə şərtlənir, bunun nəticəsində dilin ümumi qanunları təşəkkül tapır. Bu qanunlar öz ilkin şəklində (nə qədər ki, insanların təbii istedadlarının xüsusiyyətləri təzahür etməmişdi) bütün insanlar üçün vahiddir. Səs formasına gəldikdə isə, əksinə, o, həqiqi tərtibi və həm özü-özülüyündə dillərin fərqinin mühüm başlanğıcı, həm də özünü dilin daxili ənənəsinə qarşı qoyan təkanverici yaxud mane olan qüvvə kimi çıxış edir. Aydındır ki, daxili, mənəvi qüvvələrlə sıx bağlı olan bütöv insan orqanizminin hissəsi kimi o, millətin ümumi mənəvi qabiliyyətindən asılıdır, lakin bu asılılığın mahiyyəti və səbəbləri, demək olar ki, anlaşılmaz sirlə bürünmüşdür. Bu hadisələrin əlaqəsini öyrənmək və təsvir etmək dil təhlilinin vəzifəsini təşkil edir. Burada ən əsas olan belə tədqiqatın əsasında dilə, onun mənbələrinin dərinliyinə və onun fəaliyyət dairəsinin genişliyinə düzgün və dəyərli baxış qoymaqdır. Biz də bunun üstündə dayanacığıq.

Mən dilin fəaliyyət göstərməsini onun ən geniş həcmində – sadəcə olaraq onun nitqə və onun bilavasitə məhsuluna, leksik ünsürlər dəstinə münasibətində yox, həm də onun təfəkkürün fəaliyyətinə və hissi qavramaya münasibətində tədqiq etmək fikrindəyəm. Ruha əks təsir göstərmək üçün dilin ruhun törəməsinin keçdiyi bütün yol təhlilə məruz qalacaqdır.

Dil fikir yaradan orqandır (*Die Sprache its das Organ des Gedanken*). Tamamilə mənəvi, dərin daxili və məlum mənada izsiz keçən əqli fəaliyyət nitqdə səs vasitəsilə maddiləşdirilir və hissi qavrayış üçün mümkün olur. Əqli fəaliyyət və dil buna görə vahid bütöv kimi çıxış edir. Zəruriyyət üzündən təfəkkür həmişə dilin səsləri ilə əlaqədə olmuşdur; əks halda fıkir aydınlıq və səlisliyə çata bilməzdi, təsəvvür məfhuma çevrilə bilməzdi. Fikir, nitq orqanları və eşitmə qabiliyyətinin dillə qırılmaz əlaqəsi insan təbiətinin ilkin və öz mahiyyəti etibarilə izahedilməz olan quruluşu ilə şərtlənir. Həm də səs və fikir arasındakı uzlaşma o dəqiqə gözə dəyir. Fikir, şimşək və ildırım zərbəsi kimi, təsəvvürlərin bütün gücünü özünün bir anının parıltısında necə toplayırsa, səs də eləcə aydın ifadə edilmiş vahiddə təzahür edir. Fikir bütün ruhu öz təsiri altına necə alırsa, səs də eləcə özünün qəfil gücü ilə adamı titrədir. Səsin onu hər hansı digər hissi qavramadan fərqləndirən bu xüsusiyyəti aşkar surətdə buna əsaslanır ki, qulaq (digər hiss üzvlərindən fərqli olaraq) səslənən fikir vasitəsilə canlı varlığın dərinliklərində baş verən həqiqi fəaliyyətin təəssüratını alır, həm də fikirləşən varlıq aydın səslərdə, hiss edən varlıq aydın olmayan səsdə özünü göstərir. Fikir necə qaranlıqdan işığa, məhdudluqdan sonsuzluğa çıxmağa səydirsə, eləcə də səs sinədən bayıra çıxmağa yönəlmişdir və bunun üçün qəribə şəkildə uyğun gələn naqil olan havada zahirən material olmaması üstəlik hər şeydən çox ruha uyğun gələn bu, hərəkət edən ünsürlərdən ən zərifi və ən yüngülündə tapır. Nitq səsinin dəqiq müəyyənliyi idraka əşyaları qavramaq üçün lazımdır. Həm xarici aləmin əşyaları, həm də daxili səbəblərlə oyadılan fəaliyyət çoxlu əlamətlərlə insana təsir edir. Lakin idrak (*Vestand*) əşyalarda ümumi olanı aşkara çıxarmağa çalışır. O, müqayisə edir, tərkib hissələrinə

ayırır, birləşdirir və özünün ali məqsədini tədricən daha böyük həcmli vahidlikdə qavrayır və bunun üçün onların yerində durmalı olan səsin də vahidliyinə nail olur. Lakin əşya və hadisələrin xarici və daxili təəssürata göstərdiyi təsirlər səsi təmin etmir; səs onların daşıyıcısına çevrilir və öz fərdi keyfiyyəti ilə əşyalarm keyfiyyətini danışanın fərdi qavrayışının dərk etdiyi şəkildə göstərir. Bununla yanaşı səs bu dərəcədə heç bir hissi qavrayışa xas olmayan aydın təşəkkül tapmış və bir-birindən tamamilə ayrılmış şəkildəyişmələrin sonsuz çoxluğuna yol verir. İnsanın əqli məqsədi təkcə idrakla kifayətlənmir, bütövlükdə insana təsir edir və fikrin səsi bunda güclü iştirak edir. Səs bizdə titrəyən inilti kimi baş verir və bizim sinəmizdən varlığın özünün nəfəsi kimi çıxır. Dildən başqa, səs özlüyündə ağrı və sevinc, nifrət və arzu ifadə etməyə qabildir; həyat tərəfindən yaradılan səs onu qavrayan orqana verir; dil kimi, səs işarə edilən obyektlə birlikdə onun doğurduğu hissləri də inikas edir və bütün təkrar edilən aktlarda özündə dünyanı və insanı, yaxud, başqa cür desək, özünün müstəqil fəaliyyətini özünün qavrama qabiliyyəti ilə birləşdirir. Nəhayət, insanın şaquli vəziyyəti də, heyvana verilməyən bu vəziyyət də nitq səsinə uyğun gəlir. Bu vəziyyətə, sanki, səs səbəb olmuşdur. Həqiqətən də nitq səssizcə torpağa gedə bilməz, o, azad şəkildə ağızdan-ağıza cəhcəh vuramalı və sifətin ifadəsi və jestlərlə müşayiət edilməli, yəni insanı insan edən nə varsa, hamısının əhatəsində çıxış etməlidir.

Səsin ruhun fəaliyyətinə uyğunluğu haqqında bu ilkin qeydlərdən sonra biz indi təfəkkürün dillə əlaqəsini əsaslı şəkildə nəzərdən keçirə bilərik. Subyektiv fəaliyyət təfəkkürdə obyekt yaradır. Təsəvvürlərin heç bir növü yalnız əvvəlcə-

dən nəzərdə tutulmuş əşyanın xalis qavrayışı kimi yaranmır. Hiss üzvlərinin fəaliyyəti ruhun fəaliyyətinin daxili prosesləri ilə sintetik əlaqəyə girməlidir; və məhz bu əlaqə, subyektiv qüvvəyə qarşı qoyularaq, obyekt kimi təşəkkül tapan təsəvvürlərin yaranmasını şərtləndirir və gələcəkdə bu keyfiyyətdə yenidən qavranılaraq yenə subyekt sferinə qayıdır. Bütün bunlar yalnız dil vasitəsilə baş verir. Onun köməyi ilə mənəvi təşəbbüs ağızdan xarici aləmə özünə yol açır və sonra sözə çevrilmiş bu təşəbbüsün nəticəsindən söz danışanın qulağına qayıdır. Beləliklə, təsəvvür eyni zamanda subyektdən ayrılmadan obyektivləşdirilir və bütün bu proses yalnız dilin sayəsində mümkündür. Təfəkkür prosesi hətta səssiz keçdikdə belə dilin köməyi ilə baş verən təsvir edilmiş obyektivləşmə prosesi və subyektə qayıtma prosesi olmadan məfhumların, nəticə etibarilə, təfəkkürün özünün də yaranması mümkün deyildir. Hətta insanların bir-biri ilə ünsiyyət ehtiyacına toxunmadan təsdiq etmək olar ki, insanın tam təcrid olunması şəraitində də dil təfəkkürün məcburi ilkin şərtidir. Lakin, adətən, dil yalnız cəmiyyətdə inkişaf edir və insan özünü yalnız o zaman başa düşür ki, onun sözlərinin başqa adamlara da aydın olduğuna təcrübədə əmin olsun. Biz yaratdığımız sözləri başqa şəxslərin də ağzından eşitdikdə onun obyektivliyi artır, subyevtivlik isə bu zaman heç bir ziyan çəkmir, çünki bütün insanlar öz vahidliyini hiss edirlər; hələ üstəlik, subyektivlik hətta artır, çünki sözə çevrilmiş təsəvvür istisnasız təkcə bir subyektə mənsub olmaqdan qalır. O, başqalarma keçərək, bütün insan nəslinin ümumi malı olur; lakin bu ümumi malda hər adam başqa adamların fərdi şəkildəyişməsinin təsiri ilə həmişə şəklini dəyişən və təkmilləşən nə isə özününkünə, xüsusi olana malik olur. Cəmiyyətin dilə təsiri nə qədər geniş və canlı olursa, digər bərabər şəraitlərdə

dil bir o qədər qazanır. Fikir yaratma prosesində dil nəyi zəruri edirsə, insanın bütün mənəvi həyatında fasiləsiz təkrar edilir, dil vasitəsilə ünsiyyət insana öz gücündə əminlik təmin edir və fəaliyyətə təhrik edir. Təfəkkür qüvvəsi özünə bərabər və bununla belə ondan fərqlənən nəyə isə ehtiyac hiss edir. Ona bərabər olandan o alışır, ondan fərqli olanla öz daxili törəmələrinin reallığını yoxlayır. Həqiqətin dərk edilməsinin əsası və gerçəkliyi insanın özündə qoyulsa da, onun həqiqətə mənəvi cəhdi həmişə yanılma təhlükələrinə maildir. Öz məhdudluğunu aydın başa düşərək, insan həqiqətə ondan kənarda olan bir şey kimi baxmaq məcburiyyətində qalır, ona yaxınlaşmağın, ona qədər olan məsafəni ölçməyin ən güclü vasitələrindən biri başqaları ilə daimi ünsiyyətdir. Hətta özünün ən sadə təzahürlərində nitq fəaliyyəti fərdi qavrayışların insanın ümumi təbiəti ilə birləşdirilməsidir.

Anlama ilə də məsələ belədir. O, ancaq mənəvi fəaliyyət vasitəsilə həyata keçirilə bilər və bununla əlaqədar olaraq nitq və anlama eyni bir dil qüvvəsinin müxtəlif fəaliyyətləridir. Nitq prosesini materialın sadəcə nəqli ilə müqayisə etmək olmaz. Danışan kimi, dinləyən də anlamanı öz daxili qüvvəsi vasitəsilə yenidən yaradır və o nə qavrayırsa, hamısı uyğun hadisəyə səbəb olan stimula çevrilir. Buna görə də insan üçün nitqdə anladığım o dəqiqə yenidən təkrar etmək təbiidir. Beləliklə, dil hər bir adamda tam həcmində qoyulmuşdur. Bu o deməkdir ki, hər bir adamda xarici və daxili qüvvələrin təsiri altında dilyaratma təşəbbüsü (müəyyən qüvvə tərəfindən stimullaşdırılan, tənzim edilən və məhdudlaşdırılan) qoyulmuşdur, həm də elə şəkildə ki, hər bir adam başqa adamlar tərəfindən başa düşülsün. Lakin əgər ayrı-ayrı adamların fərqləri arxasında, ancaq ayrı-ayrı fərdiyyətlərə

parçalanaraq, insan təbiətinin vəhdəti durmasa idi, anlama daxili müstəqil fəaliyyətə arxalana bilməzdi və nitq ünsiyyəti təkcə dinləyənin dil qabiliyyətinin cavab arzusu deyil, nə isə başqa şey ola bilərdi. Sözlərin dərk edilməsi aydın olmayan səslərin başa düşülməsi deyil, nə isə tamamilə başqa şeydir və sadəcə bir-birində səs obrazlarının və arzu edilən təsəvvürlərin qarşılıqlı səbəbindən daha çox nə isə daha çox böyük bir şeyi nəzərdə tutur. Biz yazıda çox vaxt hələ onun hərf tərkibini aydınlaşdırmadan bu və ya digər sözbirləşməsinin mənasını başa düşdüyümüz kimi, sözü də, əlbəttə, bölünməyən tam kimi qəbul edə bilərik; və güman ki, tamamilə mümkündür ki, uşaq ilhamı anlamanın ilk pillələrində belə hərəkət edir. Lakin bir halda ki, sadə heyvan qavrama qabiliyyəti yox, insanın nitq qabiliyyəti fəaliyyətə gətirilir (və daha həqiqətəoxşar olar ki, hətta uşaqda bu, həmişə qoy lap zəifləmiş şəkildə olsun, baş verir), onda söz də dəfələrə ayrılan (aydın) şəkildə qəbul edilir. Aydın olduğuna görə söz dinləyicidə sadəcə uyğun mənaya səbəb olmur – (hərçənd, əlbəttə, bunun sayəsində buna daha mükəmməl nail olunur), həm də bilavasitə dinləyici qarşısında sonsuz bütövün, dilin hissəsi kimi öz formasında çıxış edir. Həqiqətən də müəyyən intuisiya və qaydalara əməl edərək, aydınlıq ayrı-ayrı sözlərin ünsürlərindən, mahiyyətcə, qeyri-məhdud miqdarda sözlər tərtib etməyə imkan verir, bununla da bütün bu törəmə sözlər arasında məfhumların qohumluğuna cavab verən müəyyən qohumluq düzəldir. Digər tərəfdən, əgər bizim ruhumuzda bu imkanı gerçəkliyə çevirən qüvvə yaşamasa idi, biz hətta bu mahir mexanizmin mövcudluğu haqqında güman etməzdik və aydınlığı korun rəngi anladığından heç də yaxşı dərk etməzdik. Həqiqətən dildə məcmusu halında gözdən keçirilən, yaxud hissə-hissə verilən hər hansı bir materialı

deyil, törədilmə qanunları müəyyənləşdirilmiş, lakin həcmi və məlum dərəcədə həm də törədilmə üsulu tamamilə ixtiyari qalmış daim özünü törədən orqanizm görmək lazımdır. Uşaqların dili mənimsəməsi – bu, sözlərlə tanışlıq deyil, onların sadəcə yaddaşa qoyulması və onların təqlidi pəltəkləmə təkrarı deyil, illərlə və təmkinlə dil qabiliyyətinin inkişafıdır. Eşidilən sadəcə bizə xəbər verilmir: o, ruhu hələ bir dəfə də eşidilməyəni daha asan qavramağa sazlayır; o, çoxdan eşidilənə, lakin birinci dəfədən yarımanlaşılan, yaxud heç anlaşılmayan və ancaq indi elə indicə qavranılanla eynicinsliliyi sayəsində artıq möhkəmlənmiş ruhi qüvvəni aydınlaşdıran çoxdan eşidilənə işıq salır; o, təşəbbüs və qabiliyyətə eşidilənin daha çox hissəsini yaddaşa daha sürətlə mənimsəməyə, onun daha az hissəsinə boş səs kimi uçmağa imkan verməyə stimullaşdırır. Ona görə də burada müvəffəqiyyətlər vokabulaları öyrənərkən artdığı kimi yalnız yaddaşın güclü təmini hesabına artan riyazi tərəqqidə deyil, daim yüksələn sürətlə artır, çünki qabiliyyətin inkişafı və materialın toplanması bir-birini möhkəmləndirir və qarşılıqlı surətdə öz hüdudlarını genişləndirir. Uşaqlarda dilin mexaniki öyrənilməsinin yox, dil qabiliyyətinin inkişafı baş verdiyi bir də onunla sübut edilir ki, əgər insanın əsas qabiliyyətlərinin inkişafı üçün həyatın müəyyən dövrü ayrılmışsa, onda bütün uşaqlar müxtəlif şəraitlərdə təxminən eyni yaş hüdudu daxilində çox az fərqlə danışmağa və anlamağa başlayır. Əgər danışanda və dinləyəndə təkcə hissələrinin qarşılıqlı mütənasibliyi qorunan fərdiliyə haçalanan eyni mahiyyət gizlənməsə idi, fərdlər arasında vasitəçi olmaq və onlarda uyğun ruhi fəaliyyət oyatmaq üçün ən incə, lakin bu mahiyyətin ən dərinliyindən götürülmüş aydın səs kimi işarə kifayət edir, məgər din-

ləyən onda inkişaf edən qüvvələrdən asılı olmayaraq sadəcə öz xüsusi inkişafı hesabına danışılanı mənimsəyə bilərdimi?

Güman ki, burada deyilənlərə kimsə etiraz edə bilər ki, hər hansı millətdən olan uşaqlar hələ dil açmazdan əvvəl digər başqa, onlara yad olan xalqın arasına düşdükdə öz nitq qabiliyyətlərini bu sonuncunun dilində inkişaf etdirirlər. Bizə deyərlər ki, bu mübahisəsiz fakt aydın sübut edir ki, dil eşidilənin sadəcə təkrarıdır və insan varlıqlarının vəhdətindən və fərqindən heç bir ehtiyat etmədən yalnız ətrafdakılarla ünsiyyətindən asılıdır. Lakin belə hallarda çətin ki, bir nəfərə kifayət qədər diqqətlə müşahidə etmək müyəssər olmuşdur ki, hansı çətinliklə, yəqin ki, burada anadangəlmə qabiliyyətlər aradan qaldırılır və onlar necə öz incə çalarlarında, çox güman ki, hər halda məğlubedilməmiş qalır. Ancaq, hətta bütün bunları hesaba almasaq, yuxarıda xatırladılan hal bununla kifayət qədər müfəssəl şəkildə izah edilir ki, insan hər yerdə eynidir və buna görə də dilə qabiliyyət ilk rasta çıxan fərdin köməyi ilə inkişaf edə bilər. Buna baxmayaraq, bu inkişaf insanın özünün daxilində baş verir; yalnız həmişə xaricdən oyadılmağa ehtiyacı olduğu üçün o, zərurət üzündən sınadığı elə həmin xarici təsirə bənzəyir, həm də bütün bəşər dillərinin oxşarlığına görə ona bənzəyə bilər. Lakin dillərin milli mənşədən asılılığı onların xalqlar üzrə bölünməsi üzündən bu və ya başqa şəkildə tamamilə aydındır. Bu özü-özünə aydındır – axı, milli mənşə fərdiyyətin bütün təzahürləri üzərində nəhəng hakimiyyətə malikdir. Hər hansı ayrıca dil isə öz növbəsində fərdiyyətlə ən intim şəkildə bağlıdır. Əgər dil insan varlıqlarının dərinliklərindən baş verməsi sayəsində insanın milli mənşəyi ilə real və əsl əlaqəyə girməsə idi, məgər ana dili istər təhsil almış, istər təhsil almamış adamlar üçün bərabər şəkildə – vətənə qayıdarkən qəfil füsunkarlığı

ilə qulağımızı oxşayaraq, qəriblikdə isə darıxmağa məcbur edərək özünün ürək üzərindəki hakimiyyəti ilə yad nitqə bu qədər üstün gələ bilərdi? Məsələ burada şübhəsiz onun əqli cəhətində, onun ifadə etdiyi ideya və hisslərdə deyil, məhz ən çox izahedilməz və fərdi olanda – onun səslərindədir; biz ana dili ilə birlikdə sanki öz mənliyimizin bir hissəsini qavrayırıq.

Dilin törətmələrinin təhlilində guya onun öz-özünə dilin iştirakı olmadan qavranılan əşyaları sadəcə göstərməsi haqqında təsəvvür də təsdiq edilmir. Daha artığı, bu təsəvvürə isnad etsək biz bütün dərinliyi və bütövlüyü ilə dili heç vaxt dərk edə bilmərik. Dilsiz heç bir məfhum mövcud olmadığı kimi, onsuz bizim ilhamımız üçün bir əşya da mövcud deyildir, çünki onun üçün hətta hər hansı xarici əşya təkcə məfhum vasitəsilə tam reallıq qazanır və əksinə, əşyaların subyektiv qavranması üzrə bütün fəaliyyət dilin qurulmasında və tətbiqində təcəssüm etdirilir. Zira söz məhz bu qavrama əsasında yaranır; o, özü-özündə əşyanın nişanəsi deyil, bu əşyanın bizim ruhumuzda yaratdığı surətdir. Hər bir obyektiv qavramaya labüd surətdə subyektivlik qarışdığı üçün hətta dildən asılı olmayaraq hər bir insan fərdiyyətini dünyanı dərk etməkdə xüsusi mövqe hesab etmək olar. Xüsusən fərdiyyət dilin sayəsində belə mövqeli olur, axı, aşağıda görəcəyimiz kimi, söz də öz növbəsində bizim əşya haqqındakı təsəvvürümüzə yeni xüsusiyyət verərək öz mənasının əlavəsi ilə bizim ruhumuz üçün obyekt olur. Bu sonuncu və nitq səslərinin xüsusiyyətləri arasında eyni bir dil daxilində fasiləsiz analogiya hökm sürür və eyni bir xalqın dilinə eyni cinsli subyektivlik təsir etdiyi üçün, aydındır ki, hər bir dildə özünəməxsus dünyagörüşü qoyulmuşdur. Ayrıca bir səs əş-

ya ilə insan arasında durduğu kimi, dil də bütövlükdə insanla ona daxildən və xaricdən təsir edən təbiət arasında çıxış edir. Əşyalar aləmini özünə qavramaq və yenidən işləmək üçün insan özünü səslər aləmi ilə əhatə edir. Bizim bu ifadələrimiz heç cür adi həqiqətdən kənara çıxmır. İnsan başlıca olaraq – hətta istisna olaraq, çünki onun hissləri və hərəkəti onun təsəvvüründən asılıdır – əşyalarla dilin onları adama təqdim etdiyi kimi yaşayır. İnsan dili öz daxilində hördüyü (*heraussprinnt*) elə həmin akt vasitəsilə özünü də ona hörür (*cinsprinnt*); və hər bir dil mənsub olduğu xalqın ətrafında dairə çəkir, insan oradan ancaq elə çıxa bilər ki, elə oradaca başqa dairəyə daxil olar. Xarici dilin mənimsənilməsini dünyaya əvvəlki baxışda yeni mövqelər qazanmağa oxşatmaq olardı, məlum dərəcəyə qədər faktik olaraq elə belədir də, çünki hər bir dil bəşəriyyətin müəyyən hissəsinin bütün məfhumlar sturkturunu və təqdim etmənin bütün üsullarını ehtiva edir. Məhz buna görə də biz az, yaxud çox dərəcədə öz xüsusi dünyagörüşümüzü və üstəlik, dil haqqında öz xüsusi təsəvvürümüzü xarici dilə keçiririk, biz aydın şəkildə və tam ölçüdə dərk etmirik ki, burada nəyə nail ola bilmişik.

Əlbəttə, adamların adət etdiklərinə görə düşündükləri kimi hətta ilkin dili biz yoxsul, az sözlə məhdudlaşmış təsəvvür etməliyik. Onlar dilin yaranmasını insanın özü kimilərlə azad ünsiyyətə əzəli istedadı kimi izah etmək əvəzinə əsas rolu qarşılıqlı yardıma ehtiyaca ayırır və bəşəriyyəti hansısa xəyali təbii vəziyyətdə yerləşdirirlər. Bu da, o biri də dil haqqında yaradılması mümkün olan ən səhv görüşlərə aid edilməlidir. İnsan o qədər də müdafiəsiz deyildir və qarşılıqlı yardımı təşkil etmək üçün aydın olmayan səslər də kifayət edərdi. Öz başlanğıc dövründə dil də bütövlükdə insanidir və hər hansı əməli məqsədlərdən asılı olmayaraq əşyaların

hissi qavrayışı və daxili təkmilləşdirilməsi ilə qarşılaşan bütün əşyalara intişar etdirilir. Təbii vəziyyətə yaxınlaşmalı olan vəhşi adlananların dili hər yanda hər cür həyati ehtiyacı ötüb keçən çoxlu və cürbəcür ifadələr təzahür etdirir. Sözlər azad surətdə, məcburiyyətsiz və məqsədsiz insanın sinəsindən axır və yəqin ki, heç bir səhrada köçəri orda olmamışdır ki, öz nəğmələri olmasın, həqiqətən insan canlı varlıq cinsi kimi – təkcə mahnının səsləri ilə fikri birləşdirən oxuyan məxluqdur.

Bu zaman dil hansısa qeyri-müəyyən material ünsürlər kütləsini təbiətdən bizim qəlbimizə sadəcə köçürmür; o özündə həm də bizim üçün mövcudluğun bütün məcmusunda forma kimi göz qabağına gələni də daşıyır. Təbiət qarşımızda nurlu şəfəqlə işıqlandırılmış, obrazlarla zəngin hadisələrin bütün hissi qavrayışlarının rəngarəngliyini inkişaf etdirir; bizim fikrimiz onda bizim ruhumuzun forması ilə səslənən qanunauyğunluq açır; əşyaların cismani mövcudluğundan ayrılmış, sanki yalnız təkcə insana toxunan möcüzəyə izahsız qalan, lakin bizi cəzb edən və məftun edən qanunauyğunluğun hissi materiya ilə bağladığı ittifaqdakı xarici gözəllik onların ümumi təsəvvürünü bürüyür. Bütün bunları, analoji ahəngdə, biz bir daha dildə də tapırıq; o bütün bunları yaratmağa qabildir. Həqiqətən, biz onun ardınca gedərək səslənmə aləminə daxil olduqda real şəkildə bizi əhatə edən aləm bizi tərk etmir; təbiətin qanunauyğunluqlarına dil quruluşunun qanunu oxşadır və bu sonuncunun köməyi ilə insanın yüksək və insani (*menschlichsten*) qüvvələrini fəaliyyətə oyadaraq, dil onu təbiətdə təcəssüm etdirilmiş ümumi formasını dərk etməyə yaxınlaşdırır, axı bu formada da ruhi qüvvələrin inkişafı – dərkedilməz olsun – görmək olar. Səsə

onun birləşmələrində xas olan ritmik və musiqili forma sayəsində dil bizim təbiətdəki gözəllikdən aldığımız təəssüratı artırır, hələ bu təəssüratlardan asılı olmayaraq, öz tərəfindən yalnız təkcə nitqin melodiyası ilə bizim ruhi əhvalımıza təsir edir.

Dil öz törəmələrinin məcmusu kimi nitq fəaliyyətinin ayrı- ayrı aktlarından fərqlənir və bu bölməni bitirməzdən əvvəl, biz bu müddəada bir qədər də dayanmalıyıq. Hər hansı dil özünün bütöv həcmində hər şeyi çevirərək hər şeyə malikdir. Təfəkkürün məzmunu onun bütün sonsuz əlaqələrində bitib-tükənməsi mümkün olmadığı kimi dildə də məna və əlaqələrin külli miqdarı tükənməzdir. Özünün artıq bitkin şəklə düşmüş ünsürlərindən başqa, dil özünün daha çox mühüm hissəsində ruhun fəaliyyətini davam etdirməyə imkan verən və bu sonuncu üçün yollar və formaları qabaqcadan müəyyən edən üsullardan (*Methoden*) ibarətdir. Onun ünsürləri, sabit bitkin şəkil qazanaraq, müəyyən mənada ölü kütlə yaradır, lakin bu kütlə özündə sonsuz müəyyənləşdirilən bilmənin (*Bestimmbarkeit*) canlı cücərtisini daşıyır. Buna görə də, təbiətin özü kimi, hər an və öz inkişafının hər hansı dövründə dil insana – onun artıq bütün dərk etdiklərindən və icad etdiklərindən fərqli olaraq – tükənməz xəzinə kimi görünür ki, burada ruh həmişə nə isə hələ əsrarəngiz bir şey kəşf edə, hiss isə həmişə nə isə hələ dərindən hiss edilməmiş birşey qavraya bilər. Dil həqiqətən yeni və böyük şəxsiyyət tərəfindən yenidən işlənəndə həmişə belə olur və öz əbədi narahat əqli coşğunluğunun ilhamı ilə alışmaq üçün və gələcəkdə öz mənəvi həyatını inkişaf etdirmək üçün insan buna ehtiyac hiss edir ki, artıq nail olmuş sahə ilə yanaşı onun qarşısında həmişə nə isə bir sonsuz və tədricən aydınlaşan perspektiv açılsın. Həm də beləcə qaranlıq, açılmamış dərinliyi

dil başqa istiqamətdə də aşkara çıxarır. Axı, özünün keçmişində o da əsrarəngiz xəzinədən təzahür etmişdir, elə xəzinədən ki, oraya yalnız müəyyən həddə qədər baxmaq olar, bundan sonra o özü haqqında təkcə dərkedilməzliyi haqqında hiss qoyaraq, möhkəm qapanır. Yalnız yaxın keçmiş ilə işıqlandırılan bu başlanğıcsız və sonsuz nəhayətsizliyi dil bütövlükdə bütün bəşər nəslinin mövcudluğu ilə bölüşdürür. Elə bunun sayəsində biz aydın və parlaq şəkildə hiss edə bilərik ki, hətta ən uzaq keçmiş indidə hələ də necə iştirak edir – axı dil keçmiş nəsillərin təəssüratları ilə doludur və onların canlı nəfəsini qoruyur, bu nəsillər isə ana dilinin bizim üçün bizim hisslərimizin ifadəsi olan vasitəsilə bizimlə milli və qohumluq telləri ilə bağlanmışdır.

Dilin bu qismən sabitliyi, qismən dəyişkənliyi dillə bu dildə danışan nəsil arasında xüsusi münasibət yaradır. Dildə söz ehtiyatı toplanır və qaydalar sistemi təşəkkül tapır, bunun sayəsində o, min illər ərzində müstəqil qüvvəyə çevrilir. Yuxarıda biz belə bir məsələyə diqqəti yönəltdik ki, dilin qavradığı fikir bizim ruhumuz üçün obyekt olur və bu mənada artıq xaricdən ona təsir göstərir. Lakin biz obyekti əsasən obyektin törəməsi kimi nəzərdən keçirdik, obyektin təsirinə isə onun əks təsirini göstərdiyi mənbəyi aid edirik. İndi bizim zidd görüşlə işimiz olacaq, bu görüşə görə dil həqiqətən bizə yad obyektdir, onun təsiri isə həqiqətdə onun təsir etdiyindən nə isə fərqli mənbəyə malikdir. Axı, dil ən azı mütləq iki Adama mənsub olmalıdır, əslində isə o bütün bəşər nəslinin malıdır. O, yazıda da bizim ruhumuz üçün həmişə yalnız ani təfəkkürdə realizə edilən, lakin öz bütövlüyündə fikirdən asılı olmayan mövcudluğun xüsusi sahəsinə çevrilir. Bizim burada adlandırdığımız hər iki zidd aspekt –

dilin həm ruha yad olması və bununla yanaşı ona mənsub olması, ruhdan asılı olmaması və eyni zamanda ondan asılı olması faktı – dilin mahiyyətinin xüsusiyyətini yaradaraq onda real şəkildə birləşir və onların arasındakı ziddiyyəti belə həll etmək olmaz ki, o, qismən ruha yaddır və asılı deyil, qismən – nə budur, nə digəridir. Dil nə qədər obyektiv fəal və müstəqildirsə, bir o qədər də passiv və asılıdır. Həqiqətən də, heç yerdə, hətta yazıda onun təhkim edilmiş yeri yoxdur və onun sanki olmuş hissəsi həmişə fikirlə yenidən törədilməli bütövlükdə subyektə keçərək nitqdə, yaxud qavrayışda canlanmalıdır; buna baxmayaraq bu törədilmənin öz aktına məhz dili obyektə çevirmək xasdır: burada dil hər dəfə öz üzərində fərdin təsirini hiss edir, lakin bu təsir ən əvvəldən öz müstəqilliyində bununla buxovlanmışdır ki, o nə törədir və nə də törətmişdir. Zəruriyyətin həqiqi həlli insan təbiətinin vəhdətindədir. Nəyin mənbəyi – mahiyyətcə, mənimlə eynidir – məsələsində subyekt və obyekt asılılıq və müstəqillik məfhumları bir-birinə keçir. Dil mənə mənsubdur, zira mən onu həyata necə çağırıramsa, o mənim üçün elə də qalır; o, bütövlükdə bizim müasirlərimizin nitqində və keçmiş nəsillərin nitqində – onun bir nəsildən digər nəslə fasiləsiz verildiyi dərəcədə – möhkəm kök saldığı üçün dilin özü mənə bundan əlavə məhdudiyyət qoyur. Lakin onda məni məhdudlaşdıran və müəyyənləşdirən nə varsa, hamısı ona mənə intim yaxın olan insan təbiətindən gəlmişdir və buna görə də dildəki yad olan mənim əzəli təbiətimə deyil, yalnız mənim keçici, fərdi təbiətimə yaddır.

Əgər xalqın hər bir nəslinə dilin keçən dövrlərdə mənimsədiyi hər şeyin necə təsir edərək onu müəyyən bir şəklə saldığı və bütün bunlara qarşı yalnız yeganə bir nəslin, – həm də təmiz şəkildə yox, – çünki böyüyən və gedən əvəz biri di-

gəri ilə qarışaraq böyür-böyürə yaşayır, – durduğu haqda fikirləşsək, onda aydın olar ki, dilin qüdrətli hakimiyyəti qarşısında tək bir nəfərin gücü nə qədər cüzidir. Yalnız fərdin qeyri-adi plastikliyi sayəsində, qavrayış üçün zərər vurmadan onun formalarını dərk etmək imkanı sayəsində və bütün canlı ənənələrin ölü ənənələr üzərindəki hakimiyyəti sahəsində hansısa tarazlıq ölçüsü əmələ gəlir. Ya elə, ya belə, həmişə məhz dildə hər bir fərd özünü bütöv insan cinsinin sadə əlavəsi olduğunu daha aydın hiss edir. Hər halda hər kəs öz tərəfindən təklikdə, lakin fasiləsiz şəkildə dilə təsir göstərir və buna görə hər nəslin, heç şeyə baxmayaraq, onda müəyyən bir, ancaq çox vaxt müşahidəsi mümkün olmayan dəyişikliyə səbəb olur. Həqiqətən də heç də həmişə dəyişikliklər sözlərin özünə aid olmur, bəzən sadəcə onların işlənməsinin şəklini dəyişir; yazı və ədəbiyyat olmayan yerdə bunu müşahidə etmək çətin olur. Əgər yadımıza salsaq ki, bu və ya digər dilin fəaliyyəti (bu sözün adi anlamında) yalnız bu dili başqa dillərlə müqayisədə belə olur, həqiqi fəaliyyətlə isə yalnız konkret danışan səlahiyyətlənir, onda tək fərdin dilə əks təsiri bizə daha aşkar görünər. Yalnız fərdin nitqində dil özünün son aydınlığına çatır. Heç kim sözü başqasının anladığı kimi dəqiqliklə başa düşmür və bu fərq, qoy lap balaca olsun, dilin bütün qalınlığı boyu, dairələr suda qaçdığı kimi, hərəkət edir. Buna görə də hər cür anlama həmişə bununla bərabər anlamamadır, fikirlərdə və hisslərdə hər cür razılıq bununla bərabər ayrılıqdır. Dilin hər fərdin ağzında necə şəkildəyişməsində, dilin yuxarıda təsvir edilmiş qüdrətinə rəğmən, insanın onun üzərindəki hakimiyyəti təzahür edir. Biz dilin qüdrətini (əgər mənəvi qüvvəyə belə ifadə tətbiq etmək lazımdırsa) fizioloji təsir kimi nəzərdən keçirə bi-

lərik; onun həyata keçirdiyi zorakılıq xalis dinamik səciyyəlidir. Dilin insana təsiri arxasında dil formalarının qanunauyğunluğu insandan törəyən dilə əks təsir arxasında azadlığın başlanğıcı durur. Həqiqətən, insanda nə isə elə bir şey oyana bilər ki, əvvəlki tarixi şəraitlərdə heç bir idrak buna səbəb axtara bilməz; əgər biz belə izahedilməz fenomenlərin mümkünlüyünü istisna etsək, onda biz dilin təbiətini dərk edə bilmərik və onun yaranmasının və dəyişməsinin tarixi həqiqətini təhrif edərik. Əgər azadlıq da, öz növbəsində, özü-özlüyündə qeyri-müəyyən və izahsızdırsa, onda, ehtimal ki, təkcə ona verilmiş müəyyən fəaliyyət dairəsi daxilində onun sərhədləri hər halda müəyyənləşdirilə bilər.

Tərcümə edən: Əbülfəz Rəcəbli

Avqust Şlayxer
(1821-1868)

Dil haqqındakı elmin tarixində özünəməxsus yeri olan alman alimi Avqust Şlayxer universal biliklərə malik idi. Onun ümumi dilçilik görüşlərindən bəhs edərkən iki istiqaməti fərqləndirməliyik: naturalizm və müqayisəli-tarixi dilçilik.

A.Şlayxerin naturalist görüşləri ingilis Ç.Darvinin təkamül nəzəriyyəsi ilə bağlı olmuşdur. O, təkamül nəzəriyyəsini dilə tətbiq edirdi. A.Şlayxerin naturalist görüşləri "Darvin nəzəriyyəsi və dil haqqında elm" (1863) və "İnsanın təbii tarixi üçün dilin əhəmiyyəti" (1865) əsərlərində əksini tapmışdır. Dili bioloji hadisə hesab edən dilçiyə görə, dil də təbii (canlı) orqanizm kimi doğulur, böyüyür, qocalır və ölüb sıra-

dan çıxır. "Dil səslərlə ifadə olunan təfəkkürdür" deyən dilçinin naturalist görüşləri haqqında fikirlər birmənalı olmamışdır.

A.Şlayxer müqayisəli-tarixi dilçiliyin görkəmli nümayəndələrindən biri kimi də məşhurdur. Onun bu sahə ilə bağlı görüşləri "Hind-german dillərinin müqayisəli qrammatikasının kompendiumu" (1861), "Hind-german dillərinin müntəxəbatı" (1869) və b. əsərlərində ifadə edilir. Bildiyimiz kimi, müqayisəli-tarixi dilçilikdə (metodda) ən son məqsəd Ulu dili bərpa etməkdir. A.Şlayxer dilçiliyin başlıca vəzifəsini bunda görürdü. O, şəcərə nəzəriyyəsini irəli sürmüş, Ulu dili bərpa etmiş və bu dildə bir təmsil yazmışdır.

"İnkaredilməz xidməti xam sahəni müəyyənləşdirmək olmuş bu məktəbə (müqayisəli-tarixi dilçiliyə- Q.C), hər halda, həqiqi elmi dilçilik yaratmaq qismət olmadı. O öyrəndiyi predmetin təbiətini müəyyənləşdirməyə də cəhd göstərmədi" deyən Ferdinand de Sössür "Ümumi dilçilik kursu"nda A.Şlayxerin müqayisəli-tarixi dilçilik görüşləri ilə bağlı yazırdı: "Şlayxer ayrı-ayrılıqda aparılmış bütün müqayisəli araşdırmaların nəticələrini bir yerə yığmağa cəhd etmiş ilk dilçi oldu. Onun "Hind-german dillərinin müqayisəli qrammatikasına dair kompendium"u (1861) Bopp tərəfindən əsası qoyulmuş elmin özünəməxsus şəkildə sistemləşdirilməsindən ibarətdir. Uzun illər boyu elm adamlarına böyük xidmət göstərmiş həmin kitab hind-avropaşünaslığın ilk inkişaf dövründə müqayisəli dilçilik məktəbini başqa əsərlərdən daha yaxşı səciyyələndirir".

Darvin nəzəriyyəsinin dil haqqındakı elmə tətbiqi

Seçmələr

Darvinin heyvan və bitki növləri üçün müəyyənləşdirdiyi qanunlar özünün heç olmasa əsas xüsusiyyətləri baxımından dil orqanizmlərinə də tətbiq olunmalıdır. Həmin tətbiqin izahı isə bu sətirlərin birbaşa vəzifəsidir. Və indiki dövrün dil haqqındakı elmin də mənsub olduğu bütün müşahidəçi elmləri üçün məlum fəlsəfi baxışla şərtlənən vahid ümumi cəhətini ötəri olaraq göstərdikdən sonra biz sözügedən məsələyə keçəciyik.

Darvinin kitabına müraciət edib görək ki, onun şərh etdiyi baxışlarla dilçilikdə oxşar olan nədir.

Hər şeydən əvvəl yada salaq ki, dillər sahəsində həm ümumi, həm də təfsilatlı bölgülər mahiyyət etibarilə ümumən təbii orqanizmlər səltənətindəkilərlə eynicinslidir, lakin həmin təfsilatı əks etdirmək üçün dilçilərin istifadə elədiyi ifadələr təbiətşünaslarda rast gəlinəndən fərqlənir. Xahiş edirəm, bu, həmişə saxlanılsın, çünki bütün sonra deyiləcəklərə tətbiq olunacaqdır. O şeyi ki təbiətşünaslar cins adlandırardılar, qlottiklərdə ona tayfa deyirlər; öz aralarında daha çox qohumlaşmış cinslər bəzən dillərin bir tayfa ailəsi adlanır. Lakin başa düşürəm ki, cinslərin təyini zamanı zooloq və botaniklər kimi dil tədqiqatçıları da öz aralarında mübahisə etməli olurlar. Səciyyələndirmənin bütün dərəcələrində təkrar olunan bu xarakterik vəziyyətə irəlidə mən yenidən qayıdacağam. Bir cinsin növləri bizdə hansısa tayfanın dilləri adlanır; yarımnövlər – bizdə məlum dilin dialektləri və ya şivələridir; növ müxtəlifliyinə yerli şivələr və ya ikinci dərəcəli ləh-

cələr uyğun gəlir; nəhayət, ayrı-ayrı fərdlərə məlum dillərdə danışan ayrı-ayrı adamların ifadə obrazları aiddir. Aydındır ki, bir növün ayrı-ayrı fərdləri öz aralarında mütləq uyğun olmurlar və bu, eyni dərəcədə dil fərdlərinə də şamil edilir; hətta eyni bir dildə danışan ayrı-ayrı adamların ifadə obrazları həmişə az-çox kəskin fərdi çalarlar daşıyır.

Əgər eyni cinsli deyilsə və bütün fərdlərdə müntəzəmdirsə, bir formadan çoxlu yeni formaların yaranmasına təsiri (görünür, fasiləsiz təkrar olunan bu proses) nəticəsində, Darvin tərəfindən müəyyən edilmiş, növlərin dəyişkənliyinə gəldikdə, bu qabiliyyət dil orqanizmlərinə münasibətdə artıq çoxdan etiraf edilmişdir. O dilləri ki botanik və zooloqların ifadəsi ilə eyni bir cinsin növləri saymaq lazım gəlir, biz onları bir ümumi əsas dilin o övladları hesab edirik ki, tədrici dəyişikliklər yolu ilə törəmişlər. Yaxşı məlum olan dil tayfalarından biz də tamamilə eyni cür şəcərələr tərtib edirik ki, bitki və heyvan növləri üçün bunu etməyə Darvin də cəhd göstərmişdir. Artıq heç kim şübhə etmir ki, hind-Avropa dillərinin bütün tayfaları: hind, İran (fars, erməni və s.) yunan, ital (latın, osk, umbr, birincinin bütün övladları ilə birlikdə), kelt, slavyan, Litva, german və ya alman dilləri, yəni tayfaları çoxlu növ, yarımnöv və növ müxtəlifliklərini təşkil etməklə öz başlanğıcını ayrıca bir əsas formadan – hind-german ibtidai dilindən almışdır; eyni xüsusiyyət, məlum olduğu kimi, yəhudi, Suriya və Xaldey, ərəb və s.in mənsub olduğu sami tayfasının dillərinə, eləcə də ümumən bütün dil tayfalarına şamil edilir.

Yeni formaların əvvəlkilərdən törəməsilə bağlı dil sahəsində bitki və heyvan orqanizmləri sahəsindəkindən daha asan və daha geniş ölçüdə müşahidə aparmaq mümkün-

dür. Məsələ burasındadır ki, biz dilçilər bu halda təbiətşünaslardan daha böyük üstünlüyə malikdir. Biz sübut edə bilərik ki, dillərin çoxu müxtəlif dillərə, ləhcələrə və s. budaqlanmışlar. Bizə mahiyyətcə əvvəlki formalarının inandırıcı mənzərəsində yazı vasitəsilə gəlib çatdığına görə bəzi dilləri və dil abidələrini iki min ildən də artıq bir dövr ərzində izləmək olar. Bunu, məsələn, latın dili barədə demək mümkündür. Bizə istər qədim latın dili, istərsə də ondan qopub ayrılma və kənar təsirlər vasitəsilə, siz deyə bilərsiz ki, çarpazlaşma yolu ilə əmələ gəlmiş roman dilləri məlumdur; bizə ən qədim hindcə də, bilavasitə ondan törəmiş dillər də, daha sonra onlardan yaranmış eyni hind dilləri də məlumdur. Beləliklə, bizim əlimizdə müşahidə üçün möhkəm və inandırıcı əsaslar var. Onlarda danışan xalqların xoşbəxtlikdən nisbətən ilkin zamanlardan bəri yazılı abidələr miras qoyduqlarından tarixin bu qədər uzun dövrləri ərzində bizim müşahidələrimizi əl çatan edən, dillər barədə sözün tam mənasında məlum olanları biz əvvəlki formalarının bu cür abidələri kifayət etməyən digər dil tayfalarına da aid edə bilərik. Beləliklə, birbaşa müşahidələrdən bizə aydınıdır ki, dillər yaşadıqca dəyişirlər və həmin müşahidələr üçün verdiyi faktlara görə biz yalnız yazıya borcluyuq.

Əgər bu vaxta qədər yazı icad edilməsəydi, ehtimal ki, heç zaman dil araşdırıclarının ağlına da gəlməzdi ki, müxtəlif dillər, məsələn, rusca, almanca və fransızca eyni bir dildən törəmişlər; onlar, ola bilsin ki, hər hansı ən yaxın qohumluq əlaqəsində olduqları halda hər hansı dillərin ümumi mənşəyini anlamaz və ümumən güman etməzdilər ki, dil dəyişir.

Yazısız bizim vəziyyətimiz botanik və zooloqların vəziyyətindən daha çətin olardı, çünki hər halda onların əlində əvvəl yaranmışlardan nümunələr var və ümumiyyətlə, elmi

obyektlər dillərdən daha asan müşahidə üçün material təbiətşünaslarda olanlardan daha çoxdur və ona görə də növlərin ilkin vəziyyətdə olmadıqları fikrinə daha əvvəl gəlmişik. Bundan başqa, dillərdəki dəyişmələr, ola bilsin, heyvan və bitki səltənətlərindəkindən daha sürətlə baş verir. Odur ki, zooloq və botaniklər bizimlə yalnız o halda bərabər şəkildə əlverişli vəziyyətdə olardılar ki, bizə, necə deyərlər, nuhun tufanına qədərki formaların heç olmasa bəzi növlərinin tamamilə bütöv ekzemplyarda, yəni dərisi və saçları, yaxud yarpaqları, çiçəkləri və meyvələrilə birlikdə tam bir sırası gəlib çatmış olsun. Bir sözlə, dil səltənəti ilə heyvanlar və bitkilər səltənəti arasında müşahidə üçün materiala münasibətdəki fərq, artıq deyildiyi kimi, yalnız kəmiyyət baxımdandır, keyfiyyətcə deyil, ona görə də, məlum olduğu kimi, heyvan və bitkilərin bəzi dəyişmə dərəcəsi həmçinin aydınlaşdırma faktıdır.

Daha mütəşəkkil dillər, məsələn, hind-german tayfasının bizə tamamilə məlum olan uluatası görünür, öz quruluşu ilə göstərir ki, onlar daha sadə formalardan tədrici inkişaf vasitəsilə əmələ gəlmişlər. Bütövlükdə dillərin quruluşu şəhadət verir ki, onların qədim forması, mahiyyətcə, bəzi ən sadə quruluşlu dillərdə (məsələn, çincədə) qorunub saxlanıldığı kimidir. Bir sözlə, o şey ki bütün dillər öz başlanğıcını ondan alır, anlamlı səslərdən, təəssüratların, təsəvvürlərin, anlayışların sadə səs ifadələrindən ibarət olub, müxtəlif şəkillərdə işlənə, yəni xüsusi səs formaları, necə deyərlər, bu cür müxtəlif icraetmə üzvləri olmadan bu və ya digər qrammatik forma rolunu ifa edə bilərlər. Dillərin həyatının həmin ən qədim dövründə səs baxımından nə feillər, nə adlar, nə təsrif, nə hallanma və s. yoxdur.

Bənzətmə üsulundan istifadə edərək mən kökləri dilin sadə hüceyrələri adlandıra bilərəm ki, onların hələ ad, feil və s. kimi qrammatik funksiyalar üçün xüsusi üzvləri yoxdur və məsələn, təkhüceyrəli orqanizmlərdə, yaxud ali canlıların rüşeym qabarcığında nəfəs və həzm kimi həmin funksiyalar (qrammatik münasibətlər) eyni dərəcədə az fərqlənir.

Beləliklə, biz bütün dillərin formaca eyni bir mənşədən gəldiyini qəbul edirik. Elə ki insan səs mimikasından və səs təqlidindən, artıq mənası olan səslərə yol tapdı, bu sonuncular hələ hər cür qrammatik mənadan uzaq sadə səs formaları idi. Lakin həm təşkil olunduqları səs materialına, həm də ifadə etdikləri mənaya görə dilin bu sadə başlanğıcları müxtəlif insanlarda fərqli idi ki, həmin başlanğıclardan inkişaf edən dillərin fərqliliyi ilə sübut olunur. Ona görə də biz ibtidai dillərin hədsiz çox olduğunu güman etməklə yanaşı, onların hamısı üçün eyni formanın mövcudluğunu qəbul edirik.

Biz bitki və heyvan orqanizmlərinin mənşəyini də müəyyən dərəcədə eyni şəkildə təsəvvürə gətiririk; onların ümumi ilkin forması dillərə münasibətdə sadə kök olduğu kimi, ehtimal ki, sadə hüceyrədir. Heyvan və bitkilərin sonrakı həyatının ən sadə formaları olan hüceyrələri, nəticə etibarilə, görünür, həmçinin sadəliyin çoxluğu kimi təsəvvür etmək lazım gəlir; eynilə planetimizin həyatının müəyyən dövründə dillər sahəsində bizi çoxsaylı sadə saslərin mənaları ilə birlikdə eyni zamanda təzahürünü mümkün hesab etdik. Üzvi həyatın hələ nə heyvan, nə də bitki adına iddialı olmayan bu ilkin formaları sonralar müxtəlif istiqamətlərdə inkişaf etmişlər; dillərin kökləri də həmin şəkildə.

Tarixi dövrə doğru görürüksə ki fərdi şəraitdə yaşayan insanlarda dillər onlarda danışan hər bir şəxsdə bərabər

olaraq dəyişir, onda biz onu da qəbul edirik ki, dil tamamilə eyni cür insanlarda eyni cür formalaşmışdır. Ona görə ki yuxarıda izah olunan metod – məlum olandan məlum olmayanı ortaya çıxarmaq – bizə imkan vermir ki, bilavasitə müşahidəyə gəlməyən qədim zamanlar üçün elə həyat qanunları ehtimal edək ki, müşahidə etmək imkanı olduğumuz dövrdə gördüklərimizdən ayrı olsun.

Başqa şəraitlərdə həm dillər ayrı cür formalaşardı, həm də, bütün ehtimallara görə, dillərin müxtəlifliyi insanların ümumən həyat şəraiti müxtəlifliklərin bilavasitə uyğun gələrdi. Beləliklə, dillərin yer üzündəki ilkin bölgüsü, ehtimal ki, ciddi qanunlarla baş vermişdir; qonşu xalqların dilləri dünyanın müxtəlif yerlərində yaşayan insanların dillərindən daha uyğun idi. Dillər mənbə dildən nə qədər uzaqlaşdırılarsa ondan get-gedə o qədər də yana çəkilməli idilər, çünki uzaqlaşmaqla birlikdə həm iqlim, həm də ümumiyyətlə həyat şərtləri dəyişir. Hətta indiyə qədər, görünür, dillərin həmin doğru-düzgün bölünməsinin izləri qorunub saxlanmışdır...

... Coğrafi baxımdan qonşu tayfaların dil quruluşunda bu heyrət doğuracaq uyğunlaşmanı biz dilin ən ilkin həyatının hadisəsi hesab edirik. Yaranış başlanğıcları, mahiyyət etibarilə, analoji olan dillərin mənşə beşiklərini, bizim fikrimizcə, qonşu hesab etmək lazım gəlir. Dünyanın ayrı-ayrı hissələrinin həm faunası, həm də florası dillər kimi özlərinə məxsus tip əldə edir.

Tarixi dövrdə dillərin növləri və cinsləri tədricən yoxa çıxır və onların hesabına başqaları yayılır; nümunə üçün mən ancaq hind-german tayfasının yayılması və Amerika dillərinin ölüb getməsini yada salacağam. Dillərdə nisbətən

az sayda əhalinin danışdığı qədim zamanlarda dillərin formalarının ölüb getməsi, ola bilsin ki, müqayisəyə gəlməyəcək qədər yüksək dərəcədə olmuşdur. Lakin məsələn, hind-germanca kimi daha mütəşəkkil dillər, inkişaf səviyyələrindən, əsl qədim formalarından və dillərin ümumən ləng dəyişmələrindən göründüyü kimi, çoxdan mövcud olmalı idilər. Buradan o nəticə çıxır ki, dillərin həyatının tarixəqədərki dövrü tarixi zamanlara mənsub dövrdən daha ardıcıl olmuşdur. Dil isə bizə yalnız yazının işlənməsi zamanından məlumdur. Və beləliklə, dil orqanizmlərinin yoxa çıxması dövrü və onun ilkin şəraitinin dəyişməsi üçün olduqca böyük zaman məsafəsi, ola bilər, bir neçə on min il ehtimal etməyimiz lazım gəlir. Bu böyük zaman aralığında, görünür, dillərin indiyə qədər mövcud olanlardan daha çox cinsləri yox olmuşdur. Məsələn, hind-german, fin, Malay, Cənubi Afrika və b. Kimi müxtəlif tayfaların geniş yayılması imkanı da belə izah edilir. Həmin cür prosesi Darvin "mövcud olmaq uğrunda mübarizə" adlandıraraq bitki və heyvan səltənəti üçün qəbul edir; üzvi formaların çoxu həmin mübarizədə məhv olmalı və öz yerini sayca nisbətən az olan seçilmişlərə verməli idi. Darvinin öz sözlərinə müraciət edək. O deyir: "Əksəriyyət təşkil edən qrupların əksər növləri çoxlu növdəyişmə nəsilləri qoyub getməyə cəhd göstərir və beləliklə, yeni yarımqruplar əmələ gəlir. Onların əmələgəlmə hüdudunda daha az güclü qrupların növləri ümumi mənşədən irs aldıqları qeyri-mükəmməllik üzündən dəyişkən nəsillər qoymayaraq eyni zamanda məhvə meyillidir. Lakin növlərin bütöv qruplarının tamamilə məhvi, mühafizə olunan birləşmiş məskənlərdə yaşayan azsaylı nəsillərin qorunması nəticəsində, çox hallarda olduqca ləng gedən proses ola bilər (dillərlə əlaqədar olaraq buna dağlarda rast gəlinir; mən xatırladım

ki, məsələn, Pireneylərdəki bask dili əvvəllər uzaqlarda yayılmış dilin qalığıdır; eyni hadisəni Qafqazda və başqa yerlərdə də görürük). Nə zaman ki qrup bütünlüklə yoxa çıxır, o bir daha təzahür eləmir, çünki nəsil bağı qırılır. Biz dərk edə bilərik ki, tez-tez dəyişən aparıcı həyat formaları zaman-zaman bütün dünyanı qohumlarına yaxın olmaqla məskunlaşdırmağa necə cəhd göstərir, hərçənd növdəyişmələrlə, nəsillərilə; onların çox hissəsi o növ qruplarını əvəz etməyə nail olur ki, mövcudluq uğrunda mübarizədə zəifdirlər".

Darvinin bu sözləri heç bir dəyişiklik edilmədən dilə də tətbiq oluna bilər. Verilmiş sətirlərdə Darvin yüksək səviyyədə təsvir edir ki, dillərin öz mövcudluqları uğrunda mübarizəsi zamanı nələr baş verir. Bəşəriyyətin həyatının indiki dövründə mövcud olmaq uğrunda mübarizədə qalib olaraq əsasən hind-german tayfasının dilləri özünü göstərir; onların yayılması fasiləsiz davam edir, başqa bir çox dillər isə onlar tərəfindən sıxışdırılır.

Dillərin çoxsaylı məhvinin nəticəsində bəzi aralıq formalar aradan qalxmışdır; xalqların köklərinin ardınca dillərin ilkin şəraitləri dəyişikliklərə uğramışdır. Və indi heç də təsadüfi hal deyil ki, tamamilə müxtəlif formalı dillər aralarında bilavasitə əlaqə olmadan məkanca qonşudurlar. Məsələn, biz görürük ki, hind-germancadan bütünlüklə fərqli bask dili həmin tayfa arasında təklənmiş vəziyyətdədir.

Darvin də, mahiyyət etibarilə, heyvan və bitki səltənətinə münasibətdə bunları deyir.

Tərcümə edən: Nizami Cəfərov

Hind-Avropa dillərinin müqayisəli qrammatikasının kompendiumu

Ön söz

Qrammatika dilçiliyin və ya qlottikanın* bir hissəsini təşkil edir. Sonuncu isə insanın təbii tarixinin bir hissəsidir. Onun metodu, əsasən, ümumən təbiət elmlərinin metodur; o, obyekt üzərində dəqiq müşahidədən və müşahidə əsasında gəlinən nəticələrdən ibarətdir. Qlottikanın başlıca məsələlərindən biri dil cinslərinin və ya dil ailələrinin, yəni eyni bir pradildən törəyən dillərin təsvirindən və həmin cinslərin təbii sistem üzrə təsnifindən ibarətdir. Dil ailələrinin bu günə qədər nisbətən az bir hissəsi dəqiq araşdırılmışdır, odur ki, qlottikanın bu başlıca məsələsinin həlli gələcəyin işidir.

Səslərin, formaların, sözlərin və onların hissələrinin, eləcə də cümlənin quruluşunun elmi şəkildə nəzərdən keçirilməsini və təsvirini biz "qrammatika" adlandırırıq. Beləliklə, qrammatika səslər və ya fonologiya haqqında təlimdən, formalar və ya morfologiya haqqında haqqında təlimdən , funksiyalar haqqında təlimdən və ya mənalar və münasibətlər haqqında təlimdən və sintaksisdən ibarətdir. Qrammatikanın öyrənmə predmeti ümumiyyətlə dil, yaxud müəyyən bir dil, yaxud da dillər qrupu ola bilər: ümumi qrammatika və xüsusi qrammatika. Çox hallarda o, dili təşək-

* Uğursuz şəkildə yaranmış "linqvistika"dan kəskin şəkildə üstünlük verilməsi lazım gələn bu əla sözü mən icad eləməmişəm. Bunun üçün yerli universitet kitabxanasına borcluyam ki, orada çoxdandır ki işlənir.

kül prosesində öyrənir və nəticə etibarilə, dilin həyatını onun qanunları əsasında tədqiq və təsvir etməlidir. Əgər istisnasız olaraq yalnız bununla məşğuldursa və nəticə etibarilə, predmeti dilin həyatını təsvirdən ibarətdirsə, onu tarixi qrammatika, yaxud dil tarixi adlandırırlar; əslində, dilin həyatı* haqqında (səslərin, formaların, funksiyaların, cümlələrin həyatı haqqında), öz növbəsində həm ümumi, həm də çox və ya az dərəcədə xüsusi olmaqla təlim adlandırılması daha doğru olardı.

Hind-Avropa dillərinin qrammatikası xüsusi qrammatikadır. Bu dilləri təşəkkül prosesində nəzərdən keçirdiyinə və onların çox və ya az dərəcədə qədim vəziyyətlərindən çıxış etdiyinə görə, daha doğru olardı ki, o, hind-Avropa dillərinin xüsusi tarixi qrammatikası adlandırılsın.

1-ci qeyd. Yalnız təsviri qrammatikanı deyil, dil formalarını mümkün qədər izah edən, odur ki, qayda üzrə, ayrı-ayrı dillərlə məhdudlaşmayan qrammatikanı da müqayisəli qrammatika adlandırmaq adətə çevrilmişdir.

2-ci qeyd. Hazırkı əsər dilin öyrənilməsi zamanı elmi görüntüyə gələn yalnız iki tərəfi ehtiva edir – səsləri və formaları. Biz hələ hind-Avropa dillərinin funksiyalarını və cümlə quruluşunu dilin daha xarici və daha çox ələ gələn tərəflərinə onun səslərinə və formalarına münasibətdə mümkün olduğu dərəcədə elmi şəkildə araşdırmaq qüdrətində deyilik.

*Dillər də bütün təbii orqanizmlər kimi yaşayır; onlar, doğrudur, insanlar kimi hərəkət etmir, tarixləri də yoxdur – biz "həyat" sözünü dar və hərfi mənada işlədirik.

Bütün dillər üçün ümumi bir pradil qurmaq mümkün deyil, hərçənd çoxlu sayda pradillər mövcud olmuşdur. Bu hələ yaşayan dillərin müqayisəli nəzərdən keçirilməsi zamanı aydın görünür. Dillərin, get-gedə yoxa çıxması, yenilərinin isə hələ meydana çıxmaması belə ehtimal etməyə imkan verir ki, ilk başlanğıcda indikindən daha çox dil varmış. Buna uyğun olaraq pradillərin sayı da, görünür, hələ yaşayan dillər əsasında güman edildiyi ilə müqayisə olunmayacaq qədər çox idi.

Dilin həyatı (adətən, dilin tarixi adlanır) iki dövrə ayrılır:

1. Dili inkişafı – tarixəqədərki dövr. Dil, yəni fikrin səs ifadəsi insanla birlik də təşəkkül tapır. Hətta ən sadə dillər belə, tədrici yaranma prosesinin nəticəsidir. Dilin bütün yüksək formaları daha sadələrdən əmələ gəlmişdir: aqlütinasiya olunanlar təcrid olunmuşlardan, flektivlər aqlütinasiya olunanlardan.

2. Dilin səslərə və formalara münasibətdə, həmçinin eyni zamanda cümlənin funksiya və quruluşunda əhəmiyyətli dəyişikliklər baş verir, tənəzzülü – tarixi dövr. Birinci dövrdən ikinciyə keçid təcridi baş verir. Dillərin öz həyatları ərzində dəyişmələrinə dair qanunların müəyyənləşdirilməsi qlottikanın əsas məsələlərindən biridir, belə ki, həmin qanunları dərk etmədən dillərin, xüsusilə indi mövcud olanların formalarını anlamaq mümkün deyil.

Eyni bir dil özünün müxtəlif sahələrdə yayılmasındakı fərqli inkişafı vasitəsilə ikinci dövr ərzində bir neçə dilə (dialektlər, şivələrə) bölünür, lakin onun başlanğıcı da tarixin şahidliyi hüdudundan kənara çıxır. Həmin diferensiasiya prosesi dəfələrlə təkrarlana bilər.

Bütün bunlar dilin həyatında uzun zaman ərzində tədricən baş verir, belə ki, dilin tarixində baş verən bütün dəyişikliklər tədricən inkişaf edir.

Pradildən təşəkkül tapan ilk dilləri bir dil-əsaslar adlandırırıq; demək olur ki, onların hamısı ayrı-ayrı dillərə diferensiasiya olunur ki, həmin dillər də öz növbəsində dialektlərə, dialektlər isə yarımdialektlərə ayrıla bilər.

Eyni bir pradildən törəyən bütün dillər dil cinsi və ya dil ağacı yaradır ki, sonralar dil ailələrinə və ya dil budaqlarına bölünür.

Asiya və Avropa dillərinin müəyyən qrupunu hind-Avropa dilləri adlandırırıq ki, onlar həm o həddə eyni, həm də bütün başqa dillərdən o həddə fərqli xüsusiyyətlər daşıyır ki, mənşəcə ümumi bir pradildən gəlməsi şübhə doğurmur

Hind-Avropa dili yayılmasının müxtəlif sahələrində qeyri-bərabər inkişafının nəticəsi olaraq ilk başlanğıcda iki hissəyə bölünmüşdür.

Əvvəl slav-germanca ayrılmış (onlar sonra german və slav-litvacaya üzvlənmişdir), pradilin qalan hissəsi – ari-yunan-ital-keltcə isə yunan-ital-keltcə və aricəyə bölünmüşdür ki, onlardan birincisi (alban-) yunan və ital-keltcəyə üzvlənmiş, ikincisi, yəni aricə uzun zaman bölünməz qalmışdır. Daha sonralar slav-litvaca, aricə (hind-iranca) və ital-keltcə yenidən ayrılmışdır. İstisna sayılan olunmur ki, bəzi və ya hətta bütün bölünmələr zamanı indi müəyyənləşdirilməsi mümkün olanlardan daha çox dillər meydana çıxdığından zaman-zaman bəzi hind-Avropa dilləri yoxa çıxa bilərdi.

Hind-Avropa xalqı nə qədər şərqə doğru yaşayırsa, dili də o qədər də qədim də qalmışdır; nə qədər qərbə doğru-

dursa, dil də qədim xüsusiyyətləri o qədər az, yeni yaranmaları isə o qədər çox ehtiva etməkdədir. Buradan, eləcə də başqa faktlardan belə çıxır ki, qərbə doğru köçlərini birinci slav-germanlar başlamış, onların arxasınca yunan-ital-keltlər gəlmişlər. Yerdə qalan arilərdən hindlilər –cənub-şərqə doğru yönəlmiş, iranlılar isə cənub-qərbə doğru yayılmışlar. Buna uyğun olaraq hind-avropalıların vətənini Mərkəzi Asiya yaylasında axtarmaq lazım gəlir.

Öz əsl vətənlərini axırıncı tərk edən hindlilərə gəldikdə biz bütün mötəbərliliyi ilə bilirik ki, onlar öz yeni vətənlərində dillərindən bəzi xüsusiyyətlər əxz etdikləri qeyri-hind-Avropa xalqını sıxışdırıb çıxarmışlar. Başqa hind-Avropa xalqlarında da bu, yüksək dərəcədə mümkündür. Hind-avropacanın nəsil şəcərəsi yaradan dil-əsasların və dil ailələrinin təşəkkül tapmasına qədərki ən qədim bölünmələrini aşağıdakı sxemlə göstərmək olar ki, burada xətlərin uzunluğu dövrün nə qədər davam etdiyini, onların bir-birindən uzaq-yaxınlığı isə qohumluğun dərəcəsini göstərir:

Tərcümə edən: Nizami Cəfərov

Avqust Şlayxerə görə hind-Avropa dillərinin şəcərəsi



Boduen de Kurtene
(1845-1929)

Əslən fransız olan Boduen de Kurtene Kazan dilçilik məktəbinin banisi kimi məşhurdur. O, universal biliklərə malik dilçi olmuş və 20-yə yaxın dil bilmiş, belə bir fərqli cəhəti də olmuşdur ki, özünü konkret olaraq kiminsə tələbəsi saymamışdır. Müxtəlif ölkələr və dillərlə bağlılığı onun hansı xalqa mənsubluğunu müəyyənləşdirmək üçün də çətinlik törətmişdir.

Boduen de Kurtene bir çox yeniliklər etmiş, fonem, morfem, kinem, leksem və s. kimi anlayışları ilk dəfə işlətmiş, riyazi metodları dilçiliyə tətbiq etməklə eksperimental fonetikanın əsasını qoymuşdur.

Boduen de Kurtene fonem nəzəriyyəsinin yaradıcısıdır. Onun fonem konsepsiyası əsasında məktəblər formalaşmışdır.Yaradıcılığının əvvəlki dövrlərində fonemə morfoloji, sonrakı dövrlərdə isə psixoloji mövqedən yanaşmışdır. Üstünlüklərindən biri də o idi ki, həm geniş, həm də dar mənada dildə sistemin rolunu görə bilmişdir. Onun fikrincə, dil geniş mənada sistemdirsə də, onun layları – fonem, morfem və b. da dar mənada sistem təşkil edir. Boduen de Kurtenenin 600-ə yaxın elmi məqaləsində dil haqqındakı elmlə bağlı novator mülahizələri şərh olunmuşdur.

Fonem

Fonem (yunan dilində "səs"), dilçilik termini, psixi cəhətdən canlı fonetik vahiddir. Və nə qədər ki, biz keçici tələffüz və eşitmə ilə məşğuluq, vahid akustik-fonetik təəssürat yara-

dan sadə fonasiya və ya tələffüz vahidini işarələyən səs termini kifayətdir. Yox əgər biz yalnız psixi baxımdan fasiləsiz şəkildə təsəvvürlər aləmi kimi mövcud olan gerçək dil mühitinə qədəm basırıqsa, onda səs anlayışı yetərli olmayacaq və biz səsin psixi ekvivalentini işarələməyə qadir digər termin axtarmalı olacayıq. Fonem məhz belə termindir: Məsələn, polyak dilindəki "noga" sözünü tələffüz edərkən biz iki heca əmələ gətirən dörd səs tələffüz edirik. Lakin bu tələffüz ruhda akustik-fonetik iz saxlamaqla bitir, amma o, dilxarici təsəvvürlərlə dil təsəvvürlərinin müvafiq assosiasiyalarının qıcıqlanması və hərəkətə gətirilməsi nəticəsində yenidən təkrar oluna bilər. Fonetik təsəvvürlər belə dil təsəvvürlərindəndir ki, onların təzahürləri fizioloji və akustik cəhətdən bitmiş, lakin keçici səslər və onların birləşmələridir. Dilönü kipləşmə, burun boşluğunun açılması, səs tellərinin akustik titrəyişi, dil kürəyinin orta hissəsinin damağa yaxınlaşmaması ilə tələffüz edilən [n] səsinin təsəvvürü və s. – bu təsəvvürün özü elə /n/ fonemidir. "Səslər" keçici fizioloji-akustik təsəvvürlər kimi nə psixifonetik, nə də tarixi tutuşdurmalar üçün yararlı deyillər. Məsələn, kiçiltmə təsəvvürü "nóźka" sözündə tələffüz olunan / ź, n, ó / səslər deyil, həmin səslərin, yəni müvafiq fonemlərin canlı psixi təsəvvürləri ilə əlaqəlidir. "nóg" sözündə /g/ fonem "noga, nogą, nogami" sözlərindəki /g/ foneminin eynidir və onlar arasındakı fərq – tələffüz olunan səslərin fərqindədir, bu fərq psixi deyil, tələffüz şəraitindən asılı olan fizioloji fərqdir; burada bir /g/ foneminə iki səs - [g] və zəifləmiş [k] uyğun gəlir. Deməli, fonem dilə münasibətdə akustik və fonasiya (tələffüz) təsəvvürləri ilə əlaqələnmiş eyni və vahid təəssüratların bütöv cərgəsindən yaranmış bölünməz, vahid antropofonik obrazdır. Başqa sözlə desək, fo-

nem eyni bir səsin tələffüzündən alınan təsəvvürlərin ruhda psixi birləşməsi yolu ilə yaranan vahid fonetik təsəvvürüdür. Fonemin vahid təsəvvürü ilə həm icra olunmuş və ya yerinə yetirilə biləcək fizioloji funksiyaların, həm də həmin fizioloji funksiyaların eşidilən və ya eşidilə biləcək nəticələrinin ayrı-ayrı antropofonik təsəvvürlərin məcmuyu ilə əlaqələndirilir. Qısası, fonem dil səslərinin vahid, daimi təsəvvürləridir.

Tərcümə edən: C.M.Babayev

Ferdinand de Sössür

(1857-1913)

Müasir dilçiliyin banisi, fransız mənşəli İsveçrə dilçisi Ferdinand de Sössürün dilçilik tarixində xüsusi yeri var. O, struktur dilçiliyin və sosioloji dilçilyin (sosiolinqvistikanın) yaradıcısıdır.Elmə müqayisəli-tarixi araşdırmaları ilə gəlsə də, sonralar dil nəzəriyyəçisi kimi ölməzlik qazanmışdır.

Ferdinand de Sössürü dünya dilçiliyi tarixində məşhurlaşdıran və ona böyük nüfuz qazandıran əsəri, şübhəsiz ki, "Ümumi dilçilik kursu"dur. Əsər onun ümumi dilçiliyə dair 1906-1907, 1908-1909 və 1910-1911-ci illərdə üç kurs oxuduğu mühazirələr əsasında ölmündən sonra fədakar tələbləri Ş.Balli və A.Seşe tərfindən nəşr etdirilmişdir. "Kurs"un "Birinci nəşrə ön söz"ündə həmin tələbələri (onlar da strukturalizmin Cenevrə məktəbinin tanınmış nümayəndələridir) yazırlar: "Biz istər elmi tənqidin, istərsə də əsərin nəşrinə, güman ki, razı olmayacaq müəllifin özünün qarşısında məsuliyyətimizi tamamilə anlayırıq. Həmin məsuliyyəti bütünlüklə üzərimizə götürürük. İstərdik ki, məsuliyyət yalnız bizim

üzərimizə düşsün. Görəsən, tənqidçilərimiz ustadla onun şərhçiləri arasında fərq qoymağı da bacaracaqlarmı? Biz istərdik ki, zərbələrini bizə yönəltsinlər: bizim üçün əziz olan insanın xatirəsini həmin zərbələrə məruz qoymaq insafsızlıq olardı".

Bildiyimiz kimi, F.de Sössürə qədərki dilçilik dili digər mövqelərdən (rasional, fəlsəfi, bioloji və s.) şərh etmişdi. Dahi dilçi isə sələflərindən fərqli olaraq dilin sosial təbiətini görə bilmiş və "Kurs"da dil haqqındakı elmin obyektini belə formulə etmişdir: "Dilçiliyin yeganə və xalis obyekti özüözündə və özü üçün baxılan dildir".

XX əsr dilçiliyi sistem-struktur münasibətlərin mükəmməl təşkil texnikasına görə bilavasitə F.de Sössürə borcludur. F.de Sössür "Kurs"da yazırdı: "Dil sistemdir və yalnız özünün məxsusi qaydalarına tabedir. Dil həm də ideyalar ifadə edən işarələr sistemidir, burada yeganə əhəmiyyətli olan məna ilə akustik obrazın birləşməsidir ki, işarənin hər iki komponenti bərabər dərəcədə psixidir".

F.de Sössür özündən sonrakı dilçiliyin inkişafına çox güclü təsir göstərmişdir.L.Blumfild yazırdı: "O, bizə insan haqqında elmin nəzəri əsaslarını vermişdir". Dilçilikdə "Sözlər və şeylər" məktəbinin banisi Hüqo Şuxardt Sössürün "Kursu"nu oxuduqdan sonra demişdir: "Sössürün "Kursu"ndan mənə bir yenilik ətri dəydi və mən deyərdim ki, narahatlıq doğuran bir yenilik ətri". Fransız dilçisi Emil Benvenist deyirdi: "İndi ona nədəsə borclu olmayan dilçi yoxdur. Elə bir ümumi nəzəriyyə yoxdur ki, Sössürün adı çəkilmədən ötüşsün".

Ümumi dilçilik kursu

Dilçilik tarixinə ümumi baxış

Dilçilik özünün əsl və yeganə obyektinin nə olduğunu dərk edənə qədər üç ardıcıl inkişaf mərhələsindən keçmişdir.

Dilçiliyin əsası, əgər belə demək mümkünsə, "qrammatika" ilə qoyulmuşdur. Əvvəlcə yunanlarda meydana çıxan, sonralar əsas etibarilə Fransada inkişaf edən bu fənn məntiqə əsaslandığı üçün dilə elmi və obyektiv baxışdan məhrum idi: Qrammatikanın yeganə məqsədi düzgün formalarla yanlış formaları fərqləndirmək üçün qaydalar tərtib etmək idi. Bu, əsl müşahidədən tamamilə uzaq, normativ bir fənn olduğundan, onun baxış dairəsi dar çərçivədə idi.

Sonralar filologiya meydana çıxdı. Hələ əvvəllər də İskəndəriyyədə "Filoloji" məktəb olmasına baxmayaraq, bu termin, başlıca olaraq, əsası 1777-ci ildə Fridrix Avqust Volf tərəfindən qoyulmuş və bizim günlərə qədər davam edən elmi istiqaməti göstərmək üçün işlədilir. Filologiyanın yeganə obyekti dil deyil; onun məqsədi, hər şeydən əvvəl, mətnləri izah və şərh etməkdir. Bu əsas məqsəd, eyni zamanda, onu ədəbiyyatın, məişətin, sosial təsisatların və s. tarixi ilə məşğul olmağa gətirib çıxarır. Hər sahədə filologiya öz məxsusi metodunu mənbələrin tənqidi metodunu tətbiq edir. Əgər filologiya dilçilik məsələlərinə toxunursa, burada başlıca məqsəd müxtəlif dövrlərə aid mətnləri müqayisə etmək, bu və ya digər müəllifə xas olan dili müəyyənləşdirmək, arxaik, yaxud o qədər də tanınmayan dillərdəki kitabələrin şifrəsini açmaq və izah etməkdir. Şübhəsiz, məhz bu tipli araşdırmalar tarixi dilçilik üçün yol açmışdır: Riçlin Plavt haqqındakı əsərləri artıq "dilçilik" adlan-

dırıla bilər. Lakin bu sahədə filoloji tənqidin bir mühüm qüsuru var: yazılı dilə qarşı bir kölə sədaqəti göstərildiyi halda, canlı dil unudulur və nəticədə maraqlar, demək olar ki, bütünlüklə qədim yunan və Roma abidələrinə yönəlir.

Üçüncü mərhələ dilləri bir-biri ilə müqayisə etmək imkanının kəşfı ilə başlandı. Müqayisəli filologiya, yaxud başqa sözlə, müqayisəli qrammatika belə meydana çıxdı. 1816-cı ildə Frans Bopp özünün "Sanskrit dilinin təsrif sistemi haqqında"kı əsərində sanskriti yunan, latın və başqa dillərlə bağlayan münasibətləri araşdırdı. Lakin Bopp həmin bağlılığı müəyyənləşdirən, bu dillərin eyni bir ailəyə mənsubluğunu ehtimal edən ilk tədqiqatçı deyildi. Ona qədər həmin fikri ingilis şərqşünası Vilyam Counz (1746-1794) da sübut etmişdi. Bununla belə, ayrı-ayrı pərakəndə mülahizələr 1816-cı ildə haqqında söhbət gedən tədqiqat üsulunun əhəmiyyətinin, vacibliyinin artıq hamı tərəfindən dərk olunduğunun təsdiqi üçün hələ kifayət etmirdi. Beləliklə, Boppun xidməti təkcə Avropanın və Asiyanın bəzi dilləri ilə sanskritin qohumluğunu kəşf etməkdən ibarət deyildi; o, həm də predmeti qohum dillər arasındakı münasibətdən ibarət olan müstəqil bir elm yaratmağın mümkünlüyünü dərk etmişdi. Bir dili başqa dilin əsasında təhlil etmək, bir dilin formalannı başqa dilin formaları ilə izah etmək – Boppun əsərindəki yenilik bundan ibarət idi.

Əgər əvvəl sanskrit kəşf edilməsəydi, Bopp öz elmini (həm də belə qısa bir müddətdə) çətin ki yarada bilərdi. Boppun axtarışlarının bazası məhz ona görə genişləndi və möhkəmləndi ki, yunan və latın dilləri ilə yanaşı, üçüncü informasiya mənbəyi – sanskritdən istifadə imkanı əldə etdi; bu üstünlük bir də ona görə gücləndi ki, sanskrit onunla

tutuşdurulan dillərə işıq salan əlverişli xassələr aşkarladı.

Bir nümunə əsasında buna diqqət yetirək... Latınca genus (genus, generis, genere, genera, generum və s.) və yunanca génos (génos, géneos, geneï, genea, geneön və s.) sözlərinin hallanma paradiqmasına baxsaq, bu cərgələrə təcrid olunmuş şəkildə, yaxud öz aralarında müqayisə edərək yanaşmağımızdan asılı olmayaraq, onlar heç bir nəticəyə gəlməyə imkan vermir. Lakin müvafıq sanskrit paradiqması (janas, janasas, janasi, janassi, janasäm və s.) qeyd olunan cərgələrlə tutuşdurulsa, mənzərə kəskin şəkildə dəyişəcək. Həmin paradiqmaya ötəri baxış kifayətdir ki, digər iki paradiqma (yunan və latın) arasındakı mövcud qarşılıqlı münasibət sübuta yetirilsin. *Janasın* ilkin vəziyyəti təmsil etdiyini ehtimal eləsək (həmin ehtimal üçün müəyyən əsas var), belə bir nəticəyə gələ bilərik ki, *gène(s)os* və s.-də həmişə yunan formalarında iki sait arasına düşən s itmişdir. Bunun ardınca belə bir fikrə də gəlmək olar ki, həmin şəraitdə latın dilində s > r-ya keçmişdir. Bundan başqa, sanskrit paradiqması qrammatik baxımdan hind-Avropa kökü anlayışını dəqiqləşdirir, çünki həmin element burada tamamilə aydın, sabit bir vahidlə (*janas-*) təzahür edir. Latın və yunan dillərinin yalnız ən ilkin mərhələlərində sanskritin təqdim etdiyi vəziyyət bilinirdi. Beləliklə, bu halda sanskrit onunla əlamətdardır ki, bütün hind-Avropa dillərindəki s-lər onda mühafizə olunmuşdur. Doğrudur, başqa hallarda burada ümumi ulutipin xarakterik cizgiləri çox pis saxlanılmışdır: deyək ki, sanskritdə vokalizm katastrofik şəkildə dəyişmişdir... Lakin, ümumiyyətlə, onun mühafizə etdiyi ilkin elementlər tədqiqata çox kömək edir və əksər hallarda məhz sanskrit başqa dillərdəki müxtəlif hadisələri izah edən dil mövqeyində dayanır.

Boppla yanaşı, lap əvvəldən digər görkəmli dilçilər də meydana çıxır: germanşünaslığın banisi Yakov Qrim (onun "Alman dilinin qrammatikası" 1819–1837-ci illərdə nəşr olunmuşdu), etimoloji axtarışları dilçiləri geniş materialla təmin edən Avqust Fridrix Pott, müqayisəli dilçiliyə və müqayisəli mifologiyaya aid əsərlərin müəllifi Adalbert Kun, hindoloqlar Teodor Benfey, Teodor Aufrext və başqaları.

Nəhayət, həmin məktəbin son nümayəndələrindən Maks Müller, Georq Kursius və Avqust Şleyxeri qeyd etmək lazımdır. Onların hər biri müqayisəli dilçilik üçün çox iş görmüşdür. Maks Mülleri öz parlaq mühazirələri ("Dil haqqında elmdən mühazirələr", 1861, ingilis dilində) məşhurlaşdırmışdı. Yeri gəlmişkən, onu çox vicdanlı olmaqda qınamaq olmaz. Əsasən, özünün "Yunan etimologiyasının əsasları" (1858-1862, sağlığında çıxmış 5-ci nəşri 1879–cu il) əsəri ilə məşhur olan görkəmli filoloq Kursius müqayisəli qrammatika ilə klassik filologiyanı ilk barışdıranlardan olmuşdur. İş burasındadır ki, klassik filoloqlar gənc elmin (müqayisəli qrammatikanın) uğurlarını inamsız bir şəkildə izləyirdilər. Və bu inamsızlıq tədricən qarşılıqlı olurdu. Nəhayət, Şleyxer ayrı-ayrılıqda aparılmış bütün müqayisəli araşdırmaların nəticələrini bir yerə yığmağa cəhd etmiş ilk dilçi oldu. Onun "Hind-german dillərinin müqayisəli qrammatikasına dair compendium"u (1861) Bopp tərəfindən əsası qoyulmuş elmin özünəməxsus şəkildə sistemləşdirilməsindən ibarətdir. Uzun illər boyu elm adamlarına böyük xidmət göstərmiş həmin kitab hind-avropaşünaslığın ilk inkişaf dövründə müqayisəli dilçilik məktəbini başqa əsərlərdən daha yaxşı səciyyələndirir.

Bununla belə, inkaredilməz xidməti xam sahəni müəy-

yənləşdirmək olmuş bu məktəbə, hər halda, həqiqi elmi dilçilik yaratmaq qismət olmadı. O öyrəndıyi predmetin təbiətini müəyyənləşdirməyə də cəhd göstərmədi. Lakin bu cür ilkin araşdırmalar aparılmadan heç bir elm öz metodunu hazırlamaq gücündə deyil.

Müqayisəli qrammatikanın əsas səhvi (bütün sonrakı səhvlər bundan irəli gəlirdi) onda idi ki, tədqiqatlarını yalnız hind-Avropa dilləri ilə məhdudlaşdırdı. Həmin istiqamətin nümayəndələri heç zaman apardıqları müqayisələrin nə üçün olduğunu, kəşf etdikləri münasibətlərin nəyi ifadə etdiyini özlərindən soruşmurdular. Onların elmi tarixi olmaq əvəzinə,həddindən artıq müqayisəyə söykənirdi. Halbuki müqayisə tarixi həqiqəti üzə çıxarmaq üçün lazım olan şəraiti yaradır. Lakin təkcə müqayisə ilə düzgün nəticələrə gəlib çıxmaq olmaz. Bu cür nəticələr isə komparativistlərdən bir də ona görə üz döndərmişdi ki, onlar iki müxtəlif dilin inkişafina eynilə təbiətşünasın iki müxtəlif bitkinin böyüməsinə baxdığı kimi baxırdılar. Məsələn, həmişə hind-Avropa uludilindən çıxış etməyə çağıran, eyni zamanda, görünür, müəyyən mənada əsl tarixçi kimi hərəkət edən Şleyxer tərəddüd eləmədən təsdiq edir ki, yunan dilində *e* və *o* eyni saitin iki "pilləsi"dir. Məsələ burasındadır ki, sanskritdə mövcud olan sait əvəzlənmələn həmin pillələr barədə təsəvvür doğura bilər.

Eyni növə aid bitkilərin bir-birindən asılı olmadan eyni inkişaf fazalarından keçdiyi kimi, hər bir dildə də inkişafın xüsusi olaraq yuxarıda haqqında bəhs etdiyimiz pillələrlə paralel getdiyini nəzərdə tutaraq, Şleyxer sanskrit *ā*-sında ənın güclənməsini qeyd edir, həmçinin yunan *o*-sunda da enin güclü mərhələsini görür. Əslində isə, bunların hamısı hind-Avropa səs dəyişmələrinə gedib çıxır, həm yunan dilin-

də, həm də sanskritdə müxtəlif formalarda əks olunur; bu isə o deməkdir ki, onların hər iki dildəki qrammatik izlərinin oxşar olması o qədər də həlledici rol oynamır.

Həddindən artıq müqayisəli metod özü ilə bütöv bir səhv baxışlar sistemi gətirir ki, həmin baxışlar reallığa uyğun deyil və ümumiyyətlə insan nitqinin mövcudluğunun konkret şərtlərinə ziddir. Dilə xüsusi sahə kimi, təbiətin dördüncü hakimiyyəti kimi baxılırdı hər hansı başqa bir elmdə maraq doğura bilən həmin mühakimə üsulları buradan irəli gəlirdi. Hazırda o vaxt yazılmış onca sətri də fikir möcüzələrinə və bu cür möcüzələri doğrultmaq üçün istifadə olunmuş terminlərə heyrət etmədən oxumaq mümkün deyil.

Bununla belə, həmin səhvlərlə tanışlıq metodoloji baxımdan əhəmiyyətsiz deyil: gənc elmin səhvləri həmişə müəyyən dərəcədə elmi axtarışlara ilk başlayan insanın səhvlərini xatırladır. Onların bəziləri üzərində irəlidə dayanmalı olacağıq.

Yalnız XIX əsrin 70-ci illərində sual verməyə başladılar ki, dillərin varolma şərtləri hansılardır? Belə bir məsələyə diqqət yetirildi ki, dilləri birləşdirən uyğunluqlar bizim "dil" adlandırdığımız hadisənin yalnız bir aspektidir, müqayisə isə yalnız vasitədir, faktların araşdırmalarında əsas götürülmüş dilçilik, sözün həqiqi mənasında, roman və german dillərinin öyrənilməsi zəminində yaranmışdı. O cümlədən, məhz romanistika (onun banisi Fridrix Dits 1836-1838-ci illərdə "Roman dillərinin qrammatikası"nı nəşr etdirmişdi) dilçiliyin öz əsl obyektinə yaxınlaşmasına çox kömək etdi. Məsələ burasında idi ki, romanistlər hind-avropaşünaslara baxanda daha əlverişli idilər: hər halda, roman dillərinin prototipi olan latın dili onlara məlum idi, abidələrin bolluğu

ayrı-ayrı roman dillərinin təkamülünü izləmək üçün onlara şərait yaradırdı. Hər iki vəziyyət hipotetik mülahizələrin dairəsini daraldır, romanistikanın bütün axtarışlarına yüksək dərəcədə konkret xarakter verirdi. Germanistlər də belə idilər... Düzdür, ulugerman dili bilavasitə məlum deyil, lakin ondan törəmiş dillərin tarixi çoxsaylı abidələrin materialları ilə yüz illər boyu izlənə bilər. Ona görə də reallığa daha yaxın olan germanistlər ilk hind-avropaşünaslardan fərqli baxışlara gəlib çıxdılar.

İlk impulsu "Dilin həyatı və inkişafı" (1875) kitabının müəllifi, amerikan Vilyam Uitni verdi. Tezliklə yeni məktəb gənc qrammatiklər (Junggrammatiker) məktəbi yarandı ki, onun başında alman alimləri Karl Bruqman, German Ostqof, germanistlər Vilhelm Braune, Eduard Sivers, German Paul, slavyanşünas Avqust Leskin və b. dayanırdılar. Onların xidməti bundan ibarət oldu ki, müqayisənin nəticələrini tarixi perspektivə müncər etdilər və bununla da faktları öz təbii qaydası ilə düzdülər. Dilə öz-özünə inkişaf edən orqanizm kimi yox, dil qruplarının kollektiv ruhunun məhsulu kimi baxılmağa başlandı. Beləliklə, müqayisəli qrammatika və filologiyanın ideyalarının yanlışlığı və çatışmazlıqları dərk edildi. Bununla belə, həmin məktəbin xidmətləri nə qədər böyük olsa da, düşünmək olmaz ki, o, problemlərə bütövlükdə gur işıq salmışdır: ümumi dilçiliyin əsas məsələləri hələ indi də öz həllini gözləyir.

DİLÇİLİYİN MATERİALI və VƏZİFƏSİ. ONUN YAXIN FƏNLƏRƏ MÜNASİBƏTİ

Dilçiliyin materialı, hər şeydən əvvəl, istər ibtidai xalqlarda, istər mədəni millətlərdə olsun, istər bu və ya digər dilin çiçəkləndiyi, istərsə də arxaikləşdiyi zamanlarda, eləcə də onun böhran dövründə olsun hər bir mərhələdə həm üzərində işlənilmiş formanı, yaxud "ədəbi" dili, həm də adi danışıq dili formasını, ümumiyyətlə, bütün ifadə formalarını ehtiva etməklə insanın nitq fəaliyyətinin bütün faktlarından ibarətdir. Ancaq bu, tam deyil... Nitq fəaliyyəti əksər hallarda bilavasitə müşahidəyə gəlmədiyinə görə, dilçi yazılı mətnləri uzaq keçmişin və uzaq ölkələrin dili barədə məlumat verən yeganə mənbə kimi qəbul etməyə məcbur olur. Dilçiliyin vəzifəsi aşağıdakılardan ibarətdir:

a) mümkün olan bütün dilləri təsvir və tarixi baxımdan araşdırmaq; bu, bütün dil ailələrinin tarixini yaratmağa və imkan dairəsində onların uludillərini bərpa etməyə gətirib çıxarır;

b) bütün dillərdə daimi və universal şəkildə mövcud olan amilləri müəyyənləşdirmək, həmin dillərin tarixindəki ayrı-ayrı hadisələri izah edə biləcək ümumi qanunları meydana çıxarmaq;

c) özünün sərhədini və obyektini müəyyən etmək.

Dilçilik həm onun faktlarından istifadə edən, həm də ona fakt verən bir sıra digər elmlərlə çox sıx şəkildə bağlıdır. Onu həmin elmlərdən ayıran sərhədlər heç də həmişə aydın olmur. Məsələn, dilə yalnız sənəd kimi baxan etnoqrafiyadan və qədim dünya tarixindən dilçiliyi qəti şəkildə ayırmaq la-

zım gəlir. Onu, həmçinin insanı zooloji növ kimi öyrənən antropologiyadan da fərqləndirmək lazımdır, çünki dil sosial hadisədir. Elə isə, onu sosiologiyaya daxil etməli deyilikmi?

Dilçiliklə sosial psixologiyanın qarşılıqlı münasibətləri necədir? Mahiyyətcə, dildə, onun həm maddi, həm də mexaniki təzahürləri daxil olmaqla, hər şey psixidir; məsələn, səs əvəzlənmələrində olduğu kimi... Dilçilik sosial psixologiyanı bu qədər qiymətli faktlarla təchiz edirsə, onunla bir bütövdə birləşmirmi? Bütün bu suallara burada yalnız ötəri cavab verəcəyik, irəlidə onların üzərində daha geniş dayanmağa ehtiyac olacaqdır.

Dilçiliyin fiziologiyaya münasibətini aydınlaşdırmaq daha az zəhmət tələb edir: həmin münasibət birtərəflidir, belə ki, dillərin öyrənilməsi zamanı səslərin fiziologiyasına dair məlumatlar lazım gəlir, halbuki dilçilik fiziologiyanın sərəncamına bu cür məlumatları verə bilmir. İstənilən halda, bu iki fənnin qarışdırılması yolverilməzdir: dilin mahiyyəti, gördüyümüz kimi, dil işarəsinin səs xarakteri ilə bağlı deyil.

Filologiyaya gəldikdə isə, artıq bilirik ki, hər iki elm arasında istinad nöqtəsi, bir-birinə qarşılıqlı xidmət olsa da, filologiya dilçilikdən kəskin şəkildə fərqlənir.

Dilçiliyin praktik əhəmiyyəti nədən ibarətdir? Çox az adamda bu barədə aydın təsəvvür var və burada həmin məsələnin şərhini genişləndirməyin yeri də deyil. Hər bir halda, görünür, mətnlərlə məşğul olan hər kəs, məsələn, tarixçilər, filoloqlar və b. üçün dilçilik məsələləri maraqlıdır. Dilçiliyin ümumi mədəniyyət üçün əhəmiyyəti də tamamilə aydındır: istər ayrı-ayrı adamların, istərsə də bütöv cəmiyyətin həyatında nitq fəaliyyəti bütün amillərdən daha vacibdir. Ona görə də təsəvvür etmək çətindir ki, onun öyrənilməsi ilə məhdud sayda mütəxəssis məşğul olsun. Uzun sözün qısası, əs-

lində onunla az və ya çox dərəcədə hamı məşğul olur; lakin nitq fəaliyyəti məsələlərinə bu cür kütləvi maraq paradoksal nəticələrə gətirib çıxarır: elə bir sahə yoxdur ki, bu qədər cəfəng ideya, xurafat, xam xəyal və fiksiya törətsin. Bütün bu yanlışlıqlar müəyyən psixoloji maraq doğurur və dilçiliyin ən mühüm vəzifəsi də onları üzə çıxarmaq və imkan dairəsində tamamilə aradan qaldırmaqdan ibarətdir.

DİLÇİLİYİN OBYEKTİ

1. Dilin tərifi

Dilçiliyin bütöv və konkret obyekti nədən ibarətdir? Bu, olduqca çətin sualdır. Niyəsini irəlidə görəcəyik. Burada həmin çətinlikləri göstərməklə kifayətlənək.

Başqa elmlər əvvəlcədən müəyyən edilmiş obyektə əsaslanır ki, onu müxtəlif görmə bucaqlarından müşahidə etmək olar; dilçilikdə belə şey yoxdur. Kimsə fransızca *nu* "soyundurulmuş" sözünü təsəvvür edir... Səthi müşahidə aparana elə gələcək ki, bu, konkret dilçilik obyektidir. Lakin daha əsaslı baxış həmin *nu* sözünə necə yanaşıldığından asılı olaraq, tamamilə fərqli üç və ya dörd şey göstərəcəkdir: yalnız səslənmə, müəyyən məfhumun ifadəsi, latın dilindəki *nüdum* "çılpaq" sözünün qarşılığı və s. Dilçilikdə obyekt heç də baxışı, nəzər nöqtəsini müəyyən etmir, əksinə, burada, demək olar ki, baxış, nəzər nöqtəsi obyektin özünü yaradır; eyni zamanda, heç nə ilə sübut etmək olmaz ki, verilmiş fakta mövcud baxış üsullarının hansı o biriləri ilə müqayisədə ilkindir, yaxud daha mükəmməldir.

Bundan başqa, nitq fəaliyyətinin bu və ya digər hadisəsinə baxmaq üçün hansı üsulu qəbul etsək, bütün hallarda o, iki tərəfi ilə təzahür edəcəkdir; həmin tərəflər bir-birinə əsaslanacaq, biri digərinə münasibətdə əhəmiyyətlilik qazanacaqdır.

Bir neçə nümunə gətirək:

l. Artikulyasiya olunan hecalar eşitmə - yolu ilə qəbul olunan akustik hadisədir; lakin nitq orqanları olmasaydı, səslərin özü də mövcud olmazdı: beləliklə, *n* səsi bu iki tərəfin – akustik və artikulyasion tərəflərin korrelyasiyası, qarşılıqlı əlaqəsi nəticəsində mövcuddur. Nəticə etibarilə, dili səslənmədən təcrid etmək, səslənməni nitq orqanlarının artikulyator fəaliyyətindən ayırmaq olmaz; digər tərəfdən, akustik amildən kənarda nitq orqanlarının hərəkətini təyin etmək mümkün deyil.

2. Lakin təsəvvür edək ki, səs nə isə sadə bir şeydir: bununla bizim nitq fəaliyyəti adlandırdığımız bitib-tükənirmi? Əsla. Çünki nitq fəaliyyəti yalnız fikir alətidir, müstəqil şəkildə mövcud deyil. Beləliklə, vəziyyəti bütünlüklə mürəkkəbləşdirən yeni korrelyasiya meydana çıxır: mürəkkəb akustik-artikulyasion bütövlük olan səs öz növbəsində məfhumdan ibarət yeni mürəkkəb fizioloji-fikri bütövlük yaradır. Lakin bu da hələ tam deyil...

3. Nitq fəaliyyətinin iki tərəfi var: fərdi və sosial. Bunlardan birini o birisi olmadan anlamaq mümkün deyil.

Hər hansı məqamda nitq fəaliyyəti həm müəyyənləşmiş sistemi, həm də təkamülü təqdim edir; istənilən məqamda nitq fəaliyyəti həm hərəkətdə olan qurum (institution actuelli), həm də keçmişin məhsuludur. Sistemlə tarix, olanla olmuş arasındakı fərqlər ilk baxışda çox sadə görünür, əslində isə onlar bir-biri ilə elə möhkəm bağlıdır ki, onları ayırmaq

olduqca çətindir. Əgər nitq fəaliyyətinə onun başlanğıcından, məsələn, körpənin nitq fəaliyyətinin öyrənilməsindən baxsaq, problem bəsitləşdirilməzmi? Qətiyyən. Çünki belə bir fikir tamamilə yanlışdır ki, guya nitq fəaliyyətinə münasibətdə meydanagəlmə, yaranma problemi daimi şərtlənmə problemlərindən fərqlidir. Beləliklə, biz çıxılmaz vəziyyətdə qalmaqdayıq.

Göründüyü kimi, məsələyə hansı tərəfdən yanaşırıqsa-yanaşaq, obyekt bizə tamlığı, bütövlüyü ilə verilmir; hər yerdə eyni dilemmayla üzləşirik: ya ona məxsus olan ikitərəfliliyi dərk eləməkdə risk edərək diqqətimizi hər bir problemin yalnız bir tərəfinə cəmləyirik, ya da nitq fəaliyyəti hadisələrini eyni zamanda bir neçə baxımdan öyrəniriksə, dilçiliyin obyekti müxtəlif xassəliyilə, biri digəri ilə heç bir əlaqəsi olmayan hadisələr yığını kimi qarşımıza çıxır. Bu halda dilçilikdən qəti şəkildə ayırdığımız bir sıra elmlər: psixologiya, antropologiya, normativ qrammatika, filologiya və s. qarşısında qapılan taybatay açmış oluruq. Halbuki həmin elmlər metodoloji səhv nəticəsində nitq fəaliyyətinə öz obyektlərindən biri kimi müdaxilə edə bilərlər.

Bizim fikrimizcə, bütün bu çətinliklərdən yalnız bir çıxış yolu var: *lap əvvəldən dil zəminində durmaq, onu nitq fəaliyyətinin bütün digər təzahürləri üçün əsas (norma) hesab etmək lazım gəlir.* Doğrudan da, çoxlu sayda ikitərəfli hadisələr arasında, görünür, yalnız dil müstəqil (autonome) müəyyənliyə malikdir və fikir söyləmək üçün etibarlı dayaq nöqtəsidir.

Bəs dil nədir? Fikrimizcə, dil anlayışı nitq fəaliyyəti anlayışı ilə ümumiyyətlə uyğun gəlmir; dil nitq fəaliyyətinin yalnız müəyyən hissəsi, lakin həqiqətən də, ən əsas hissəsidir. Kollektiv tərəfindən qəbul edilmiş zəruri şərtiliklərin məc-

musu olan dil elə bir sosial məhsuldur ki, hər bir dil daşıyıcısında mövcud olmaqla, nitq fəaliyyətinin reallaşmasını, funksiyadaşıma qabiliyyətini təmin edir. Bütövlükdə, nitq fəaliyyəti müxtəliftərəfli və rəngarəngdir; ayrı-ayrı sahələrə yayılaraq eyni zamanda fiziki, fizioloji və psixoloji olmaqla, həm fərdi, həm də sosial sferaya aiddir, onu insanın həyat hadisələrinin heç bir müəyyən kateqoriyasına aid etmək olmaz, çünki burada bütövlük yaratmaq üsulu məlum deyil.

Bunun əksinə olaraq, dil təsnifatın ölçüsü (prinsipi) olmaqla öz-özlüyündə bütövdür. Nitq fəaliyyəti hadisələri arasında əsas yeri dilə verməklə biz təsnifata ümumiyyətlə uymayan hadisələr məcmusuna təbii qayda gətiririk.

Təsnifatın ölçüsü barədə bizim irəli sürdüyümüz fikrə, görünür, etiraz etmək olar ki, bəs nitq fəaliyyətinin mövcudluğu bizə təbiətin verdiyi qabiliyyətə əsaslanır, halbuki dil nə isə mənimsənilmişdir və şərtidir; beləliklə, təbii instinktə münasibətdə dil asılı mövqe tutmalı, ondan yüksəkdə durmamalıdır.

Buna aşağıdakı şəkildə cavab vermək olar:

Hər şeydən əvvəl, heç də sübut edilməmişdir ki, nitq fəaliyyəti təzahür etdiyi formada, dediyimiz kimi, nə isə tamamilə təbiidir – başqa sözlə, bizim ayaqlarımızın vəzifəsi yerimək olduğu kimi, nitq orqanlarının vəzifəsi də danışmaqdır. Dilçilərin bu məsələyə münasibəti bir-birindən mahiyyətcə fərqlənir. Məsələn, dili bütün xüsusiyyətləri ilə ictimai təsisatlarla bərabərləşdirən Uitni güman edir ki, biz nitq orqanlarından nitq aləti kimi tamamilə təsadüfi olaraq, rahat olduğu üçün istifadə edirik; onun fikrincə, insanlar eşitmə əvəzinə görmə obrazından faydalanaraq eyni uğurla jestlərdən də istifadə edə bilərdilər. Şübhəsiz, bu tezis həddindən artıq mütləqdir: dil heç də bütün münasibətlərdə ictimai təsisat

deyil; bundan əlavə, Uitni bizim seçimimizin yalnız təsadüfən nitq orqanları üzərində dayandığını təsdiq edərkən həqiqətdən çox uzaq düşür: axı həmin seçim müəyyən dərəcədə təbiətin bizə verdiyidir. Lakin amerikan dilçisi əsas məsələdə, görünür, şəksiz haqlıdır: dil şərtilikdir, şərti seçilmiş işarənin təbiətinin necəliyinin heç bir fərqi yoxdur. Ona görə də, nitq fəaliyyəti problemində nitq orqanları məsələsi ikinci dərəcəlidir.

Həmin fikri üzvlərə ayrılmış nitq (langage articule) dedikdə, nə anlaşıldığının müəyyənləşdirilməsi yolu ilə də möhkəmləndirmək olar. Latın dilində *articulus* "tərkib hissə", "üzv(lənmə)" mənasını verir; nitq fəaliyyətinə münasibətdə üzvlənmə ya səs zəncirinin hecalara, ya da məna zəncirinin mənalı vahidlərə parçalanması kimi anlaşıla bilər; məhz bunu nəzərə alıb almanca "*gegliederte Sprache*" deyirlər. İkinci müəyyənləşdirilməyə əsaslanaraq demək olar ki, insan üçün təbii olan danışıq (langage parle) şəklində təzahür edən nitq fəaliyyəti deyil, dil yaratmaq qabiliyyətidir, yəni diferensiallaşmış anlayışlara uyğun gələn diferensiallaşmış işarələr sistemi yaratmaqdır.

Broka kəşf etmişdi ki, danışmaq qabiliyyəti böyük beynin sol yarımkürəsinin üçüncü alın qınşığında yerləşir; həmin kəşfə istinad edərak nitq fəaliyyətinə təbii-elmi xarakter verməyə çalışmışlar. Və məlum olduğu kimi, həmin lokallaşdırma nitq fəaliyyətinə aid olan hər şeyə əsaslanmaqla edilmişdir. Lakin bundan, eləcə də həmin lokallaşma mərkəzlərinin zədələnməsi nəticəsində müxtəlif afaziya növləri üzərindəki müşahidələrdən çıxış edərək, görünür, qərara gəlmək olar ki: 1) şifahi nitqin müxtəlif pozuntuları fərqli yollarla yazılı nitqin pozuntuları ilə qırılmaz şəkildə bağlıdır və 2) bütün afa-

ziya və aqrafiya hallarında bu və ya digər səsi tələffüz etmək, yaxud bu və ya digər işarəni yazmaq qabiliyyətinin pozuntusundan daha çox, şüurda müəyyən qaydaya tabe olan nitq fəaliyyətinin işarələrini müxtəlif vasitələrlə oyatmaq qabiliyyətinin pozulmasıdır. Bütün bunlar bizi belə bir fikrə gətirir ki, müxtəlif orqanların fəaliyyəti üzərində həmin işarələri idarə edən və əsasən dil qabiliyyətindən ibarət olan daha ümumi bacarıqlar dayanır. Bu yolla biz bir daha əvvəlki nəticəyə gəlirik.

Nəhayət, nitq fəaliyyətini araşdırmağa məhz dildən başlamağın zərurətinin sübutu üçün belə bir arqument də gətirmək olar ki, sözü artikulyasiya etmək qabiliyyəti (təbii olub-olmamasının fərqi yoxdur) yalnız kollektivin yaradıb təqdim etdiyi alətin vasitəsilə həyata keçirilir. Ona görə də heç bir ehtimalsız deyə bilərik ki, nitq fəaliyyətini birliyə gətirən dildir.

2. Dilin nitq fəaliyyətində yeri

Nitq fəaliyyəti hadisələrinin yığımında dilə uyğun gələn sahəni tapmaq üçün nitq fəaliyyətinin fərdi aktını nəzərdən keçirmək lazımdır. Belə akt ən azı iki şəxsin olmasını tələb edir: bu, minimum ünsiyyət situasiyasının bütövlüyü üçün vacibdir. Beləliklə, bir-biri ilə danışan iki şəxs: A və B.

Nitq ünsiyyəti aktının çıxış nöqtəsi danışanlardan birinin, deyək ki, A-nın beynində yerləşir, burada bizim "anlayışlar" adlandırdığımız şüur hadisələri həmin anlayışların ifadəsinə xidmət edən dil işarələrinin, yaxud akustik obrazların təsəvvürləri ilə bağlanır (assosiasiya). Deyək ki, müvafiq anlayış beyində uyğun akustik obrazı çağırır, bu hadisə tamamilə psixoloji (ruhi) xarakterlidir, bunun ardınca fizioloji proses başlayır: beyin nitq orqanlarına obraza uyğun impuls verir,

bundan sonra səs dalğaları A-nın ağzından B-nin qulağına yayılır, artıq bu xalis fiziki prosesdir. Sonra ünsiyyət prosesi B də davam edir, lakin tərsinə: qulaqdan beyinə – akustik obrazın fizioloji ötürülməsi; beyində bu obrazın müvafiq anlayışlarla psixoloji assosiasiyası. Öz növbəsində, B danışınca, həmin yeni nitq aktı da tamamilə eyni yolu qət edəcək: nitq B-nin beynindən A-nın beyninə həmin fazalardan keçib gedəcəkdir.

Bu təhlil dolğunluq iddiasında deyil. Əlavə olaraq akustik duyğunu, həmin duyğunun gizli akustik obrazla eyniləşdirilməsini fonasiya və ya danışmadan fərqli olaraq mütəhərrik obrazı və s. göstərmək olardı. Lakin biz yalnız əhəmiyyətli hesab etdiyimiz elementlərə diqqət yetirdik: bizim sxemimiz fiziki elementləri (səs dalğalarını) fızioloji (danışma, fonasiya və dinləmə) və psixi (söz obrazları və anlayışlar) elementlərdən dərhal ayırmağa imkan verir. Bu zaman qeyd olunması fövqəladə dərəcədə vacibdir ki, söz obrazı səslənmənin özü ilə uyğun gəlmir, səs obrazı da bağlandığı anlayış qədər psixidir.

Bizim yuxarıda təsvir etdiyimiz nitq aktı aşağıdakı hissələrə ayrıla bilər:

a) xarici hissə (ağızdan qulağa gedən səs dalğaları) və daxili hissə (yerdə qalan nə varsa hamısı);

b) psixi hissə və qeyri-psixi hissə, bunlardan ikincisinə həm nitq orqanlarında baş verən fizioloji hadisələr, həm də insandan kənardakı fiziki hadisələr daxildir;

c) aktiv hissə və passiv hissə: danışanlardan birinin assosiasiya doğuran mərkəzindən digərinin qulağına gedən nə varsa aktiv, sonuncunun qulağından onun assosiasiya mərkəzinə gedən nə varsa passivdir.

Nəhayət, beyində lokallaşan psixi hissənin daxilində aktiv nə varsa hamısını (a→o) ekzekutiv, passiv nə varsa hamısını (o→a) reseptiv adlandırmaq olar.

Buraya assosiasiya və koordinasiya qabiliyyətini də əlavə etmək lazımdır; işarələrə qarşılıqlı əlaqə şəraitində baxmağa başladıqda bu, dərhal ortaya çıxır: məhz həmin qabiliyyət dilin sistem kimi təşkilində əsas rol oynayır.

Lakin həmin rolu düzgün dərk etmək üçün özünü yalnız nitq fəaliyyətinin doğuluşu kimi təqdim edən nitq aktından ayrıca hadisə olaraq uzaqlaşıb, sosial hadisə olan dilə keçmək lazımdır. Yuxarıda göstərildiyi kimi nitq fəaliyyətinin köməyi ilə ünsiyyətdə olan bütün şəxslərdə istər-istəməz müəyyən dərəcədə eyniləşdirmə gedir: onların hamısı, əlbəttə, biri digərini tamamilə təkrar etmədən, eyni işarələri eyni anlayışlarla əlaqələndirərək danışırlar.

Bu sosial "kristallaşma"nın səbəbi nədir? Nitq aktının hansı hissələri bunun üçün cavabdehlik daşıyır? Axı böyük ehtimalla, həmin hissələrin hamısı bu sahədə eyni cür iştirak etmir.

Fiziki hissədən dərhal imtina etmək olar. Bizə tanış olmayan dildə hər hansı danışığa qulaq asarkən, yalnız səsləri eşidirik, nə danışıldığım anlamırıq, deyilənlər bizim üçün sosial fakt təşkil etmir.

Nitq aktının psixi hissəsi də "kristallaşma"da az iştirak edir; onun ekzekutiv tərəfinin bu məsələyə ümumiyyətlə qarışacağı yoxdur, çünki icra heç zaman kollektivə aid ola bilməz, həmişə fərdidir və bütövlüklə fərdin sərəncamındadır – biz onu nitq adlandıracağıq. Danışanlarda hamı üçün təxminən eyni olan psixi obrazların formalaşması reseptiv və koordinativ qabiliyyətlərin funksionallaşması ilə şərtlənir. Bu so-

sial məhsulu necə təqdim edək ki, dil başqa şeylərdən tamamilə ayrılsın, xüsusiləşsin? Əgər biz bütün fərdlərdə toplanmış söz obrazlarının hamısını cəm edib bir yerə yığmaq gücündə olsaydıq, məhz dili yaradan həmin sosial əlaqəni tapardıq. Dil hər hansı bir ictimai kollektivə mənsub olan hər bir kəsdə nitq praktikası ilə mənimsənilib mühafizə edilən xəzinədir; hər kəsin, daha dəqiq desək, bütöv fərdlərin məcmusunun beynində virtual şəkildə mövcud olan qrammatik sistemdir. Və dil tam şəkildə onların heç birində deyil, yalnız kollektivdə mövcuddur.

Dillə nitqi fərqləndirrnəklə biz eyni zamanda 1) sosial olanı fərdi olandan; 2) əsas olanı əlavə, yaxud az və ya çox dərəcədə təsadüfi olandan ayırırıq.

Dil, danışanın fəaliyyəti (fonction) deyil. Dil danışanın passiv şəkildə əks etdirdiyi hazır məhsuldur; o heç zaman qarşısına məqsəd qoymur və şüurlu olaraq onda yalnız təsnif olunan fəaliyyət aparılır ki, bu barədə irəlidə söhbət gedəcəkdir.

Əksinə, nitq iradənin və ağlın fərdi aktıdır; həmin aktda 1) danışanın öz fikrini ifadə etmək məqsədi ilə dil kodundan (code) faydalanarkən istifadə etdiyi kombinasiyaları 2) onları ifadə etməyə imkan verən psixofiziki mexanizmdən ayırmaq lazım gəlir.

Qeyd etməliyik ki, biz sözlərin deyil, predmetlərin müəyyənləşdirilməsi ilə məşğuluq; ona görə də ortaya çıxardığımız fərqliliklər müxtəlif dillərdə bir-birinə o qədər də uyğun gəlməyən bəzi ikimənalı terminlərdən heç cür ziyan çəkmir. Belə ki, almanca *Sprache* fransızca *langue* "dil" və *langage* "nitq fəaliyyəti"nə uyğun gəlir; almanca *Rede* təxminən fransızca *parole* "nitq"ə uyğundur. Lakin almanca *Rede* əlavə mə-

naya malikdir: "natiq nitqi" (=fransızca discours); latınca *sermo*, hər şeydən əvvəl, həm *langage* "nitq fəaliyyəti", həm də *parol* "nitq" mənasını bildirdiyi halda, lingua langue "dil" mənasını verir və s. Yuxarıda müəyyən edilmiş anlayışların heç birinə dəqiq uyğun gələn sözü tapmaq münkün deyil, ona görə də müvafiq söz (termin) tapmaq tamamilə əhəmiyyətsizdir. Və ümumiyyətlə, bir şeyi müəyyənləşdirərkən sözdən çıxış etmək düzgün deyil.

İndi isə dilin əsas xassələrini ümumiləşdirək:

1.Dil nitq fəaliyyətinin müxtəlif faktlarının çoxluğu içərisində nəsə tamamilə müəyyən bir anlayışdır. Onu nitq fəaliyyətinin nəzərdən keçirdiyimiz müəyyən vəziyyətində, məsələn, eşitmə obrazının anlayışla assosiasiya yaratdığı yerdə lokallaşdırrnaq olar. Dil nitq fəaliyyətinin fərdə münasibətdə kənardakı sosial aspektidir ki, həmin fərd öz-özlüyündə onu nə yarada, nə də dəyişə bilər. Dil yalnız kollektiv üzvləri arasındakı özünəməxsus razılaşma hesabına mövcuddur. Bununla belə, onun daşıdığı funksiyanı bilmək üçün fərd öyrənməlidir: körpə onu yalnız yavaş-yavaş mənimsəyir. Dil o dərəcədə nəsə tamamilə xüsusi bir hadisədir ki, danışıq qabiliyyətini itirmiş insan dilini mühafizə edir, belə ki, o eşitdiyi dil işarələrini anlayır.

2.Dil, nitqdən fərqli olaraq, müstəqil araşdırılması mümkün olan predmet təşkil edir. Biz ölü dillərdə danışmırıq, lakin onların mexanizminə əla bələd ola bilərik. Nitq fəaliyyətinin başqa elementlərinə gəldikdə isə, dil haqqındakı elm tamamilə onlarsız da keçinə bilər; əslinə qalsa, həmin elm yalnız o şəraitdə mövcuddur ki, haqqında söhbət gedən başqa elementlər onun obyektinə qarışdırılmasın.

3. Eyni zamanda nitq fəaliyyəti bütövlükdə xaraktercə müxtəlifcinslidirsə, bizim müəyyən etdiyimiz kimi, dil, öz tə-

biəti etibarilə, yekcinsdir; işarələr sistemidir, burada yeganə əhəmiyyətli olan məna ilə akustik obrazın birləşməsidir ki, işarənin hər iki komponenti bərabər dərəcədə psixidir.

Dil təbiəti etibarilə heç də nitqdən az konkret deyil, bu da onun tədqiqi üçün geniş imkan yaradır. Hərçənd dil işarələri öz mahiyyətinə görə psixidir, lakin bununla belə, onlar mücərrəd deyil: kollektiv razılaşma ilə möhkəmlənərək yekunda dili təşkil edən assosiasiyalar beyində lokallaşan reallığın məğzini təşkil edir. Hətta dil işarələri, necə deyərlər, hissolunandır: yazıda onlar şərti yazı işarələri ilə göstərilə bilər, halbuki nitq aktının bütün təfərrüatı ilə fotoşəklini çəkmək mümkün deyil. Ən qısa sözün tələffüzü belə, olduqca çoxlu əzələ hərəkətləri ilə müşayiət olunur ki, onları dərk və təsvir etmək fövqəladə dərəcədə çətindir. Dildə isə, əksinə, akustik obrazdan başqa heç nə mövcud deyil, onu da müəyyən görmə obrazı vasitəsi ilə əks etdirmək olar. Əslində isə, nitqdə akustik obrazın reallaşması üçün vacib olan çoxlu sayda müxtəlif hərəkətləri nəzərə almasaq, hər bir akustik obraz, irəlidə görəcəyimiz kimi, yalnız məhdud sayda elementlərin, yaxud fonemlərin məcmusundan ibarətdir ki, onları da öz növbəsində yazıda müvafiq sayda işarələrin köməyi ilə əks etdirmək olar. Məhz dil hadisələrinin əks olunması imkanı onun (dilin) düzgün təsvirini verən lüğət və qrammatika yaratmağa səbəb olur: axı dil akustik obrazlar xəzinəsidir, yazı isə onu hiss olunan (görünən) formalarla təmin edir.

3. Dilin insan həyatı hadisələri sırasında yeri. Semiologiya

2-ci paraqrafda dilə verdiyimiz xarakteristika daha çox vacib olan bir müddəanın irəli sürülməsinə gətirib çıxarır.

Beləliklə, nitq fəaliyyəti hadisələri məcmusunda ayrılan dil, bütövlükdə həmin fəaliyyətdən fərqli olaraq, insan həyatı təzahürləri arasında xüsusi yer tutur.

Bizim indicə gördüyümüz kimi, dil ictimai təsisat olmaqla digər ictimai, siyasi, hüquqi və s. təsisatlardan çox hallarda fərqlənir. Onun özünəməxsus təbiətini dərk etmək üçün bir sıra yeni faktları tədqiqata cəlb etmək lazım gəlir.

Dil, anlayışları ifadə edən işarələr sistemidir, həmçinin onu yazı ilə, lalkarlar üçün əlifba, simvolik ayinlər, ədəb– ərkan formaları, hərbi siqnallar və s. ilə müqayisə etmək olar. Lakin dil bu sistemlərin hamısından daha vacibdir.

Nəticə etibarilə, cəmiyyət həyatı çərçivəsində işarələrin həyatını öyrənən bir elm təsəvvür etmək olar; həmin elm sosial psixologiyanın, bunun ardınca isə ümumi psixologiyanın tərkib hissəsi olardı; biz onu *semiologiya* adlandırardıq. Bu elm işarələrin nə olduğunu, hansı qanunlarla idarə edildiyini bizim üçün aydınlaşdırmalıdır. Hələ ki belə bir elm mövcud deyil, onun necə olacağını demək olmaz; lakin həmin elmin mövcud olmaq hüququ var, onun yeri isə əvvəlcədən müəyyən edilmişdir. Dilçilik bu ümumi elmin yalnız bir hissəsidir: semiologiyanın aşkar etdiyi qanunlar dilçilik tərəfindən də qəbul ediləcəkdir. Və beləliklə, bunlardan sonuncusu insan həyatı hadisələri məcmusunda tamamilə müəyyən bir sahəyə aid edilmiş olacaqdır.

Semiologiyanın yerini dəqiq müəyyənləşdirmək psixoloqun vəzifəsidir; dilçinin vəzifəsi isə semioloji hadisələr məcmusunda dili xüsusi sistem kimi ayırmaqdan ibarətdir. Bu məsələyə biz irəlidə baxacağıq, hələlik bir şeyi yadda saxlayaq: əgər biz elmlər arasında dilçiliyə yer tapmağa nail olsaq, bu, yalnız ona görə mümkün olacaq ki, biz dili semiologiya ilə əlaqələndiririk.

Nə üçün semiologiya hələ də hər hansı elm kimi öz xüsusi tədqiqat obyekti olan müstəqil elm sayılmır? Məsələ burasındadır ki, indiyə qədər adət edilmiş dairədən çıxmaq heç kəsə nəsib olmamışdır: bir tərəfdən semioloji problemlərin xarakterini anlamaq üçün dil qədər münasib bir şey yoxdur; digər tərəfdən həmin problemləri lazımi şəkildə qarşıya qoymaq üçün dili necə varsa, o cür öyrənmək lazımdır, halbuki dili indiyə qədər, demək olar ki, nəsə başqa bir şeydən asılı olaraq, fərqli nəzər nöqtəsindən öyrənməyə cəhd göstərmişlər.

Hər şeydən əvvəl, dilə yalnız nomenklatur kimi baxan geniş xalq kütləsinin səthi baxışı mövcuddur ki, bu, dilin əsl təbiətini araşdırmaq imkanının özünü aradan qaldırır.

Sonra, psixoloqların işarənin mexanizmini fərddə öyrənən baxışı mövcuddur; bu, ən asan metoddur və fərdi nitq aktından o tərəfə keçmir, mahiyyətcə sosial olan işarəyə toxunmur.

İşarəni ictimai hadisə kimi öyrənməyin vacibliyini bilənlər də dilin yalnız o cəhətlərinə diqqət yetirirlər ki, həmin cəhətlər onu az və ya çox dərəcədə bizim iradəmizdən asılı olan digər ictimai təsisatlarla əlaqələndirir. Və beləliklə, ya bütünlüklə semioloji sistemə, ya da onun bir hissəsi olan dilə aid cəhətləri bir tərəfə atmaqla, məqsəddən yayınırlar. İşarə həmişə müəyyən dərəcədə həm fərdi, həm də sosial iradədən qaçır ki, onun ilk baxışda az əhəmiyyətli, lakin əsas cəhəti burada üzə çıxır.

Həmin cəhət daha aydın şəkildə məhz dildə özünü göstərir, bununla belə, elə bir sahədə diqqəti çəkir ki, ən az öyrənilmiş sahə olaraq qalır; nəticədə, semiologiyanın vacibliyi, yaxud xüsusi gərəkliyi aydınlaşdırılmamış qalır. Bizim üçün-

sə dilçiliyin problemləri, hər şeydən əvvəl, semioloji problemlərdir. Və bizim mülahizələrimizin bütün gedişi yalnız bu əsas müddəanın işığında əhəmiyyət kəsb edir. Kim dilin əsl təbiətini aşkar etmək istəyirsə, hər şeydən əvvəl, eyni qəbildən olan başqa sistemlərlə onun hansı ümumi cəhətlərinin olduğuna diqqət yetirməlidir. İlk baxışdan olduqca əhəmiyyətli görünən bir çox linqvistik faktorlara (məsələn, nitq orqanlarının fəaliyyətinə) yalnız ikinci növbədə baxmaq lazımdır, çünki onlar ancaq dilin semioloji sistem məcmusundan ayrılmasına xidmət edir. Beləliklə, semiologiya yalnız dilçilik problemləri üzərinə işıq salmır, biz güman edirik ki, ayinlərə, adətən ənənələrə və s. işarə kimi baxarkən bütün bu hadisələr tamamilə yeni şəkildə görünür. Və beləliklə, onların hamısını semiologiyanın çərçivəsində birləşdirərək həmin elmin qanunları ilə izah etmək ehtiyacı yaranır.

DİL VƏ NİTQ

Dil haqqındakı elmə nitq fəaliyyətinin öyrənilməsi ilə məşğul olan biliklər sahəsindəki məxsusi yerini göstərməklə, biz eyni zamanda dilçiliyin bütövlükdə yerini müəyyənləşdirdik. Nitq fəaliyyətinin nitqi əmələ gətirən digər elementləri, təbii olaraq, bu elmə tabedir. Və məhz bu tabeçiliyə görə dilçiliyin bütün hissələri öz yerini tutur.

Nümunə üçün nitqə vacib olan səslərin yaranmasına baxaq. Morze əlifbasının simvollarını ötürməyə xidmət edən elektrik aparatlarının həmin əlifbaya münasibəti nə qədər yaddırsa, bütün nitq orqanlarının dilə münasibəti də o qədər yaddır. Fonasiya, yəni akustik obrazların reallaşması heç cür onların sisteminə toxunmur. Bu baxımdan dili reallığı ifa üsulundan asılı olmayan simfoniya ilə müqayisə etmək olar:

onu ifa edən musiqiçilərin edə biləcəyi səhvlər həmin reallığa heç cür xələl gətirmir.

Fonasiya ilə dili bu cür ayırmağa etiraz edərək fonetik transformasiyaları, yəni nitqdə baş verən və dilin özünün taleyinə dərindən təsir göstərən səs dəyişmələrini nümunə gətirə bilərlər. Əslində, biz təsdiq etməkdə haqlıyıqmı ki, dil həmin hadisələrdən asılı olmayaraq mövcuddur? Bəli, haqlıyıq... Çünki həmin hadisələr sözlərin yalnız maddi substansiyasına aiddir. Onlar hətta dilə işarələr sistemi kimi müdaxilə edirsə, bunu vasitə ilə, nəticədə işarələrin interpretasiyasının dəyişməsi ilə edir ki, həmin hadisədə fonetik heç nə yoxdur. Bu dəyişmələrin səbəblərinin axtarışı da səslərin öyrənilməsinə kömək etdiyinə görə maraqlı ola bilər, lakin məsələnin mahiyyəti bunda deyil: dil haqqındakı elm üçün səs dəyişmələrinin qeydə alınması və onların nəticələrinin aydınlaşdırılması tamamilə kifayət edir.

Bizim fonasiyaya dair dediklərimiz nitqin bütün başqa elementlərinə də aiddir. Danışanın fəaliyyətini dilçiliyin tutduğu mövqeyə dillə bağlılıq dərəcəsinə görə iddia hüququ olan fənlər məcmusu öyrənməlidir.

Beləliklə, nitq fəaliyyətinin öyrənilməsi iki hissədən ibarətdir: bunların biri əsasdır – onun predmeti dildir, yəni nəsə mahiyyətcə sosial, fərddən asılı olmayan bir şeydir... bu elm tamamilə psixidir; o biri ikinci dərəcəlidir – predmeti nitq fəaliyyətinin fərdi tərəfidir, yəni fonasiyanı da daxil etməklə, nitqdir... bu isə psixofizikidir.

Heç şübhəsiz, həmin predmetlərin hər ikisi bir-biri ilə sıx bağlı olmaqla, biri digərini şərtləndirir: dil ona görə lazımdır ki, nitq anlayışları olsun, bununla da effekt versin; nitq isə ona görə lazımdır ki, dil təşəkkül tapsın tarixən nitq faktı dil-

dən həmişə qabaq gəlir. Əgər nitq aktında anlayışla söz obrazı arasındakı assosiasiya əvvəlcədən yer tutmasaydı, həmin assosiasiya necə mövcud olardı? Digər tərəfdən, yalnız başqalarını dinləməklə biz öz ana dilimizi öyrənirik, dil yalnız saysız-hesabsız təcrübələr nəticəsində bizim beynimizdə qərarlaşır. Nəhayət, dilin təkamülü məhz nitq hadisələri ilə şərtlənir: bizim dil vərdişlərimiz başqalarını dinləyərkən aldığımız təəssüratla dəyişir. Beləliklə, dillə nitq arasındakı qarşılıqlı asılılıq müəyyən edilir: dil eyni zamanda nitqin həm aləti (vasitəsi), həm də məhsuludur. Lakin bütün bunlar dillə nitqin tamamilə iki müxtəlif şey olmasına əngəl törətmir.

Dil hər bir kəsin beynindəki izlər məcmusu olaraq bütövlükdə kollektivdə mövcuddur; lüğət kimi: tamamilə eyni olan nüsxələr müxtəlif şəxslərin istifadəsində ola bilər. Beləliklə, dil hamının malik olduğu, eyni zamanda hamı üçün ümumi olan, kimlərə mənsubdursa, onların iradəsindən kənar bir şeydir. Dilin mövcudluğunun həmin modulu aşağıdakı formulla təsəvvür edilə bilər:

1+ l+l+l.... = I (kollektiv örnək)

Bəs həmin bu kollektivin özündə nitq necə təzahür edir? Nitq insanlar nə danışırsa, onun hamısının məcmusudur; ona a) danışanların iradəsindən asılı olan fərdi kombinasiyalar, b) eyni dərəcədə həm danışanların iradəsindən asılı olan, həm də həmin kombinasiyaların reallaşması üçün lazım gələn fonasiya aktları daxildir.

Nəticə etibarilə, nitqdə kollektiv olan heç nə yoxdur: onun təzahürü fərdi və anidir; burada xüsusi halların, aşağıdakı formulda göstərildiyi kimi, məcmusundan başqa heç nə yoxdur:

(1+1′+1′′+l′′′+...)

Bütün bu mülahizələrə əsaslanaraq, dillə nitqi eyni bir baxış bucağı altında birləşdirmək mənasız olmazdı. Bütöv şəkildə götürüldükdə nitq fəaliyyəti dərkolunmazdır, çünki eynicinsli deyil; bizim təqdim etdiyimiz fərqləndirmə və iyerarxiya, pilləvarilik (subordination) isə hər şeyin izahını verir.

Nitq fəaliyyəti nəzəriyyəsinin yaradılmasına başlayan kimi təsadüf olunan ilk dixotomiya bu cürdür. İki yoldan birini seçib, digərindən asılı olmadan həmin yolu getmək lazımdır, eyni zamanda iki yolla getmək olmaz.

Uzaq başı, hər iki fənn üçün "linqvistika" adını saxlamaq, nitq linqvistikasını da qəbul etmək olar. Bununla belə, onu, sözün həqiqi mənasında, linqvistika ilə, yeganə obyekti dil olan linqvistika ilə qarışdırmaq olmaz.

Biz istisnasız olaraq sonuncu ilə (dillə) məşğul olacağıq – hərçənd şərh prosesində bəzən nitqin öyrənildiyi sahədən də nə isə əxz etmək lazım gələcək, lakin həmişə çalışacağıq ki, bu iki sahəni ayıran sərhədi pozmayaq.

DİLİN DAXİLİ VƏ XARİCİ ELEMENTLƏRİ

Bizim dilə verdiyimiz tərif "dil" anlayışından onun orqanizminə, onun sisteminə yad olan hər şeyin, bir sözlə, "xarici dilçilik" adı altında məlum olan hər şeyin kənarlaşdırılmasını nəzərdə tutur lakin bu dilçilik də olduqca vacib predmetlərlə məşğul olur; nitq fəaliyyətini öyrənməyə başlayanda diqqət, əsasən, xarici dilçiliyin üzərində cəmləşir.

Buraya, hər şeydən əvvəl, dilçiliklə etnologiyanın təmasından irəli gələn bütün məsələlər, dil tarixi ilə irqlərin, yaxud sivilizasiyaların tarixi arasında mövcud ola biləcək bütün əlaqələr daxildir. Hər iki tarix mürəkkəb bir şəkildə birbirinə qarışmış və qarşılıqlı şəkildə əlaqələnmişdir; bu, müəyyən qədər dilin öz daxilində bizim müəyyənləşdirdiyimiz uyğunluqları xatırladır. Millətin adətləri onun dilində əks olunur, digər tərəfdən, milləti müəyyən dərəcədə məhz dil formalaşdırır.

Bunun ardınca dillə siyasi tarix arasında mövcud olan münasibətləri yada salmaq lazımdır. Roma istilaları kimi böyük tarixi hadisələr dildə müxtəlif yöndən saysız izlər qoyur. İstilanın formalarından biri kimi meydana çıxan müstəmləkəçilik dili adət etmədiyi mühitə saldıqdan sonra onda dəyişikliklər aparır. Həmin mülahizəni təsdiq etmək üçün çoxlu faktlar gətirmək olar: məsələn, Norveç siyasi baxımdan Danimarka ilə birləşərkən (1380-1814-cü illər) Danimarka dilini qəbul etmişdi, hazırda isə, doğrudur, norveçlilər çalışırlar ki, həmin dilin təsirindən azad olsunlar. Dövlətlərin daxili siyasəti dillərin həyatında olduqca mühüm rol oynayır: məsələn, İsveçrə bir neçə dilin birgə işlənməsinə imkan verir; başqaları, məsələn, Fransa isə vahid dilə can atır. Yüksək mədəniyyət səviyyəsi bəzi xüsusi dillərin (hüquq dilinin, elmi terminologiyanın və s.) inkişafına şərait yaradır.

Bu, bizi üçüncü mətləbə gətirib çıxarır: dillə kilsə, məktəb və s. təsisatlar arasındakı münasibətlər öz növbəsində dilin ədəbi inkişafı ilə bağlıdır ki, həmin hadisə kifayət qədər ümumidir və siyasi tarixdən ayrılmazdır. Təsəvvür edildiyinin əksinə olaraq, ədəbi dil ədəbiyyatı onun üçün cızdığı sərhədləri bütün istiqamətlərdə adlayır: salonların, sarayların, akademiyaların dilə təsirini xatırlamaq kifayətdir. Digər tə-

rəfdən, ədəbi dil ilə yerli dialektlər arasındakı kəskin kolliziyalar tamamilə təbiidir. Dilçi kitab dili ilə məişət dilinin qarşılıqlı münasibətlərinə də nəzər yetirməlidir, çünki hər cür ədəbi dilin, mədəniyyət məhsulunun inkişafi onun sferasının təbii sfera, yəni danışıq dili sferası ilə yerlərinin dəyişməsinə gətirib çıxarır.

Nəhayət, dillərin coğrafi yayılmasına, dialektlərə bölünməsinə dəxli olan hər şey xarici dilçiliyə aiddir. Xarici dilçiliklə daxili dilçilik arasındakı fərqlər məhz bu sahədə xüsusi olaraq parodoksal görünür. Belə ki, coğrafi amil dilin mövcudluğu ilə sıx surətdə bağlıdır – lakin hər halda, coğrafi amil, həqiqətdə dilin özünün daxili orqanizminə toxunmur.

Tez-tez qeyd edirlər ki, bu məsələləri dilin öyrənilməsindən həqiqi mənada ayırmağa qətiyyən imkan yoxdur. Bu mülahizə dilçilərdən reallığı bilmələri təkidlə tələb edildikdən sonra xüsusilə gücləndi. Əslində isə, bitkilərin orqanizmindəki dəyişikliklər xarici amillərin – torpağın, iqlimin və s. təsiri altında baş verdiyi kimi, dilin dəyişmələri də xarici amillərdən bilavasitə asılı deyilmi? Görünür, tamamilə aydındır ki, dili zənginləşdirən texniki terminlər və alınma sözlərin izahı onların mənşələri məsələsinə aydınlıq gətirilmədən mümkün deyildir. Məgər bəzi dillərin təbii, üzvi inkişafını onların ədəbi dil kimi süni formalarından, yəni xarici amillərlə şərtlənən və nəticə etibarilə qeyri-üzvi olan formalarından ayırmaq mümkündürmü? Və məgər biz görmürükmü ki, koyne yerli dialektlərlə bir sırada necə inkişaf edir?

Biz "dilçilikxarici", yəni dildənkənar hadisələrin öyrənilməsini olduqca əhəmiyyətli hesab edirik, lakin onlarsız dilin daxili orqanizminin dərk olunmayacağını düşünmək də səhv olardı. Nümunə üçün əcnəbi sözlərin alınmasını götürək.

Hər şeydən əvvəl, demək lazımdır ki, alınmalar dilin həyatında daimi element deyil. Bir sıra təcrid olunmuş vadilərdə elə ləhcələr var ki, heç zaman kənardan bir dənə də olsun süni termin almamışdır. Məgər demək olarmı ki, həmin ləhcələr normal nitq fəaliyyəti şəraitindən kənarda qalmışlar, onlar həmin şərait baradə heç düşünmürlər, qarışmaya məruz qalmadıqlarına görə "teratoloji" yanaşma tələb edirlər? Burada başlıca cəhət ondan ibarətdir ki, alınma söz bu və ya digər dilin sistemi daxilində öyrənilmə obyekti oldusa, artıq ona elə-belə baxmaq olmaz; çünki alınma da həmin dildə yerli mənşədən olan digər sözlər kimi yalnız onunla assosiasiyaya girən başqa sözlərlə münasibətdə və qarşılaşmada mövcuddur. Ümumiyyyətlə desək, bu və ya digər dilin inkişaf etdiyi şəraiti bilməyə heç bir ehtiyac yoxdur. Bəzi dillər, məsələn, Avesta, yaxud əski slavyan mətnlərinin dilləri baradə dəqiq məlum deyil ki, bu dillərdə hansı xalqlar danışmışlar; lakin bunun bilinməməsi onları öz–özlüyündə öyrənməyə və dəyişmələrini araşdırmağa mane olmur. Hər bir halda hər iki baxışın ayrılması qaçılmazdır və buna nə qədər ciddi əməl olunsa, o qədər yaxşıdır.

Ən yaxşı sübut isə ondan ibarətdir ki, hər iki baxış öz xüsusi metodunu yaradır. Xarici dilçilik sistemin məngənəsi tərəfindən sıxışdırıldığını hiss etmədən bir təfərrüatı o birinin üzərinə yığa bilər. Məsələn, hər bir müəllif dilin ərazisindən kənar yayılmasına aid faktları öz baxışlarına uyğun qruplaşdıracaqdır; dialektlərlə yanaşı ədəbi dilin yaratdığı amillərin izahı zamanı həmişə sadə barmaqhesabından istifadə etmək olar; əgər faktlar müəllifin sərəncamında bu və ya digər dərəcədə sistematik şəkildədirsə, bu, istisnasız olaraq, şərhin marağı üçün edilir.

Daxili dilçiliyə münasibətdə məsələ tamamilə başqa cürdür: burada hər hansı sərbəst sərəncam mümkün deyildir. Dil yalnız özünəməxsus qaydalara tabe olan sistemdir. Nəyin xarici, nəyin isə daxili olduğunu izah etmək üçün kifayət qədər asan anlaşılan şahmat oyunu ilə müqayisə aparmaq olar. Həmin oyunun Avropaya İrandan keçməsi dilxarici faktdır, əksinə, oyunun sisteminə və qaydalarına dəxli olan nə varsa, daxilidir. Əgər mən ağacdan olan fiqurları fil sümüyündən olan fiqurlarla dəyişsəm, həmin dəyişiklik oyunun sisteminə heç bir təsir göstərməyəcəkdir. Lakin əgər fiqurların sayını azaltsam, yaxud artırsam, bu cür dəyişiklik oyunun "qrammatika"sını dərindən sarsıdacaqdır. Belə bir fərqləndirmə, doğrudan da, müəyyən dərəcədə diqqətli olmaq tələb edir, ona görə də hər bir halda hadisənin təbiəti barədə düşünmək və onun həllində aşağıdakı mülahizəni rəhbər tutmaq lazımdır: hər hansı bir formada sistemin şəklini dəyişən nə varsa, daxilidir.

Tərcümə edənlər: Nizami Cəfərov,
İsmayıl Temiroğlu

Praqa dilçilik dərnəyi

Sonralar stukturalizmin müstəqil məktəbinə -"funksional dilçilik" adlanan məktəbinə çevrilmiş Praqa dilçilik dərnəyinin əsasını 1926-cı ildə ingilis əsilli çex dilçisi Vilem Matezius qoymuşdur.O, R.Yakobsonla bu dərnəyi yaratmış və sonralar dərnəyin V.Skaliçka, B.Trnka, B.Havranek, İ.Vaxek, N.S.Trubetskoy və s. kimi nüfuzlu üzvləri olmuşdur.

Praqa dilçilik dərnəyinin üzvlərinin yazıları "Praqa dilçilik dərnəyinin tezisləri" (1929) adı ilə nəşr olunmuşdur. Praqa məktəbinin proqramı hesab olunan bu yazılarda dərnəyin üzvləri olan dilçilərin dil nəzəriyyəsi ilə bağlı görüşləri əks olunmuşdur. "Tezisləri"ndə aşağıdakı məsələlərə öz münasibətlərini bildirmişlər: Sinxron və diaxron metodun münasibəti; Slavyan dillərinin müqayisəli öyrənilməsi; linqvistik təkamül hadisələrinin əlaqə qanunları; fonologiya; ədəbi dil; poetik dil; sintaqmatik üsullar nəzəriyyəsi; dilçilik coğrafiyasının prinsipləri və s.

Praqa dilçilik dərnəyinin tezisləri
Sistem olaraq dil haqqındakı təsəvvürdən irəli gələn metod problemi və həmin təsəvvürün slavyan dilləri üçün əhəmiyyəti

(Sinxron metod və onun diaxron metoda münasibəti; struktur müqayisə və genetik müqayisə; liqvistik təkamüldə hadisələrin təsadüfi xarakteri, yaxud qanunauyğun əlaqəsi)
a) Funksional sistem olaraq dil haqqında təsəvvür

İnsan fəaliyyətinin məhsulu olmaqla yanaşı, dil məqsədyönlü istiqamətliliyə malikdir.Nitq fəaliyyətinin ünsiyyət vasitəsi kimi təhlili göstərir ki, danışanın ən dəqiq müəyyən olunan ən adi məqsədi ifadədən ibarətdir.Ona görə də linqvistik təhlilə funksional baxımdan yanaşmaq lazım gəlir.Bu baxımından dil hansısa müəyyən məqsədə xidmət edən ifadə vasitələri sistemidir.Dildə heç bir vasitə həmin dilin mənsub olduğun sistem nəzərə alınmadan dərk edilə bil-

məz.Slavyan dilçiliyinin də bu aktual problemlər kompleksinə əhəmiyyət verməməsi mümkün deyil.

b) Sinxron metodun vəzifələri. Onun diaxron metoda münasibəti

Dilin mahiyyətini və xarakterini dərk etməyin ən yaxşı üsulu müasir faktların sinxron təhlilindən ibarətdir.Həmin faktlar yeganə göstəricidir ki, müfəssəl material verməklə onlar barəsində bilavasitə təsəvvür yaratmağa imkan açır.Slavyan dilçiliyinin başlıca məqsədi(o məqsədi ki, indiyə qədər məhəl qoyulmamışdır)müasir slavyan dillərinin liqvistik xarakteristikasını formalaşdırmaqdan ibarətdir ki,bunsuz onların hər hansı səviyyədə dərindən öyrənilməsi qətiyyət mümkün deyil.Və funksional sistem olaraq dil barəsindəki təsəvvür, bərpasından yaxud təkamül yolunun təsvirindən asılı olmayaraq, keçmiş dil vəziyyətlərinin öyrənilməsi zamanı da nəzərə alınmalıdır. Lakin Cenevrə məktəbinin etdiyi kimi sinxron və diaxron metodlar arasında kəsilməz sədlər qoymaq olmaz.Əgər dil sistemi elementlərinə sinxron dilçilikdə onların funksiyaları nöqteyi-nəzərindən baxılırsa, dildə baş vermiş dəyişikliklər barədə də həmin dəyişikliklərin toxunduğu mümkün deyil.Güman etmək məntiqsiz olardı ki, linqvistik dəyişikliklər sistem baxımından təsadüfi və müxtəlifcinsli dağıdıcı zərbələrdən başqa bir şey deyil.Çox hallarda linqvistik dəyişikliklərin obyekti sistem, onun sabitləşməsi, yenidənqurulması, və s.olur.Beləliklə, diaxron öyrənilmə sistem və funksiya anlayışlarını nəinki istisna edir, əksinə, bu anlayışları nəzərə almadıqda yarımçıq qalır.

Başqa tərəfdən, sinxron təsvir də təkamül anlayışından ona görə bütünlüklə üz döndərə bilməz ki, dilin hətta sinxron baxış sektorunda da həmişə hazırda olan mərhələnin for-

malaşmaqda olan digər mərhələ ilə əvəzlənməsi aydın görünür.Birincisi, arxaizmlər kimi dərk olunan stilistik elementlər, ikincisi isə, məhsuldar və qeyri-məhsuldar formalar arasındakı fərq o diaxron hadisələri əks etdirir ki, onları sinxron dilçilikdən çıxarmaq mümkün olmazdı.

c) Müqayisəli metodun tətbiqinin yeni imkanları

İndiyə qədər slavyan dillərinin müqayisəli öyrənilməsi yalnız genetik problemlərlə, o cümlədən ümumi prototip axtarışları ilə məhdudlaşmışdır.Halbuki müqayisəli metod daha geniş miqyasda istifadə olunmalıdır:o, linqvistik sistem strukturunun qanunlarını və onların təkamülünü aydınlaşdırmağa imkan verir.Bu cür müqayisə üçün qiymətli materialı biz təkcə qohum olmayan, yaxud öz strukturları etibarilə müxtəlif olan ayrı-ayrı qohum dillərdə deyil, həmçinin eyni bir ailəyə mənsub dillərdə,məsələn, təkamülü gedişində çoxsaylı və mühüm uyğunluqlarla yanaşı, kəskin fərqlər nümayiş etdirən slavyan dillərində tapırıq.

Qohum dillərin strukturca müqayisəsinin əhəmiyyəti. Slavyan dillərinin təkamülünün müqayisəli öyrənilməsi həmin dillərin tarixi ərzində təzahür edən birləşdirici və ayırıcı təkamüllərin təsadüfi və epizodik xarakteri barədəki təsəvvürü tədricən alt-üst edir.Və o, birləşdirici və ayırıcı hadisələrin(hadisələr toplusunun)vəhdəti qanunlarını üzə çıxarır.Beləliklə, slavyan dillərinin təkamülü öz tipologiyasını yaradır, yeni bir sıra qarşılıqlı şərtlənən hadisələri bir bütövdə qruplaşdırır.

Müqayisəli öyrənilmə bir tərəfdən, ümumi dilçilik üçün qiymətli material verməklə, digər tərəfdən, slavyan dillərinin də daxil olduğu ümumi tarixi zənginləşdirərək təcrid edilmiş faktların qeyri-məhsuldar və mürəkkəb tədiqi metodunu qəti olaraq kənara atır.Müqayisəli öyrənmə bu və ya

digər dilin əsəs inkişaf tendensiyalarını aşkarlayır və ayrı-ayrı abidələrin dolayı xronoloji göstəricilərindən daha etibarlı olan nisbi xronologiya prinsipinin böyük uğurla istifadəsinə şərait yaradır.

Ərazi qrupları.Müxtəlif slavyan dillərinin müxtəlif dövrlərdəki təkamül tendensiyalarının müəyyənləşdirilməsi və bu tendensiyaların qonşu slavyan və qeyri-slavyan (məsələn, uqro-fin, alman, istənilən mənşəli Balkan və s.)dillərin təkamülünə şahidlik edən başqaları ilə tutuşdurulması bütöv bir sıra mühüm məsələlərin öyrənilməsi üçün material verir ki, həmin məsələr müxtəlif slavyan dillərinin öz tarixi hərəkatında əlaqədar olduqları müxtəlif miqyaslı "regional birliklər"lə bağlıdır.

ç)Linqvistik təkamül hadisələrinin əlaqə qanunları

Təkamüllə bağlı elmlərdə - tarixi dilçilik də buraya aiddir - hadisələrin meydana çıxmasının ixtiyari və təsadüfi xarakteri(hətta həmin hadisələr mütləq ardıcıllıqla gerçəkləşsə belə)haqqındakı təsəvvür öz yerini,inkişaf edən hadisələr(nomogenez)qanununa görə, tədricən əlaqələr anlayışına tərk edir. Eynilə eləcə də qrammatik və fonoloji dəyişmələrin izahında təkamülün birləşdiriciliyi nəzəriyyəsi hadisələrin yayılmasının mexaniki və təsadüfi xarekteri barədəki təsəvvürü ikinci plana keçirmiş olur. Bunun nəticələri belədir:

1. Dil hadisələrinin yayılmasına görə. Linqvistik sistemi dəyişən dil hadisələrinin yayılması mexaniki baş verməyib, həmin dəyişmələri mənimsəmiş fərdlərin buna meyillənməsi ilə müəyyən olunur; bu meyillənmələr təkamül tendensiyaları ilə tam uyğunluqda təzahür edir.Beləliklə, həmin halda

dəyişmələrin ümumi mənbədən yayılması və ya birləşdirici təkamülün nəticəsinin faktı olması barədəki mübahisələr hər cür prinsipial əhəmiyyətini itirmiş olur.

2.Ümumi "pradil"in üzvlənməsi probleminin mənası dəyişir. Bu dilin vəhdəti yalnız o ölçüdə təzahür edir ki, dialektlər ümumi dəyişmələri inkişaf etdirməyə qabil olduqlarını göstərsinlər.Həlli çətin ki mümkün olan ikinci dərəcəli bu birləşdiriciliyin çıxış nöqtəsi olaraq ümumi mənbənin mövcudluğudur.Əgər birləşdirmələr ayrılmalar üzərində üstünlük qazanırsa, onda, əlbəttə, şərti olaraq, ümumi "pradil" ehtimal etməyə əsas vardır.Bu cür yanaşma slavyan prototipinin dağılması məsələsinin həllinə də imkan açır.Burada istifadə olunan linqvistik vəhdət anlayışı da, heç şübhəsiz, köməkçi səciyyə daşıyıb yalnız tarixi araşdırmalara aiddir, praktik dilçilikdə tətbiq edilə bilməz.Dil vəhdətinin sonuncu meyarını obyektiv linqvistik əlamətlər yox, danışan kollektivin danışdığı dili münasibəti müəyyən edir.

Dil sistemini və o cümlədən slavyan sistemini öyrənərkən meydana çıxan vəzifələr

a) Dilin səs aspektinə aid araşdırmalar

Akustik tərəfin vacibliyi. Fonoloji hadisələrin məqsədli şərtlənməsi ona gətirib çıxarır ki, linqvistik araşdırmalarda birinci plana hərəki deyil, akustik obraz çıxır; belə ki, danışanın məqsədini məhz sonuncu əks etdirir.

Səsləri funksional sistemin obyektiv fiziki fakt, təqdimatı və elementi kimi fərqləndirməyin zəruriliyi. Subyektiv akustik-hərəki obrazların obyektiv akustik-hərəki amillər vasitəsilə qeydə alınması liqvistik mənaların obyektiv uy-

ğunluq göstəriciləri olaraq böyük əhəmiyyət kəsb edir.Lakin həmin obyektiv amillər dilçiliklə yalnız dolayısı ilə münasibətdə olduğundan onları linqvistik mənalarla eyniləşdirmək olmaz.

Başqa tərəfdən, subyektiv akustik-hərəki obrazlar linqvistik sistemin yalnız o dərəcədə elementləri ola bilir ki, mənaları fərqləndirmə funksiyasını yerinə yetirir.Həmin fonoloji elementlərin maddi məzmunu onların sistem daxilindəki qarşılıqlı əlaqələrindən(fonoloji sistemin struktural prinsipi)az əhəmiyyətlidir.

Sinxron fonologiyanın əsas vəzifələri.

Həmin vəzifələr sırasına aiddir:

1. Fonoloji sistemin səciyyəsi, yəni verilmiş dilin ən sadə və mənalı akustik-hərəki obrazlarının(fonem) siyahısının tərtibi.Bu zaman həmin fonemlər arasında mövcud olan əlaqələri müəyyənləşdirmək, yəni nəzərdən keçirilən dilin quruluş sxemini göstərmək, zəruridir; o cümlədən mənalı fərqlərin xüsusi tipi olaraq fonoloji korrelyasiyaların öz aralarında eyni prinsip üzrə fərqlənən, qarşı-qarşıya qoyulmuş fonematik cütlərin elə bir sırasının qurulmasıdır ki, hər cütdən mücərrədləşmiş şəkildə düşünülə bilər(məsələn, rus dilində aşağıdakı korrelyasiyalar vardır:saitlərin vurğululuğu-vurğusuzluğu, samitlərin cingiltililiyi-karlığı, samitlərin incəliyi-qalınlığı; çex dilində:saitlərin uzunluğu-qısalığı, samitlərin cingiltililiyi-karlığı).

2. Verilmiş dildə rast gəlinən fonem birləşmələrinin həmin fonemlərin nəzəri olaraq mümkün birləşmələri ilə müqayisədə təyin edilməsi; bu birləşmələrin qruplaşmalar üzrə variasiyalarının və yayılma dərəcələrinin müəyyənləşdirilməsi.

3. Verilmiş fonemlərin və müxtəlif yayılmalarında fonem birləşmələrinin istifadə və reallaşma həcmi dərəcələrinin təyin edilməsi; eyni şəkildə həmin dildə müxtəlif fonemlərin və onların birləşmələrinin funksional yükünün öyrənilməsi.

Bundan başqa, dilçiliyin(o cümlədən slavyan dilçiliyinin) mühüm problemi fonoloji fərqliliklərin morfoloji istifadəsindən(və ya morfofonologiya, qısaca olaraq, morfonologiyadan)ibarətdir.Slavyan dillərində morfonem birinci dərəcəli rol oynayır.Bu, eyni bir morfem daxilində morfonoloji struktur şərtlərinə uyğun olaraq bir-birini əvəz etmək qabiliyyətinə iki və ya bir neçə fonemdən ibarət obrazdır(məsələn, rus dilində рук:рука, ручной kompleksindəki к/ч morfonemi). Verilmiş dildə mövcud olan həm bütün morfonemləri, həm də bu morfonemin morfem daxilindəki yerini dəqiq sinxronik olaraq müəyyən etmək zəruridir. Slavyan dillərinin hamısının fonoloji və morfonoloji təsviri slavistikanın ən mühüm problemidir.

b) Sözün və söz birləşmələrinin araşdırılması

Linqvistik nominasiya nəzəriyyəsi. Söz. Funksional nəzər nöqtəsindən baxılan söz sintaqmatik fəaliyyətlə bəzən qırılmaz şəkildə bağlı olan nominativ liqvistik fəaliyyətin nəticəsidir.Nitq fəailiyyətini mexaniki səciyyəli obyektiv fakt kimi təhlil edən dilçilik sözün mövcudluğunu tamamilə inkar etmişdir.Ancaq funksional nəzər nöqtəsindən, hərçənd o, müxtəlif dillərdə fərqli müəyyənliklərdə təzahür edir və hətta potensial vəziyyətdə ola bilər, sözün müstəqil mövcudluğu tamamilə göz qabağındadır.Nominativ fəaliyyət vasitəsilə dil fəaliyyəti varlığı(fərqi yoxdur, xarici və ya daxili, real və

ya abstrakt olsun) linqvistik olaraq təyin edilən elementlərə üzvləndirir.

Hər bir dil özünün xüsusi nominasiya sisteminə malikdir: O həm də fərqli intensivliklərdə olmaqla müxtəlif nominativ formalar işlədir, məsələn, söz yaradıcılığı, söz birləşmələrinin sıxılmasından əmələ gələn söz birikmələri(belə ki, slavyan dillərində, xüsusilə xalq nitqində yeni isimlər çox hallarda söz birləşmələri yolu ilə yaranır).Hər bir dil nominasiya üsullarının özünəməxsus təsnifatına malik öz xüsusi sözlüyünü meydana gətirir.Həmin təsnifatlar, o cümlədən, söz kateqoriyaları sistemi, dəqiqlik, həcm və daxili quruluşla müəyyən olunur ki, hər bir dil üçün ayrıca öyrənilməsi lazım gəlir.Bundan başqa, ayrı-ayrı xüsusi kateqoriyalar daxildə də təsnifat fərqlilikləri mövcuddur:məsələn, isimlər üçün cins, canlılıq, kəmiyyət, müəyyənlik və s. kateqoriyaları; feil üçün növ, tərz, zaman və s. kateqoriyaları.

Nominasiya nəzəriyyəsi müəyyən qədər sözün dar mənasında söz yaradıcılığı və "sintaksis"ənənəvi təliminin obyektiv olan dil vahidlərini təhlil edir(nitq hissələrinin mənası və sözlərin formaları).Funksional konsepsiya isə dağınıq hadisələri əlaqələndirməyə, verilmiş dilin sistemini qurmağa və belə bir hala aydınlıq gətirməyə qadirdir ki, əvvəlki metod, məsələn slavyan dillərinin zaman formalarının funksiyalarını aydınlaşdırmağı yalnız qeydə ala bilərdi.

Linqvistik nominasiya formalarının təhlili və nominasiya üsullarının hələ verilmiş dilin sözlüyünü kifayət qədər təyin eləmir.Onu səciyyələndirmək üçün ümumən linqvistik nominasiyada, o cümlədən nominasiyanın müxtəlif kateqoriyalarında həmçinin mənaların həcm və dəqiqliyini öyrənmək, həmin sözlüyün elementlərində əks olunmuş məna sferasını

təyin etmək; bir tərəfdən, emosional amillərin rolunu, digər tərəfdən isə, dilin get-gedə yüksələn intellektuallaşmasını göstərmək, sözlüyün necə zənginləşdiyini(məsələn, alınmalar və kalkalar)müəyyənləşdirmək, yəni adətən semantikaya aid olan hadisələri araşdırmaq lazım gəlir.

c) Sintaqmatik üsullar nəzəriyyəsi

Əgər söhbət sabit birləşmələrdən getmirsə, sözlərin birləşməsi sintaqmatik fəaliyyət nəticəsində meydana çıxır.Ancaq burası da var ki, həmin fəaliyyət bəzən ayrıca bir söz formasında da təzahür edir.Eyni zamanda cümlə də yaradan əsas sintaqmatik fəaliyyət predikativliklə ifadə olunur.Ona görə də funksional sintaksis bu zaman qrammatik mübtədanın funksiya və formasını nəzərə almaqla, hər şeydən əvvəl, xəbər tiplərini öyrənir.Mübtədanın funksiyası ən yaxşı şəkildə cümlənin tema və söyləmə müasir bölünməsi ilə onun qrammatik mübtəda və xəbərə formal ayrılmasının müqayisəsi zamanı aşkarlana bilər(çex dilində qrammatik mübtəda fransız və ingilis dillərində olduğu qədər tematik deyil;sözlərin mümkün çevik sırası çex cümləsinin tema və söyləmə bölünməsi tema ilə qrammatik mübtəda arasındakı başqa dillərdə passiv konstruksiyanın köməyi ilə aradan qaldırılan ziddiyyətdən qaçmağa imkan verir).

Funksional konsepsiya fərqli sintaqmatik formaların qarşılıqlı əlaqələrini(qrammatik mübtədanın tematik təbiəti ilə passiv xəbərliliyin inkişafı arasındakı əlaqəni müqayisə edin) və nəticə etibarilə, onların vəhdətini və konsentrasiyasını müəyyənləşdirməyə imkan yaradır.

Morfologiya(söz formaları və onların qrupları sistemi nəzəriyyəsi). Nominativ və sintaqmatik linqvistik fəaliyyətdən nəşət edən leksik törəmələr və leksik qrup törəmələri

dildə formal qayda sistemində qruplaşır.Həmin sistemlər sözün geniş mənasında morfologiya tərəfindən öyrənilir ki, nə nominasiya, nə də sintaqmatika nəzəriyyəsinə(söz yaradıcılığı,morfologiya və sintaksisə ənənəvi bölgüyə) paralel fənn kimi mövcud olmayıb həm bu, həm də o biri ilə kəsişir.

Morfoloji sistemi yaradan tendensiyalar ikili istiqamətə malikdir: bir tərəfdən, onlar fərqli formaları funksiyasından asılı olaraq formal sistemdə saxlamağa cəhd edir ki, bu, eyni mənanın daşıyıcısında ortaya çıxır, başqa tərəfdən, eyni funksiyada birləşmiş müxtəlif mənaların daşıyıcılarının formalarını da mühafizə edir.Hər bir dil üçün həmin tendensiyaların yayılma güc və dərəcəsini, eləcə də onların idarə etdiyi sistemin vəziyyətini müəyyənləşdirmək zəruridir. Eyni şəkildə morfoloji sistemin səciyyəsində analitik və sintetik prinsiplərin müxtəlif xüsusi funksiyalarda yayılma güc və dərəcəsinin təyini lazım gəlir.

Müxtəlif funksiya yerinə yetirən dillərin araşdırılması problemləri

a) Dilin funksiyaları

Dilin öyrənilməsi hər bir ayrıca halda linqvistik funksiyaların və onların gerçəkləşmə formalarının rəngarəngliyinin ciddi hesabatını aparmağı tələb edir.Əks halda, istər sinxron, istərsə də diaxron olsun, hər hansı dilin səciyyəsi mütləq təhrif edilmiş və məlum dərəcədə saxta olacaqdır.Məhz həmin funksiyalara və formalara uyğun olaraq dilin həm səs, həm də qrammatik quruluşu, eləcə də leksik tərkibi dəyişir.

1. Daxili nitq fəaliyyəti ilə ifadə olunan nitq fəaliyyətini fərqləndirmək lazımdır.Danışanlardan çoxu üçün sonuncu

yalnız xüsusi hadisədir, belə ki, linqvistik formalar nitq prosesindəkindən daha çox fikri olaraq işlənir.Ona görə də dilin saf xarici səs tərəfini ümumiləşdirməklə əhəmiyyətini daha artıq qiymətləndirmək lazım deyil, diqqətə həmçinin potensial linqvistik hadisələr alınmalıdır.

2. Dilin səciyyəsinin mühüm göstəricisi xidmətini linqvistik təzahürlərin intellektuallığı və affektivliyi yerinə yetirir.Bu göstəricilər ya bir-biri ilə qovuşur, ya da biri digəri üzərində hökmranlıq edir.

3. Gerçəkləşmiş intellektuallaşmış nitq fəaliyyəti, hər şeydən əvvəl, sosial təyinata (başqaları ilə əlaqə)malikdir.Əgər dinləyənlərdə məlum emosiyanı doğurmağa can atırsa, eyni şeyi affektiv nitq fəaliyyəti barəsində də demək olar(emosional nitq fəaliyyəti); bundan başqa, o, dinləyənlərlə əlaqəsi olmayan emosiyaların ifadəsinə də xidmət edir.

Öz sosial rolu etibarilə nitq fəaliyyəti dilxarici gerçəkliklə əlaqədən asılı olaraq fərqlənir.Bu zaman o ya ünsiyyət funksiyasına malik olur, yəni işarələnənə yönəlir, ya da poetik funksiya daşıyır, yəni işarənin özünə yönəlir.

Ünsiyyət vasitəsi olaraq nitq fəaliyyətinin funksiyasında iki cazibə mərkəzini fərqləndirmək lazımdır:birincidə dil "situativ dil"(praktik dil) olur, yəni tamamlayıcı dilxarici kontekstdən istifadə edir, ikincisi isə odur ki, dil söz-termin və fraza-hökmlərdən istifadə edərək dəqiq və tam olmaq tendensiyası ilə nə qədər mümkündürsə qapalı bütövü yaratmağa can atır(nəzəri dil yaxud xülasə etmə dili).

Dilin həm istisnasız olaraq bir funksiyasının üstün olduğu, həm də müxtəlif funksiyalarının qovuşduğu formalarını öyrənmək zəruridir; sonuncu tipə aid araşdırmalarda əsas problem funksiyanın hər bir verilmiş halda əhəmiyyət fərqini müəyyənləşdirməkdən ibarətdir.

Hər bir funksional nitq fəaliyyətinin özünün şərti sistemi — sözün xüsusi mənasında dili var; odur ki, bir funksional dil fəaliyyətini dillə, digərini "nitq"lə(Sössürün terminologiyası üzrə), deyək ki, intellektuallaşmış nitq fəaliyyətini dillə, emosionalı isə nitqlə eyniləşdirmək səhvdir.

4. Linqvistik təzahürlərin formaları bunlardır: bir tərəfdən, dinləyənin danışanı görüb-görməməsindən asılı olaraq fərqlənən şifahi təzahür; başqa tərəfdən, yazılı təzahür; nəhayət, pauzalarla nitq fəaliyyəti və monoloqlaşdırılmış kəsilməz nitq fəaliyyəti.Mühüm olan onu müəyyənləşdirməkdir ki, bu və ya digər forma və həmin uyğunluğun dərəcəsi hansı funksiyaya müvafiq gəlir.

Dinləyənlərlə bilavasitə ünsiyyəti zamanı danışanın şifahi nitq təzahürünü müşayiət edən və tamamlayan jestlərini sistematik öyrənmək tələb olunur.O jestlər ki, linqvistik regional ittifaqlar problemi üçün əhəmiyyətlidir(məsələn, ümumi Balkan jestləri).

5. Linqvistik əlaqədə olan danışanların qarşılıqlı əlaqəsi nitq fəaliyyətinin ayrılması üçün vacib amildir: onların sosial, peşəkarlıq, ərazi və qohumluq əlaqələrinin dərəcəsi, onların şəhər dillərində linqvistik sistemlərin qarışmasının törətdiyi bir neçə kollektivə mənsubiyyəti.

Elə burayaca qoşulur: dillərarası əlaqələr problemi(ümumi adlandırılan dillər), xüsusi dillər problemi, xarici dil mühiti ilə əlaqə üçün uyğunlaşdırılmış dillər problemi, eləcə də şəhərlərdə linqvistik qatların bölünməsi problemi.

Həmçinin (hətta diaxron dilçilikdə) müxtəlif dil törəmələrinin dərindəki qarşılıqlı əlaqələrinə diqqət yerirmək zəruridir. Həm də yalnız ərazi baxımından deyil, funksional dillər,

müxtəlif qrupların müəyyən dillərinin və bütöv dil qruplarının linqvistik təzahürlərinin müxtəlif formaları baxımından.

Hələ slavyan dilləri sahəsində bu funksional dialektologiyanın öyrənilməsinə cəhd edilməmişdir; indiyə qədər, məsələn, affektivliyin linqvistik ifadə vasitələrinin az-çox sistematik araşdırılması yoxdur; həmçinin şəhərlərdə dil diferensiasiyalarının öyrənilməsinə də təxirə salınmadan başlamaq lazım gəlir.

b) ədəbi dil

Ədəbi dilin yaranmasında siyasi, sosial, iqtisadi və dini şərtlər yalnız xarici amillərdir; onlar müəyyən bir ədəbi dilin nə üçün məhz müəyyən bir dialektdən nəşət etdiyini, onun müəyyən bir dövrdə yaranaraq təsdiqləndiyini aydınlaşdırmağa kömək edir, lakin həmin amillər bu ədəbi dilin xalq dilindən nədə və nə üçün fərqləndiyini izah eləmir.

Demək olmaz ki, haqqında söhbət gedən fərq istisnasız olaraq ədəbi dilin konservativ xarakteri ilə şərtlənir; əgər o, bir tərəfdən, öz qrammatik sistemi etibarilə, doğrudan da, konservativdirsə, başqa tərəfdən, lüğət tərkibinə münasibətdə özünü həmişə yaradıcı olaraq göstərir; bundan əlavə, o heç zaman mövcud yerli dialektin yalnız keçmiş vəziyyətini təmsil eləmir.

Ədəbi dilin xüsusi xarakteri onun oynadığı rolda, o cümlədən xalq dili ilə müqayisədə onun qarşısına qoyulmuş tələblərin yerinə yetirilməsində təzahür edir; ədəbi dil mədəni həyatı və sivilizasiyanı əks etdirir (elmi, fəlsəfi və dini, siyasi və sosial, hüquqi və inzibati əsərlər və onların nəticələri).

Ədəbi dilin həmin funksiyaları onun sözlüyünün genişlənməsinə və dəyişməsinə (intellektuallaşmasına) qabildir; praktik həyata dəxli olmayan maheriyalar və yeni anlayışlar barəsində danışmaq zərurəti elə yeni vasitələr tələb edir ki,

xalq dilində olmur; eyni şəkildə də praktik həyatın bəzi predmetləri barədə dəqiq və sistemli danışmaq zərurəti linqvistik abstraksiyalar üçün söz-anlayış və ifadələrin yaradılmasına, eləcə də məntiqi kateqoriyaların linqvistik ifadə vasitələrilə daha dəqiq təyin olunmasına gətirib çıxarır.

Dilin intellektuallaşması həmçinin qarşılıqlı asılı və mürəkkəb fikir əməliyyatlarının ifadəsi zərurətindən irəli gəlir; ona görə də ədəbi dil yalnız abstrakt anlayışlar üçün ifadə vasitələrinə deyil, xüsusi sintaktik formalara (müxtəlif növlü tabeli cümlə fazalarına) da malikdir.

Ədəbi dilin intellektuallaşması özünü emosional elementlər (evfemizmlər) üzərində hər cəhətdən artan nəzarətdə də göstərir.

Ədəbi dilə yüksələn tələblərlə onun daha nizamlı və normativ xarakteri də bağlıdır. Ədəbi dil leksik və qrammatik elementlərin daha geniş funksional işlədilməsi (o cümlədən söz qruplarının daha böyük leksikləşməsi və ikimənalıqlardan qaçılması cəhdləri, bununla əlaqədar olaraq ifadə vasitələrinin daha da dəqiqliyi) və sosial linqvistik normaların üstünlüyü ilə səciyyələnir.

Ədəbi dilin inkişafını şüurlu müdaxilənin rolunun artması da təmin edir; bu, dil siyasətinin reformasiya cəhdlərinin müxtəlif formalarında (o cümlədən purizmdə) və dövrün linqvistik zövqünün təsirinin daha parlaq ifadəsində (öz ardıcıl dəyişmələrində dil estetinasında) təzahür edir.

Ədəbi dilin səciyyəvi cəhətləri dilin yazılı formalarında xüsusilə yaxşı təqdim olunur. Və onlar dilin danışıq formalarına güclü təsir göstərir.

Dilin danışıq - ədəbi forması dəqiq hüdudları saxlasa da xalq dilindən o qədər də ayrılmır. Xalq dilindən daha çox

uzaqlaşan xüsusilə publik çıxışlarda, mülahizələrdə və s. təzahür edən monoloji nitqdir. Ona ən yaxın olan isə normalaşmış ədəbi dildən xalq dilinə qədər keçid formalarının bütöv bir qammasını yaradan dialoji nitqdir.

Ədəbi dil iki səciyyəvi tendensiyanı əks etdirir: bir tərəfdən, koyne rolunu oynamağa cəhd etməklə yayılma (expansion) tendensiyası və digər tərəfdən, bununla yanaşı, hakim sinfin fərqləndirici əlaməti olmaqla, monopoliya vəziyyətinə yiyələnmək tendensiyası. Həmin tendensiyaların hər ikisi dəyişmələr və dilin səs aspektinin qorunub saxlanması səciyyəsində ortaya çıxır.

Ədəbi dilin bütün bu xüsusiyyətlərini slavyan dillərinin istər sinxron, istərsə də diaxron öyrənilməsi zamanı nəzərə almaq lazımdır. Onların araşdırılması xalq dialektlərinin öyrənilməsi prinsipi əsasında qurulmamalı, başlıca olaraq, ədəbi dilin həyatının və təkamülünün yalnız xarici şərtlərinə diqqət verilməsilə məhdudlaşdırılmamalıdır.

b) Poetik dil

Poetik dil uzun zaman dilçiliyin etina etmədiyi bir sahə olaraq qalmış, onun əsas problemlərinin dərindən öyrənilməsinə yalnız son zamanlar başlanmışdır. Bunu poetik funksiya baxımından indiyə qədər öyrənilməmiş slavyan dillərinin çoxu barəsində də demək olar. Doğrudur, ədəbiyyat tarixçiləri zaman-zaman bu problemlərə toxunmuşlar, ancaq dilçilik metodologiyası sahəsində kifayət qədər hazırlıqlı olmadıqlarına görə səhvlər etmişlər. Təbiidir ki, həmin səhvləri aradan qaldırmadan poetik dilin xüsusi hadisələrini uğurla öyrənmək mümkün deyil.

1. Poetik dilin sinxron təsvirinin əsaslarının işlənib hazırlanması poetik dillə ünsiyyət dilinin eyniləşdirilməsindən ibarət səhvdən azad olunmasına cəhd göstərməlidir. Poetik

nitq fəaliyyəti sinxron baxımından nitq formasını, öz dəyərini əldə edən fərdi yaradıcılıq aktını, bir tərəfdən, müasir poetik ənənələr (poetik dil), başqa tərəfdən, müasir ünsiyyət dili əsasında qəbul edir. Poetik yaradıcılığın həmin iki linqvistik sistemlə qarşılıqlı əlaqəsi olduqca mürəkkəb və rəngarəng olduğundan onları həm diaxron, həm də sinxron baxımlardan araşdırmaq zəruridir. Poetik nitq fəaliyyətinin spesifik xüsusiyyəti normadan yayınmada təzahür edir ki, həmin yayınmanın xarakteri, tendensiyaları və miqyası çox müxtəlifdir. Məsələn, poetik nitqin ünsiyyət dilində yaxınlaşması mövcud poetik ənənələrin ziddinə olmaqla şərtlənə bilər; poetik nitqlə ünsiyyət dilinin zamanın məlum dövrlərindəki aydın seçilən qarşılıqlı münasibətlərinin başqa dövrlərdə tamamilə hiss olunmaması da mümkündür.

2. Poetik dilin müxtəlif tərəfləri (məsələn, morfologiya, fonologiya və s. bir-biri ilə o qədər sıx bağlıdır ki, ədəbiyyat tarixçilərinin çox vaxt elədikləri kimi, birinin digərini nəzərə almadan öyrənilməsi, mümkün deyil. Poetik yaradıcılığın dil işarəsinin avtonom dəyərliyinə dayanmağa can atmasına uyğun olaraq belə bir qənaət ortaya çıxır ki, dil sisteminin nitq fəaliyyətində yalnız yardımçı rol oynayan tərəfləri poetik nitq fəaliyyətində artıq müstəqil dəyər qazanır. Həmin aspektdə qruplaşan ifadə vasitələri, eləcə də, onların qarşılıqlı münasibətləri ünsiyyət fəaliyyətində avtomatlaşmağa cəhd etdiyi halda, poetik dillə, əksinə, aktuallaşmağa çalışır.

Dilin müxtəlif elementlərinin aktuallaşma dərəcəsi poetik nitqin hər bir kəsiyində və hər bir poetik ənənədə fərqlidir ki, bu, poetik dəyər ənənələrinin hər bir hadisəsinin özünəməxsusluğu ilə izah edilir. Təbiidir ki, poetik nitqin poetik dilə və ünsiyyət dilinə münasibəti müxtəlif elementlərin

funksiyalarında hər dəfə bir cür olur. Poetik əsər – funksional strukturdur və onun müxtəlif elemetləri bütövlə əlaqədar kənarda anlaşıla bilməz. Obyektiv baxımından eyni olan elementlər müxtəlif strukturlarda tamamilə fərqli funksiyalar qazanmağa qadirdir.

Poetik dildə həmin nitq fəaliyyətinin akustik, mühərrik və qrafik elementləri onun fonoloji sisteminə və qrafik ekvivalentinə çevrilmədən aktuallaşa bilər. Ancaq heç bir mübahisəsi yoxdur ki, poetik nitq fəaliyyətinin fonetik xüsusiyyətləri ünsiyyət dili fonologiyası ilə əlaqədardır və poetik strukturların fonetik prinsiplərini yalnız fonoloji baxımdan aşkarlamaq mümkündür. Poetik fonologiya adı altında fonoloji inventarın ünsiyyət dili ilə birləşmələri prinsipləri (xüsusilə sandhidə*), fonem birləşmələrinin təkrarı, ritm və melodiya başa düşülür.

Şeirlərin dili dəyərlərin xüsusi iyerarxiyası ilə səciyyələnir; ritm elə bir təşkiledici əsasdır ki, şeirin digər fonoloji elementləri: melodiya quruluşu, fonemlərin və fonem qruplarının təkrarı onunla sıx surətdə bağlıdır. Müxtəlif fonoloji elementlərin ritmlə bu kombinasiyası şeirin kanonik üsullarını (ritm, alliterasiya və s.) törədir.

*Sandhi (sanskritcə) – qonşu səsin təsiri ilə səs dəyişmələri.

Nə akustik , nə də mühərrik baxımı subyektiv və ya obyektivliyindən asılı olmayaraq ritm problemlərinin həlli üçün əsas verə bilməz; onlar yalnız ritmin fonoloji əsası, qrammatikadan kənar müşayiətedici elementlər və avtonom elementlər arasındakı fərqi müəyyən edən fonoloji baxımla həll oluna bilər. Müqayisəli ritmikanın qanunlarını ancaq fonoloji əsasda formalaşdırmaq mümkündür. Əgər dillərin hər birinin fonoloji sistemində fərqli rollara malik elementlərdən

əmələ gəlmişdirsə, zahirən oxşar, ancaq iki müxtəlif dilə mənsub iki ritmik struktur mahiyyətcə fərqlənə bilər.

Səs strukturunun şeirin qafiyəsində təzahür edən paralelizmi müxtəlif linqvistik aspektlər üçün ən məhsuldar üsullardan birini təşkil etməkdədir. Öz aralarında uyğun olan səs strukturlarının bədii tutuşdurulması sintaktik, morfoloji və semantik strukturların da uyğunluq və fərqliliklərini üzə çıxarır. Hətta qafiyə belə özünü mücərrəd fonoloji hadisə kimi göstərmir. Elə ki uyğun morfemlər (qrammatik qafiyə) qeydə alınır və elə ki, əksinə, belə bir tutuşdurma olmur, o, morfoloji strukturu açır. Qafiyə həmçinin sintaksislə (sintaksisin qafiyədə ayrılan və qarşı-qarşıya qoyulan elementləri) və leksika (qafiyə ilə ayrılan sözlərin vacibliyi və onların semantik qohumluq dərəcəsi) ilə sıx bağlıdır. Hüdudlarının kəsişib-kəsişməməsindən asılı olmayaraq sintaktik və ritmik strukturlar da yaxın əlaqədədir.Həmin iki strukturun müstəqil dəyəri həm bu, həm də digər halda diqqəti çəkir.İstər ritm strukturu, istər sintaktik struktur şeirdə yalnız forma yox, həmçinin ritmik-sintaktik yayınmalarda aksentləşir.Ritmik sintaktik fiqurlar elə səciyyəvi intonasiyaya malikdir ki, təkrarı ünsiyyətin adi intonasiyasını dəyişən melodik hərəkət yaradır; bunla da şeirin melodik və sintaktik strukturunun avtonom dəyəri aşkarlanır.

Poeziyanın sözlüyü poetik dilin eynilə digər tərəfləri kimi aktuallaşır.O ya mövcud poetik ənənədən, ya da ünsiyyət dilindən seçilir.İşlək olmayan sözlər(neologizmlər,barbarizmlər, arxaizmlər və s.) ona görə poetik əhəmiyyətə malikdir ki, onlar öz səs təsirləri etibarilə ünsiyyət dilinin adi sözlərindən fərqlənir, belə ki, sıx-sıx işlədilmə nəticəsində səs tərkibinin bütün detalları ilə deyil, bütövlükdə dərk olunur;

bundan başqa, işlək olmayan sözlər poetik sözlüyün semantik və sintaktik rəngarəngliyini zənginləşdirir.Neologizmdə sözün morfoloji tərkibi, xüsusi olaraq, aktuallaşmış olur.Sözlərin özünün seçiminə gəldikdə isə, sözlüyə yalnız işlək olmayan və nadir sözlər deyil, bütöv leksik qatlar daxil edilir ki, özünün müdaxiləsilə poetik əsərin bütün leksik materialını hərəkətə gətirir.

Poetik dilin digər aspektləri(ritmika, melodik və semantik struktur) ilə rəngarəng əlaqələrinə görə sintaksis poetik aktuallaşmanın hüdudsuz imkanlarını təqdim edir.Əsas əhəmiyyət məhz o sintaktik elementlərə verilir ki, bu və ya digər dilin qrammatik sistemində təsadüfdən-təsadüfə işlənir; məsələn, söz sırası dəyişkən dillərdə həmin dəyişkənlik poetik dilin əsas funksiyasına çevrilir.

3. Araşdırıcı eqosentrizmdən, yəni keçmişin və başqa xalqların poetik hadisələrinin ona tərbiyə ilə təlqin olunmuş xüsusi poetik vərdişlər və bədii normalar baxımından təhlil və qiymətləndirilməsindən qaçmalıdır.Bununla belə, keçmişin bədii hadisəsi başqa bir mühitdə bədii dəyərlərin yeni sisteminin ayrılmaz hissəsi olaraq fəal amil kimi ya qorunub saxlana, ya da dirçəldilə bilər, belə ki, təbii olaraq, onun funksiyası dəyişir; hadisənin özü də müvafiq dəyişməyə məruz qalır.Lakin poeziya tarixi həmin hadisəni tarixə özünü dəyişmiş halında köçürməməli, onu daxilində meydana çıxdığı sistem çərçivəsindəki ilkin funksiyasında bərpa etməlidir.Hər bir epoxa üçün aydın, ona məxsus olan xüsusi poetik funksiyaların təsnifatına, yəni poetik janrların siyahısına malik olmaq lazım gəlir.

4. Sözlərin, frazaların və müxtəlif ölçülü kompozisiya vahidlərinin poetik semantikası metodoloji baxımdan ən az işlənmişdir.Məcaz və fiqurlarla yerinə yetirilən cürbəcür funk-

siyalar da öyrənilməmişdir.Məcaz və fiqurlardan başqa, müəllifin ifadə üslubu kimi təzahür edən, heç də az əhəmiyyətli olmasa da, çox az öyrənilmiş hadisə obyektiv semantik elementlərdir ki, poetik gerçəkliyə gətirilərək süjetin qurulmasında istifadə olunur.Belə ki, məsələn, metafora özünü poetik gerçəkliyə gətirilmiş müqayisə olaraq təqdim edir.Süjetin özü semantik kompozisiya kimi təzahür elədiyinə görə onun strukturu problemi poetik dilin öyrənilməsindən kənarlaşdırıla bilməz.

5. Poetik dillə bağlı araşdırmalar ədəbiyyat tarixi araşdırmalarında çox hallarda yardımçı rol oynayır.Başqa semioloji strukturlardan fərqlənən incəsənətin təşkiledici əlaməti işarələnənə yox, işarənin özünə yönəlməsidir.Məhz sözlü ifadəyə yönəlmə poeziyanın təşkiledicilik əlaməti vəzifəsini yerinə yetirir.Bədii sistemdə işarə aparıcıdır.Və əgər ədəbiyyat tarixçisinin araşdırma obyekti işarə deyil, onun işarələdiyidirsə, əgər o, müstəqil və avtonom mahiyyət olaraq ədəbi əsərin ideya tərəfini araşdırırsa, bununla da öyrəndiyi strukturun dəyərlər iyerarxiyasını pozmuş olur.

6. Poetik dilin təkamülünün immanent xarakteri ədəbiyyat tarixində tez-tez sosioloji və psixoloji ideyalar tarixinin xarakteri, yəni öyrənilən hadisəyə münasibətdə yad hadisələrdən istifadə ilə əvəz olunur.Müxtəlif cinsli sistemlər arasındakı səbəbiyyət münasibətlərinin öyrənilməsi yerinə, poetik dili nece varsa o cür öyrənmək lazımdır.

Slavyan dillərinin poetik normaları müqayisəli öyrənmə üçün qiymətli material verir, belə ki, burada divergent struktur hadisələr özünü çoxsaylı konvergent hadisələr əsasında göstərir.Hazırda bizim təxirəsalınmaz vəzifələrimiz müqayi-

səli ritmika və evfoniyanın, slavyan qafiyələrinin müqayisəli səciyyəsinin və s. qurulmasından ibarətdir.

Dilçilik coğrafiyasının prinsipləri, onların etnoqrafik coğrafiyaya tətbiqi və slavyan ərazisində onunla əlaqə

a) Ayrı-ayrı dil hadisələrinin məkan (və ya zaman) hüdudlarının müəyyənləşdirilməsi özünü dilçilik coğrafiyası və ya dil tarixi metodunun zəruri şərti kimi təqdim edir; ancaq bu metodu əsas məqsəd səviyyəsinə qaldırmaq lazım deyil.

Dil hadisələrinin ərazicə lokallaşmasını ayrı-ayrı avtonom izoqlossların anarxiyası kimi başa düşmək olmaz. İzoqlossa baxış göstərir ki, onların bəziləri elə bir dəstlə əlaqədar ola bilər ki, həmin dəst həmin dil yenilikləri qrupunun yayılma mənbə və ya mərkəzini, həm də bu yayılmanın periferiya sahələrini təyin etməyə imkan verər.

Bir-birilə kəsişən izoqlossların öyrənilməsi hansı dil hadisələrinin ardıcıl əlaqədə olduğunu göstərir.

Nəhayət, izoqlossların müqayisəsi coğrafi dilçiliyin əsas problemini, yəni dil areallarının elmi müəyyənləşdirilməsi yaxud daha rasional prinsiplərə uyğun olaraq dilin zonalara bölünməsi problemini əks etdirir.

b) Əgər linqvistik sistemə daxil olan hadisələrlə məhdudlaşsaq, təsdiq etmək olar ki, təcrid olunmuş izoqlosslar, necə deyərlər, fiksiyadır, belə ki, zahirən oxşar, lakin iki müxtəlif sistemə mənsub hadisələr funksional baxımdan fərqlənə bilər (məsələn, u müxtəlif Ukrayna dialektlərində fərqli fonoloji dəyər daşıya bilər; o dillərdə ki samitlər i <o, u və ы qarşısında incələşir, eyni bir fonemin variantlarıdır; incələşmədikləri halda, iki müxtəlif fonemi təmsil edirlər).

Təcrid olunmuş izoqlossların linqvistik izahı mümkün deyil, belə ki, öz-özlüyündə linqvistik hadisə, eləcə də onun mənşəyi və yayılması sistemi nəzərə almadan anlaşıla bilməz.

c) Dil tarixində müxtəlifcinsli təkamül hadisələrinin tutuşdurulması mümkün olduğu kimi, dil hadisələrinin ərazicə yayılması da digər coğrafi izoxəttlərlə, xüsusilə antropocoğrafiya (iqtisadi və siyasi coğrafiyaya və ya maddi və mənəvi mədəniyyətə aid hadisələrin yayılma hüdudları), eləcə də fiziki coğrafiya (torpaq, bitkilər aləmi, iqlim, geomorfologiya hadisələri) izoxəttləri ilə tutuşdurula bilər.

Bütün bunların heç birində bu və ya digər coğrafi vahidin xüsusi şəraitinə etinasızlıq göstərmək olmaz; belə ki, məsələn, linqvistik coğrafiya ilə geomorfologiyanın Avropa şəraitində fövqəladə məhsuldar olan tutuşdurulması Şərqi slavyan ərazisində izoqlossların iqlim izoxəttlərilə tutuşdurulmasından daha az əhəmiyyətlidir. İzoqlossların digər antropocoğrafi izoxəttlərlə tutuşdurulması həm sinxron, həm də diaxron (tarixi coğrafiyanın, arxeologiyanın və s. məlumatları) baxımlarından ola bilər; ancaq bu baxımlar bir-birinə qarışdırılmamalıdır.

Müxtəlifcinsli sistemlərin tutuşdurulması yalnız o halda məhsuldar olur ki, müqayisə edilən sistemlərə ekvivalent kimi baxılır; əgər onların arasında mexaniki səbəbiyyət əlaqəsi qurub bir sistemin hadisəsini digərindən çıxarsaq, həmin sistemlərin sintetik birləşməsi təhrif olunacaq və elmi sintez birtərəfli mühakiməyə çevriləcəkdir.

ç) Linqvistik, yaxud etnoqrafik hadisələrin xəritəsinin tərtibi zamanı nəzərə almaq lazımdır ki, haqqında söhbət gedən hadisələrin yayılması linqvistik və ya etnik sıradan genetik qohumluğu ört-basdır eləmir və adətən, daha geniş ərazini tutur.

Slavyan leksikoqrafiyası metodunun problemləri

Ayrı-ayrı sözlərin mənşəyinin və onların məna dəyişmələrinin öyrənilməsi həm dar mənada leksikologiya, həm də ümumi psixologiya və mədəniyyət tarixi üçün zəruridir; lakin bu bu cür öyrənilmə leksikologiyanı lüğət tərkibi haqqında elm kimi yaratmır. O, ayrı-ayrı sözlərin hansısa kəmiyyətinin sadə konqlomeratı deyil, əksinə, bu, mürəkkəb leksik sistemdir ki, istisnasız olaraq bütün sözlər bu və ya digər şəkildə bir-biri ilə bağlıdır, yaxud bir-birinə qarşı qoyulur.

Sözün mənası, hər şeydən əvvəl, onun başqa sözlərə münasibəti, yəni leksik sistemdəki yeri ilə müəyyən olunur; sözün leksik sistemdəki yerinin müəyyənləşdirilməsi isə yalnız həmin sistemin strukturunun öyrənilməsindən sonra mümkündür. Həmin öyrənmə ilə ilk növbədə məşğul olmaq lazım gəlir, həm də ona görə ki, son zamana qədər sözlər leksik sistemlərin strukturunun təzahürü kimi, demək olar ki, araşdırılmamışdır. Dilçilərin çoxu güman edirdi ki, möhkəm sistem yaradan morfologiyanın əksinə olaraq sözlük özünü elə bir xaos kimi təqdim eləyir ki, əlifbadan yararlanmaqla onu yalnız tam zahiri qaydaya gətirmək olar. Bu, göz-görəti yanılmadır. Doğrudur, leksik sistemlər morfoloji sistemlərdən xeyli mürəkkəb və genişdir, odur ki dilçilərə ikincilər kimi birinciləri də eyni aydınlıq və dəqiqliklə təqdim etmək çətin ki nəsib olsun; bununla belə, əgər sözlər həqiqətən bir-birinə qarşı qoyulur, yaxud qarşılıqlı əlaqədədirsə, deməli, onlar morfoloji sistemlərə analoji olan formal sistemlər yaradır və ona görə də dilçilər tərəfindən öyrənilə bilərlər. Hələ az araşdırılmış həmin sahədə dilçi təkcə materialın özünün tədqiqi yox, həm də düzgün metodların yaradılması üzərində çalışmalıdır.

Hər bir dil hər bir dövrdə özünün məxsusi leksik sisteminə sahib olur. Lakin həmin sistemlərin hər birinin orijinal xarakteri kifayət qədər aydınlığı ilə yalnız bir sistemin başqasıyla müqayisəsi zamanı ortaya çıxır. Həmin münasibətlə, yaxın qohumluqda olan dillər daha böyük əhəmiyyət kəsb edir, belə ki, leksik materialın məhz böyük uyğunluğunun olması zamanı müxtəlif sistemlərin fərdi struktur əlamətləri olduqca aydın təzahür edir. Və həmin münasibətlə, slavyan dilləri araşdırma üçün elə münasib və əlverişli şərait verir ki, başqa dillərdə, demək olar ki, yoxdur.

Slavyan dillərinin mədəniyyəti və tənqidi üçün funksional dilçiliyin əhəmiyyəti

Dilin mədəniyyəti dedikdə onun ədəbi dilə (həm danışıq, həm də kitab dilinə) doğru inkişafı tendensiyasının ifadəsinin elə keyfiyyətləri başa düşülür ki, onlar dilin xüsusi funksiyasının tələblərindən irəli gəlir.

Həmin keyfiyyətlərdən birincisi sabitlikdir; ədəbi dil hər cür faydasız yayınmalardan qaçmalı və dəqiq linqvistik tərif əldə etməlidir; ikinci keyfiyyət ən rəngarəng çalarları ilə bütün incəlikləri ilə, heç bir gərginlik keçirmədən aydın və dəqiq əks etdirmək qabiliyyətidir; üçüncü keyfiyyət isə dilin orijinallığı, yəni elə əlamətlərin vurğulanmasıdır ki, ona səciyyəvi xarakter verir. Bu keyfiyyətləri inkişaf etdirərkən dildə mövcud olan müxtəlif imkanlardan hər hansı birini diqqətə almaq və ya gilin gizli meylini məqsədli şəkildə istifadə olunan ifadə vasitələrinə çevirmək lazım gəlir.

Tələffüzə gəldikdə, yuxarıda göstərilən əsas keyfiyyətlərdən belə bir zərurət ortaya çıxır ki, qeyri-funksional variant-

ların birgə mövcudluğuna imkan verildiyi yerlərdə (məsələn, çexcə sh iki cür tələffüz olunur – sch və ya zh: shoda və s.; e serbcə - üç cür: ije, je və e) müəyyən bir tələffüz tətbiq olunmalıdır.

Bütünlüklə şərtiliyin və praktikanın məhsulu olan orfoqrafiya o ölçüdə rahat və aydın olmalıdır ki, bu gözlə fərqləndirmək funksiyasının gerçəkləşməsinə şərait yaradır. Xüsusilə onun sadələşməsinə xidmət eləmirsə, orfoqrafiya qaydalarının tez-tez dəyişdirilməsi sabitlik prinsipi ilə ziddiyət təşkil etmiş olur. Bununla belə, çoxdankı və xarici sözlərin orfoqrafik uyğunsuzluqlarının tələffüzdə tərəddüdlər törətdiyi(məsələn, çexcə s xarici sözlərdə s və z olmaqla ikili dəyər daşıyır) hallarda, onlar aradan qaldırılmalıdır.

Nominativ formalarda dilin fərdiliyi nəzərə alınmalıdır, yəni bunun üçün təkidedici zərurət yoxdursa, dildə işlək olmayan, yaxud az işlək formalardan (məsələn, çex dilində tərkibi sözlər) istifadə etmək düzgün deyil. Sözlüyün zənginləşdirilməsi mənbələrinə gəldikdə isə, sözlüyün maksimal zənginləşmə cəhdini və onun üslubi rəngarəngliyini leksik purizmə qarşı qoymaq lazımdır; bununla belə, sözlüyün zənginliyilə yanaşı, onun mənaca dəqiqliyinə və o yerdə ki ədəbi dilin funksiyası tələb edir, həmin yerdə sabitliyə nail olunmalıdır.

Sintaksis sahəsində yalnız fərdi linqvistik ekspressivliyə, həm də mənaların mümkün zənginliyinə cəhd göstərmək zəruridir. Beləliklə, bir tərəfdən, bu və ya digər dilə məxsus xüsusiyyətləri çex dilində feil ifadələri ayırmaq lazım gəlir, digər tərəfdən, sintaktik purizmə görə bu cinsdən olan imkanların sayını azaltmaq olmaz ki, onlar dilin funksiyasından asılı olaraq (hüquq dilində və texniki dillərdə nominal konstruksiya) öz təsdiqini hətta sintaksisdə tapır.

Dilin fərdi ekspressivliyi üçün morfologiya özünün ayrı-ayrı hissələri yox, yalnız ümumi sistemi ilə əhəmiyyət kəsb edir. Odur ki, funksional baxımdan o, köhnə tipli puristlərin ona sırıdıqları rolu oynamır. Nəticə etibarilə, nəzarətdə saxlamaq zəruridir ki, faydasız morfoloji arxaizmlər kitab və danışıq dili arasında mövcud olan məsafəni ehtiyac olmadan artırmasın.

Dil mədəniyyəti üçün qaydaya salınmış danışıq dili çox vacibdir. O elə bir mənbədir ki, kitab dilinin canlandırılması üçün həmişə müraciət oluna bilər.

Ədəbi kitab dili də ədəbi danışıq dili kimi əqli-zehni həyatın ifadəsi üçün vasitə işini görür. Və bu zaman o, başqa dillərdən bu və ya digər mədəniyyət sahəsinə aid çoxlu dəyərlər əxz edir; həmin mədəniyyət ümumiliyi ədəbi dildə əks olunduğundan təbiidir ki, dilin təmizlənməsi adı altında buna qarşı mübarizə aparmaq düzgün olmazdı.

Dilin təmizliyi üçün qayğı öz ifadəsini dil mədəniyyətində tapır ki, bu yuxarıdakı izahlardan da məlumdur, lakin aşırı purizm yazılı dilin həqiqi mədəniyyətinə, məntiqi, tarixi və ya xalqçılıq tendensiyalarından hansına mənsubluğundan asılı olmayaraq, zərbə vurur.

Tərcümə edən: Nizami Cəfərov

Lui Yelmslev

(1899-1965)

Lui Yelmslev strukturalizmin Kopenhagen və ya Danimarka qlossematika məktəbinin ən görkəmli nümayəndəsi hesab olunur.O, mənsub olduğu məktəbin – Qlossematikanın nəzəri əsaslarını, prinsiplərini işləyib hazırlamışdır.

L. Yelmslevin dilçilik ideyaları onun "Ümumi qram-

matikanın prinsipləri", "Linqvistik nəzəriyyənin əsasları", "Dil və nitq", "Dilçilikdə struktur təhlil metodu" və s. kimi əsərlərində əksini tapmışdır.

L. Yelmslev həmkarları arasında spesifik yeri olan dilçilərdəndir. Belə ki, riyaziyyata bələdliyi dilçilikdə də dəqiq nəticələr əldə etməsinə yardımçı olmuşdur.

"Müntəxəbat"da Lui Yelmslevin iki məqaləsi təqdim olunur ki, onlardan birincisi "Dil və nitq" (1942), ikincisi isə "Dilçilikdə struktur təhlil metodu" (1950-1951) adlanır."Dil və nitq" məqaləsində F.de.Sössürün dil və nitq dixotomiyası müvafiq olaraq sxem,norma,uzus və nitq aktı kimi təqdim edilir.Və dil xalis forma kimi sxem, maddi forma kimi norma, nitq vərdişlərinin məcmusu kimi uzus adlandırılır."Dilçilikdə struktur təhlil metodu" məqaləsində isə L.Yemslev dilin məzmun və ifadədən ibarət olmasını qeyd edir.Məqalə müəllifinə görə, dilçilikdə struktur metod dilçilikdən qətiyyən asılı olmadan formalaşmış və riyazi mülahizələrdən irəli gələrək dilin məntiq nəzəriyyəsi ilə sıx əlaqədədir.

Dil və nitq

1. Ferdinand de Sössür özünün ümumi dilçilik kursunu dediyi dövrdə linqvistika fizioloji və psixoloji baxış bucaqlarından istisnasız olaraq dil dəyişmələrinin öyrənilməsilə məşğul idi. Hər hansı digər yanaşmaya cəhalət, yaxud diletantlıq kimi baxılırdı.

Odur ki, "Ümumi dilçilik kursu"nu düzgün qiymətləndirmək üçün ona müvafiq dövrün məhsulu kimi yanaşmaq lazım gəlir. Yalnız o halda istifadə olunmuş termin və anlayışların bəzi xüsusiyyətlərini izah etmək olar. Həmin xüsusiyyətlərlə keçmişlə indi arasındakı əlaqəni qoruyub saxla-

maq naminə məlum kompromis öz əksini tapmaqdadır. Və bununla bərabər, "Kurs" müəllifinin onu əhatə edən elmi mühitə reaksiyası da əks olunur*.

De Sössürün çox qısa şəkildə ifadə edilmiş təliminin mahiyyəti – dil (langue) ilə nitq (parole) arasındakı fərqləndirmədir. Bütün yerdə qalan nəzəriyyə məntiqi olaraq bu əsas tezisdən irəli gəlir. Başlıca olaraq məhz həmin tezis ənənəvi baxışlara qarşı dayanır. Sössür, mahiyyət etibarilə, dili necə varsa o cür kəşf etmişdir; eyni zamanda o göstərmişdir ki, müasiri olduğu dilçilik dili yox, nitqi öyrənmiş və bununla da "öz yeganə əsl predmeti"ndən yan keçmişdir.

Elm tarixi baxımından Sössürün kəşfi yalnız ikinci dərəcəli kəşfdir ki, bununla belə, onun elmi şücaətinin obyektiv dəyərini azacıq da olsa əskiltmir. Ona nəsib oldu ki, unudulmuş və bir tərəfə atılmış prinsipi dəqiq surətdə formulə edib təsdiq eləsin. Bunun üçün o, tamamilə yeni baza yaratmalı idi. İş burasındadır ki, XIX əsrdə dili necə varsa o cür öyrənməkdən əl çəkən dilçilik dillə məşğul olan həmin dövrə qədərki dilçilikdən kəskin fərqlənirdi. XIX əsr boyu dil dəyişmələrinin qanunauyğunluqları kəşf olunmuş, nitqin fizioloji mexanizmi və onun müxtəlif psixoloji amilləri öyrənilmişdi və s.

Bütün bunlar antik qrammatikanın sonacan iflasına gətirib çıxarmış, geriyə adicə qayıdışı da qeyri-mümkün eləmişdi.

Sössür elə bir dil nəzəriyyəsi yaratmalı idi ki, bütün ən yeni kəşflər üçün onda müvafiq yer tapılsın.

---

* De Sössürün gördüyü işin dəyəri eyni zamanda onun təliminin sadəliyində, aydınlığındadır ki, qəbul edilmiş mövqelərə dinməz-söyləməz layiq görülmüşdür.

De Sössürdə istənilən linqvistik problem danışığın fərdi aktı terminlərilə formulə edilmişdir.

Araşdırmaların başlıca və yekun məqsədləri olaraq dil dəyişmələrinin səbəblərindən çıxış olunur; həmin səbəblər tələffüzün şəkildəyişmə və hərəkətlərində, stixiyalı psixoloji assosiasiyalarda, analogiyanın fəaliyyətində axtarılıb tapılmışdır. Sössürəqədərki dilçilikdə əvvəl-axır hər şey fərdin davranışına müncər edilmişdi; nitq fəaliyyəti fərdi aktların yekunu kimi təsəvvür olunurdu.

Ənənəvi nöqteyi-nəzərlə yeni nəzəriyyə arasındakı prinsipial fərq, eləcə də təmas məhz fərdi aktının bütün vacibliyini və bununla ənənəvi baxışlara körpü atmaqla onun dil dəyişmələrində həlledici rolunu etiraf edir. Lakin o eyni zamanda onlardan mahiyyətcə fərqli prinsip formulə edir: bu, struktural dilçiliyin yaradılmasıdır ki, ənənəvi dilçiliyi əvəz etməli, yaxud heç olmasa tamamlamalıdır.

Strukturluq prinsipinin dilçiliyə daxil olunduğu indiki zamanda elə böyük zəhmət tələb edən iş görmək zəruridir ki, həmin prinsipdən bütün mümkün nəticələri çıxarmaq mümkün olsun. Hazırda bu işi başa çatdırmağa hələ çox var.

Buna girişərkən A.Seşenin olduqca uğurla formulə etdiyi belə bir halı rəhbər tutacağıq: bizim məqsədimiz "Ümumi dilçilik kursu"nun müəllifi ilə əməkdaşlıqdır ki, "birincisi, onun ardınca linqvistika elminin fundamentini həm dərinləşdirək, həm də genişləndirək, ikincisi isə, ilk və hələ tamamlanmamış eskizləri "Kurs"da ehtiva olunan binanın tikintisini davam etdirək".

2. Struktur, tərifinə görə, asılılıqların və ya funksiyaların (bu sözü məntiqi-riyazi mənada anlamaqla) şəbəkəsindən ibarət olduğuna görə struktural dilçiliyin əsas vəzifəsi funksiyaları və onların tiplərini öyrənməkdən ibarətdir. Biz mü-

nasibətlərin (əlaqələrin) elə tiplərini seçib ayırmalıyıq ki, istənilən semioloji strukturu ən sadə və eyni zamanda ən bütöv surətdə təsvir etmək üçün zəruri və kifayət olsun. Bu vəzifə məntiqi olaraq bütün digərlərindən əvvəl gəlir. Lakin burada funksiyaların bütün mümkün tiplərindən bizə sonrakı təhlildə lazım gələcək olanlarla kifayətlənəcəyik.

Biz fərqləndirəyik: 1) ikitərəfli asılılıq, yaxud interdependensiya – iki elə element arasında ki, hər biri digərin mütləq iştirakını tələb edir; 2) birtərəfli asılılıq, yaxud determinasiya – iki elə element arasında ki, onlardan biri (determinləşdirən) digərinin (determinləşənin) iştirakını tələb edir, lakin əksinə olmur. Bundan başqa biz komutasiya ilə substitusiyanı fərqləndirəcəyik. Əgər onların qarşılıqlı əvəzlənməsi işarələnən müvafiq elementlərinin qarşılıqlı əvəzlənməsini gətirərkən işarələnənin iki bu cür elementi arasında bir paradiqma hüdudlarında komutatsiya iki işarələnənin elementləri arasında yer alır. Əgər paradiqmanın iki üzvü göstərilən şərtləri təmin etmirsə, onların arasında substitusiya yer alır. Variantlar arasında həmişə substitusiya, invariantlar arasında isə komutasiya yer alır.

Həmin başlanğıc anlayışları bizə imkan verir ki, əsas problemimizə keçək: dil (langue) ilə nitq (parole) arasında hansı növ funksiyanın yer aldığını aydınlaşdırmaq.

... Anlayışların dərindən təhlili göstərəcək ki, Sössürün "Ümumi dilçilik Kursu"nda irəli sürülmüş "dil" və "nitq" anlayışları bir neçə izaha imkan verir. Çətinliklərin çoxu, bizim fikrimizcə, məhz buradan gəlir.

3. Dildən (langue) başlayaq. Ona aşağıdakı kimi baxmaq olar:

a) sosial mövcudluğundan və maddi manifestasiyasından asılı olmayaraq təyin olunan saf forma kimi;

b)mövcud sosial reallığın təyin etdiyi, lakin manifestasiya detallarından asılı olmayan maddi forma kimi;

c) mövcud sosial kollektivin qəbul etdiyi və müşahidə olunan manifestasiyaların faktları ilə müəyyənləşdirilən davranışların məcmusu kimi.

Bu üç yanaşmanı ciddi surətdə fərqləndirmək lazım gəlir. İrəlidə isə aydınlaşdırılacaqdır ki, göstərilən fərqlər nə qədər faydalı və uyğundur.

Biz belə adlandıracağıq:

a) sxem – dil saf forma kimi;

b) norma – dil maddi forma kimi;

c) uzus – dil vərdişlər məcmusu kimi.

... 4. Asanca qeyd etmək olar ki, "dil" termininin üç mümkün izahından adi istifadəyə başqalarından daha çox birinci izah (dil sxem kimi) yaxınlaşır. Gündəlik həyatda "normal" fransızca, teleqraf kodu növündəki fransızca, şübhəsiz, eyni bir fransızca hesab edilir. Ona görə də əgər istəyiriksə bizim tərifimizdə "dil" sözünə gündəlik praktikada aid edilən mənaların əsas məqamları əks olunsun, birinci izahı seçməliyik.

Görünür, "dil" termininin "Ümumi dilçilik kursu"nda əsasən məhz bu izahı təklif olunur. Yalnız bu cür izah dili hər hansı maddi səciyyədən (məsələn, səsdən) məhrum etməklə mahiyyəti ikinci dərəcəli olandan ayırmağa imkan verir. Yalnız bu cür izah şahmatla edilən məşhur müqayisəni doğruldur ki, burada hər şey onların sayı və qarşılıqlı yerləşməsi ilə müəyyənləşdirildiyindən fiqurların maddi təcəssümü heç bir əhəmiyyət kəsb etmir. Dil kəmiyyəti ilə başqa metallardan ibarət sikkələrə, əskinasa, qiymətli kağızlara, çe-

kə mübadilə edilməsi mümkün olan gümüş sikkə arasındakı analogiya da yalnız bu cür izah zamanı mümkündür. Nəhayət, həmin izah Sössürün əsas tezisini təşkil edir: dil formadır, substansiya deyil. Əlavə etmək olar ki, həmin izah "Hind-Avropa dillərində ilkin saitlər sistemi haqqında araşdırma"nın əsasında dayanır ki, burada hind-Avropa dilinin bütün sisteminə yalnız özünün daxili qarşılıqlı funksiyalarında müəyyənləşdirilən elementlərdən (müəllif onları daha uyğun termin olmadığına görə "fonemlər" adlandırmışdır) təşkil olunmuş saf sxem kimi baxır

... Sxem ideyası dilin Sössür anlamında aydın şəkildə üstünlük qazanmaqla yanaşı, yeganə anlam deyil. "Kurs"un bir neçə yerində bəhs olunan "akustik obraz", yəqin ki, maddi faktın psixi inikasıdır: beləliklə, dil səs materiyası ilə əlaqələndirilir və ona norma kimi baxılır.

Başqa yerlərdə isə deyilir ki, dil – dil davranışlarının məcmusudur; burada "dil" sözü uzus kimi başa düşülür.

Yekun vurarkən belə bir nəticəyə gəlirik ki, hər yerdə uyğun gələn yeganə tərif dilin işarələr sistemi olaraq təyin edilməsidir. Bu ümumi tərif müxtəlif çalarlar verir. Sössür, ehtimal ki, bunu dərk etmişdi*, lakin bu və ya digər səbəbdən həmin məsələ üzərində xüsusi dayanmamışdı.

5. Üçüncü paraqrafda göstərdiyimiz fərqlər dillə nitq arasında Sössür anlamında mümkün münasibətlər barəsindəki məsələni işıqlandırmağa imkan açır. Bütün bu münasibətləri dərhal müəyyən etmək mümkün olmayacaq; dil sxem, dil

* "Kurs" da deyilir ki, dil "eyni zamanda ona görə həm nitq qabiliyyətinin sosial məhsulu, həm də cəmiyyətin qəbul etmiş olduğu zəruri şərtiliklərin məcmusudur ki, fərd bu qabiliyyətdən istifadə edə bilsin".

norma və dil uzus fərdi akt olan nitqə münasibətdə özlərini eyni cür aparmır.

1) Norma uzus və nitq aktını determinləşdirir (yəni şərtləndirir), əksinə yox. Bunu, bizə elə gəlir ki, A. Seşe göstərmişdir: nitq aktı və uzus həm məntiqi, həm də praktik olaraq normanı qabaqlayır; norma uzusla nitq aktından doğulur, əksinə yox; qeyri-ixtiyari səslənmə mənasız aktdır; ancaq həmin akt müəyyən uzus sayəsində baş verir (bizim psixofizioloji təbiətimiz bəzi uzusları – bu və ya digər refleks və reaksiyalar şərtləndirir; lakin bu uzus arxasında oppozitiv və relyativ elementlər sisteminin dayanması mütləq olmadığına görə həmin elementlərdən norma hasil etmək mümkün deyil). Beləliklə, Seşenin tezisi o zaman və yalnız o zaman özünü doğruldur ki, o, dilə norma kimi baxılır.

2) Uzusla nitq aktı arasında interdensiya yer alır: onların hər biri digərinin mütləq iştirakını şərtləndirir. O yerdə ki Sössür dillə nitqin qarşılıqlı asılılığı barədə danışır o, "dil vərdişləri"ni nəzərdə tutur. Norma ilə uzus arasında fərq qoyarkən biz "Kurs"un mülahizələri ilə A. Seşenin irəli sürdüyü nəzər nöqtəsi arasındakı zahiri ziddiyyəti aradan qaldırdıq: Diuersi respectus tollunt omnem contradictionem (Müxtəlif cür yanaşmalar hər cür ziddiyəti aradan qaldırır).

3) Sxem nitq aktı, uzus və norma ilə determinasiya olunur (yəni şərtləndirilir), əksinə yox. Bunu anlamaq üçün Sössür tərəfindən irəli sürülmüş dəyərliliklər nəzəriyyəsinə müraciət etmək lazımdır. Həmin nəzəriyyə dilin sxem konsepsiyası ilə sıx bağlıdır və hərtərəfli öyrənilməyə layiqdir.

Üzdən baxanda linqvistik "dəyərliliy"i (valeuz linguistique) "məna" (sözün məntiqi-riyazi mənasında) dilə birbaşa tutuşdurmaq kimi şirnikləndirici bir hal baş qaldırır; valeuz logico – mathematique: 4 – a kəmiyyətinin mümkün mənası

olduğu kimi, səslər və mənalar da hansısa formaların mümkün "mənaları"dır; forma o zaman dəyişən, maddi faktlar isə konstant olur.

Lakin başqa bir müqayisə daha doğrudur – linqvistik "dəyərliklər" iqtisadi elmlərin qiymətlərinə (mübadilə dəyərlərinə) daha yaxındır (valeuz d echange des sciences economique).

Həmin nəzər nöqtəsindən dəyərlilik (dəyər, qiymət, valeur) və konstant – formadır, dəyişənlər isə substansiyada ehtiva olunur; bu substansional dəyişənlərə vəziyyətdən asılı olaraq müxtəlif dəyərliliklər aid oluna bilər. Sikkə və ya əskinasın öz dəyərini (valeur) dəyişə bildiyi kimi, eynilə də səs və ya məna vahidi öz dəyərlərini dəyişir; bu halda vahidlərin müxtəlif sxemlərə münasibətdə interpretasiyası faktik olaraq dəyişilir.

Lakin siyasi iqtisadın mübadilə dəyəri ilə müqayisənin zəif nöqtəsi də mövcuddur ki, onu Sössürün özü artıq qeyd eləmişdi: mübadilə dəyəri onunla müəyyən edilir ki, o, hansısa əmtəənin bu və ya digər kəmiyyətinə bərabərdir; beləliklə, mübadilə dəyəri maddi amilə əsaslanır, halbuki linqvistik dəyərlilik üçün maddi amil rol oynamır. İqtisadi dəyər ikitərəfli elementdir: o, konkret pul vahidinə münasibətdə daimi rol oynamaqla, eyni zamanda etalon xidmətini yerinə yetirdiyi əmtəənin fiksasiya olunmuş kəmiyyətinə münasibətdə dəyişən roldadır. Dilçilikdə isə həmin etalona heç nə uyğun gəlmir. Məhz buna görə də dilə ən yaxın analogiya olaraq Sössür iqtisadi anlayışları deyil, şahmatı seçmişdir. Dil – sxem, nəticə etibarilə, oyundur, başqa heç nə yox.

... Əvvəl irəli sürülmüş tərifl ərdən istifadə etməklə biz aşağıdakı cədvəli qurmuş oluruq:



(burada ↔ interdependensiya, → isə determinasiyadır; daimi ↔ daimi, dəyişən → daimi, daimi ← dəyişəndir)

6. Sxem, norma, uzus və nitq aktı bir müstəvidə yerləşmir. Bu heç olmasa həmin amilləri əlaqələndirən funksiyalara baxışdan görünür

... Sössürün təliminə görə, nitq dildən üç xüsusiyyətilə ayrılır: 1) nitq realizasiyadır, qanun deyil; 2) nitq fərdidir, sosial deyil; 3) nitq azaddır, fiksasiya olunmamışdır.

Bütün bu üç xüsusiyyət bir-birindən asılı deyil: realizasiya nə fərdi, nə də azad olmaya bilər; fərdi hadisələr nə realizasiya, nə də azad olmaya bilər; o şey ki azaddır, fərdi olması vacib deyil və s. Beləliklə, xüsusiyyətlərin hər üçü müəyyənləşdirmə üçün zəruri olub heç biri aradan qalıdırıla bilməz.

... Yerinə yetirilmiş təhlil, bizə elə gəlir ki, göstərdi ki, dilin (langue) Sössür tərifində qiymətli və doğrudan da, yeni olan vardır: bu, ondan ibarətdir ki, biz sxem adlandırdıq. Həmin nəticə bizi belə bir fikrə gətirir ki, sxemlə uzus arasındakı fərqi əsas semioloji yarımbölmə hesab edək. Düşünürük ki, bu yarımbölmə dil və nitq qarşıdurmasını əvəz edə bilərdi ki, fikrimizcə, tarixən çox vacib olan, ancaq nəzəri cəhətdən hələ mükəmməlləşməmiş ilk yaxınlaşmadır.

Tərcümə edən: Nizami Cəfərov

Dilçilikdə struktur təhlil metodu

İsveçrə dilçisi Ferdinand de Sössür (1857-1913) bir çox baxımlardan müasir dilçiliyin banisi sayıla bilər. O ilk dəfə olaraq dilə struktur yanaşma, yəni xüsusiyyətlərindən asılı olmayaraq vahidlər arasındakı qarşılıqlı münasibətlərin qeydə alınması yolu ilə dilin elmi təsvirini tələb etmişdir ki, həmin xüsusiyyətlər bu vahidlər tərəfindən əks etdirilsə belə, göstərilən qarşılıqlı münasibətlərə ya biganədir, ya da onlardan irəli gəlmir. Başqa sözlə, de Sössür tələb etmişdir ki, canlı dilin səsləri və ya yazılı dilin hərfləri tamamilə fonetik, yaxud tamamilə qrafoloji olaraq deyil, yalnız qarşılıqlı münasibətlərin qeydiyyatı yolu ilə müəyyən edilir ki, dilin məna (məzmun) vahidləri də həmçinin tam semantik olaraq deyil, qarşılıqlı münasibətlərin eyni cür qeydiyyatı yolu ilə təyin olunsun. Odur ki, onun baxışlarına görə, dilçiliyə canlı dilin səslərinin, sadəcə bir sıra fiziki, fizioloji və akustik müəyyənləşdirilmələri, yaxud ayrı-ayrı sözlərin mənalarının təyini və əlavə edək, həmin səslərin və mənaların mümkün psixoloji izahları kimi yanaşmaq səhv olardı. Əksinə, gerçək dil vahidləri nə səslər, yaxud yazı işarələri, nə də mənalar deyil, gerçək dil işarələri səslər, yaxud işarələr və mənalarla təqdim olunan qarşılıqlı münasibət elementləridir. Məsələ səslər, yaxud işarələrdə və mənalarda yox, onların nitq zəncirində və qrammatikanın paradiqmalarındakı qarşılıqlı münasibətlərindədir. Və məhz həmin münasibətlər dil sistemini təşkil edir, məhz həmin daxili sistem başqa dillərdən fərqli olaraq verilmiş dil üçün səciyyəvi olur; halbuki dilin səslərdə, yaxud yazı işarələrində, yaxud da mənalarda təzahürü dil sisteminin özünə laqeyd qalır və sistem heç bir zərər vurma-

dan dəyişə bilər. Lakin belə bir fakt da var ki, de Sössürün yalnız səslər və mənalarla maraqlanan ənənəvi dilçilikdə əsl inqilab doğuran baxışları dilin populyar anlamına uyğun gəlməklə sıradan bir insanın dil barədəki təsəvvürünü tamamilə təmin edir. Əgər desək ki, Danimarka dili istər şifahi, yaxud yazılı istər Morze əlifbası vasitəsilə teleqraflaşdırılmış olsun, istərsə də bayraqların beynəlxalq dəniz siqnallarının köməyi ilə verilsin, dörd müxtəlif dil olmayıb, bütün hallarda həmin danimarka dili olaraq qalır, görünür, çox bayağı çıxardı. Onları təşkil edən vahidlər bu halların dördündə də dəyişir, qarşılıqlı münasibətlərin bünövrəsinin özü isə onlar arasında olduğu kimi qalır ki, məhz bu vəziyyət bizə dili tanımağa imkan verir. Nəticə etibarilə, qarşılıqlı münasibətlərin bünövrəsi dilçiliyin başlıca predmeti olmalı, eyni zamanda qarşılıqlı münasibətlər bünövrəsinin konkret təzahürü və manifestasiyası dilin sözün ciddi mənasında təyini zamanı laqeyd qalacaqdır. Lakin unutmaq olmaz ki, de Sössür fonetika və semantikanın köməyindən heç də bütünlüklə imtina etmək istəməmişdi. O, yalnız dilin qarşılıqlı münasibətlər sisteminin öyrənilməsinə tabe eləməyi düşünməklə onlar üçün yardımçı fənlərin daha mütəvaze rolunu nəzərdə tutmuşdur. Səsləri və mənaları o, vahidlərin sistemdəki nisbi yeri ilə müəyyənləşən dil dəyərlilikləri ilə əvəz etmək istəyirdi. O, bu dəyərlilikləri iqtisadi sıraya aid dəyərliliklərlə müqayisə etməmişdi; metal pul, kağız banknot və çek iqtisadi dəyərin müxtəlif konkret təzahürləri və ya manifestasiyaları ola bilər, dəyərliliyin özü isə, deyək ki, çervon və ya manat müxtəlif manifestasiyalardan asılı olmadan eyni olaraq qalır, eynilə də dilin ifadə vahidləri onları təmsil edən səslərdən, dilin məzmun vahidləri isə onları təmsil edən mənalardan asılı olmayaraq qalır. De Sössürün sevimli müqayisəsi dil sis-

temini şahmat oyunu ilə qarşılaşdırması idi: şahmat fiquru kəskin olaraq digər şahmat fiqurları ilə qarşılıqlı əlaqədə və şahmat taxtasındakı nisbi mövqeyində təyin edilir, həmin fiqurların xarici forması və onların hazırlandığı material (ağac, yaxud sümük, yaxud da başqa material) oyunun özünə tamamilə laqeyddir. İstənilən şahmat fiquru, məsələn, adətən at başı görünüşündə olan at şərti olaraq eyni məqsəd üçün nəzərdə tutulmuş istənilən predmetlə əvəzlənə bilər: əgər oyun zamanı at təsadüfən döşəmə üzərinə düşüb parçalanarsa, biz onun əvəzinə uyğun ölçülü istənilən əşyanı götürüb ona at dəyərliliyi verə bilərik. Eynilə də istənilən səs ayrı səslə, yaxud hərflə, yaxud da şərti siqnallarla, deyək ki, əvəzlənmişdir, sistem ki olduğu kimi qalır. Düşünürəm ki, de Sössürün bu tezisləri sayəsində təqdim eləmək olar ki, verilmiş dilin tarixi inkişafı prosesində onun səsləri elə dəyişikliklərə məruz qala bilər ki, sistem üçün əhəmiyyətə malik olsun, elə dəyişikliklərə də məruz qala bilər ki, sistem üçün heç bir əhəmiyyəti olmasın. Beləliklə, biz məcburiyyət qarşısında qalacağıq ki, dil strukturunun dəyişmələrini sistemə toxunmayan səs təbəddülatlarından fərqləndirək. Sistemə toxunmayan səs təbəddülatlarını şahmat oyunundakı o halla müqayisə oluna bilər ki, piyada taxtanın əks tərəfdəki sonuna çataraq, oyunun qaydasına görə, vəzir dəyərliliyi qəbul edərək həmin funksiyanı yerinə yetirməyə başlayır. Bu halda vəzir dəyərliliyi tamamilə başqa xarici görünüşdə əşya ilə əvəzlənir, vəzir isə həmin xarici dəyişiklikdən qətiyyən asılı olmayaraq sistemdə özü olmaqda davam edir.

De Sössür bu cür görüşlərə hind-Avropa saitlər sistemini öyrənərək gəlmişdir. Artıq 1879-cu ildə başladığı həmin sistemin təhlili (məşhur "Memoire sur les voylles" araşdırma-

sında) ona göstərdi ki, necə deyərlər, uzun saitlər məlum hallarda adi saiti şərti olaraq xüsusi vahidlə birləşməyə sürükləyə bilər. Sonuncunu de Sössür *A hərfi ilə işarələmişdi... Onun üçün konkret səs deyildi və onu fonetik əlamətlərlə təyin etməkdə, sadəcə, ona görə çəkinmişdi ki, bu onun üçün əhəmiyyət kəsb etmirdi. Onu yeganə olaraq öz-özlüyündə sistem maraqlandırmışdı, həmin sistemdə *A sistemin digər vahidlərilə qarşılıqlı münasibətləri və hecada müəyyən yer tutmaq imkanı ilə təyin olunur. De Sössürün özü bunu aydın şəkildə söyləmişdi. Biz məhz bu məqamda onun məşhur kəlamı ilə rastlaşırıq ki, burada o, səs olmayan, lakin səs şəklində reallaşa və ya təqdim oluna bilən vahidləri ifadə etmək üçün fonem terminini ilk dəfə irəli sürür.

Həmin baxışın nəzəri nəticələrini de Sössür özünün "Cours de linguistique générale" ("Ümumi dilçilik kursu") mühazirələrində araşdırmış ki, mühazirələri müəllimin vəfatından sonra (1916-cı ildə) onun şagirdləri nəşr etdirmişlər. Burada onun nəzəri görüşlərinin bütün fondunu tapırıq ki, hazırki məqalənin giriş sözlərində qısaca səciyyələndirəcəyik. Lakin yadda saxlamaq lazımdır ki, de Sössürün nəzəriyyəsi müxtəlif vəziyyətlərdə və zamanın məlum fasilələri ilə oxunmuş mühazirələrində meydana çıxdığı şəkildə bütövlükdə eynicinsli deyil. De Sössürün müşahidələri dilçilər qarşısında tamamilə yeni yol açmışdır, ona görə də təəccüblənmək lazım deyil ki, de Sössürün özü ənənəvi təsəvvürlərlə daxilən mübarizə aparmağa məcbur idi. Ümumi dilçiliyə dair mühazirələri onun görüşlərinin yekun formasından daha çox, yeni dayaq kəşf etmək üçün möhkəm istinad nöqtəsinə nail olmaq uğrunda apardığı xüsusi mübarizənin ifadəsidir. Onun kitabında ayrı-ayrı mühakimələr arasında bəzi uyğunsuzluqlar tapmaq olar. De Sössür forma və substansiya, sözün daha

dar mənasında dil (langue) və yeri gəlmişkən, özünün qeyd etdiyi kimi, yazı da daxil olunmaqla nitq (parole) anlayışları arasında prinsipial fərqlər müəyyənləşdirir. O, aydın sözlərlə təsdiq edir ki, dil (langue) substansiya deyil, formadır və bu, doğrudan da, onun ümumi baxışlarına uyğun gəlir. Lakin belə bir hüdudlandırma onun kitabının bütün hissələrində axıracan gözlənilmir və terminləri də həqiqətdə bir neçə məna ifadə edir. Mənim əvvəllər çıxan əsərlərimin birində mən çalışmışam, ümumiyyətlə nə qədər mümkündürsə, de Sössürün fikirlərində müşahidə olunan müxtəlif qatları açıb göstərəm ki, onun əsərində nəyi tamamilə yeni və məhsuldar hesab edirəm. Əgər səhv etmirəmsə, bu, onun dili qarşılıqlı münasibətlərin saf strukturu sxemi, həmin sxemin təzahür etdiyi təsadüfi (fonetik, semantik və s.) realizasiyalara əks olan nə isə bir şey kimi anlamasından ibarətdir.

Başqa tərəfdən, aydındır ki, de Sössürün nəzəriyyəsi, əgər həmin nəzəriyyəyə mənim verdiyim izah doğrudursa, istər onun dövründə yaşamış, istərsə də ondan sonrakı, rəsmi dilçiliyin tamamilə fərqli ənənələri əsasında yetişən dilçilərin çoxu üçün əlçatmaz olaraq qalmalı idi. Odur ki, onlar de Sössürün kitabından ilk növbədə o yerləri mənimsədilər ki, orada langue anlayışı saf forma kimi çıxış etmir, dil substansiyada forma olaraq anlaşılır ki, burada o, heç də bütünlüklə substansiyadan asılı olmayan bir şey deyil. Beləliklə, de Sössürün təlimi, məsələn, Praqa fonoloji məktəbi tərəfindən istifadə edilə, yaxud əgər belə demək mümkünsə, mənimsənilərkən onlar fonemi fonetik abstraksiya kimi anladılar ki, bu, nəticə etibarilə, de Sössürün, məncə, malik ola biləcəyi fonem anlayışından kəskin fərqlənir. Dilə struktur yanaşmanın, sözün xüsusi mənasında, yəni təzahür və ya realizasiya-

dan asılı olmadan dil sxemindəki saf münasibətləri öyrənmənin nə üçün yalnız bizim dövrün dilçiləri tərəfindən tətbiq edilməyə başladığı məhz bununla izah olunur.

Əgər mənə öz araşdırmalarım barədə söz demək izni verilərsə, hər cür təvazökarlılığı bununla yanaşı, bütün ciddiliyilə qeyd edərdim ki, dilə məhz qarşlıqlı münasibətlərin bu cür sxemi olaraq struktur yanaşmanı elm sahəsində onun başlıca vəzifəsi hesab eləmişəm və həmişə də edəcəyəm. Ənənəvi dilçilik ilə linqvistik araşdırmaların saf struktur metodu arasında prinsipial hədd qoymaq üçün metoda xüsusi bir ad təklif edirəm: qlossemantik (γ λ ώ σ σ α dil yunan sözündən). Əminəm ki, bu yeni istiqamət dilin ən intim təbiətinin özü barədə bizə fövqəladə dərəcədə qiymətli məlumat verəcək və ehtimal ki, yalnız köhnə tədqiqatların tamamlanması baxımından faydalı olmaqla qalmayıb, eyni zamanda köhnə təsəvvür və ideyalara tamamilə işıq yayacaqdır. Mənə gəldikdə isə, mənim cəhdlərim praktik realizasiyadan asılı olmayaraq saf forma və ya sxem mənasında dilin – langue öyrənilməsinə yönələcəkdir. De Sössür öz mühazirələrinin başlıca ideyasını aşağıdakı sözlərlə müəyyənləşdirmişdi: "Dilçiliyin yeganə və əsl obyekti öz-özlüyündə və özü üçün baxılan dildir". Onun mühazirələri həmin sözlərlə qurtarır. Cenevrə Universitetinin Dilçilik kafedrasında de Sössürün varisi professor Şarl Balli vəfatına bir neçə ay qalmış mənə məktubunda yazmışdı: "Siz F.de Sössürün "Ümumi dilçilik kursu"nun yekun frazasında formulə idealın arxasınca gedirsiniz. Doğrudan da, təəccüblənmək lazım gəlir ki, əvvəllər bu olmamışdır".

Başqa tərəfdən, qeyd etməliyik ki, qlossemantika nəzəriyyəsini de Sössür nəzəriyyəsilə eyniləşdirmək olmaz.

Demək çətindir ki, Sössür konsepsiyası onun düşüncələrində detalları ilə necə formulə edilmişdir, mənim xüsusi nəzəri metodum isə çox illər bundan öncə, hələ de Sössür nəzəriyyəsilə tanışlığıma qədər formalaşmışdır. De Sössür mühazirələrini oxuduqdan sonra mənim baxışlarımdan çoxu təsdiq olundu, lakin mən, əlbəttə, onun nəzəriyyəsinə öz xüsusi nəzər nöqtəmdən baxıram və öz izahlarımda onun nəzəriyyəsinin həddindən artıq dərinliyinə getmək istəməzdim. Burada ona görə yada saldım ki, ona şəxsən nə qədər borclu olduğumu qeyd edəm.

Dilçilikdə struktur metod dilçilikdən qətiyyən asılı olmadan formalaşmış və indiyəcən dilçilərin xüsusi olaraq nəzərə almadıqları elmi istiqamətin, riyazi mülahizələrdən irəli gələn və xüsusilə Vaythedin məntiq məktəbinin, xüsusilə sintaksisə və semantikaya dair son əsərləri dilin linqvistik öyrənilməsi üçün mübahisəsiz əhəmiyyət kəsb edən, hazırda Çikaqo Universitetinin professoru Karnapın məhz dilin məntiq nəzəriyyəsi ilə sıx əlaqəyə malikdir. Məntiqçilərlə dilçilər arasında müəyyən əlaqə bu yaxınlarda Beynəlxalq Birləşmiş Elmlər Ensiklopediyasında yaranmışdır. Professor Karnap özünün ilk əsərlərindən birində struktur anlayışını mənim burada etməyə cəhd göstərdiyimlə tamamilə eyni cür, yəni saf forma ilə saf qarşılıqlı münsibət hadisələri kimi təyin eləmişdir. Professor Karnapa görə, hər bir elmi sübut göstərilən mənada struktur qaydada sübut olmalıdır; onun fikrincə, hər bir elmi sübut qarşılıqlı münasibətlərə girən elementlərin özlərinin bilgi və ya təsvirini nəzərdə tutmayan qarşılılıqlı münasibətlər barədəki sübutdur. Karnapın fikrini dilçiliyin son illərdə əldə etdiyi nəticələr tamamilə təsdiq edir. Aydındır ki, dilin hər bir təsviri bu baxımdan mənalı vahidlər

arasındakı qarşılıqlı münasibətlərin qurulması ilə başlayır, eləcə də vahidlər arasında qarşılıqlı münasibətlərin qurulması həmin vahidlərin daxili təbiəti, mahiyyəti və ya substansiyası barədə heç bir mülahizə yürütməyə gətirib çıxarmayacaq. Bu, fonetika və semantika elmlərinə verilməlidir ki, öz tərəflərindən dil sxeminin struktur təhlilini təqdim edirlər. Lakin o da aydındır ki, elm olaraq həm fonetika, həm də semantika eyni yolla getməyə ehtiyac duyacaqlar; fonetik və semantik qaydada sübutlar da öz tərəflərindən struktur sübut olacaqdır; məsələn, dil sxeminin təhlili yolu ilə artıq öncədən müəyyən edilmiş vahidlərin bir hissəsi olan səs dalğaları barədəki fiziki sübutlar. Və bu da qarşılıqlı münasibətlərin təyini, substonsial deyil, formal olanın təyini vasitəsilə ediləcəkdir; ümid edirəm ki, tənqidi ruhdakından başqa, fiziki nəzəriyyə öz-özlüyündə substansiya və materiya barədə heç zaman mülahizə yürütmür deyərkən səhv eləmirəm. Biz həmin məsələnin müzakirəsinə belə bir yekun vura bilərik ki, dilçilik dilin qarşılıqlı münasibətlər sxemini, həmin münasibətlərə girən elementlərin özlərinin nədən ibarət olmasına fikir vermədən təsvir edir. Fonetika ilə semantika məhz qarşılıqlı əlaqələrə girən elementlərin mahiyyəti barədə məlumat verməyə cəhd etdikləri zaman hər halda elementlərin hissələri, yaxud onların hissələrinin hissələri arasındakı qarşılıqlı münasibətlərin müəyyənləşdirilməsinə istinad edir. Bu isə məntiqi baxımdan o demək olardı ki, dilçilik birinci, fonetika ilə semantika isə ikinci dərəcəli metadildir.

Dilin məntiq nəzəriyyəsi dilçiliyin nəticələrinə heç bir diqqət yetirilmədən işlənib hazırlanmışdır və tamamilə aydındır ki, daim dil barəsində mülahizələr yürütməklə yanaşı, məntiqçilər dilin dilçilik baxımından öyrənilməsinin nai-

liyyətlərini kifayət qədər bağışlanmaz bir şəkildə inkar edirlər. Həmin münasibət dilin məntiq nəzəriyyəsini ağlar günə qoymuşdur. Belə ki, məsələn, bu məktəbin tərəfdarlarının istinad etdiyi işarə anlayışı xeyli dərəcədə qüsurlu və şübhəsiz, de Sössürdə olduğundan az uğurludur. Məntiqçilər başa düşmürlər ki, dil işarəsinin məzmun və ifadə olmaqla iki tərəfi var, hər iki tərəf təmir struktur təhlilin predmeti ola bilər. Ona görə də məntiqçilər kommunikasiya hadisəsinə lazımi diqqət ayırmırlar, halbuki onu ən əsas qarşılıqlı dil münasibəti, bu sözün linqvistik mənasında dili anlamağın bilavasitə açarı hesab etmək lazımdır.

Əgər dili struktur olaraq başa düşürüksə, onu ənənəvi dilçilikdə həmişə edilmiş olduğu və indi də edildiyi kimi, səs və məna anlayışlarının köməyilə müəyyənləşdirmək kifayət eləmir. De Sössür aydın dərk etmişdi ki, dilin struktur müəyyyənləşdirilməsi onu gətirib çıxarmalıdır ki, ənənəvi dilçiliyin indiyə qədər etiraf etmədiyi dil strukturları necə varsa o cür etiraf olunacaqdır, o dillər ki, ənənəvi dilçilik tərəfindən necə varsa o cür nəzərdən keçirilmişdir, onlar yalnız ümumən dillərin rəngarəngliyi kimi etiraf ediləcəkdir. Odur ki, de Sössür cəhd edirdi ki, dilçiliyi, yaxud linqvistikanı ümumən işarələr sistemi barədə daha geniş elmin tərkibində mümkün fənlərdən birinə çevirsin ki, sözün struktur mənasında həqiqi dil nəzəriyyəsi olsun. Həmin daha geniş elmi o, "semiologiya" adlandırmışdır.

Yuxarıda göstərilən səbəblərə görə de Sössür nəzəriyyəsinin, haqqında söhbət gedən tərəfi dilçilərdə maraq doğurmadı, semiologiya da, əslində, linqvistik baxımdan işlənilməmiş qaldı.

.. Mən gündəlik məişətdən alınmış bir sıra olduqca sadə strukturların qlossematik təhlilini apardım. Doğrudur, onlar sözün ənənəvi mənasında dil deyillər, lakin mənim əsas dil strukturu tərifimi də qismən, ya da tamamilə təmin edirlər. Mən nəzəri təhlilə aşağıdakı hüdudlandırıcı hadisələri cəlb elədim: birincisi, böyük şəhərlərin çoxunda hərəkəti tənzimləmək üçün küçələrin kəsişməsindəki işıq siqnallarıdır ki, qırmızı, sarı, yaşıl işıqların dəyişməsində sarı işıq ifadə planında "dayan", "diqqət", "sərbəst hərəkət" anlayışlarının dəyişməsinə, məzmun planında isə "diqqət"ə uyğun gəlir; ikincisi, avtomatik xidmət aparatları olan şəhərlərdə telefon diski; üçüncüsü, saatı və onun dörddə birini bildirmək üçün vuran qüllə saatının zəngi. Bu hadisələrdən savayı mən öz araşdırmalarımda bir sıra daha sadə misallar da gətirdim: Morze əlifbası, həbsxanada dustaqların bir vuran adi divar saatları. Həmin nümunələri mən London və Edinburq universitetlərində bu yaxınlarda dediyim mühazirələrdə yalnız maraq xatirinə, yaxud tamamilə pedaqoji mülahizələrdə deyil, daha çox məhz ona görə müfəssəl təhlil elədim ki, dilin əsas strukturuna və dilə bənzər sistemlərə dərindən nüfuz edim. Sözün ənənəvi mənasında dillə müqayisə etməklə mən onlardan həmin mənada hər bir dilin əsas strukturuna, müəyyən etdiyimə görə, daxil olan beş əsas xüsusiyyət üzərinə işıq salmaq üçün faydalanmışam:

1. Dil məzmun və ifadədən ibarətdir.
2. Dil ardıcıl cərgə (yaxud mətn) və sistemdən ibarətdir.
3. Məzmun və ifadə kommunikasiya sayəsində qarşılıqlı əlaqələnmişdir.
4. Mətndə və sistemdə müəyyən qarşılıqlı münasibətlər mövcuddur.

5. Məzmun ilə ifadə arasındakı uyğunluq bir planın müəyyən elementləri ilə digəri planın müəyyən elementləri arasındakı bilavasitə uyğunluq deyil, ancaq dil işarələri daha kiçik komponentlərə bölünə bilər. Həmin komponentlərdən biri, məsələn, necə deyərlər, fonemlərdir ki, mən onları ifadənin taksemləri adlandırmağa üstünlük verərdim. Və onların özlərinin məzmunu olmasa da, məzmuna malik vahidlərdə, deyək ki, sözdə cəmləşə bilərlər.

Tərcümə edən: Nizami Cəfərov

Frans Boas

(1858-1942)

Amerika deskriptiv dilçiliyini və etnolinqvistikasını yaradanlardan və inkişaf etdirənlərdən olan Frans Boas görkəmli dilçi-antropoloq olmuşdur. Onun tədqiqat obyekti Amerika hindularının dil təfəkkürü idi. F.Boas hindu xalqlarının mədəniyyəti, əxlaq-davranışı, adət-ənənəsi məsələləri ilə də ciddi məşğul olmuşdur. Amerika hinduları yazısız xalqlar olduğundan F.Boas qeyd edirdi ki, hindu dilləri hind-Avropa dilləri üçün müəyyənləşmiş prinsip və metodlarla öyrənilə bilməz. O, elə metodlardan istifadə edirdi ki, burada hindu dillərinin formal aspektlərinin təsviri dominantlıq təşkil etsin.

F.Boası deskriptiv dilçiliyin və etnolinqvistikanın fövqünə qaldıran, dilçilik ideyalarını təfsir etdiyi əsəri "Amerika hindularının dillərinə dair rəhbərlik" və yaxud "Amerika hindularının dillərinə dair əl kitabı" (1911-1922) əsəri olmuşdur.

«Amerika hindu dillərinə dair əl kitab»ına giriş
Müxtəlif dillərdə kateqoriyaların müxtəlifliyi

Tələffüz edilən səs qrupları artikulyasiya olunan nitqin bütün növlərində ideyaların verilməsinə xidmət edir. Və səslərin hər bir qrupunun fiksasiya olunmuş mənası vardır. Dillər yalnız fonetik elementlərinin tərkib xarakterinə, səs qruplarına görə deyil, həmçinin fiksasiya olunmuş fonetik qruplarda öz ifadəsini tapan ideya qruplarına görə də fərqlənirlər.

İdeya ifadə edən fonetik qrupların kəmiyyət məhdudluğu

Fonetik elementlərin mümkün kombinasiyalarının ümumi kəmiyyəti məhduddur. Odur ki, ideyaların ifadəsi üçün məhz bu sonuncuların məhdud kəmiyyəti istifadə olunduğuna görə ayrı- ayrı fonetik qruplarla ifadə edilmiş ideyaların ümumi kəmiyyəti də məhduddur.

Dilin ifadə etməli olduğu fərdi təcrübənin ümumi sferası qeyri- məhdud şəkildə dəyişdiyindən və onun (təcrübənin) bütün yekunu fonetik qrupların məhdud kəmiyyəti ilə ifadə edilməli olduğundan, aydın görünür ki, artikulyasiya olunan nitqin bütün növləri təcrübənin geniş təsnifatına əsaslanmalıdır.

Bu, insan təfəkküründün əsas xüsusiyyəti ilə uyğun gəlir. Bizim faktik təcrübəmizdə elə iki hissi təəssürat və ya emosional vəziyyət yoxdur ki, eyniyyət təşkil etsin. Hələ biz onları hüdudları müxtəlif baxımlar əsasında müəyyənləşdirilə bilən, müvafiq xüsusiyyətlərə uyğun daha geniş və ya dar

qruplara təsnif edirik. Fərdi müxtəlifliklərindən asılı olmayaraq biz öz təcrübəmizdə ümumi elementləri dərk edir və onlara o halda münasib, yaxud hətta identik hadisələr kimi baxırıq ki, kafi sayda xarakterik cəhət onlar üçün ümumi olsun. Beləliklə, ayrı- ayrı ideyaları ifadə edən fonetik qrupların kəmiyyətinin məhdudlaşması belə bir psixoloji faktın ifadəsidir ki, müxtəlif fərdi təcrübələrin çoxluğu bizə təfəkkürün eyni bir kateqoriyasının hadisələri kimi təqdim olunur.

İnsan təfəkkürü və nitqinin həmin xüsusiyyətlərini, müəyyən şəkildə, mümkün artikulyasiya hərəkətlərinin bütün silsiləsinin vərdiş edilmiş hərəkətlərin məhdud kəmiyyətinin seçimi vasitəsilə məhdudlaşdırılmasıyla müqayisə etmək olar. Əgər anlayışların bütün kütləsi bütün variantları ilə birlikdə dildə tamamilə müxtəlif cinsli və bir- birinə uyğun gəlməyən səs kompleksləri vasitəsilə ifadə olunsaydı, elə bir vəziyyət yaranardı ki, olduqca yaxın ideyalar öz yaxınlıqlarını fonetik simvollarının müvafiq yaxınlığının köməyi ilə tapa bilməzdi və ifadə etmək üçün qeyri- məhdud sayda çox müxtəlif fonetik qruplar tələb olunardı. Bu halda ideya ilə onu təqdim edən səs kompleksi arasındakı assosasiya o dərəcədə stabil olmazdı ki, istənilən anda avtomatik şəkildə üzərində düşünülmədən yaransın. Artikulyasiyaların avtomatik, cəld işlədilməsi artikulyasiyaların (hər biri məhdud imkan daxilində şəkilcə dəyişir) və səs qruplarının yalnız məhdud kəmiyyətinin mümkün artikulyasiyalarının və artikulyasiya qruplarının qeyri-məhdud dərəcədə böyük sferasından seçilməsinə gətirib çıxardığından ideyaların fövqəladə dərəcədə çox kəmiyyəti təsnif vasitəsilə az kəmiyyətə endirilmişdir ki, bu da ardıcıl işlənmə əsasında sabit assosa-

siyalar qurmuşdur; onlar avtomatik olaraq hərəkətə gətirilirlər.

Bizim mülahizələrimizin bu yerində belə bir faktı qeyd etmək vacib görünür ki, xüsusi fonetik qruplarla ifadə olunmuş ideya qrupları müxtəlif dillərdə böyük maddi müxtəliflikl ərə malikdir və heç bir halda təsnifatın həmin prinsiplərinə tabe olmur. Əgər nümunəni ingilis dilindən götürsək, görəcəyik ki, su (water) ideyası formaların böyük müxtəlifliyi ilə ifadə olunur: bir termin «su»yu maye (liguid) kimi ifadə etmək üçün işlədilir, başqa biri «su»yu böyük tutar (lake- göl), üçüncüsü böyük (river - çay), yaxud kiçik (brook- arx) kəmiyyətdə axar, başqaları isə rain (yağış), dew (şeh), wave (dalğa), foam (köpük) kimi təqdim edir. Tamamilə aydındır ki, ingilis dilində hər biri müstəqil terminlə ifadə olan bu ideya rəngarəngliyi başqa dillərdə eyni bir terminin törəmələri ilə ifadə edilə bilər.

Başqa bir nümunə kimi eskimos dilində «qar» bildirən sözləri göstərmək olar. Biz burada aput sözünün yerdəki qarı, bir başqasının (qana) yağan qarı, üçüncüsünün (piqsiz-poq) küləyin sovurduğu qarı və dördüncüsünün (qimuqsuq) üst- üstə yığılmış qarı ifadə etmək üçün işləndiyini görürük.

Elə həmin dildə suiti müxtəlif şəraitlərdə müxtəlif terminlərlə ifadə olunur. Bir söz suitiləri bildirmək üçün ümumi termindir, başqası özünü günə verən, üçüncüsü buzlu suda üzən suitini bildirir; müxtəlif yaşlarda, cinslərdə olan suitilərin çoxlu adları hələ bir yana…

Müstəqil sözlərlə ifadə olunan terminlərin bir anlayışda birləşməsi üsuluna aid nümunələr dakota dilində də müşahidə edilir. Naxtaka (təpik atmaq), paxtaka (dəstə bağlamaq), yaxtaka (dişləmək), icaxtaka (yaxında olmaq), baxtaka (döymək) terminləri xtaka (qapmaq) ümumi elementlərindən dü-

zəltmə olub, həmin növdən olan ideyaları ifadə etmək üçün ayrı- ayrı sözləri işlədərkən onları birləşdirir.

Tamamilə aydın görünür ki, oxşar elementar terminlərin seçimi müəyyən dərəcədə xalqın əsas maraqlarından asılıdır. Və o yerdə ki, müəyyən hadisəni xalqın həyatında tamamilə müstəqil rol oynayan çoxlu aspektlər üzrə fərqləndirmək zəruridir, müstəqil sözlər inkişaf edə bilər; bu zaman, başqa hallarda olduğu kimi, eyni bir terminin sadə modifikasiyası kifayətdir.

Nəticədə o alınır ki, hər bir dil başqa dilə nöqteyi- nəzərən öz təsnifatlarında olduqca sərbəstdir. O şey ki, bir dildə yeganə sadə ideya kimi təqdim olunur, başqa bir dildə ayrı-ayrı fonetik qrupların bütöv bir silsiləsi ilə səciyyələnə bilər.

Dilin mürəkkəb ideyanı vahid terminlə ifadə etmək tendensiyasını «xolofrazis» adlandırırlar. Və buna uyğun olaraq hər bir dil başqasına görə xolofrastik ola bilər. Xolofrazisə heç cür primitiv dillərin əsas xüsusiyyəti kimi baxmaq olmaz.

Biz artıq əmin ola bilərik ki, bu və ya digər ifadə təsnifatı tipini istənilən dildə tapmaq mümkündür. İdeyaların, hər biri müstəqil fonetik qrupla ifadə olunan qruplara həmin təsnifi zəruri edir ki, mövcud səs komplekslərindən biri ilə verilən anlayışlar o kombinasiyalar və ya modifikasiyalarla ifadə olunsun ki, onları verilmiş konkret ideyaya uyğun gələn elementar ideyalara müvafiq elementar fonetik qruplar adlandırmaq mümkündür.

Həmin təsnifat, eləcə də qarşılıqlı məhdudlaşdırma nəticəsində mübtədanı konkret ideyanın ifadəsi kimi təyin etməyə qadir olan bir təcrübəni başqa bir müvafiq təcrübə ilə ifadə etmək zərurəti ayrı- ayrı fonetik qrupların münasibəti-

ni qərarlaşdıran müəyyən formal elementlərin iştirakını şərtləndirir. Əgər hər bir ideya ayrıca fonetik qrupla ifadə olunsaydı, formasız dillərin mövcudluğu mümkün idi. Lakin ideyalar o zaman ifadə olunur ki, onlar müəyyən kəmiyyətdə müvafiq ideyalara gətirib çıxarır – həmin münasibət tipinin özü artikulyasiya olunan nitqin zəruri elementinə çevrilir. Buradan da o nəticə çıxır ki, bütün dillər formal elementlərə malik olmalı və həmin elementlərin kəmiyyəti konkret ideyaları təyin edən elementar fonetik qruplar nə qədər azdırsa, o qədər çox olmalıdır. Çox geniş leksik ehtiyata malik dildə formal elementlərin kəmiyyəti lap az da ola bilər.

Qrammatik proseslər

Qeyd etmək zəruridir ki, dünyanın bütün dillərində terminlər arasındakı münasibətləri ifadə etmək üçün tətbiq olunan proseslərin kəmiyyəti məhduddur. Bunu artikulyasiya edilən nitqin ümumi səciyyəsi ilə izah etmək olar. Müəyyən fonetik qruplar arasındakı münasibətləri ifadə etmək üçün istifadə olunan yeganə metodlar onların müəyyən qayda ilə yerləşməsindən (bu, təşkiledici elementlərin qarşılıqlı fonetik təsirləri ilə kombinasiya oluna bilər) və fonetik qrupların özünün daxili şəkildəyişməsindən ibarətdir. Hər iki metod olduqca çoxlu dillərdə müşahidə edilir, lakin bəzən yalnız yerləşmə ardıcıllığından istifadə olunur.

Söz və cümlə

Müstəqil fonetik qruplarla ifadə olunan ideyaların və onların qarşılıqlı əlaqəsini ifadə edən elementlərin mənasını anlamaq üçün biz burada nitq vahidini nəyin yaratdığı məsələ-

sini müzakirə etməliyik. Artıq qeyd olundu ki, fonetik elementləri necə varsa yalnız analiz vasitəsilə ayırmaq olar və onlara nitqdə yalnız anlayışlara ekvivalent olan kombinasiyalarda rast gəlinir.

Nitqin bütün növləri ideyaları verməyə xidmət etdiyindən ifadənin təbii vahidi cümlə, başqa sözlə, bitkin fikir bildirən artikulyativ səs qrupudur. Elə görünə bilər ki, nitqi bundan sonra da tərkib hissələrinə ayırmaq olar və cümləni təşkil edən sözlər də təbii vahidlərdir. Lakin əksər hallarda asanca sübut edilir ki, belə deyil, söz öz-özlüyündə yalnız analiz vasitəsilə dərk edilir. Məsələn, bu, sözönlərində, bağlayıcılarda, tabeli mürəkkəb cümlələrə aid feil formalarında aydın görünür. Belə ki, and (və), for (üçün), to (-a, -ə), were (olmaq) tipli sözlərin elə işləndiyini təsəvvür etmək olduqca çətindir ki, onlar hansısa aydın ideyanı versin. Yalnız müəyyən lakonikliyə malik if (əgər) tipli formalar istisna təşkil edə bilər – bu halda cümlənin qalan hissəsi irəlicədən təsəvvür olunur və məhz if tərəfindən kifayət qədər aydın göstərilir. Beləliklə, qrammatik münasibətlər sahəsində yaxşı məşq edən bizlər hazırda ifadə etdiyimiz fikri düzəltmək üçün hansısa bir formanı işlədə bilərik. Deyək ki, He sings beautifully (o, gözəl oxuyur) hökmü sang (oxuyurdu) replikası doğura bilər. Lakonikliyə meyilli olan insan He plays well (o yaxşı oynayır) hökmü müqabilində fikir söyləyərkən hətta yalnız -ed (-di) şəkilçisi ilə kifayətlənə bilir ki, hər halda onun ətrafı tərəfindən başa düşülür. Bütün bu hallardan aydındır ki, ayrı- ayrı elementlər bitmiş cümlə vahidindən ikinci proses nəticəsində ayrılır.

Biri digərindən tamamilə fərqlənən anlayışları işarələdiyi hallarda sözlərin müstəqil bir vahid kimi süniliyi o qədər də

aydın deyil. Məsələn, isimlər bu cür sözlərdir. Elə görünə bilər ki, stone (daş) sözü təbii vahidi təqdim edir. Lakin aydındır ki, bir stone sözü ən yaxşı halda bitkin fikri deyil, obyektiv mənzərəni verir.

Beləliklə, biz çox vacib olan sözlə cümlə münasibətləri barədəki məsələyə keçirik. Öz formalarına görə fövqəladə dərəcədə fərqlənən dillər üzərindəki mülahizələrimizin gedişinə əsaslanaraq, biz sözə formasının daimiliyinə, mənasının aydınlığına və fonetik müstəqilliyinə görə cümlədən asan ayrılan fonetik qrup kimi tərif verə bilərik. Görünür, bu tərif xeyli sayda ixtiyari elementləri ehtiva edir ki, bizim qəbul etdiyimiz nöqteyi-nəzərə uyğun olaraq, verilmiş vahidi bəzən söz kimi təyin etməyə, bəzən də onun müstəqil mövcudluğunu inkar eləməyə imkan verə bilər. Bir az sonra, Amerika dillərini nəzərdən keçirərkən görəcəyik ki, həmin praktik çətinlik bizim qarşımıza dəfələrlə çıxır və obyektiv inamla qərar vermək çətindir ki, müəyyən fonetik qrup müstəqil sözdür, ya sözün tabe hissəsidir.

Hər halda bizim verdiyimiz tərifdə səs kompleksini müstəqil söz kimi şərh etmək üçün mühüm olan məlum elementlər vardır. Nəzərdən keçirilən elementin fonetik müstəqilliyi qrammatik baxımdan daha az əhəmiyyətli, fonetik baxımdan daha çox mühümdür. Cəm halı, posessivliyi (mənsubiyyəti) və feildə tək halın üçüncü şəxsini ifadə edən ingilis s -sının müstəqilliyini müəyyən etməyin çətinliyi yuxarıda qeyd olundu. Bu həmin qrammatik elementin fonetik zəifliyi ilə şərtlənir. Əgər cəmlik ideyası many (çoxlu) sözü kimi fonetik baxımdan güclü elementlə, sözün posessivlik (mənsubiyyət) hissəsi eyni dərəcədə güclü of önlüyü və tək halın üçüncü şəxsi he (o) tipli elementlə ifadə olunsaydı, o zaman biz, ola bilsin ki, həmin elementlərin müstəqil söz ol-

duğunu çox asanlıqla etiraf edərdik; faktiki olaraq, bu cür də hərəkət edirik. Məsələn, stones (daşlar), John's (Conun), loves (sevir) – ayrı- ayrı sözlərdir, eyni zamanda isə many sheep, of stone, he went- ə iki sözdən ibarət birləşmə kimi baxılır. Bu tipli çətinliklərə Amerika dillərində addımbaşı rast gəlinir. Belə ki, dillərdə yamaq kimi görünən halları müşahidə edirik: modifikasiya olunan elementlər fonetik baxımdan bir qrupda birləşən ayrı-ayrı səslərlə ifadə olunur ki, həmin səslər hər hansı parçalanma olmadan tələffüz edilir. Məsələn, ania-lot (mən onu ona verdim) sözünü aşağıdakı elementlərə üzvləndirmək olar: a (zaman), n (mən), i (onu), a (ona), l (-a, -ə), o (çıxma istiqaməti), t (vermək). Burada tərkib elementlərinin hər halda zəifliyi və onların sıx fonetik rabitəsi həmin elementlərə ayrı-ayrı sözlər kimi baxmağa imkan vermir. Və yalnız bütün ifadə bütövlükdə bizə müstəqil vahid kimi təqdim olunur.

Bu halda, əgər yalnız həmin prinsipi əldə rəhbər tutsaq, söz vahidinin sərhədlərini təyin etmək, onu təşkil edən elementlərin fonetik gücü barədəki təəssüratların artıq fərqli olması ucbatından, fövqəladə dərəcədə qeyri-müəyyən bir iş olacaqdır.

Bəzən müəyyən elementlər bizə fonetik baxımdan o qədər zəif görünür ki, onlara cümlənin müstəqil vahidləri kimi baxmaq mümkün olmur; eyni zamanda isə yaxın qohum formalar, yaxud hətta eyni formalar hansısa halda onlarda olmayan gücü başqa konstruksiyada qazanır. Bu tipli hadisəyə nümunə olaraq kvakiutl dilini göstərmək mümkündür ki, həmin dildə pronominal formaların çoxu olduqca zəif fonetik elementlərlə təmsil olunur. Belə ki, « o onu bununla döyür» ifadəsi mixcideqs vasitəsilə verilir ki, burada iki son ele-

ment aşağıdakıları bildirir: q (onu), s (bununla). Lakin o zaman ki, həmin ifadəyə obyekt və alət üçün isimlər daxil edilir, onda q daha mükəmməl olan xa, s isə daha mükəmməl olan sa formasını qəbul edir ki, onları bizim artikllarla analoji olaraq müstəqil sözlər hesab edə bilərik.

Mən çox şübhə edirəm ki, fransız dilini bizim yazısız Amerika dillərini təsvir etmədiyimiz üsulla təsvir edən tədqiqatçı təsirli feillərə daxil olan pronominal elementləri müstəqil sözlər kimi təqdim etməyə meyil göstərsin, - heç olmasa həmin halda ki, o, pozitiv feillərin indikativ formalarını təsvir edir. O, yalnız o zaman belə etməkdə haqlıdır ki, onların neqativ və bəzi sual formalarında təzahür edən mövqelərinin sərbəstliyini müəyyənləşdirmiş olsun.

Cümlənin fonetik fiksasiyasını tapmış hissəsinin mövqelərinin təsir sərbəstliyinin təyinediciləri onu bizim sözə verdiyimiz tərifə daxil etməyi zəruri edir.

Hər dəfə, o zaman ki, müəyyən fonetik qrup cümlədə müxtəlif mövqelərdə və həmişə eyni formada, hər hansı və ya heç olmasa maddi modifikasiyasız çıxış edir, biz onun fərdi özünəməxsusluğunu asan dərk edir və dilin təhlili zamanı ona ayrıca söz kimi baxmağa meyillənirik. Həmin şərtlər tam şəkildə yalnız o hallarda reallaşır ki, nəzərdən keçirilən səs kompleksi ümumiyyətlə heç bir modifikasiya əldə etməsin.

Bununla belə, xüsusilə başlanğıc və son mövqelərdə, az əhəmiyyətli modifikasiyalar ola bilər ki, biz sözün sabit strukturu ilə müqayisədə az əhəmiyyətli olmalarına görə onlara fikir verməməyək. Buna, məsələn, dakota dilində rast gəlinir ki, burada, sabit söz kompleksinin aydın seçilən mənaya malik son səsi eyni dərəcədə sabitlik keyfiyyəti daşıyan sonrakı söz kompleksinin ilk səsini avtomatik olaraq şə-

kilcə dəyişir. Əks proses də ola bilər. Bizim adətən iki söz adlandırdığımız komponentlər arasındakı demarkasion xətt bu halda, ciddi desək, itir. Lakin əlaqədə olan iki sözün qarşılıqlı təsiri müqayisədə o qədər zəifdir ki, sözlərin fərdiliyi ideyası onların üzvü əlaqəsini üstələyir.

Başqa hallarda, elə ki, üzvü əlaqə o qədər möhkəm olur ki, komponentlərin heç biri əlaqələrinin aydın izlərini qoymur, onda onlar bizə ayrıca vahidlər kimi təqdim olunur. Həmin vəziyyətə dair misalları eskimos dilindən gətirmək olar. Bu dildə mənasına görə müəyyən, fonetik keyfiyyətinə görə güclü elementlər çoxdur, lakin mövqeləri etibarilə o qədər məhduddurlar ki, onlar həmişə cümlənin başqa müəyyən hissələrinin ardınca gəlir, heç zaman bitkin fonetik qrupun başlanğıcını təşkil etmirlər: əvvəl gələn fonetik qrup isə həmin əlavədən sonra özünün kifayət qədər sabit fonetik formasını itirir. Nümunələrə diqqət yetirək: takuvoq «o görür» deməkdir, takulerpoq «o görməyə başlayır» mənasını verir. İkinci formada görmək ideyası taku elementində əks olunur ki, həmin element öz-özlüyündə tam deyil. Sonrakı element- ler lə heç zaman cümlə başlamır və «başlamaq» mənasını özündən əvvəlki fonetik qrupla əlaqədə əldə edir ki, həmin qrupun son səsini də əsasən o müəyyənləşdirir. Öz növbəsində o, şəkilçi tələb edir ki, verdiyimiz nümunədə bu, tək halın üçüncü şəxsi –poq dur; «görmək» mənasına malik söz həmin şəxs üçün –voq şəkilçisini tələb edir. Həmin şəkilçilərlə də cümlə başlaya bilməz, onların başlanğıc səsləri v və p isə tamamilə əvvəlki elementlərin son səsləri ilə müəyyən olunur. Beləliklə, biz görürük ki, səs komplekslərinin bu qrupu hər bir hissənin formal natamamlığı ilə birləşmiş, qarşılıqlı fonetik təsirlərlə uzaq gedən möhkəm

bütövlük yaradır. Eskimos dilində olduğu kimi, elementləri bu cür sıx əlaqələnmiş dillər heç bir şübhə yeri qoymur ki, söz bizim sözlər barədəki adi təsəvvürümüzə uyğun yaranır. Eyni vəziyyət bu baxımdan eskimos dilini xatırladan irokez dilində də mövcuddur. Oneyda dialektindən bir nümunə göstərək: watgajijanegale (gül açılır) wa-, -t- və -g-, yəni öz xarakterləri etibarilə zaman, modallıq və pronominallıq bildirən formal elementlərdən ibarətdir. Ardınca jija (gül) əsasını səciyyələndirən a gəlir ki, heç zaman ayrılıqda çıxış etmir. Və nəhayət, yenə də müstəqil mövcud olmayan –negale (asılmaq) əsası…

Bütün bu hallarda elementlər böyük məna müəyyənliyinə malikdir, lakin formanın qeyri-sabitliyi bizi vadar edir ki, onlara uzun bir sözün hissələri kimi baxaq.

Bəzi dillər sözlərin sərhədini müəyyənləşdirmək üçün kifayət edəcək kriteriya təəssüratları versə də, bir sıra hallar vardır ki, cümlənin müəyyən hissələrini elə ayırmaq mümkündür ki, digər hissələr öz müstəqil formasını saxlasın. Amerika dillərində bu o zaman özünü göstərir ki, isimlər öz komponentlərini modifikasiya etmədən feil kompleksinə daxil olunsun. Məsələn, pavni dilində bu cürdür. Tatukt (mən bunu sənin üçün kəsib doğradım) ilə riks (ox) taturikskt (mən sənin oxunu kəsib doğradım) da birləşdirilir. Həmin formaların əlaqəsinin yaxınlığı o hallarda daha aydın görünür ki, geniş fonetik modifikasiyalar olur. Belə ki, ta – t – ru – n elementləri tahun (mən edirəm) də birləşir (tr sözün tərkibində h ya keçir), ta- t – riks –zun isə tahikstun (mən ox qayırıram) a çevrilir (s- dan sonrakı r t-ya çevrilir). Eyni zamanda riks (ox) müstəqil söz kimi işlənir.

Əgər yuxarıda şərh olunmuş prinsipləri izləsək, biz asanca görərik ki, bir element eyni zamanda həm müstəqil isim,

həm də sözün bir hissəsi kimi çıxış edə bilər. Sonuncular yuxarıda təsvir etdiyimiz keyfiyyətləri daşıdığına görə, biz onlara müstəqil elementlər kompleksi kimi baxmaq meylində deyilik.

Cümlənin hissələrinin müstəqilliyinə münasibətdə ikili düşüncə həmçinin o zaman da yarana bilər ki, onların mənası cümlənin başqa hissələrindən də əsaslı olur, yaxud onların mənası cümlənin başqa hissələri ilə müqayisədə o qədər qaranlıq və zəif görünür ki, biz onlara tabe hissələr kimi baxmağa üstünlük veririk. Onlar fonetik baxımdan güclü olanda bu tipli sözlərə adətən müstəqil hissəciklər kimi baxılır; digər tərəfdən, fonetik baxımdan zəifdirlərsə, onlara adətən başqa sözlərin modifikasiyaya uğramış hissələri kimi baxılır. Oxşar tipli maraqlı nümunələr Ceyms Ouen Dorseyin topladığı ponka dili mətnlərində əks olunmuşdur. Burada eyni bir element tez-tez müstəqil hissəcik kimi izah olunur, başqa hallarda isə ona sözün tabe hissəsi kimi baxılır. Məsələn, deama (bunlar) ilə yanaşı jabe ama (qunduz) a da rast gəlirik.

Siuks dili qrammatikasının analoji şərhinə S.R.Riqqsda təsadüf edirik. Biz burada, məsələn, həmişə sözün son şəkilçisi kimi şərh olunan pi elementi ilə qarşılaşırıq – həmin element cəm halı ifadə etdiyindən bu cür şərh olunur. Hind-Avropa dillərində cəm halı həmişə sözün şəkildəyişməsi ilə işarələnir. Digər tərəfdən, ktaisni tipli, uyğun olaraq, gələcək zamanı və inkarı işarələyən elementlər eynilə yuxarıda xatırladılan pi formasında işlənsələr də, müstəqil sözlər kimi şərh olunur.

Bu qəbildən olan başqa bir nümunə simşey dilindəki modifikasiyaya uğrayan elementlər ola bilər ki, həmin dildə

saysız-hesabsız adverbial elementlər müəyyən mövqeyi olan fövqəladə dərəcədə zəif fonetik qruplarla ifadə olunur. Burada həmçinin gah ayrıca sözlər kimi baxılan, gah da feil ifadə edən sözə birləşdirilən müvafiq fonetik qruplara münasibətdə mütləq sərbəstlik hökm sürür. Bu cür hallarda heç bir şəkildəyişməsiz uyğun hissəciklərin birləşdirildiyi sözlərin asılı olmadan mövcudluğu bizi həmin elementlərə o halda müstəqil hissəciklər kimi baxmağa vadar edir ki, onlar fonetik baxımdın kifayət qədər güclüdür. Digər tərəfdən, əgər onların birləşdirildiyi feili ifadələr ya həmin elementlərin onlara daxil edilməsi, ya da başqa yolla modifikasiyaya uğrayırsa, biz onlara sözün hissələri kimi baxmağa meyilliyik.

Bundan sonra bütünlükdə cümləyə münasibətdə söz anlayışını daha mükəmməl şəkildə müzakirə etmək zərurəti meydana çıxır, çünki həmin məsələ Amerika dillərinin morfoloji şərhində mühüm rol oynayır.

Əsas və affiks

Dillərin analitik şərhi nitq elementlərini bu və ya digər sayda müxtəlif qruplara ayırmağa gətirib çıxarır. Elə ki, biz onları funksiyalarına uyğun olaraq təsnif edirik, görünür ki, müəyyən elementlərə hər bir ayrıca cümlədə rast gəlinir. Məsələn, subyekt və predikatı işarələyən formalar, yaxud müasir Avropa dillərində kəmiyyəti, zamanı və şəxsi birləşdirən formalar belədir. Digər elementlər, məsələn işarə bildirənlər cümlədə işlənə də, işlənməyə də bilər. Bu cür elementlər və bir çox başqaları bizim qrammatikalarda şərh olunur. Həmin elementlər cümlənin maddi tutumunu öz xarakterinə uyğun olaraq modifikasiya edir; məsələn, He strikes him (o onu dö-

yür) və I strusk thee (mən səni döydüm) ingilis cümlələrində olduğu kimi – burada kimisə döymək ideyası kommunikasiyasının məzmununu təşkil edir, eyni zamanda he, present, him (o, indiki zaman, onu) və I, past, thee (mən, keçmiş zaman, səni) ideyaları birinci ideyanı modifikasiya etmiş olur.

Qeyd etmək fövqəladə dərəcədə zəruridir ki, cümlədə əks olunmuş ideyaların maddi tutumu və formal modifikasiyaya bölünməsi ixtiyari xarakter daşıyır və görünür, hər şeydən əvvəl, eyni formal üsulla, eyni pronominal və zaman elementləri ilə ifadə oluna bilən ideyaların böyük rəngarəngliyi ilə şərtlənir. Başqa sözlə, cümlənin maddi tutumu qeyriməhdud sayda anlayışlarla ifadə olunan subyekt və predikatla təmsil edilə bilər ki, bu halda modifikasiya elementləri – bizim misalda əvəzliklər və zamanlar – nisbətən az anlayışları əhatə edir. Dilin öyrənilməsi zamanı cümlənin maddi tutumunu ifadə edən hissələrini biz adətən leksikaya, modifikasiyaedici münasibətləri əks etdirən hissələri isə qrammatika sahəsinə aid edirik. Müasir hind-Avropa dillərində tabe elementlərlə ifadə olunan anlayışların sayı ümumiyyətlə məhduddur. Və bu səbəbə görə qrammatikanı leksikadan ayıran xətt fövqəladə dərəcədə aydındır. Yeri gəlmişkən, daha geniş mənada, bütün etimoloji proseslərə və sözyaradıcılığına qrammatikanın bir hissəsi kimi baxmaq lazım gələrdi. Əgər belə etsək, görərik ki, hətta hind – Avropa dillərində belə təsnif olunan anlayışların sayı çox böyükdür.

Amerika dillərində qrammatika ilə leksika arasındakı fərq çox vaxt ona görə olduqca qaranlıq olur ki, formal sözcümlə yaradıcılıqlarında iştirak edən elementlərin miqdarı olduqca böyükdür. Bunu bir sıra nümunələr əsasında daha müfəssəl izah etmək lazım gəlir. Simşey dilində biz olduqca

çox sayda adverbial elementlərə rast gəlirik ki, onları heç cür tamamilə müstəqil elementlər kimi şərh etmək olmaz. Və onlara, heç şübhəsiz, feil anlayışlarını modifikasiya edən elementlər kimi baxmaq lazım gəlir. Həmin elementlərin olduqca çox miqdarda olması nəticəsində hərəkət feillərinin ümumi kəmiyyəti müəyyən qədər məhdudlaşmışdır. Halbuki həmin adverbial anlayşlarla birləşməyə qadir olan feillərin ümumi kəmiyyəti adverbial anlayışların özünün ümumi kəmiyyətindən xeyli çoxdur. Beləliklə, zərflərin kəmiyyəti qərarlaşmış, feillərin kəmiyyəti isə qeyri-məhdud olmuşdur. Bu vəziyyətə uyğun olaraq bizdə belə bir təəssürat yaranır ki, birincilər modifikasiya edən elementlərdir və dilin qrammatikasına aid olmalıdır, ikincilər isə söz mahiyyətlidir və dilin leksikasına aiddir. Bu cür modifikasiya edən elementlərin miqdarı eskimos dilində daha çoxdur. Və burada onların qrammatikaya aid olması təəssüratı belə bir vəziyyətlə də möhkəmlənir ki, onlar heç zaman başlanğıc mövqeyi tuta bilmir və müstəqil sözün arxasınca gəlmir, ancaq ayrıca tələffüz olunan elementə birləşir, heç bir mənaya malik olmur.

İndi qeyd etmək zəruridir ki, bir sıra dillərdə modifikasiyaedici elementlərin miqdarı o həddə çata bilər ki, hansı elementlərin kəmiyyətcə məhdud anlayışlar silsiləsini, hansıların isə leksikaya aid, demək olar ki, hüdudsuz söz silsiləsini təmsil etdiyini müəyyənləşdirmək çətin olar. Bu, məsələn, alqonkin dilinə tətbiqdə özünü doğruldur ki, həmin dildə, demək olar ki, bütün feillərlə olan birləşmələrdə hər biri müəyyən mövqeyə malik bir sıra elementlər təzahür edir. Lakin qrupların hər biri sayca o qədər çoxdur ki, qruplardan birini başqa qrupla modifikasiya olunan söz kimi, yaxud, əksinə, bütün aydınlığı ilə müəyyənləşdirmək mümkün deyil.

Bu mülahizələrin bizim məqsədlərimiz üçün zəruriliyi belə bir faktda özünü göstərir ki, əsas və affiks terminlərində müəyyənlik yoxdur. Adi terminologiyaya görə, affikslər o elementlərdir ki, əsaslara birləşərək onları modifikasiya edir. Həmin tərif o hallar üçün tamamilə qəbuledilən dir ki, modifikasiya edən anlayışların miqdarı məhduddur. Lakin o zaman ki, modifikasiyaedici elementlərin miqdarı fövqəladə dərəcədə böyük olur, bizim şübhələnməyə haqqımız var ki, iki elementdən hansı modifikasiya edən, hansı modifikasiya olunandır. Və nəticə etibarilə, tərif tamamilə ixtiyari olur. Bundan sonrakı şərhdə prefiks, suffiks və affiks terminlərinin işlədilməsinə yalnız o hallarda məhdudlaşdırmağa cəhd edilir ki, həmin elementlərlə ifadə olunan anlayışların miqdarı ciddi şəkildə məhdudlaşmış olsun. Nə zaman ki, birləşdirici elementlərin miqdarı o qədər böyük olur ki, onları təsnif etmək çətinləşir, o halda bu terminlər işlədilmir, elementlər isə kordinasiyaedici kimi şərh olunur.

Qrammatik kateqoriyaların tədqiqi

Bütün deyilənlərdən belə bir nəticə hasil olur ki, dilin obyektiv tədqiqi zamanı üç məqamı diqqətə almaq zəruridir: birincisi, dili təşkil edən fonetik elementlər, ikincisi, fonetik qruplarla ifadə olunan anlayış qrupları və üçüncüsü, fonetik qrupların söz-cümlə yaradıcılığı üsulları və modifikasiyaları.

Tərcümə edən: Nizami Cəfərov

Leonard Blumfild

(1887-1949)

Amerika deskriptiv dilçiliyinin görkəmli nümayəndələrindən olan Leonard Blumfild F.Boasın ideyalarını davam etdirmiş, "Dil" (1933) adlı kitabı ilə dünya dilçiliyi tarixində məşhurlaşmışdır. Dilçilər "Dil" əsərinin Amerika dilçiliyində yerini F. de Sössürün "Ümumi dilçilik kursu"nun Avropa dilçiliyində tutduğu yerə bənzədirlər. L.Blumfild bu kitabında linqvistikanın vəzifə, prinsip və metodlarını izah edir. Amerikan deskriptivistləri kimi L.Blumfild də dilin formal aspektdən təsvirinə önəm verirdi.

L.Blumfildin yaradıcılığından danışan tədqiqatçılar yazırlar ki, dilin bütün səciyyələri L.Blumfilddə biheviorizm ("vərdiş"psixologiyası) mövqeyindən verilir. Amma L.Blumfild "Dil" əsərinin "Ön söz"ündə deyir ki, "biz hər hansı bir psixoloji doktrinaya əsaslanmadan da dilin tədqiqini davam etdirə bilərik və bunu etsək, əldə etdiyimiz nəticələr dilçilik elmi ilə bağlı sahələrdə çalışan insanlar üçün daha əhəmiyyətli ola bilər".

"Dil" əsərində dil fenomeninin insanın fəaliyyətində oynadığı müstəsna rol şərh olunur.

Dil
Dil kollektivləri

III.I. Dil kollektivi bir-birindən asılı insan qrupudur, onlar dil xasitəsilə qarşılıqlı şəkildə əlaqəyə girirlər. İnsanın bütün yüksək fəallığı adlandırılan bir şey - xüsusilə də bizim insani fəaliyyətimiz - fərdiyyətlər arasında hərəkətlərin nizamlanmasından meydana çıxır ki, biz bunu cəmiyyət və ya kollektiv adlandırırıq və bu nizamlanma, öz növbəsində, dilə

əsaslanır: dil kollektivi ona görə də ən vacib sosial qrupdur. Sosial birliklərin digər bir təbəqəsi, deyək ki, iqtisadi, siyasi və ya mədəni qruplaşmalar, digər qruplaşmalarla dil vasitəsi ilə əlaqələr yaradır, lakin onunla birləşmir. Mədəni xüsusiyyətlər hər hansı dilə nisbətən daha geniş yayılır. Ağ irqə məxsus insanların gəlişindən qabaq öz doğma dilində danışan müstəqil hindu qəbiləsi, həm dil kollektivini, həm də iqtisadi və siyasi birliyini yaratmışdı: lakin onun dini və ümumi mədəniyyəti qonşu qəbilələrin dini və mədəni xüsusiyyətlərinə bənzəyirdi. Daha çox mürəkkəb şəraitlərdə başqa qruplaşmalar arasında dillə daha az olur. Bütün ingilisdilli xalqlardan ibarət olan dil kollektivləri siyasi cəhətdən 2 yerə bölünür: Birləşmiş Ştatlar və Britaniya imperiyası: bunların hər biri, öz növbəsində, yarımqruplara bölünür: Birləşmiş Ştatlar və Kanada iqtisadi cəhətdən siyasi cəhətə nisbətən daha sıx əlaqələrə malikdir: mədəni cəhətdən isə biz qərbi Avropa da daxil olmaqla, böyük bir ərazinin bir hissəsiyik. Digər tərəfdən, hətta bu qruplardan ən kiçiyi, siyasi qrup olan Birləşmiş Ştatlar elə insanlardan ibarətdir ki, həmin insanlar ingiliscə danışmırlar: onlar Amerika hindularının dilini, cənub-qərbdə ispan dilini və dilçilik baxımından assimilyasiyaya uğramamış mühacirlərin dilində danışırlar.

Filippində və ya Hindistanda işğal edilmiş müstəmləkələr öz dil kollektivlərini xarici dil kollektivlərindən iqtisadi və siyasi cəhətdən asılı vəziyyətə salmışlar. Bəzi ölkələrdə əhali birlikdə mövcud olan, lakin yerli bölgü olmadan da belə, bir neçə dil kollektivinə bölünürdü: Polşada bir şəhər polyak və alman dilində danışan icmalara bölünmüşdür: dini baxımdan birincilər katolik, ikincilər yəhudilərdir və son vaxtlara qədər bir qrupun insanları digər qrupun adamları-

nın dilini başa düşmək üçün özlərinə heç bir əziyyət vermirdilər.

Mən, bioloji qruplaşmalar haqqında demək olar ki, heç nə deməmişəm, çünki bu qruplaşmaların digər qruplaşmalar kimi mövcud olmaları üçün dildən asılılıqları yoxdur. Yoldaşlıq edən adamların əksəriyyətinin ünsiyyəti, əlbəttə, eyni dildə danışan adamlar arasında baş tutur, ona görə də dil kollektivi həmişə, nə isə, daxilən yetişən qrupdur. Hərçənd istisnalar olduqca çoxdur, onların müxtəlif dildə danışan adamlarla dostluq əlaqələri qurmalarında, müstəsna rolları vardır. Dostluq edənlərdən bir qismi digər dildə danışır və daha vacib olan budur ki, əcnəbilərin bütöv bir dil kollektivinin assimilyasiyaya uğramasında tərəflərdən biri, tutaq ki, mühacirlər işğal edilmiş adamlar və ya əsirlər digər tərəfin dilini qəbul edir. Bu kimi öz ana dilindən yayınma halları o qədər çoxdur ki, bunları qeydə almış olsaydıq, əlbəttə, çox az adam tapa bilərdik ki, onlar bir neçə nəsil bundan qabaq indi danışdıqları eyni dildə danışmış olsunlar. Ən çox diqqətimi çəkən budur ki, dilin xüsusiyyətləri bioloji mənada irsən keçmir. Uşaq dünyaya gələndə qışqırır və şübhəsiz ki, bir müddət keçdikdən sonra o, qığıldamağa başlayır, lakin onun öyrəndiyi müəyyən bir dil bütövlükdə onun əhatəsinin nəticəsidir. Bir qrupa düşən hər hansı bir çağa, tutaq ki, tapılma uşaq olsun, yaxud oğulluğa və ya qızlığa götürülmüş uşaq olsun, öz doğma valideynlərinin dilini öyrəndiyi kimi, düşdüyü qrupun dilini öyrənir və o, danışmağa başlayanda uşağın dili onun doğma valideynlərinin danışdıqları dildən tamamilə fərqlənir. Boğazın, ağızın, dodaqların və s. danışıq üzvlərinin hansının quruluşunda irsi fərqlər ola bilər ki, onlar dil fərqlərinə gətirib çıxarsın. Uşaq öz ətrafındakılar kimi danışmağı öyrənir. İnsanın danışmağı öyrəndiyi ilk dil onun

doğma dili sayılır: o öyrəndiyi doğma dilin daşıyıcısıdır.

III.2. Dil kollektivləri öz ölçülərinə görə bir-birindən fərqlənir. Amerika hinduları arasında iki yüz nəfərdən ibarət olan bir qəbilə öz dilində danışır. Digər tərəfdən, müasir ünsiyyətə girməmişdən qabaq bəzi dil kollektivləri olduqca böyük olmuşlar; xristianlığın başlanğıcındakı birinci əsrdə Aralıq dənizi ətrafındakı böyük ərazidə milyonlarla adam tərəfindən latın və yunan dillərində danışılırdı. Müasir şəraitdə bəzi dil kollektivləri çox böyükdür...

III.3. Hər bir halda, hansı xalqın, hansı dil icmasına aid olduğunu müəyyənləşdirməkdə qarşımıza çıxan çətinlik təsadüfi olmayıb, nitq icmasının təbiətindən irəli gəlir. Kifayət qədər yaxından müşahidə etsəydik, aşkar edə bilərdik ki, heç bir iki nəfər və ya ola bilsin ki, heç bir tək insanı müxətlif zamanlarda dəqiqliklə oxşar dildə danışmış olsun. Əmin olmaq üçün nisbətən eyni qrup dildə danışanların arasında deyək ki, Birləşmiş Ştatların orta qərb hissəsində doğma ingilis dilində danışan adamlar arasında danışıq vərdişləri ünsiyyət ehtiyaclarının tələb etdiyindən daha çox olacaqdır. Biz bunun sübutunu o vaxt görürük ki, kənar bir şəxsin, deyək ki, bir cənublu və ya bir ingilisin, yaxud dil öyrənən əcnəbinin ingilis dilini öyrənməsi bizim diqqətimizi cəlb edir. Onun danışığı o qədər bizim dilimizə yaxın ola bilər ki, bizim ünsiyyət saxlamağımızda cüzi də olsa, çətinliyə səbəb ola bilməz; bununla belə, ləhcə xüsusiyyətlərilə, işlənmiş idiomatik ifadələrlə bağlı nəzərəçarpan fərqləri müşahidə edə bilərik. Orta Qərbi Amerika dili ilə indi qeyd etdiyimiz kimi, hətta dil kollektivinin öz daxilində (məsələn, ingilis dili çərçivəsində) bütövlükdə doğma dildə danışanların danışıqlarında böyük fərqlər ola bilər. Bu fərqlər dillərin tarixində böyük rol

oynayır: dilçi məcburdur ki, onları diqqətlə araşdırsın, baxmayaraq ki, o əvvəlcədən nəzərdə tutmuşdur ki, bu kimi şeyləri saymayacaqdır. O, bu işi yerinə yetirəndə, sadəcə olaraq abstraksiya metodundan istifadə edir, bu elə bir metoddur ki, elmi tədqiqat üçün böyük əhəmiyyətə malikdir, lakin əldə edilmiş nəticələr, gələcək işlərin əksəriyyətində istifadə edilmədən qabaq yoxlanılmalıdır.

Danışanlar arasındakı fərqlər müəyyən dərəcədə insanların bədən quruluşu ilə bağlıdır və ya ola bilsin ki, sırf fərdi vərdişdən asılıdır. Biz dostlarımızı qonşu otaqdan danışanda və ya telefonla danışdıqları zaman səslərindən tanıyırıq. Bəzi adamlar nitq məsələlərində digərlərindən daha istedadlıdırlar. Bu adamlar daha çox sözlərin, söyləmlərin işləndiyini xatırlayır, onları lazımi məqamlarda daha yaxşı tətbiq edir və daha xoşagələn üslubda işlədirlər. Belə faktlara ədəbiyyat sahəsində dahilərin əsərlərində çox rast gəlirik. Bəzən adətənənələr müəyyən natiqlərə hansısa nitq normalarını müəyyənləşdirir, məsələn, *sir* "ser", *ma'm* "mem" sözlərini deməyi öyrənmiş bir əsgər, yaxşı öyrədilmiş qulluqçu və ya müəyyən bir məktəb şagirdi bu sözlərin əvəzində heç nədən istifadə etmir. Bəzi nidalar, məsələn, *Godness gracious!* "Allah saxlasın!" və ya Dear me! "Hə də, hə!" qadınlara müraciət üçün geniş şəkildə yayılmışdır. Bəzi kollektivlərdə olduqca müxtəlif danışıq formaları cinslərə görə bir ənənəyə çevrilmişdir. Bunun klassik nümunəsi kimi, Karib dənizi hindularını göstərmək olar: bunların içərisində öz orijinallığı ilə fərqlənən dil Şimali Kaliforniyadakı Yana hindularının dilidir. Yana sözlərinə aid nümunələr aşağıdakılardır:

Kişilərin dili	Qadınların dili	
“alov”	'auna	`auh
“mənim alovum"	'aunija	'au'nich'
“maral”	bana	ba´
“qonur ayı”	t'en'na	t'et'

İki cərgədə verilmiş Yana dili formaları arasındakı fərqlər kifayət qədər mürəkkəb qaydalar əsasında izah edilə bilər.

III.4. Bir kollektiv daxilindəki ən mühüm fərqlər ünsiyyətin sıxlığında olan fərqlərdən irəli gəlir. Körpə uşaq, dili, ətrafında danışanlar kimi danışmağı öyrənir, lakin biz dilöyrənmə prosesinin müəyyən bir vaxtda sona çatdığını təsəvvür edə bilmərik. Elə bir saat və ya elə bir gün yoxdur ki, hər hansı bir insan, dili öyrənib qurtarsın. İnsan ömrünün sonuna qədər dil oyanmasına baxmayaraq, körpəlikdə öyrəndiyi dilə çox az şey əlavə edə bilər. Bizim verdiyimiz təsvirlər bir çox hallar üçün istifadə edilə bilər; bu, sanki, adi nitq prosesinin yavaşıdılmış kino şəkillərinə bənzəyir. Hər bir danışanın dili, şəxsi amillərdən başqa (o şəxsi amillər ki, biz burada onlara əhəmiyyət verməməliyik) digər adamlardan eşitdiklərinin mürəkkəb bir nəticəsidir.

Kollektivdə olan hər bir danışan üçün üstündə nöqtə olan bir diaqram olduğunu fərz edin və təsəvvür edin ki, hər bir vaxt hansısa natiq bir cümlə deyir, onu bildirən nöqtədən onu eşidənlərin hər birinin nöqtəsinə oxlar çəkilir. Verilmiş vaxtın sonunda, deyək ki, 70 il bu diaqram bizə kollektiv daxilindəki ünsiyyətin sıxlığını göstərəcəklər. Bəzi danışanların daha sıx ünsiyyətdə olduqları meydana çıxacaqdır. Belə halda bir nöqtədən digər nöqtələrə çoxlu oxların getdiyini görəcəyik və silsilə oxlar olacaqdır ki, onları biri ilə, ikisi ilə və aralıq danışanlarla bağlamış olsun. Diaqramın o biri başında

heç zaman bir-birilərinin danışıqlarını eşitməmiş danışanlar olacaqlar ki, yalnız aralıq danışanlar vasitəsi ilə birləşdirilən çoxlu ox zəncirini görəcəksiniz. Biz kollektiv daxilində iki müxtəlif danışanın oxşarlıqlarını və onların bənzərsiz olmalarını izah etmək və eyni şeyin nəyə gətirib çıxardığını göstərmək istəyirdiksə, atacağımız ilk addım o olacaqdır ki, biz oxları və onların nöqtələrini birləşdirən silsilələri sayaq və qiymətləndirək. Bir anlığa görəcəyik ki, bu, yalnız birinci addım olacaqdır; bu kitabın oxucusu, məsələn, yaxşı olar ki, deyək ki, böyük şöhrət sahibi olan kəslərin mühazirələrindən eşitdikləri nitq formasını təkrar etsin. Bu, bir küçə süpürənin dediklərini təkrarlamaqdan daha yaxşıdır. Bizim təsəvvür etdiyimiz diaqramı quraşdırmaq qeyri-mümkündür. Dəf edilməz çətinlik ən mühüm olan zaman amilidir: indi sağ olan adamlardan başlasaq, məcbur olacağıq ki, səsi eşidilən həmin adam adlarının qarşısında nöqtə qoyaq, sonra isə bu natiqlərin hər birinin haçansa danışdıqlarını eşitdikləri natiqlərin qarşısında nöqtə qoyaq və bu minvalla biz gedib böyük Kral Alfredə çıxarıq və hətta, tarixin bundan da qabaqkı ilkin dövrünə, bəşəriyyətin doğurduğu ibtidai icma quruluşu dövrünə gedib çıxarıq; bizim bugünkü danışığımız bütövlükdə keçmişdəki danışığınızdan asılıdır.

Nə qədər ki, öz diaqramımızı quraşdıra bilmirik, əvəzində dolayı nəticələri öyrənmək üçün asılı vəziyyətə düşürük, ona görə də fərziyyələrə əl atmaq məcburiyyətində qalırıq. Biz inanırıq ki, bir dil kollektivi daxilindəki nitq sıxlığında olan fərqlər, təkcə şəxsi və fərdi fərqlər deyildir, kollektiv müxtəlif sistemli yarımqruplara bölünür və hər hansı bir yarımqrupda olan şəxs, qrupun xaricindəki kollektivlərə nisbətən öz yarımqrupunda olan kollektiv üzvləri ilə daha çox danışır. Şəbəkəyə oxşar oxların sistemini nəzərdən keçirdikdə

deyə bilərik ki, bu yarımqruplar şifahi ünsiyyətin bu şəbəkəsində *zəiflik xətti* ilə biri bir-birindən ayrılır. Zəiflik xətləri və müvafiq olaraq, dil kollektivində olan fərqlər yerli (lokal) xarakter daşıyır ki, bu da, sadəcə olaraq, coğrafi sərhədlərlə bağlıdır və ya onlar *qeyri-lokal* və adətən, dediyimiz kimi, sosial şərtlərlə bağlıdır. Dil kollektivində son zamanlar yayılmış və məskunlaşmış ölkələrdə yerli fərqlər nisbətən azlıq təşkil edir, məsələn, deyək ki, Birləşmiş Ştatlarda (xüsusilə qərb hissədə) və ya Rusiyada; dil kollektivi tərəfindən çoxdan məskunlaşdığından, orada fərqlər qat-qat çoxdur, məsələn, deyək ki, ingilis dilinin 1500 ildir danışıldığı İngiltərədə və ya latın dilinin (indi fransız dili adlanır) iki min ildən çox danışıldığı Fransada fərqlər daha çoxdur.

III.5. Biz, əvvəlcə, Birləşmiş Ştatlarda meydana çıxan sadə halı tədqiq edəcəyik. Danışığımızda ən çox nəzəri cəlb edən, fikir ayrılığına səbəb olan xətt sosial siniflərdən biridir. Təhsilli, vardövlətli və ənənələrin üstünlüyü olan ailələrdə dünyaya gələn körpələr, bizə tanış olan "yaxşı" ingilis dilində danışan doğma dil daşıyıcıları hesab edilirlər; dilçi buna *standart ingilis dili* kimi qeyrimüəyyən bir ad verməyi üstün tutur. Nisbətən az xoşbəxt uşaqlar "pis" ingilis dili, "vulqar" ingilis dili və ya dilçilərin dedikləri kimi, doğma ingilis dilinin "qeyristandart" dil daşıyıcılan olurlar. Məsələn, *I have none, I haven't any, I havn't got any* standard "yaxşı" ingilis dilindədir, lakin *I ain't got none* standart ingilis dilində deyil, "pis" ingilis dilindədir.

Amerikada ingilis dilində bu iki tipə heç vəchlə eyni münasibət bəslənilmir. İngilis dilinin standart formalarından məktəblərdə, kilsələrdə və icmaya məxsus olan bütün rəsmi diskurslarda, məhkəmələrdə və qanunverici orqanlarda isti-

fadə edilir. Bütün bizim yanlarımız (jestlərlə olan danışığı çıxmaq şərtilə) dilin standart formalan əsasında həyata keçirilir və bu formalar dilin qrammatika kitablarında, lüğətlərdə və ingilis dilini öyrənmək istəyən əcnəbilər üçün yazılmış dərsliklərdə qeydə alınmışdır. Hər iki standart və qeyri-standart ingilis dilində danışanlar razılığa gəlirlər ki, standart ingilis dili "yaxşı" yə ya "düzgün" ingilis dilidir, qeyri-standart ingilis dili isə "pis", "qeyri-düzgün", "vulqar" və hətta "qeyri-ingilis" dilidir. Standart ingilis dilində danışanlar, qeyri-standart dili öyrənmək kimi özlərini çətinliklərə salmırlar, lakin qeyri-standart ingilis dilində çoxlu sayda danışanlar çalışırlar ki, standart formalardan istifadə etsinlər. Az ad-san qazanmış yerli qrupun, deyək ki, var-dövlət məsələsində və ya siyasi məşhurluqda üstünlüyü vardır, o, demək olar, əmindir ki, ingilis dilinin standart formaları necədirsə, onu eləcə də öyrənə bilər; əslində, onun nitqində baş verə biləcək nəzərəçarpan boşluqlar, deyək ki, *I seen* it və ya I *done* it qeyri-standart formalı nitq nümunələri onun yenicə əldə etmiş mövqeyine xələl gətirə bilər.

Standart ingilis dilinin özündə də daxilində kiçik fərqlər vardır. Bu halda fərqli formalar yenə də yüksək və aşağı kimi qiymətləndirilir. Məsələn, *laugh* "gülmək", *half* "yarı(sı)", *bath* "vanna", *dance* "rəqs", *can´t* "bilmirəm" kimi sözlərdə adi "a" əvəzinə (*man* "adam" sözündəki kimi) "ah" (father "ata" sözündəki kimi) tələffüz edən bir çikaqolu haqqında, deyirlər ki,o, ingilis dilinin "daha aristokrat" formasında danışır. Hərçənd bu kimi məsələrdə adamların münasibəti fərqlənir: çox çikaqolu "ah" formasını səfeh və qüsurlu forma hesab edir. Standart ingilıs dilində danışanlar tez-tez mübahisə edirlər ki, bu iki formadan hansı daha "yaxşıdır": *It´s I*, yoxsa *it's me*: "bu, mənəm", *forehead* yoxsa *forrid* "alın".

Mübahisə edənlər hansının "daha yaxşı" olması barədə müəyyən bir qərar qəbul etməkdə özlərini heç vaxt çətinliyə salmadıqlarına görə, bu mübahisələr heç vaxt özünün məntiqi nəticəsini tapmır. Bu, elə bir məsələdir ki, bizi bir daha məşğul edəcəkdir.

Sonralar standart dil çərçivəsi daxilində elə fərqlər baş verir ki, bu fərqlər ünsiyyətin taleyindən asılı olur. Müxtəlif iqtisadi siniflər deyək ki, olduqca varlı və "orta sinif" adlanan təbəqələr müxtəlif dərəcələrdə və danışıqda da bir-birindən fərqlənirlər. Təhsildəki fərqlər isə, həmçinin hər iki halda, ailə ənənələri və təhsil imkanlarına görə fərqlənir. Daha az əhəmiyyət daşıyan texniki məşğuliyyət növ ündə bu fərqlərin üstündən xətt çəkilir: digər incəsənətin ticarətin, mühəndisliyin, vəkilliyin, can həkimliyinin, alimliyin, rəssamlığın və sair kimi peşələrin müxtəlif sahələrində danışıqda nə isə bir dəyişiklik baş verir. İdman və məşğuliyyətçiliyin ən azı öz lüğəti vardır. Yaş qrupları amilindən bir qədər sonra bəhs edəcəyik. Bu, çox çətin və demək olar ki, nəzəri cəlb etməyən işlərdir və bu işlər elə səviyyədə baş verir ki, bizim diqqətimizi özünə cəlb etməli olur; bunlar arasında gənclərin slənqə meyil etmək istəyi bizi daha çox narahat edir.

Birləşmiş Ştatlarda və hətta, bizim standart ingilis dilimizdə ən sabit və ən nəzərəçarpan fərqlər coğrafi fərqlərdir. Birləşmiş Ştatlarda bizim standart ingilis dilinin üç böyük coğrafi tipi vardır: Yeni İngiltərə [ingiliscəsi], Mərkəzi Qərb [ingiliscəsi] və Cənub [ingiliscəsi]. Bu tiplərin daxilində kiçik lokal fərqlər mövcuddur: ölkənin qədimdən məskunlaşmış hissələrində standart ingilis dilində danışanlar çox vaxt müsahiblərinin haradan olduqlarını kifayət qədər dəqiq deyirlər. Tələffüz məsələlərində, deyək ki, Şimali Karolinadan və

Çikaqodan olanlar eyni səviyyədə standart ingilis dilində danışanlar kimi qəbul edilirlər. Biz yalnız səhnədə çıxış edənlərdən vahid formalı tələffüz tələb edirik; burada bizim aktyorlarımız Amerika danışıq tərzindən daha çox Britaniya danışıq tipindən istifadə edirlər. İngiltərədə buna bənzər regional tiplər vardır, lakin onlara eyni dərəcədə əhəmiyyət verilmir. Ən yüksək dərəcədə Oksford (public school) ingiliscəsinə əhəmiyyət verilir – bu, İngiltərənin cənubunun danışığıdır. Belə çoxsaylı dərəcələrdən standart ingilis dilinin aşkar əyalət tiplərinə keçid az üstünlük qazandırır, çünki onlar ingilis dilinin şan-şöhrətli tipindən uzaqlaşır. Şotlandiyalı və ya Yorkşirli, yaxud Lənkaşirli standart ingilis dilində danışanın variant baxımdan qəbul edilməsi ondan asılıdır ki, onun tələffüzü yuxarı sinfin tələffüzü sayılan cənub tipinə nə dərəcədə yaxındır. İngiltərədə, Birləşmiş Ştatlardan fərqli olaraq, standart ingilis dilinin əyalət çalarları sosial səviyyədə olan fərqlərlə bağlıdır.

III.6. Qeyri-standart ingilis dilinin standart ingilis dilinə nisbətən rəngarəngliyi daha çoxdur. Qeyri-standart ingilis dilində danışan şəxsin sosial vəziyyəti nə qədər yüksək olsa, onun danışdığı dil bir o qədər standarta yaxın olacaqdır. Ən zirvədə keçid mərhələsində olan danışanlardır: onlar standart ingilis dilində danışır, lakin bəzi hallarda qeyristandart ingilis dilinin səpələnərək yayılmış formasından və əyalət tələffüzündən də istifadə edirlər. Ən pis səviyyədə danışanlar şəksiz ki, kənddən olan və ya, necə deyərlər, fəhlə nitqində danışanlardır ki, onların ingilis dilinin standart formalarında danışmağa heç bir iddiası yoxdur.

Bu davam edən təbəqələşmədən başqa, qeyri-standart ingilis dilində danışan müxtəlif qrupların özlərinin də nitq formaları vardır. Müəyyən peşə sahiblərinin, deyək ki, balıqçı-

ların, süd-yağ zavodu fəhlələrinin, çörək bişirənlərin və s. özlərinin özəl peşə dilləri vardır. Xüsusilə böyük xalq kütləsindən aralı düşmüş kiçik qruplar spesifik nitq formalarından istifadə edirlər. Məsələn, dənizçilər özünəməxsus qeyri-standart ingilis dilində danışırlar. Səfillərin və bəzi cinayətkar qrupların özlərinin çoxlu danışıq formaları vardır; eynilə də sirk işçiləri, insanları əyləndirməklə məşğul olan adamlar da müxtəlif formalarda danışırlar. Qeyri-standart alman dilində danışanlar arasında xristianlar və yəhudilərin, bəzi yerlərdə katolik və protestantların danışıqları da bir-birindən formasına görə fərqlənirlər. Xüsusi bir sosial qrupun cəmiyyətin qalan hissəsi ilə münaqişəsi zamanı, öz dillərinin xüsusiyyətlərindən istifadə edərək, məsələn, ingilisdilli qaraçılar kimi, *gizli* dialektdə danışırlar. Müxtəlif ölkələrdə cinayətkar qruplar belə gizli dialektlər yaratmışlar.

Qeyri-standart danışıqda ən böyük pərakəndəliyə səbəb coğrafi ərazidir. Hətta Birləşmiş Ştatlarda ingilis dilində coğrafi müxtəliflik özünü büruzə verir; bu forma eşitdiyimiz qeyri-standart ingilis dilinə daha çox uyğun gəlir. Ölkənin daha əvvəl məskunlaşmış hissələrinin ucqar rayonlarında bu yerli xüsusiyyətlər tələffüzdə o dərəcədə çox özünü göstərir ki, biz onları *yerli dialektlər* kimi təsvir edə bilərik.

Bu və ya digər ərazidə çoxdan məskunlaşmış dil kollektivlərində (Fransada, və ya Britaniyada ingilislərdə olduğu kimi) yerli dialektlər çox böyük rol oynayır. Belə kollektivlərdəki qeyri-standart dili, kobud desək və əlbəttə, kəskin şəkildə sərhədlərə ayırmasaq, iki yarımqrupa bölmək olar: 1. vahid formada olmayan, lakin bütün ölkə boyu yayılan və ən az başa düşülən *yarımstandart dil*; 2. Ayrı-ayrı yerlərdə çox böyük müxtəlifliyi ilə seçilməsi səbəbindən danışanların bir-

birini başa düşə bilmədiyi *yerli dialektlər*. Belə ölkələrdə yarımstandart dil "orta sinfin aşağı təbəqəsi"nə yəni daha çox iddialı xırda ticarətçilərə, sənətkarlara və şəhər fəhlələrinə məxsus olur, lakin yerli dialektlərdə kəndlilər və kiçik şəhərlərin ən kasıb adamları danışır.

Yerli dialektlər dilçi üçün hədsiz əhəmiyyətə malikdir, sadəcə, yalnız ona görə yox ki, onların böyük rəngarəngliyi tədqiqat üçün zəmin yaradır, ona görə ki, dilin standart və yarımstandart tiplərinin tarixi və mənşəyi yalnız yerli dialektlərin faktları işığında müəyyən edilə bilər. Xüsusilə də, son onilliklər ərzində dilçilər bu qənaətə gəlmişlər ki, dialekt coğrafiyası bir çox problemlərin aydınlaşdırılması üçün açar rolunu oynamışdır.

Fransa, İtaliya və Almaniya kimi ölkələrdə bu məsələlər İngiltərəyə nisbətən yaxşı öyrənilmişdir – hər bir kəndin, yaxud ən çoxu iki və ya üç kənddən ibarət qrupun özünün dialekti vardır. Bir-biri ilə qonşu yerli dialektlər arasındakı fərq kiçikdir, lakin hissolunandır. Kəndlilərin özləri qonşularının nitqlərindəki fərqlərin necə əmələ gəlməsi barədə həvəslə danışır və tez-tez öz qonşularını belə xüsusiyyətləri qabartmaqla qıcıqlandırırlar. Bir yerdən başqa yerə keçdikdə fərqlərin kiçik olduğu müşahidə edilir, lakin hər hansı bir insan ölkəni səyahətə çıxarsa və bir istiqamətdə gedərsə, görəcəkdir ki, get-gedə fərqlər böyüyür və ölkənin bu başında olanlar əks qütbdə olanların dilini başa düşə bilmirlər, baxmayaraq ki, onların yaşadığı yerlərdə heç bir kəskin dil sərhədləri yoxdur. Hər bir tədrici keçidə səbəb olan coğrafi əraziyə *dialekt arealı* deyilir.

Dialekt arealı daxilində dilin hər hansı xüsusiyyətinə görə fərqləndiyi yerlərdə sərhəd xətləri çəkə bilərik. Belə xətlərə *izoqloslar* deyilir. Hər hansı bir kəndin özünəməxsus uni-

kal danışıq xüsusiyyətləri vardırsa, bu xüsusiyyətə əsaslanan izoqloslar, sadəcə olaraq, bir kəndin ətrafına çəkilmiş xətt olacaqdır. Digər tərəfdən, müəyyən xüsusiyyətlər dialekt arealını daha böyük bir hissəsinə genişlənirsə, bu xüsusiyyəti əks etdirən izoqlos dialekti iki sektora bölən uzun bir xəttlə ifadə olunacaqdır. Məsələn, Almaniyanın şimal dialektində *bite* "dişləmək" sözündəki "t" səsi ingilis dilindəki kimi deyilir, lakin cənub dialektində onu s səsi ilə tələffüz edirlər (standart alman dilində (*beiszen*) tələffüz edildiyi kimi); bu formaları bir-birindən ayıran izoglos olduqca uzun və qeyri-müəyyən xətt üzrə bir çox yerləri qərbə tərəf kəsib keçərək bütün Almaniyanın əhatə edir. Şimalda və İngiltərənin şimali- şərqində bir arealı ayırmaq olar ki, orada *bring* "gətirmək" feilinin keçmiş zaman forması brang kimi işlədilir. *Dialektoloji atlaslar* izoqlosların qeyd edildiyi dil areallarının xəritələrinin toplusu dilçi üçün çox böyük əhəmiyyəti olan bir alətdir.

Müxtəlif ölkələrdə yerli dialektlərə qarşı "danışanlar"ın münasibətləri müxtəlifdir. İngiltərədə yerli dialektlər az nüfuza malikdir; yuxarı sinfin nümayəndələri, onlara elə bir əhəmiyyət vermir, sosial cəhətdən daha çox imkan qazanan çalışır ki, hətta bəzi yarımstandart nitq formaları ilə mübadilə etmək hesabına olsa belə, bu dialektdə danışmasın. Almanlar isə, digər tərəfdən, lokal dialektlər üçün romantik tapıntılar əldə etmiş və son əsr ərzində bu sahədə xeyli irəli getmişlər. Orta sinfə məxsus şəxs öz sosial mövqeyindən tamamilə əmin olmadığı bir müddətdə, bəzi yuxarı sinfə mənsub olan almanlar özlərinə rəva bilirlər ki, öz ölkələrinin yerli dialektində danışaraq, yerli dialektdə danışan adamların utancaqlığını aradan qaldırsınlar. Almaniyada, İsveçrədə standart alman dilində danışanlar öz ailələri və qonşuları ilə

yerli dialektdə normal aralıq ünsiyyəti saxlayırlar.

III.7. Mürəkkəb dil kollektivində dilin əsas tipləri, bəsit şəkildə olsa da, aşağıdakı siniflərə bölünə bilər:

(1) bədii standart dil. Əksər rəsmi diskurslarda və yazıda işlənir (nümunə: *I haven none*);

(2) danışıq dili standartı. Bu, imtiyazlı sinfin nitqidir (nümunə: *I haven´t (any* və ya *I haven´got any* İngiltərədə yalnız cənub "public school" tələffüzü və intonasiyası ilə tələffüz edilir;

(3) əyalət standartı. Birləşmiş Ştatlarda danışıq dili standartından fərqlənmir, "orta" sinif tərəfindən istifadə olunur, lakin əyalətdən əyalətə fərqlər vardır (misal: *I haven´t any* və ya *I haven´got any* , İngiltərədəki kimi, lakin "public school" standartlarından yayınan və ondan fərqli tələffüzlə və intonasiya ilə deyilir.

(4) yarımstandart, aydın şəkildə (1), (2) və (3)-dən fərqlənir. Avropa ölkələrində "aşağı orta" sinfə mənsub olan adamlar tərəfindən danışılır. Birləşmiş Ştatlarda, demək olar ki, hamı tərəfindən, lakin əsasən (2–3) səviyyədə istifadə olunur, topoqrafik nöqteyi-nəzərindən fərqlənir, yerli fərqlər yoxdur (məsələn, *I ain't got none*);

(5) yerli dialekt. Ən az imtiyazlı sinfin nümayəndələri tərəfindən danışılır, yalnız Birləşmiş Ştatlarda qismən inkişaf etmişdir, İsveçrədə də ailə dili kimi və digər siniflərin nümayəndələri tərəfindən danışılır, hər kənddən-kəndə fərqlər vardır, rəngarənglik o qədər çoxdur ki, bəzən (234) bəndlərindəki dildə danışanlar birbirini çətin anlayır (məsələn: *a hae nane*)

III.8. Dil kollektivi daxilindəki dəyişikliklərlə bağlı apardığımız müşahidələr göstərir ki, dil kollektivinin üzvləri birbirinə o qədər oxşar danışa bilərlər ki, hər bir kəs digərini ba-

şa düşə bilsin və ya o qədər fərqlənə bilər ki, məsafəcə az aralıda yaşayan şəxslər bir-birini başa düşə bilməsin. Birinciyə misal bir neçə yüz nəfərdən ibarət olan hindu tayfası timsalında göstərilə bilər, sonuncuya isə bir-birindən uzaq ərazilərdə yayılmış ingilisdilli dil kollektivləri göstərilə bilər: məsələn amerikalı və Yorkşirli bir-birindən tamamilə fərqli dialektlərdə danışır. Əslində, bu iki halın arasından biz heç bir xətt çəkə bilmərik, çünki başa düşmə ilə başa düşməyə müvəffəq olmama arasında hər cür yayınmalar vardır. Amerikadan və Yorkşirdən olan adamın bir-birini başa düşübdüşməməsi, bu işə aidiyyatı olan iki kişinin intellekt səviyyəsindən, onların xarici dialektləri eşitmək təcrübəsindən, həmin anda onların əhvali-ruhiyyəsindən, deyilişini dəyərləndirə bilmə məqamından və s. kimi şeylərdən asılı ola bilər. Bir daha qeyd edirik ki, yerli dialektlə standart danışıq arasında sonsuz dərəcədə dərəcələnmə vardır: ya biri, yaxud da hər iki şəxs güzəştə getməlidir ki, danışanlar bir-birinə kömək edərək qarşılıqlı anlaşma yaratsınlar və bu güzəştlər, adətən, standart dil istiqamətinə yönəlir.

Bütün bunlar bir çox dil kollektivinin aydın hüdudlarını müəyyən etməyimizə mane olur. Aydın hallar o məqamlardır ki, bir-birini anlamayan dillər bir-biri ilə həmsərhəd olur, məsələn, deyək ki, bizim cənub-qərbimizdə ingilis və ispan dilləri kimi. Əgər sadəlik naminə hinduların və ya daha sonrakı immiqrantların dillərini nəzərə almasaq, bu ərazidə hər bir şəxs üçün ana dili ya ingilis, ya da ispan dilidir və biz xəyali bir xətt *dil sərhədi* çəkə bilərik ki, ingiliscə danışanları ispanca danışanlardan ayırsın. Bu dil sərhədi, əlbəttə, coğrafi cəhətdən sabit icmalar arasında sadə və sabit bir xətt kimi meydana çıxmayacaqdır. Orada ingiliscə danışan məskunlar

ispanca danışanlar arasında *dil adaları* formasında mövcud olacaq və ya əksinə, ispan dillilər ingiliscə danışan dil kollektivi tərəfindən əhatə olunacaqdır. Hər bir qrupdan olan ailələrin yə ya fərdlərin digərləri arasında yaşamaları meydana çıxacaq və onlar dil sərhəd xətləri ilə kiçik bir dairədə göstəriləcəkdir. Bizim dil sərhədimiz təkcə böyük qeyri-müntəzəm xətdən ibarət olmayıb, eyni zamanda, çoxsaylı dil adalarının ətrafında əyri cizgilərdən ibarət olacaqdır. Onlardan bəziləri bir ailəni, hətta bir fərdi əhatə edir. Onun geometrik mürəkkəbliyinə və gündən-günə dəyişkənliyinə baxmayaraq, bu dil sərhədi hər halda bir aydınlıq hasil edir. Bu həqiqətdir ki, dilçi alimlər ingilis dili ilə ispan dili arasında kifayət qədər elə oxşarlıqlar tapmışlar ki, bunlar, şübhəsiz, iki dilin bir-biri ilə qohum olduğunu sübut edir, lakin oxşarlıqlar və əlaqələr o qədər uzaqdır ki, bizim burada bəhs etdiyimiz məsələyə təsir göstərə bilməz.

Eyni sözləri, məsələn, alman və danimark dilləri haqqında söyləmək olar: Yutlandiya yarımadası boyunca Flenzburq şəhərinin şimalına doğru iki dil arasında sərhəd xətti çəkə bilərdik və bu dil sərhəd xətti daha kiçik miqyasda bizim cənubi-qərbimizdə ingilis-ispan sərhədi üçün çəkdiyimiz sərhəd xəttinin eyni xüsusiyyətlərini göstərəcəkdir. Belə halda, iki dil arasındakı oxşarlıqlar gələcək imkanlarımız barədə bizə xəbərdarlıq etməyə kifayət qədər əsas verir. Bu iki dil qarşılıqlı olaraq bir-biri üçün anlaşılmazdır, lakin bir-birinə o qədər yaxından oxşayır ki, bu əlaqəni linqvistik cəhətdən tədqiq etməyə lüzum qalmır. Əgər bir şəxs bu kimi şeyləri müqayisə etsə görər ki, fərq, deyək ki, Almaniyada Şlezviqdə danışılan yerli dialektlə, İsveçrədə danışılan dil arasındakı fərqdən çox deyildir. Almaniya ilə Danimarka sərhədində elə fərqlər özünü göstərir ki, bu fərqlər daxilində yerli cəhət-

dən fərqlənən şeylər böyük deyildir, yalnız o fərq ki, axırıncı halda siniflər arasında aralıq sinfi kimi meydana çıxmışdır, lakin Almaniya ilə Danimarka arasında biz heç bir aralıq dialekti tapmırıq.

Bu fərqin xalis nisbi təbiəti digər hallarda daha aydın şəkildə özünü büruzə verir. Biz fransız və italyan, İsveç və Norveç, polyak və Bohemiya dilləri haqqında ayrı-ayrı dillər kimi danışırıq, çünki bu kollektivlər siyasi cəhətdən ayrıdır və müxtəlif standart (ədəbi) dillərdən istifadə edirlər, lakin sərhəddə yerli nitq formalarında olan fərqlər bütün hallarda nisbətən cüzi, lakin həmin dil kollektivlərinin hər birinin daxilində aşkar etdiyimiz fərqlərdən heç də çox deyil. Beləliklə, belə bir sual meydana çıxır: bir-birinə qonşu dil formaları arasında dil sərhədini müəyyənləşdirməyə imkan verən fərqin dərəcəsi nə qədər olmalıdır? Təbiidir ki, bütün bu fərqləri olduğu kimi tərəzidə çəkə bilmərik. Bəzi hallarda, əlbəttə, bizim nomenklatur vərdişlərimiz dilçilik məsələlərinə tətbiq edilə bilmir. Bizim alman, daçflamand adlandırdığımız dillər arasında yerli dialektlər heç bir sərhəd xətti kimi özünü göstərmir; daçalman dil ərazisi linqvistik baxımından bir vahiddir, lakin ayrılma, başlıca olaraq, siyasidir. Siyasi birləşmələr linqvistik mənada yalnız müxtəlif standart (ədəbi) dillərdən istifadə edirlər. Bütövlükdə, *dil kollektivi* termini yalnız nisbi dəyərə malikdir. Qruplar arasındakı ünsiyyət imkanları və ya hətta fərdlər arasında olan ünsiyyət imkanları sıfırdan başlayaraq ən incə fərqlərə qədər gətirib çıxarır. Təbiidir ki, aralıq dərəcələri insanın rifah halının yaxşılaşmasına və tərəqqi etməsinə olduqca köməklik göstərir.

III.9. Ünsiyyətin imkanları artır və dil kollektivinin sərhədləri başqa bir mühüm amil sayəsində, daha konkret de-

sək, insanların əcnəbi dillərdən istifadəsi nəticəsində heçə endirilir. Bunu yalnız müasirliklə bağlamaq doğru deyildir; daha ibtidai sivilizasiyaya mənsub xalqlarda, məsələn, bəzi Amerika hindu qəbilələrində, yaxşı tərbiyə almış şəxslər birdən çox qonşu qəbilənin dillərində danışırlar. Xarici dildə danışmaq amili heç bir ölçüyə gəlmir, çünki onun xeyri həmişə aşağı istiqamətdə hərəkət edir və elə səthi bilik verir ki, demək olar ki, əməli istifadəyə yaramır. Əgər xarici dili öyrənən şəxs həmin dildə özünü ifadə edib ünsiyyət qura bilirsə, onu həmin dilin *əcnəbi danışanı* hesab etmək olar. Biz artıq görmüşük ki, məsələn, ingiliscə və ya malayca kimi bəzi dillərin önəmi qismən əcnəbi danışanların onlardan istifadəsi ilə bağlıdır. Məsələn, Hindistanda təhsilli təbəqələr arasında, ingilis dilindən əcnəbilər arasında ünsiyyət vasitəsi kimi kifayət qədər tez-tez istifadə edilir, çünki onlar ana dillərində bir-birini başa düşə bilmirlər.

Bəzi adamlar öz ana dillərində danışmaqdan əl çəkir, onu xarici dillə əvəz edirlər. Bu, Birləşmiş Ştatlarda mühacirlər arasında tez-tez baş verir. Əgər mühacir öz ölkəsindən çıxanların əhatəsində qalmırsa və ya xüsusən də, mənşə etibarı ilə öz millətindən olan adamla evlənmirsə, onun ana dilindən istifadə etmək imkanı olmayacaqdır. Xüsusilə bu, daha az savadlı adamlarda baş verir və bir müddətdən sonra o, ana dilini ola bilər ki, tamamilə unutsun. Bu tipdən olan insanlar ana dillərini eşitdikdə onu başa düşürlər, lakin artıq o dildə sərbəst və ya başa düşülən şəkildə danışa bilmirlər. Belə adamlarda *dilin dəyişməsi* baş verir. Onların indi ünsiyyət vasitəsi yalnız ingilis dilidir, lakin bu dil onlar üçün ana dili deyil, *götürmə* dildir. Bəzən bu adamlar ingilis dilini olduqca qeyri-mükəmməl bilir və ona görə o vəziyyətə düşürlər ki, heç bir dildə mükəmməl danışa bilmirlər.

Digər ümumi *dil dəyişməsi* halı mühacirlərin uşaqlarında baş verir. Onların valideynləri evdə tez-tez ana dillərində danışırlar, lakin uşaqlar bayırda oyun oynamağa çıxan kimi və ya məktəbə gedən kimi, bundan imtina edir, vaxt keçdikcə hər şeyi unudur və yalnız ingilis dilində danışırlar. İngilis dili bizim adlandırdığımız kimi, onlar üçün *böyüklərin dilinə* çevrilir. Ümumiyyətlə, onlar ingilis dilində əla danışırlar, elə danışmağa çalışırlar ki, danışdıqları dil yerli ingilis dilində danışanların danışığından fərqlənməsin – bəzi hallarda ana dillərinin xüsusiyyətləri üstün gəlir, baxmayaraq ki, onlar ana dillərində çox pis danışırlar və ya heç danışa da bilmir, onu passiv şəkildə başa düşə bilirlər. Uelsdə buna bənzər bir halın öyrənilməsi zamanı aydın olmuşdur ki, Uels dilində danışan valideynlərin uşaqları öz dillərini ingilis dilinə dəyişmiş və bu proses uşağın inkişafını ləngitmişdir.

III.10. Bəzən xarici dildə danışan şəxs danışdığı xarici dilə o dərəcədə yaxşı yiyələnir ki, bu, onu həmin dildə özünün doğma dili kimi danışanlardan seçilməz edir. Dil dəyişmənin belə halları arabir, yaşlı vaxtda, amma daha çox uşaq vaxtı müşahidə olunur ki, sonuncu haqqında biz demişik. Xarici dili kamil öyrənilməsi ana dilinin itirilməsi ilə müşayiət olunmursa, bu, *bilinqvizm (ikidillilik)*, yəni hər iki dilə ana dili kimi yiyələnmə ilə nəticələnir. İlkin uşaqlıq illərindən sonra çox az-az adamlarda kifayət qədər əzələ, yaxud sinir sistemi sərbəstliyi və ya kifayət qədər imkanlar və boş vaxtlar tapılır ki, xarici dili kamil səviyyədə bilsinlər; belə hallarda *bilinqvizm* kiminsə təsəvvür etdiyindən daha çox adi hala çevrilir. Əlbəttə, xarici dildə yaxşı danışanın *ikidilli* ola bilməsi üçün onun dilə yiyələnmənin hansı kamillik dərəcəsinə malik ol-

masını müəyyənləşdirmək çətindir; burada fərqləndirmə nisbidir.

Adətən, ikidilli olan şəxs özünün ikinci dilinə uşaqlıqda yiyələnir. Bu, daha çox dil sərhədinə yaxın olan icmalarda və ya xarici dil əhatəsində yaşayan ailələrdə, yaxud valideynlər müxtəlif dillərin daşıyıcıları olduğu hallarda baş verir. Çoxlu varlı-dövlətli avropalı ailələr öz uşaqlarını dayələr və ya tərbiyəçilər tutmaqla, ikidilli edirlər. Təhsilli isveçrəli alman o mənada ikidillidir ki, o həm yerli dialektdə, həm də ondan çox fərqlənən yüksək ədəbi alman dilində danışa bilir. Birləşmiş Ştatlarda yaxşı təhsil almış mühacirlər əksər hallarda öz uşaqlarını ikidilli etməyə müvəffəq olurlar; *dil dəyişmə* prosesi daha çox az imtiyazlı qruplarda baş verir. Bütün bu hallarda açıq-aşkar ikidilli adamın həyatında iki dil nə isə başqa bir rol oynayır. Adətən bir dil ailədəki *ünsiyyət dili* (home language) hesab edilir, digər dildən isə daha geniş əhatədə istifadə olunur; başqa münasibətlər də mümkün ola bilər. Rəssamlar və elm adamları arasında daha tez-tez rast gəldiyimiz ikidillilik (bilinqvizm) halları da uşaqların inkişafına əlverişli təsir göstərir; digər tərəfdən isə, bu sadəcə o deməkdir ki, ikidillilik uşaqlıqda daha ümumi əlverişli mühitin nəticəsidir.

Tərcümə edənlər: V.Ərəbov, Q.Heybətov

Eduard Sepir
(1884-1939)

Görkəmli dilçi-antropoloq Frans Boasın istedadlı davamçılarından biri də Eduard Sepirdir. O, strukturalizmin Amerika məktəbinin tərəqqisində böyük rol oynamışdır. Amerika dilçi-antropoloqu Eduard Sepir həm də dilçilikdə

etnolinqvistika cərəyanının yaradıcılarından hesab olunur. Müasir dilçilik cərəyanlarından olan etnolinqvistika dillə etnosun, mədəniyyətin, adət-ənənənin, əxlaq-davranışın əlaqələrini öyrənir.

E.Sepirin dilçilik görüşləri "Dil" , "Dilçiliyin elm kimi vəziyyəti" və s. kimi araşdırmalarında öz inikasını tapmışdır."Dil" onun həm strukturalist, həm də etnolinqvist baxışlarını əks etdirir. E.Sepiri ən çox düşündürən məsələ dil və mədəniyyət məsələsi idi. E.Sepir yazırdı ki, biz dilə mədəniyyətin simvol bələdçisi kimi baxa bilərik. "Dil" də o da göstərilir ki," dilin mədəniyyəti təyin və ifadə etməsi, ötürməsi şübhə doğurmur".

E.Sepirin elmi yaradıcılığında maraq doğuran (ona nüfuz gətirən!) məsələlərdən biri də onun tipoloji təsnif ideyalarıdır. E.Sepirin pilləli tipoloji təsnifi XX əsrin ən mükəmməl təsnifi hesab edilir ki, o, haqlı olaraq təsnifini bir neçə meyar əsasında aparmışdır.

Dil

Nitq qabiliyyəti və qaydaya salınmış dil bütün məlum insan birliklərini səciyyələndirir. Heç yerdə və heç zaman heç bir tayfaya rast gəlinməmişdir ki, dil bilməsin və bunun əleyhinə söylənənlərin hamısı nağıldan başqa bir şey deyil. Lüğət tərkibinin məhdudluğu üzündən müşayiətedici jestlərin köməyi olmadan keçinə bilməyən, ona görə də qaranlıqda ünsiyyətdən məhrum olan xalqların mövcudluğu barədəki nağılların da heç bir əsası yoxdur. Həqiqət bundan ibarətdir ki, dil bizə məlum olan bütün xalqlarda ifadənin və məlumatın mükəmməl vasitəsidir. Mədəniyyətin bütün aspekt-

ləri içərisində, heç şübhəsiz, yüksək inkişaf formalarına dil nail olmuş və ona məxsus kamillik bütövlükdə mədəniyyətin inkişafının ilkin şərtidir.

Bir sıra səciyyəvi cəhətlər mövcuddur ki, canlı və ölü, yazılı və yazısız olmaqla bütün dillərə aiddir. Birincisi, dil öz əsası etibarilə ünsiyyətə xidmət edən fikir və hisslərin ifadəsi üçün fonetik simvollar sistemidir. Başqa sözlə, dil simvolları ali məməlilərin qırtlağı ilə əlaqədar səs fəaliyyətinin diferensiasiya olunmuş məhsuludur. Nəzəri olaraq güman etmək mümkündür ki, dilin quruluşuna bənzər nə isə jestlərdən və ya bədənin digər hərəkətlərindən də nəşət edə bilərdi. İnsanın artıq yüksək inkişaf mərhələlərində yaranan yazının şifahi dil sisteminin birbaşa imitasiya faktı olması sübut edir ki, dil tamamilə texniki və məntiqi ixtira olaraq artikulyasiya edilən səsin istifadəsindən asılı deyil. Hər halda insanın həqiqi tarixi və antropoloji faktların bolluğu belə bir vəziyyətin xeyrinə şəksiz-şübhəsiz şahidlik edir ki, səsli dil ünsiyyət simvolizminin bütün digər növlərini qabaqlamışdır; belə ki, sonuncular ya yazı kimi əvəzedici funksiyada istifadə olunmuş, ya da jestlər kimi yalnız nitqi müşayiət etmişdir. Dil fəaliyyəti üçün istifadə edilən nitq aparatı bizə məlum olan bütün xalqlarda eyni cürdür. O, zərif tənzimlənən səs tellər ilə birlikdə qırtlaq, burun, dil, sərt və yumşaq damaq, diş və dodaqlardan ibarətdir. Hərçənd nitqi yaradan ilkin impulslar qırtlaqda lokallaşır, lakin daha dəqiq fonetik artikulyasiya, əsas etibarilə, dil əzələlərinin fəaliyyətilə şərtlənir ki, birinci funksiyası səslərin istehsalına heç bir dəxli olmayan həmin orqansız real nitq fəaliyyətində emosional qışqırıqların bizim dil adlandırdığımız hadisəyə qədər inkişafı mümkün olmazdı. Məhz bu səbəbdən nitq (speech), hətta dil (language) özü, adətən, həmin orqanın adı ilə "dil" (longue) adlanır.

Beləliklə, dil hətta səslərin sadə istehsalına münasibətdə belə, sadəcə bioloji funksiya daşımır, çünki "nitq orqanı" öz işini görməyə hazır olmamışdan əvvəl qırtlağın ilkin hərəkət vərdişləri dil, labial və nazal modifikasiyalar vasitəsilə fövqəladə dərəcədə əsaslı yenidənqurmaya məruz qalmalıdır. Ola bilər ki, "nitq orqanı" müvafiq orqanların ilkin funksiyalarına müvafiq gəlməyən bu dağınıq (diffused) və fizioloji fəallığın müxtəlif növlərinin ikinci dərəcəli kompleksi olan dil bilavasitə cismani ifadəliliyindən azad olsun.

Bununla belə, bütün dillərin səciyyəvi xüsusiyyəti yalnız onların fonetikliyi yox, həmçinin "fonematik"liyidir. Sadə duyğu olaraq bilavasitə qəbul edilən ardıcıl formasında səs artikulyasiyası ilə həmin səs ardıcıllığının söz, söz birləşməsi və cümlə kimi simvolik mənalı vahidlərə mürəkkəb strukturlaşması arasında fonetik seçim və ümumiləşmənin olduqca maraqlı elə prosesləri baş verir ki, onlar diqqətdən asanlıqla yayınsa da, dilin səciyyəvi simvolik aspektinin inkişafı üçün fövqəladə dərəcədə vacibdir. Dil yalnız artikulyasiya edilən səslərin ardıcıllığı deyil, onun mənalı strukturu "fonetik mövqelər" və ya səs vahidlərinin fiksasiya olunmuş kəmiyyətinin təhtəlşüur seçimindən asılıdır. Hər bir konkret istifadədə onlar bəzi fərdi modifikasiyalara məruz qalır. Lakin bu halda fövqəladə dərəcədə vacib olan odur ki, səslərin fonem olaraq təhtəlşüur seçimi nəticəsində müxtəlif fonetik mövqelər arasında müəyyən psixoloji maneə baş qaldırır. Və beləliklə, nitq yalnız səslərin emosional axını olaraq qalmayıb məhdud miqdarda vahiddən ibarət olan simvolik mənalı əsərə çevrilir. Burada musiqi nəzəriyyəsi ilə birbaşa analogiyadan söhbət gedə bilər. Ən gözəl və dinamik simfoniya belə maddi baxımdan fərqlənən bir sıra musiqi vahidi və ya not-

dan qurulur ki, öz fiziki reallıqları etibarilə bir- birinin üzərinə yeriyərək fasiləsiz səslər axını yaradırlar. Lakin estetik aspektdə bir-birindən kəskin şəkildə ayrıldıqlarından onlar mənalı münasibətlərin mürəkkəb riyazi formullarını yarada bilərlər. İstənilən dilin fonemləri bu dilə məxsus bütöv bir sistem təşkil edir. Və həmin dilin sözlərinin heç də həmişə gerçək davranışa uyğun olmasa da, uzaqbaşı təhtəlşüur nəzəriyyə səviyyəsində məhz bu fonemlərdən qurulması lazım gəlir. Dillər öz fonematik strukturlarına görə çox rəngarəngdir. Lakin sözügedən strukturun detalları necə olursa olsun, fakt faktlığında qalır ki, aydın müəyyənləşmiş fonematik sistemə malik olmayan dillər mövcud deyil. Səslə fonem arasındakı fərqi sadə bir ingilis dili misalı ilə göstərmək olar. Əgər matter 'iş' sözü, məsələn, What's the matter? 'İşlər necədir?' ifadəsində aydın tələffüz edilməyib, t səsinə onun istehsalı zamanı fiziki xarakteristikasının ifadəsi üçün zəruri olan enerji sərf olunmasa, d- ya keçmə cəhdi meydana çıxa bilər. Orası da var ki, həmin "fonetik" d funksional d kimi deyil, yalnız t- nın xüsusi ekspressiv variantı kimi qəbul ediləcəkdir. Aydındır ki, matter sözündəki t səsi ilə onun d şəkilli variantı arasındakı funksional münasibət town 'şəhər' sözündəki t ilə down 'aşağı' sözündəki d arasındakı münasibətdən tamamilə fərqlidir. Hər bir dildə tam fonetik (ekspressiv və ya qeyri-ekspressiv) variantlarla fonematik xarakterli simvolik funksiya daşıyanlar arasındakı fərqi aşkarlamaq olar.

Bütün məlum dillərdə fonemlər müəyyən və şərti ardıcıllıq yaradırlar ki, onlar danışanlar tərəfindən dərhal əyani təyinatı olan mənalı simvollar olaraq anlaşılır. Məsələn, ingilis dilində g ilə o -nun birləşməsi üzvlənməyən vəhdətə malik go getmək sözünü verir: həmin simvolda əks olunan mənanı

g ilə o -nun "mənalar"ının ayrılıqda götürülmüş birləşməsindən almaq olmaz. Başqa sözlə, hərgah dil mexanizminin funksional vahidi fonemdir, ancaq simvolik yaradıcılıq olaraq dilin həqiqi vahidləri həmin fonemlərin şərti birləşməsidir. Bu cür vahidlərin ölçüsü və onların təşkili qanunları müxtəlif dillərdə geniş miqyasda dəyişir, onlara müncər edilmiş məhdudiyyət isə müvafiq dilin fonematik mexanizmini və ya "fonologiya"sını yaradır. Lakin səs simvolizminin nəzəri əsasları bütün dillər üçün eyni olaraq qalır. Bölünməz simvolun formal davranışı da dünyanın müxtəlif dillərində geniş hüdudda dəyişir. Bu cür vahidlər timsalında ya indicə verdiyimiz ingilis dili örnəyində olduğu kimi bütöv söz, ya da goodness sözündəki - ness suffiksinə bənzər ayrı- ayrı mənalı elementlər çıxış edə bilər. Mənalı və bölünməz söz yaxud sözün komponenti ilə rabitəli nitqin bütöv mənası arasında bu və ya digər dildə danışanların intuitiv olaraq istifadə etdikləri formal prosedurların bütün mürəkkəb sferası yerləşir ki, bunda məqsəd nəzəri olaraq təcrid edilmiş vahidlərdən estetik və funksional baxımdan tamhüquqlu simvolik birləşmələr qurmaqdır. Həmin prosedurlar qrammatikanı yaradır ki, onu hər hansı dildə danışanın intuitiv olaraq anladığı formal mexanizmlərin sistemi kimi təyin etmək olar. Görünür, mədəni sistemlərin başqa elə bir tipləri mövcud deyil ki, bizə məlum olan dillərin morfologiyası kimi təəccüb ediləcək qədər dəyişə və bu qədər detal bolluğuna malik ola bilsin. Detalların sonsuz rəngarəngliyinə baxmayaraq təsdiq etmək olar ki, bütün qrammatikalar eyni dərəcədə dayanıqlıdır. Bir dil qrammatik baxımdan digər dildən daha mürəkkəb və çətin ola bilər, bununla belə təsdiq etmək (bəzən bu edilir) mənasızdır ki, bir dil o birindən daha qrammatik və

ya formaldır. Dilimizin strukturunun rasional dərkinə olan cəhdlərimiz nitqin və onu öyrənən elmi fənnin daha dərrakəli olmasına qadirdir ki, əlbəttə, öz- özlüyündə psixoloji və sosioloji baxımlardan maraqlıdır, lakin bu, dildə formalar məsələsinə kifayət qədər kənar münasibət ifadə edir.

Həmin ümumi formal xüsusiyyətlərlə yanaşı, dil elə müəyyən psixoloji keyfiyyətlərə malikdir ki, onun öyrənilməsini sosial elmlər sahəsində araşdırmalar üçün daha vacib edir. Birincisi, dil bu və ya digər mədəniyyətin qadir olduğu səviyyədə istənilən obyektin işarələnməsi və istənilən mənanın ötürülməsi üçün mütləq eynicinsli vasitələrdən istifadə edən mükəmməl simvolik sistem kimi başa düşülür. Və bu, ondan asılı deyil ki, həmin vasitələr real məlumatlar, yaxud məlumatın təfəkkür kimi ideal əvəzedicisi formasında meydana çıxır. Hər cür mədəniyyətin məzmunu onun dilinin köməyi ilə ifadə oluna bilər. Dil materialının nə mənalı, nə də formal elə elementləri mövcud deyil ki, hər hansı real mənanı simvolizə etməsin, başqa mədəniyyətlərə mənsub olan kiməsə münasibət göstərsin. Yeni mədəniyyət təcrübəsi tez-tez dil ehtiyatlarının genişlənməsini zəruri edir, lakin bu cür genişlənmə heç zaman artıq mövcud material və ya formal ehtiyatların ixtiyari tamamlanması səciyyəsi daşımır. Bu, istifadə edilən prinsiplərin yalnız sonrakı tətbiqi olub çox hallarda köhnə sözlərin mənalarının metaforik genişlənməsindən çox da o yana keçmir. Dərk etmək olduqca vacibdir ki, dilin bu və ya digər forması qurulan kimi o həmin dildə danışana elə mənalar çatdıra bilər ki, onlar təcrübənin səciyyəvi cəhətlərinin sadəcə olaraq surətini çıxarmır, əhəmiyyətli dərəcədə izah etməli olur ki, potensial mənaların təcrübənin xam materialına proyeksiyası necədir. Bütün həyatı boyu bircə fil görmüş insan hər halda heç bir tərəddüd etmədən on fil,

milyonlarla fil, fil sürüsü, iki- iki, yaxud üç- üç gedən fillər, fil nəsli barədə danışır – bu ona görə mümkün olur ki, dil təcrübəni nəzəri olaraq vahidlərə ayrılan elementlərə üzvləndirmək və tədricən potensial mənaları real mənalara keçirməyi gerçəkləşdirmək gücünə malikdir. Və bu, insan mövcudluğuna imkan yaradır ki, ona bilavasitə verilmiş fərdi təcrübənin hüdudlarını aşıb ətraf aləmin ümumqəbul olunmuş anlamına daha çox qovuşsun. Həmin ümumqəbul olunmuş anlam, mədəniyyəti yaradır ki, o, yalnız birbaşa müşahidəyə gələn az-çox səciyyəvi ictimai davranış stereotiplərinin təsviri vasitəsilə adekvat təyin edilə bilməz. Dil təkcə bu cür sadə mənada evristik deyil ki, verilmiş elementar nümunədə göstərildi, daha geniş mənada onun formalarının bizim üçün gerçəkliyi müəyyən müşahidə və izah üsullarını təyin etməsi mənasında da belədir. Və bu, o deməkdir ki, elmi təcrübənin artması miqyasında biz dilin təsirlərilə mübarizə aparmağı öyrənməliyik. The grass waves in the wind "Ot külək altında dalğalanır" (hərfən: küləkdə) cümləsi öz dil forması etibarilə The man works in the house "İnsan dam altında işləyir" (hərfən: evdə) kimi məkan münasibətləri barəsindəki eyni emprik biliklər sinfinə (relational class of experience) gedib çıxır. Aydındır ki, dil həmin cümlənin mənsub olduğu emprik təcrübənin ifadəsi probleminin həllinin aralıq üsulu olaraq öz faydalılığını sübut etmişdir, belə fəaliyyət və lokallaşma kimi məntiqi münasibətlər üçün müəyyən simvolların dərk olunmuş ifadəsini təmin eləmişdir. Əgər biz cümləni poetik və metaforik olaraq qəbul ediriksə, bu, ondan irəli gəlir ki, təcrübənin digər daha mürəkkəb tipləri müvafiq simvolik üsullarla işarələnməklə mövcud vəziyyəti yenidən izah etməyə və məsələn, aşağıdakı şəkildə deməyə

imkan verir: The grass is waved by the wint "Ot külək tərəfindən dalğalandırılır", yaxud The wind causes the grass to wave "Külək otu dalğalanmağa məcbur edir". Ən başlıcası odur ki, gerçəkliyi izah üsulumuz nə qədər süni görünməsindən asılı olmayaraq, biz heç zaman nitqimizin formaları ilə müəyyənləşmiş inikas formalarından və münasibətləri ötürmə üsulundan kənara çıxa bilmək iqtidarında deyilik. Beləliklə, Friction causes such and such a result "Sürtünmə hansısa və hansısa nəticəyə gətirib çıxarır" frazası The grass waves in the wind "Ot külək altında dalğalanır"dan çox da fərqlənmir. Dil emprik təcrübəni tədqiqdə bizə eyni zamanda həm kömək edir, həm də mane olur. Və bu, müştərək, eləcə də əks təsir proseslərinin detalları müxtəlif mədəniyyətlərin formalaşdırdığı zərif məna çalarlarında kənara qoyulur.

Dilin sonrakı psixoloji səciyyəsi belə bir faktda üzə çıxır ki, hərgah ona məlumat verən, işarələyən və ya bilavasitə təcrübəni başqa üsulla əvəz edən simvolik sistem kimi baxılır, lakin özünün konkret funksionallaşmasında o, nə bilavasitə təcrübədən ayrıdır, nə də onunla paralel dayanır, ona sıx yapışmış olur. Və bu, magik ovsunların əsasında dayanmaqla xüsusilə primitiv xalqlarda təsdiq sözlərlə əşyalar arasında fiziki eynilik və ya birbaşa uyğunluğun mövcudluğu barədə geniş yayılmış inamla təsdiq edilir. Hətta bizim mədəni səviyyəmizdə də obyektiv gerçəkliklə ona istinad edən dilimizin simvolları arasında kəskin sərhəd qoymaq çox hallarda çətindir: əşyalar, keyfiyyətlər və hadisələr ümumən adlandırıldıqları kimi də qəbul edilir. Normal insan üçün hər cür təcrübəyə, istər gerçək, istərsə də potensial olsun, verbalizm hopur. Bu onunla izah edilir ki, məsələn, bir çox təbiət həvəskarları niyə hiss etmir ki, onlar təbiətlə o vaxta qədər real kontaktda olurlar ki, hələ çox sayda çiçəklərin

və ağacların adlarını bilmirlər. Sanki gerçəkliyin ilkin aləmi sözlər dünyasıdır. Və heç kim o iqtidarda deyil ki, təbiəti hansısa magik obrazla ifadə edən terminologiyaya yiyələnmədən ona yaxınlaşsın. Dillə təcrübə arasındakı məhz həmin daimi qarşılıqlı təsir dili riyazi simvolika və ya bayraqlarla siqnal vermək kimi saf və sadə simvolik sistemlərin laqeyd sırasından kənara çıxarır. Dil simvolu ilə təcrübə elementinin bu qarşılıqlı sarmaşması yalnız doğmalıq assosiasiyası faktı deyil, həmçinin elə bir faktdır ki, konkret vəziyyətlə şərtlənir. Anlamaq vacibdir ki, dil təcrübə ilə sadəcə münasibətə girmir, yaxud hətta onu sadəcə formalaşdırmır, izah etmir, açmır; o həmçinin təcrübəni bu mənada əvəz edir ki, gündəlik həyatımızın böyük hissəsini təşkil edən şəxslərarası davranış prosesində dil və fəaliyyət bir- birini qarşılıqlı şəkildə tamamlayaraq möhkəm bərkidilmiş zəncirdə sıx qarşılıqlı təsirdə olan halqalar kimi bir birinin işini görür. Əgər kimsə deyirsə ki, "Mənə borc dollar ver", mən heç bir söz demədən ya çıxarıb ona pul verə bilərəm, ya da bu sözləri söylərəm: "Yoxumdur" və ya "Sabah verərəm". Bütün bu cavablar davranışın bəzi daha ümumi sxemləri baxımından quruluşca ekvivalentdir. Tamamilə aydındır ki, əgər təhlil zamanı dil qarşıda simvolik işarələr sistemi kimi dayanırsa, davranış prosesində oynadığı psixoloji rolu nəzərə alsaq, heç də ona gətirib çıxarmır. Səbəbi, demək olar ki, insana unikal dərəcədə yaxın olmasıdır. Həmin yaxınlığa görə dil digər məlum simvolik hadisələrdən kəskin şəkildə ayrılır. Görünür, ona görə ki, o, çox erkən yaşlarda mənimsənilir.

Məhz erkən yaşlardan və tədricən öyrənilməyə başlandığından konkret vəziyyətin xüsusiyyətləri və tələbləri ilə daimi əlaqədə olaraq dil, özünün kvazi-riyazi formasına bax-

mayaraq, saf işarə sistemi funksiyasında nadir hallarda çıxış edir. Bu cür olmağa o, yalnız elmi nitqdə cəhd göstərir, lakin həmin halda da ümumən işarələnmə idealının dilə aid edilməsi ciddi şübhələr doğurur. Adi nitq bilavasitə ekspressivliklə səciyyələnir. Və həmişə nəzərə almaq lazımdır ki, səslərin, sözlərin qrammatik formaların, söz birləşmələrinin və cümlələrin saf formal sistemi, əgər ona istisnasız olaraq davranış nöqteyi-nəzərindən baxılsa, məqsədli və ya məqsədsiz ekspressiv simvolika tərəfindən mürəkkəbləşdirilir. Sözlərin seçimi konkret kontekstdə həmin sözlərin ifadə etdiyi hərfi mənalara nə isə tamamilə əks olanı verə bilər, danışanın şəxsi münasibətləri baxımından hansı psixoloji status tutmasından asılı olaraq eyni xarici məlumat müxtəlif cür şərh edilir. Və onu da nəzərə almaq lazımdır ki, həyəcanlanma, qəzəb və ya qorxu kimi ilkin emosiyalar tələffüz olunan sözlərə əks mənalar verəcək qədər təsir göstərirmi. Yeri gəlmişkən, çəkinmək üçün əsas yoxdur ki, dilin ekspressiv xarakteri diqqətdən kənarda qala bilər. O qədər üzdədir ki, diqqəti həmişə cəlb etmişdir. Nə qədər anlaşılmaz olsa da, tez-tez inkar edirlər ki, qrammatikalarda təsvir olunan kvazi-riyazi sxemlər (biz onları adlandırdığımız kimi) hərçənd kontekst baxımdan gerçək deyil, ancaq hər halda böyük intuitiv həyatiliyə malikdir. Praktikada heç zaman ekspressiv sxemlərdən hüdudlanmayan həmin sxemləri normal fərd hər halda asan ayıra bilər. İş burasındadır ki, söz və ya frazaların böyük bir hissəsinin, demək olar ki, öz mənalarında hüdudsuz dərəcədə tərəddüd göstərmələri şahidlik verir ki, dil davranışında ayrılması mümkün olan iki cür stereotip qeyri-adi mürəkkəb kompleksdə birləşir. Ümumi şəkildə onları işarələmə stereotipləri və ekspressiya stereotipləri kimi müəyyənləşdirmək olar.

Dil təcrübənin mükəmməl simvolizasiya sistemidir, konkret davranış kontekstində fəaliyyətindən ayrılmazdır və ekspressivliyin saysız-hesabsız nüanslarının daşıyıcısıdır – şübhə doğurmayan bütün bunlar psixoloji faktlardır. Lakin dördüncü psixoloji xüsusiyyət də mövcuddur ki, bu, təhsilli insanların dilinə daha çox aiddir. Həmin xüsusiyyət ondan ibarətdir ki, dil vərdişində gerçəkləşən mənalı forma sistemləri nitqdə öz maddi bütövlüklərini saxlamağa heç də həmişə sözün müstəqim mənasında ehtiyac duymur. Yazının tarixi, öz mahiyyəti etibarilə, təsəvvürün qrafik vasitələri əsasında müstəqil simvolik sistem formalaşdırmaq cəhdinin zənciridir. O, belə bir tədrici anlama ilə müşayiət edilmişdir ki, səsli dil istənilən qrafik dildən daha güclü simvolik sistem olduğundan yazı sistemində əsl proqres onun ilkin olaraq nəşət etdiyi prinsiplərdən imtinadan ibarətdir. Fəaliyyətdə olan istər əlifba, istərsə də başqa yazı sistemləri özlərini faktik olaraq nitqin az çox dəqiq ifadə üsulu kimi təqdim edir. Başlanğıc dil sistemi daha çox təcrid olunmuş ifadə üsullarında da qorunub saxlana bilər ki, buna ən yaxşı nümunə Morze teleqraf kodudur. Maraqlıdır ki, dilin bir formadan başqasına çevrilməsi prinsipi dünyanın yazısız xalqları üçün də yad deyil. Hər halda Qərbi Afrika sakinlərinin istifadə etdiyi baraban və ya buynuzun köməyi ilə verilən siqnalların bəzi növləri, mahiyyətcə, çox hallarda kiçik fonetik təfərrüatlarına qədər nitqin struktur təşkilinin ifadəsi vasitəsidir.

Dilin mənşəyini müəyyənləşdirmək üçün az cəhdlər göstərilməsə də, həmin cəhdlərin böyük hissəsi ağlabatan təfəkkür çalışmaları hüdudlarından kənara çıxmır. Bütövlükdə, dilçilər bu problemə marağı itirmişlər. İki səbəbə görə. Birincisi, məlum olmuşdur ki, həqiqi primitiv (psixoloji mənada)

dillər mövcud deyil. Belə ki, arxeologiya sahəsindəki müasir tədqiqatlar bəşər mədəniyyətinin keçmişini qeyri-məhdud dərəcədə qədimlərə aparmışdır və ona görə də real mövcud olan dillərin tədqiqi qarşısında açılmış perspektivlərin hüdudlarından kənara çıxmaq heç bir məqsədə xidmət etmir. Ikincisi, bizim psixoloji və xüsusilə simvolik proseslər barədəki biliklərimiz bütövlükdə o qədər əsaslı və dərin deyil ki, nitqin mənşəyi problemlərin həlli zamanı real yardım edə bilsin. Görünür, dilin mənşəyi problemi o problemlər sırasına daxil deyil ki, yalnız dilçiliyin vasitəsilə həll etmək mümkün olsun. Çox ehtimal ki, o, simvolik davranışın və onun ilkin olaraq yalnız ekspressiv funksiya yerinə yetirən qırtlaq sahəsində ixtisaslaşmasının genezisi kimi daha geniş bir problemin tərkib hissəsi olaraq meydana gəlsin. Ola bilər ki, uşaqların davranışlarının daha əsaslı öyrənilməsi hazırki şəraitdə bəzi vacib nəticələr çıxarmağa qadirdir. Lakin bunula belə bu cür eksperimentlər əsasında tarixəqədərki insanın davranışları barədə qərar çıxarmaq təhlükəlidir. Güman etməyə daha çox əsas var deyək ki, bugün ali meymunların davranışlarının fəal tədqiqinin aparılması nitqin mənşəyi barədə bir sıra təsəvvürlərin formalaşdırılmasına kömək edəcəkdir.

Ilkin nəzəriyyələrdən az-çox məşhurları nidalar və onomatopoetik nəzəriyyələridir. Birincisi nitqi ekspressiv səviyyəli qeyri-ixtiyarı qışqırıqlara çəkir, ikincisi isə belə bir ehtimaldan çıxış edir ki, hazırki dillərin sözləri təbiət səslərini təqlidin şərti formalarını əks etdirir. Bu nəzəriyyələrin hər ikisinə iki ölümcül qüsur xasdır. Hərçənd həm nida, həm də onomatopoetik elementlərə, doğrudan da, dillərin əksəriyyətində rast gəlinir, ancaq onlar, bir qayda olaraq, nisbətən əhəmiyyətsiz olub daha adi dil materiyası ilə bəzi ziddiyyətlər-

də mövcuddur. Elə onların hər dəfə yenidən yaranması faktının özü şahidlik edir ki, onlar ilk növbədə bilavasitə referensial simvolikanın əsas səthini kəsən ekspressiv nitq plastına aiddir. İkinci qüsur daha ciddidir. Dilin mənşəyi probleminin mahiyyəti dilin tarixi nüvəsini yaradan səs elementlərinin tiplərini müəyyənləşdirmək cəhdində axtarılmır. Hər şeydən əvvəl belə bir məsələnin izahına çalışılır ki, hər hansı növdən olan səs artikulyasiyaları özünün ilkin ekspressiv dəyərindən hansı üsulla azad olur. Indiki zamanda bu məsələ ilə bağlı nə demək olarsa, onunla yekunlaşacaqdır ki, hərçənd nitq mükəmməlliyə gətirilib çıxarılmış qurğu olaraq tamamilə insana məxsus nailiyyətdir, lakin onun mənbələri, görünür, ali meymunun konkret vəziyyətin detallarından ümumi forma və ya sxemlərin çıxarılması vasitəsilə bir sıra məsələləri həll etmək qabiliyyətinə qədər gedir. Vəziyyətin bəzi seçilmiş elementlərini arzu olunan bütövün işarələri kimi təhlil etmək vərdişi ibtidai insanı tədricən hələ aydın olmayan simvolizm hissiyatına gətirə bilər, sonra isə uzun zaman ərzində və müəyyənləşdirilməsi çətin ki mümkün olan səbəblər üzündən təcrübənin çox hallarda simvolik mənada izah edilən həmin elementləri sırasında səs fəaliyyəti meydana çıxmışdır ki, öz-özlüyündə əsas hissəsi yararsız, yaxud köməkçi səciyyəli olmuş, lakin tez-tez mənalı fəaliyyətlə müşayiət olunmuşdur. Həmin nöqteyi-nəzərə uyğun olaraq, dil özünü səs ekspressiyasının birbaşa inkişafından daha çox, fəaliyyətə hakim olmaq tendensiyasını aktuallaşdırması (səs ekspressiyaları formalarında) baxımından, ancaq hər dəfə həmin fəaliyyətin elementlərindən bilavasitə sui-istifadə etməklə yox, mövcud təcrübənin artıq məlum formalara məlumat vermə metodları ilə göstərir. Səs ekspressiyası dillə yal-

nız zahirən uyğun gəlir. Nitqin mənşəyini emosional ekspressiyadan çıxarmaq tendensiyası elmi nəzəriyyə baxımından hansısa ağlabatan mövqeyə gətirə bilməz. Və odur ki, dildə xüsusi texnika və ya tendensiyanın tədricən inkişaf edən elə bir məhsulunu görməyə cəhd edilməlidir ki, onu simvolik adlandırmaq və nisbətən əhəmiyyətsiz və ya yarımçıq olan həmin hissəni bütövə doğru yönəldiyini təyin etmək mümkün olsun. Beləliklə, dil indiki vəziyyətinə özünün qeyri-adi ifadəliliyinə görə deyil, onun əksinə olaraq çatmışdır. Nitq fəaliyyət olaraq iki təşkiledici sistemin möcüzəli qovuşmasıdır: simvolik və ekspressiv. Onların heç biri digərinin qarşılıqlı təsiri olmadan indiki mükəmməlliyə çata bilməzdi.

Dilin funksiyalarını dəqiqliklə müəyənləşdirmək çətindir, belə ki, o bütün bəşəri davranışlara elə dərindən köklənir ki, bizim şüurlu fəaliyyətimizin funksional tərəfində dilin iştirak edə bilməyəcəyi çox az yer qalır. Dilin ilkin funksiyası olaraq, adətən, ünsiyyəti göstərirlər. Əgər bu zaman dərk edilirsə ki, nitq formaları olmadan da effektli ünsiyyət mümkündür və dil kommunikativliyə heç bir dəxli olmayan vəziyyətlərlə bilavasitə münasibətdədir, həmin fikirlə mübahisə etməyə ehtiyac yoxdur. Dilin ortaya çıxardığı simvolik sistemsiz, hər hansı ağıllı fikrə görə, mümkün olacağı güman edilməyən təfəkkür elə bir ünsiyyət formasıdır ki, danışanla dinləyəni bir şəxsdə birləşdirir şəklindəki mülahizə yalnız məsələnin mahiyyətindən uzaqlaşmaq deməkdir. Autik uşaq nitqi görünür, şahidlik edir ki, nitqin kommunikativ aktı şişirdilir. Belə bir mülahizənin təsdiqi daha doğru olardı ki, dil, əvvəlcə, varlıq hadisələrinə baxış tendensiyalarının səs realizasiyasıdır. Və məhz bu xüsusiyyət onu kommunikasiyanın münasib vasitəsi etmiş və hazırda bizə məlum olan

mürəkkəbləşmiş və dəqiqləşmiş formaları sosial qarşılıqlı təsirlərin real vəziyyətlərində qazanmışdır. Dilin təfəkkür, ünsiyyət və hisslərin ifadəsi sferalarında yerinə yetirdiyi olduqca ümumi funksiyalarla yanaşı, onlardan törəmiş bəzi funksiyalarını da qeyd etmək olar ki, bu, cəmiyyət tədqiqatçıları üçün xüsusi maraq kəsb edir.

Dil – güclü sosiallaşma amilidir, ola bilsin ki, mövcud olanların ən güclüsüdür. Bunu dedikdə yalnız dilsiz ciddi qarşılıqlı sosial təsirin çətin ki mövcud ola biləcəyi kimi aydın bir fakt deyil, həm də o başa düşülür ki, adi nitq hər hansı bir dildə bütün danışanların sosial həmrəyliyinin özünəməxsus potensial simvolu kimi çıxış edir. Bu vəziyyətin psixoloji dəyəri heç də konkret dilərin millətlərlə, siyasi birliklərlə və ya daha kiçik lokal qruplarla assosiasiyası ilə məhdudlaşmır. Etiraf olunan dialekt və ya bütöv dillə ayrıca bir adamın fərdiləşmiş nitqi arasında dil ümumiliyinin bəzi tiplərinə rast gəlinir ki, nadir hallarda dilçiləri cəlb edir, ancaq sosial psixologiya üçün fövqəladə dərəcədə vacibdir. Bu, dilin insan qrupları arasında ümumi maraqlarla bağlı mövcud olan müxtəlifnövlülüyüdür. Belə qruplar ailə, məktəb şagirdləri, həmkarlar ittifaqı, böyük şəhərlərdə cinayətkar aləm, klub üzvləri, peşəkar maraqlarının fərqlənməsinə baxmayaraq bütün ömürlərini birlikdə keçirən dörd-beş adamdan ibarət dostluq kompaniyaları və ən rəngarəng şəkildə minlərlə başqa qruplar ola bilər. Onların hər biri can atır o nitq xüsusiyyətlərini inkişaf etdirsin ki, həmin qrupu daha geniş qrupdan ayırma simvolik funksiyasını həyata keçirir, əks halda kiçik qrup bütünlüklə əriyə bilər. Çox kiçik qruplarda fərqli dil əlamətlərinin tamamilə yoxluğu çatışmazlıq və emosional kasıblığın əlaməti kimi dumanlı şəkildə hiss

olunur. Konkret ailə hüdudunda "Corci" yerinə "Dudi" deyilməsi ona gətirib çıxara bilir ki, birinci forma həmişəlik təsdiq olunur. Və tanış adın bu evdə deyilmə forması həmin şəxsə tətbiqdə konkret ailənin həmrəyliyinin olduqca vacib simvoluna çevrilməklə onun üzvlərini birləşdirən hisslərin qorunmasına gətirib çıxarır, əgər ailə üzvləri hiss edirlərsə ki, hələ ailə yaxınlığının "Corci" və ya "Corc"dan istifadə ilə simvolizə olunmaq dərəcəsində astanadan daxil olmaq hüququna malik deyil, kənar adama "Dudi" demək səlahiyyəti asanlıqla verilmir. Və hər halda əgər məktəbdə və ya ali təhsil müəssisəsində çox tanış və əziyyətli tədris təcrübəsindən keçməyibsə, heç kim trig 'triqonometriya', yaxud math 'riyaziyyat' deməyəcək. Bu cür sözlərin işlədilməsi danışanın dərhal qeyri-mütəşəkkil, lakin hər halda psixoloji baxımdan real qrupa mənsubluğunu ortaya çıxarır. Özü özünə öyrənmiş riyaziyyatçı məşğul olduğu elmə münasibətdə çətin ki math sözünü işlətsin, belə ki, bu sözün gizli tələbə nüansları ona heç nə demir. Siyasi və ya sosioloji olaraq rəsmi qruplara qarşı qoyulan psixoloji real qrupların simvollaşması üçün kiçicik dil fərqlərinin fövqəladə vacibliyi insanların çoxu tərəfindən instinktiv olaraq hiss edilir. "O bizim kimi danışır" mənaca ona bərabərdir ki, "O bizimkilərdən biridir".

Ünsiyyət vasitəsi olaraq öz əsas funksiyası ilə yanaşı, dil sosiallaşdırma amili rolunda digər vacib bir aspektdə də çıxış edir. Bu, müvəqqəti əmələ gəlmiş qrupun, məsələn, qonaqların qəbulu zamanı onun üzvlərinin arasında sosial əlaqənin qurulmasından ibarətdir. O qədər də vacib deyil ki, bu halda nə barədəsə söhbət edilir, vacib odur ümumiyyətlə danışılır. Xüsusilə əgər həmin qrupun üzvləri arasında dərin qarşılıqlı mədəni anlaşma yoxdursa, həmin danışığı yüngül çənə söhbəti ilə əvəz etmək tələbatı meydana çıxır. Bu, məlu-

mat vermək üçün heç nə olmayanda istifadə edilən sakitləşdirici və rahatlıq gətirən nitq keyfiyyəti bizə xatırladır ki, dil özünü sadə kommunikativ texnikadan nə isə daha böyük bir şey kimi təqdim edir. Heç nə bunu daha yaxşı nümayış etdirə bilməz ki, bir canlı olaraq insanın mədəniyyət vasitəsilə yüksəlmiş həyatı nə dərəcədə fiziki aləmin verbal substitutlarının hakimiyyəti altındadır.

Mədəniyyətin qazanlmasında və onun tarixi varisliyində dilin rolu aydın və olduqca əhəmiyyətlidir. Bu, mədəniyyətin yüksək səviyyələrinə aid olduğu kimi, onun primitiv formalarına da aiddir. Primitiv cəmiyyətin mədəni fondunun böyük bir hissəsi az və ya çox dəqiq müəyyənləşmiş dil formasında mühafizə edilir. Atalar sözləri, müalicə ovsunları, standartlaşmış dualar, xalq rəvayətləri, mahnılar, şəcərələr – bunlar dilin mədəniyyəti mühafizə etmək üçün vasitələr olaraq istifadə etdiyi zahiri formaların ancaq bəzilәridir. Standartlaşmış biliklərin təsirini minimuma endirməyə can atan və onu əhatə edən gerçəkliklə mümkün qədər çox bilavasitə əlaqə yolu ilə insanın formalaşmasını həyata keçirən praqmatik inkişaf idealı, heç şübhəsiz, primitiv xalqlar tərəfindən qəbul edilmir. O xalqlar tərəfindən ki, bir qayda olaraq, humanist ənənənin özü kimi sözə sıx bağlıdırlar. Çin klassik və yəhudi ravvi mədəniyyətləri kimi mədəniyyətlər az tapılır ki, bu cür uzağa gedəcək sözü gerçəkliyin əsas vahidi olaraq əşyanı və ya fərdi təcrübəni əvəz etməyə məcbur etsin. Müasir sivilizasiya bütövlükdə özünün məktəbləri, kitabxanaları, hədsiz-hüdudsuz bilik, mülahizə, söz formasında qeydə alınmış hiss ehtiyatları sənəd əbədiliyi əldə etmiş dil olmadan təsəvvürə gəlmir. Ümumiyyətlə, biz, görünür, ənənəvi olaraq qorunub saxlanılan verbal avtoritetə əsasla-

naraq, "yüksək" və "aşağı", yaxud zəngin və inkişaf etməkdə olan (emergent) mədəniyyətlər arasındakı fərqi şişirtməyə meyilliyik. Yəqin ki, həqiqətən mövcud olan böyük fərq nəinki fərdlə onun mədəniyyəti arasında qərarlaşan psixoloji münasibətlərdə, ilk növbədə, xarici forma ilə mədəniyyətin özünün məzmunundadır.

Dilin sosiallaşdırıcı və unifikasiyaedici güc kimi hərəkət etməsinə baxmayaraq, o, eyni zamanda fərdiyyətin inkişafının kifayət qədər böyük və yeganə məlum amilidir. Səsin səciyyəvi keyfiyyətləri, nitqin fonetik təşkili, tələffüzün cəldliyi və nisbi dəqiqliyi, cümlələrin uzunluğu və qurulması, lüğətin səciyyəsi və həcmi, elməoxşar leksikanın işləkliyi, sözün sosial mühitin tələblərinə cavab verməsi və eləcə də nitqin həmsöhbətlərin dil vərdişlərinə uyğunlaşdırılması – şəxsiyyəti səciyyələndirən çoxsaylı kompleks göstəricilərdir. "Hərəkətlər sözlərdən bərk danışır" frazemi praqmatik baxımdan, ola bilsin ki, diqqət çəkəndir, lakin o, dilin təbiətinə kifayət qədər nüfuz edilmədiyinə şəhadət verir. Şüursuz indikatorlar insanın şəxsiyyətinin xeyli dərəcədə əhəmiyyətli xüsusiyyəti olduğu kimi, onun dil vərdişləri də olduqca əhəmiyyətlidir. Və istər-istəməz insan dilinin psixoloji dəyərinə daha çox diqqət yetirəndə xalq, psixoloji mənada, bu aforizmdən daha müdrikdir. Sıradan bir insan heç zaman yalnız nitqin məzmunu ilə qane olmayıb dil vərdişinin gizli mənasına da çox böyük həssaslıq göstərir. Ancaq həmin gizli məna şüurlu təhlilə, demək olar ki, gəlmir. Ümumən və bütövlükdə şişirtmə olmaz deyək ki, dilin vacib funksiyalarından biri onun daşıyıcılarının cəmiyyətdə hansı psixoloji yeri tutduğuna daimi işarə edilməsindən ibarətdir.

Bundan başqa, mühitə ilkin hərəkət sxemlərinin köməyilə uyğunlaşmağa artıq dərəcədə çətinlik çəkən fərdlər üçün

ifadənin köməkçi vasitəsi olaraq dilin ifa etdiyi şəxsiyyətin özünüifadəsi, yaxud reallaşdırması tipində kifayət qədər ümumi olan vacib bir rolunu da nəzərə almaq lazımdır. Hətta ən primitiv mədəniyyətlərdə uğurla seçilmiş söz, görünür, birbaşa zərbədən daha güclü təsir vasitəsidir. Demək düşüncəsizlik olmazdı ki, "söz yalnız sözdür" ("mere words"), çünki bu, sivilizasiyanın və şəxsiyyətin özünün vacibliyini, hətta mövcudluğunu şübhə altında qoymaqdır.

Dünya dillərini ya struktur, ya da genetik prinsip əsasında təsnif etmək olar. Dəqiq struktur analiz mürəkkəb işdir. Və ona görə də hələ ona əsaslanaraq, formaların bütün heyranedici rəngarəngliyini ehtiva edən təsnif mövcud deyil. Təsnifin üç kriteriyasını fərqləndirmək lazımdır: təhlilin nisbilik dərəcəsi, yaxud dilin sözlərinin formalaşdırılmaları (elabotion); sözün hissələrinin bir-biri ilə qovuşma dərəcəsi və o ki, dilin əsas relyasion anlayışları olduqları kimi hansı səviyyədə birbaşa ifadə olunur. Sintezə gəldikdə isə dillər cəziri tipdən (hansından ki, ayrı-ayrı sözlər, mahiyyət etibarilə, bölünməzdir) Amerika hindularının çoxsaylı dillərinin təqdim etdiyi tipə (hansına ki, ayrı-ayrı sözlər adətən çoxlu referensial istinadlarla cümlənin funksional ekvivalenti kimi çıxış edir ki, həmin istinadların ifadəsi dillərin çoxunda bir neçə sözün işlənməsini tələb edir) qədər bir cərgəyə düzülür. Sintezin dörd mərhələsini fərqləndirmək münasibdir: cəziri tip, zəif sintetik tip, tamamilə sintetik tip və polisintetik tip. Birinci tipə klassik nümunə Çin dilidir ki, nə daxili dəyişmələrə yol verilmədən, nə də prefiks və ya suffiks elementləri artırılmadan kəmiyyət, zaman, şəkil, hal və uyğun münasibətləri bildirən anlayışları ifadə etməyə qadırdır. Dilin bu tipi ən nadirlərindən olmaqla ən yaxşı şəkildə Şərqi Asiya dil-

lərilə təqdim edilir. Çin dilindən əlavə siam (tay), müasir Tibet, annam (Vyetnam) və kxmer (Kamboca) dillərini nümunə göstərmək olar. Bu cür dillərin dil təkamülünün ən primitiv mərhələsində olması barədəki keçmiş baxış bu gün köhnəlmiş olduğuna görə atıla bilər. Bütün materiallar əks hipotezanın xeyrinə şəhadət verir. Belə ki, həmin dillər özlərini nə zamansa daha sintetik olmuş dillərin analitik inkişafının məntiqi hüdudu kimi təqdim edir ki, ilkin dövrdə bir söz hüdudunda ifadə etdikləri anlayış kombinasiyalarını fonetik dezinteqrasiya prosesinin nəticəsi olaraq yenidən analitik vasitələrlə fadə etməyə məcbur olmuşlar. Dilin zəif sintetik tipini ən yaxşı şəkildə ingilis, fransız, ispan, italyan, alman, holland və Danimarka kimi məşhur müasir Avropa dilləri təqdim edir. Bu cür dillərdə söz müəyyən dərəcədə dəyişkəndir, ancaq onun formalaşma dərəcəsi kifayət qədər yüksəkdir. Məsələn, ingilis və fransız dillərində cəm halın formaları nisbətən sadədir, bununla belə, həmin tipə mənsub bütün dillər zaman və şəkil sistemlərində olduğu kimi daha qədim sintetik üsulları analitiklikdən istifadə ilə tamamlamağa meyil göstərir. Dillərin üçüncü qrupu ərəb və sanskrit tipindəki ən qədim hind-Avropa dilləri, latın və yunan kimi dillərlə təmsil olunur. Yüksək dərəcədə forma mürəkkəbliyi olan bu dillərdə cins, kəmiyyət, hal, zaman və şəkil kimi ümumiləşdirici anlayışlar olduqca müfəssəl və rəngarəng ifadəsini tapır. Ayrı-ayrı sözlərin formalarından alınan məlumat zənginliyinə görədir ki, cümlə, bir qayda olaraq, yuxarıda xatırlatdığımız birinci iki dil tipindəki qədər dinamik və mütəşəkkil deyil. Nəhayət, polisintetik dillərdə əsas relyasion anlayışların ifadəsinin forma mürəkkəbliyinə vahid söz hüdudunda müəyyən müntəzəm bütövdə məntiqi baxımdan ayrı bir neçə konkret anlayış təşkil etmək qabiliyyəti

də əlavə edilir. Klassik nümunə olaraq bu tipə eskimos və alqonkin dilləri aid edilə bilər.

Mexaniki əlaqə baxımından sözün birləşdirici elementlərinə görə dilləri dörd tipə ayırmaq münasibdir. Bunlardan birincisi yuxarıda xatırlatdığımız cəziri tipdir ki, ümumiyyətlə, bu cür kombinasiya prosesindən məhrumdur. Dillərin ikinci qrupuna o dillər mənsubdur ki, onlarda söz elementlərin mexaniki məcmusu şəklində adekvat təmsil oluna bilər. Həmin elementlərin hər biri az və ya çox dəqiqliklə müəyyənləşmiş özünəməxsus mənaya malikdir. Və hər biri müvafiq əlaqəli anlayışa çıxışı olan bütün digər sözlərdə requlyar şəkildə istifadə edilir. Bunlar, necə deyərlər, aqqlütinativ dillərdir. Görünür, dillərin çoxu aqqlütinativ texnikadan istifadə edir. Və üstünlüyü də ondan ibarətdir ki, məntiqi bölünmə istifadə edilən vasitələrə qənaətlə uyğunlaşır. Altay dilləri (tipik nümunəsi türk dili ola bilər) və Afrika bantu dilləri formaca aqqlütinativdir.

Üçüncü tipdə (necə deyərlər, flektiv dillərdə) kök elementin və ya əsasın, söz və modifikası olunan söz önlərinin, yaxud suffikslərin qovuşma dərəcəsi aqqlütinativ dillərdə olduğundan yüksəkdir. Və çox hallarda əsası ayırmaq və onu yığıla bilən elementlərə qarşı qoymaq çətin olur. Lakin daha vacibi odur ki, bu halda dil elementləri ilə işarə olunan anlayışlar arasındakı uyğunluq aqqlütinativ dillərdəki kimi birmənalı deyil. Deyək ki, latın dilində cəmlik anlayışı çoxlu müxtəlif üsullarla ifadə edilir ki, görünür, fonetik cəhətdən bir biri ilə az bağlıdır. Məsələn, equi ‘atlar’, dona ‘hədiyyələr’, mensae ‘stollar’ sözlərində son sait və ya diftonq və hostes ‘düşmənlər’ sözündə sonuncu sait və samit məntiqi baxımdan əhəmiyyətli olmayan paylanması tamamilə formal

və tarixi amillərdən asılı, funksional olaraq ekvivalent elementlərdir. Feildə cəmlik anlayışı olduqca müxtəlif şəkillərdə ifadə olunur, məsələn, amant 'onlar sevirlər' sözündə sonuncu iki samitin birləşməsindəki şəkildə. Bir vaxtlar türk dili kimi tamamilə mexaniki xüsusiyyətli dillərlə müqayisədə latın və yunan tipli flektiv dillərin "kimyəvi" xüsusiyyətlərinə ehtiram göstərmək dəb idi. Ancaq həmin dəyərləndirmələri bugün köhnəlmiş və subyektiv olduqlarına görə tullamaq mümkündür. Aydındır ki, bu, onunla şərtlənirdi ki, ingilis, fransız və alman dillərində yazan mütəxəssislər o dil strukturlarının rasional dərkindən yüksəyə qalxmağı bacarmırdılar ki, onlarla ideal üstün vəziyyətdə olaraq daha yaxşı tanış idi.

Flektiv dillərin şaxələnməsinin nəticəsi olaraq dördüncü qrup meydana çıxır ki, mürəkkəb fonetik qanunların fəaliyyəti ilə şərtlənən birləşdirmə prosesləri həmin dillərdə əvvəlaxır nitqin nüvə elementlərində daxili dəyişmə (internal change) modellərinin yaranmasına gətirib çıxarır. Sing 'oxumaq ', sang 'oxudu', sung 'oxunmuş', song 'mahnı ' kimi məşhur ingilis sözləri örnəyi həmin strukturların xarakteri barədə bəzi təsəvvürlər verir. Və bu strukturlar "simvolik" (symbolistik) adlandırıla bilər. Daxili dəyişməni saitlərin keyfiyyətcə dəyişməsi (chsnges in vocalic quality), samitlərin dəyişməsi (changes in consonants), kəmiyyət dəyişməsi (changes in quantity), reduplikasiyaların və təkrarların (repetition) müxtəlif növləri, aksent dəyişməsi (changes in stress accent) və nəhayət (Çin və bir çox Afrika dillərində), tonun yüksəkliyinin dəyişməsi (changes in pitch) kimi müxtəlif növlərə ayırmaq olar. Bu dil tipinə klassik nümunə ərəb dilidir ki, eynilə digər sami dillərdə olduğu kimi burada da nüvə məna (nuclear meanings) samitlərin ardıcıllığı ilə ifadə

olunur. Lakin həmin samit ardıcıllığının sabitləşmə sxemləri samitlər çərçivəsinin verdiyi mənadan asılı olmayaraq, müəyyən funksiya daşıyan mənalı saitlərlə uyğunlaşmalıdır.

Ola bilsin ki, sözün formalaşma dərəcəsi və bölünmə üsulları məntiqi və psixoloji baxımdan o qədər vacib deyil, nəinki qrammatika kimi əsas relyasion anlayışların seçimi (selection) və interpretasiyası (treatment). Lakin dillərin təminedici bir anlayış təsnifatının həyata keçirilməsi ona görə qeyri-adi dərəcədə çətin olardı ki, dil forması ilə ifadə edilən anlayış və ideyaların təsnifi qeyri-adi dərəcədə müxtəlifdir. Belə ki,hind-Avropa və sami dillərində isimlərin cinsə görə təsnifi - quruluşun əsas prinsipidir. Lakin dünyanın başqa bir çox dillərində belə prinsip yoxdur, əvəzində isə isimlərin təsnifinin digər üsulları ilə üz-üzə gəlirik. Zaman və ya hal da bir dildə, məsələn, latın dilində formal olaraq vacib, lakin başqa dilin qrammatikası üçün nisbətən əhəmiyyətsiz ola bilər. Hərçənd bu cür formaların əsasında dayanan məntiqi münasibət (logical references), əlbəttə, hansısa üsulla dil təsərrüfat mexanizmləri işləyib hazırlamalıdır – məsələn, xüsusi sözlərin müəyyən cümlə daxilində istifadəsi yolu ilə. Ola bilər ki, təsnifatın daha fundamental anlayış əsası mühüm sintaktik münasibətlərin ifadəsidir ki, həmin ifadənin ziddinə olaraq konkret xarakterli anlayışlarla vacib birləşmələr yaradır. Məsələn, latın dilində mübtəda anlayışı bəzi xəbərlər qarşısında, ciddi desək, heç zaman tam halda ifadə olunmur. Belə ki, bu münasibəti bildirən heç bir ayrıca simvol yoxdur. Cümlənin subyektinin kəmiyyət və cinsini onunla eyni zamanda qeydə almadan həmin münasibəti əks etdirmək mümkün deyil. Ancaq elə dillər mövcuddur ki, onlarda sintaktik münasibətlər təmiz halda, qeyri-relyasion səciyyəli

cığırdaş məna elementlərinin (implications) qarışacağı olmadan ifadə edilir. Beləliklə, qarışıq relyasion dillərə əks olaraq saf relyasion dillərdən danışmaq olar. Bizə məlum olan dillərin böyük çoxluğu ikinci tipə aiddir. Öz-özlüyündə anlaşılandır ki, bu cür konseptual təsnifat onun yuxarıda xatırlatdığımız iki tipi ilə bilavasitə bağlı deyil.

Dillərin genetik təsnifatı ya abidələrin şahidliyinə, ya da öyrənilən dillərin ciddi müqayisəsi vasitəsilə müəyyənləşdirilən tarixi əlaqənin əsas istiqamətləri ilə uyğun olaraq dilləri qruplara və yarımqruplara bölməyə cəhd edir. Daimi fonetik dəyişikliklərin və digər səbəblərin hərtərəfli təsirinin ardınca ilk əvvəl eyni nitq formasının nə isə dialektləri kimi təqdim olunan dillər bir-birindən o qədər ayrılır ki, onları ümumi prototipin spesifik inkişafının nəticəsi kimi şərh etmək heç cür inandırıcı görünmür. Dünya dillərinin genetik təsnifinə böyük əmək qoyulsa da, hələ çox problemlər özünün tədqiqini və həllini gözləyir. Hazırda bütün müəyyənliyilə məlumdur ki, bir neçə böyük dil qrupları və ya onları hələ də adlandırdıqları kimi, ailələri mövcuddur ki, üzvləri ümumi cizgilərilə desək, öz əsas fonetik və struktur xüsusiyyətləri etibarilə nəzəri rekonstruksiyaya gələn dillərin birbaşa varisləri hesab edilir. Yeri gəlmişkən, aydındır ki, dillər o dərəcədə ayrıla bilir ki, ilkin qohumluq əlaqələrinin tamamilə əhəmiyyətsiz izləri saxlanılır. Ona görə də olduqca risklidir ki, hər hansı dilin vahid genetik qrupdan yalnız o əsasa görə ayrılmadığı güman edilir ki, bizim əlimizdəki şəhadətlər neqativdir. Yeganə özünü doğruldan fərq tarixən qohumluğu məlum olanlarla tarixi qohumluqları barədə məlumat olmayan dillər arasındakı fərqdir. Açıq-açığına qohum dilləri açıq-açığına qohum olmayan dillərlə qarşılaşdırmaq yolverilməzdir.

O fakta görə ki, dillər bir-birindən müxtəlif dərəcədə fərqlənir, eləcə də başqa dillərin hesabına dünyanın böyük bir hissəsində ərəb, latın və ingilis dillərinin məqsədli yayılmasına gətirib çıxarmış mədəni diffuziyanın əhəmiyyətli təsirinə görə dil ailələrinin yayılması üçün olduqca rəngarəng şərait yaranmışdır. Məsələn, Avropada hazırda iki dil ailəsi – hind-Avropa dilləri və uqro-fin dilləri üstünlük təşkil edir. Cənubi Fransanın və Şimalı İspaniyanın bask dili başqa bir, görünür, təcrid olunmuş qrupun qalıqlarıdır. Digər tərəfdən, aborigen Amerikada dil diferensiasiyası qütblü səciyyə daşıyır: burada çoxlu sayda mahiyyət etibarilə qohum olmayan dil ailələrinə rast gəlmək olar. Onların bəziləri olduqca kiçik sahəni əhatə etsə də, Şimali Amerikanın alqonkin və atabask kimi dilləri nəhəng bir ərazidə yayılmışdır. Dil ailələrinin müəyyənləşdirilməsi və bu ailələrə daxil olan dillər arasındakı münasibətlərin xarakterinin təyin edilməsi xeyli mürəkkəb olduğundan burada həmin metodikadan bəhs etməyəcəyik. Demək kifayətdir ki, sözlərin təsadüfi müqayisəsi heç bir nəticə verə bilməz. Təcrübə göstərir ki, bu və ya digər qrupdan olan dillər arasında ciddi fonetik münasibətlərin mövcudluğu lazımdır, əsas morfoloji xüsusiyyətlərə gəldikdə isə, onlar zamanın kifayət qədər uzun bir mərhələsi boyu qorunub saxlanır. Belə ki, müasir Litva dili öz strukturuna, leksika və əhəmiyyətli dərəcədə öz fonematik quruluşuna (phonemic pattern) bütövlükdə bütün hind-Avropa dillərinin prototipi sayılan dilə yaxınlaşır.

Baxmayaraq ki, struktur təsnifatla genetik təsnifatın, nəzəri olaraq, əlaqəsi yoxdur və dillər bir-birinə yalnız fonetika və lüğət tərkibi sahələrində deyil, həmçinin müəyyən dərəcədə struktur baxımdan da təsir edə bilər, lakin eyni gene-

tik qrupun dilləri müqayisə edilməsi mükün olmayan strukturları olduqca nadir hallarda daşıyır. Belə ki, hind-Avropa dillərindən ən az konservativ olan ingilis dili də sanskrit kimi zamanca təcrid olunmuş bir dillə əhəmiyyətli sayda ümumi struktur xüsusiyyətlərinə malikdir, əksinə, məsələn, bu cür uyğunluqlar bask və fin dilləri ilə yoxdur. Yaxud aysoru, müasir ərəb və Həbəşistanın sami dilləri nə qədər fərqlənsələr də, fonetika, leksika və strukturda çoxsaylı uyğunluqlar onları, məsələn, türk dilindən, yaxud Nil çayının yuxarı axarları Afrika dillərindən kəskin şəkildə ayırır.

Fövqəladə dərəcədə mürəkkəb çoxlu psixoloji və sosioloji prosesləri ehtiva edən dil dəyişmələrinin səbəbləri hələ tam izahını tapmamışdır, lakin müəyyən qədər ümumi hadisələr var ki, özünü kifayət qədər aydın göstərir. Həqiqi dəyişmələr praktik məqsədlə digər dil birliklərilə əlaqələrlə şərtlənən dəyişikliklərdən ayrıla bilər. Ümumiyyətlə desək, dəyişmələrin həmin iki qrupu arasında demarkasion xətt mövcud olmaması da mümkündür, çünki hər bir fərdin dili özünü əlahiddə psixoloji bütöv kimi təqdim edir ki, bunun da nəticəsində bütün həqiqi dəyişmələrə axırda dil əlaqələrilə şərtlənmiş dəyişmələrin xüsusilə uzaq və ya incələşmiş formaları kimi baxıla bilir. Lakin bu fərqləndirmə, hər halda, böyük praktik əhəmiyyətə malikdir, hər şeydən əvvəl ona görə ki, antropoloq və sosioloqlar arasında belə bir meyil mövcuddur ki, bütün dil dəyişmələrinə xarici etnik və mədəni təsir altında meydana çıxmış dəyişiklilər kimi baxsınlar. Konkret dillərin və dil qruplarının tarixinə dair nəhəng həcmdə tədqiqatlar çox aydın şəkildə göstərir ki, daha güclü diferensial amil, adətən qəbul edildiyi kimi xarici təsirlər deyil, hər şeydən əvvəl, çox ləng, lakin eyni istiqamətdə gedən nəhəng hissolunmaz dəyişikliklərdir ki, dillərin fonematik

sistemlərinin və morfologiyalarının əsasına qoyulmuşdur. Həmin inkişaf "tendensiya"ları, əhəmiyyətli dərəcədə, dərk-olunmaz forma hissiyatı ilə şərtlənir və insan varlığının ideal modelləri birdəfəlik qurulmuş şəkildə reallaşdırmaq bacarıqsızlığı ucbatından qaçılmaz olur.

Dil dəyişmələri fonetik dəyişmələrə, forma dəyişmələrinə və lüğət tərkibindəki dəyişmələrə ayrılır. Görünür, ən vacib və birbaşa müşahidəyə daha çox gələn tip – fonetik dəyişmələrdir. Fonetik dəyişmələrə gətirib çıxaran amillər, ehtimal ki, çox mürəkkəbdir və şübhəsiz, müxtəlif yaş qruplarının qarşılıqlı münasibətlərini təyin eləyən gizli simvolların hərəkətini ehtiva edir. Lakin heç də bütün fonetik dəyişmələr sosial simvolizm terminlərilə izah oluna bilməz. Görünür ki, onların çoxu səslərin və ya səs birləşmələrinin tələffüzü zamanı qənaətə cəhd etmək üçün göstərilən şüursuz canatma ilə bağlıdır. Daxili fonetik dəyişmələrin ən cəlbedici cəhəti onların yüksək dərəcədə requlyarlığıdır. Məhz bu requlyarlıq, nəticə etibarilə nədən irəli gəlsə də, hər hansı digər ayrıca amildən daha çox dilçiliyin tarixi fənn kimi əldə etdiyi qibtə olunacaq dəqiqlik dərəcəsini təmin edir. Qrammatik formaların dəyişməsi tez-tez dağıdıcı fonetik dəyişmələri izləyir. Çox hallarda görmək olar ki, fonetik dəyişmələrin dezintoqrativ təsirlərinin doğurduğu qeyri-requlyarlıqlar analoji yayılmalarla daha requlyar formalar tərəfindən "ütülənir". Həmin təshih dəyişmələrinin yekun nəticələri dil strukturunun detallarını görünüşcə hiss ediləcək qədər dəyişdirir – hətta bir çox hallarda strukturunun əsas xarakteristikasını da. Leksikada dəyişmələr olduqca rəngarəng səbəblərdən irəli gəlir ki, əksəriyyəti mədəni (tam dil xarakterli deyil) səciyyə daşıyır. Məsələn, sözün həddindən artıq

tez-tez işlənməsi onu tapdanmış boş yerə çevirə bilər ki, bu zaman onun yeni sözlə əvəzlənməsi zərurəti meydana çıxır. Başqa tərəfdən, istiqamətin dəyişməsi bəzi sözləri onlara məxsus ənənəvi məna çalarları ilə daha gənc nəsil üçün qəbuledilməz edə bilər, deməli, onlar köhnəlməyə meyillidir. Mümkündür ki, lüğət tərkibinin dəyişməsinin ən zəruri mənbəyi bir neçə konkret sözlərlə analogiya üzrə yeni sözlər yaratmaqdan ibarət olsun.

Dil tarixində əlaqənin daha aydın görünən tiplərilə bağlı dil dəyişmələrindən ən vacib rollardan birini dil sərhədləri vasitəsilə söz "alınmalar"ı oynamışdır. Bu alınma, təbii ki, qarşılıqlı mədəni nüfuzetmələrlə birlikdə gedir. Bəzi dillərin sözlərinin mənşəyinin təhlili çox hallarda inandırıcı şəhadət verir ki, mədəni təsirin istiqaməti necə olmuşdur. Məsələn, bizim ingilis dili leksikası mədəni baxımdan çox möhkəm şəkildə təbəqələşmişdir. Antik latından, orta əsrlər fransızcasından, İntibah dövrü humanistlərinin latın və yunancasından və müasir fransızcadan alınmaların müxtəlif qatları ingilis sivilizasiyasının formalaşmasını təmin etmiş müxtəlif xarici mədəni təsirlərin zamanını, miqyasını və xarakterini müəyyənləşdirmək üçün kifayət qədər dəqiq vasitələrdir. Ən son zamanlaracan ingilis dilində alman alınmalarının olmaması faktı tarixi baxımdan cəlbedicidir (halbuki İntibah dövründə və sonralar çoxlu italyan sözləri alınmışdır). İncəsənətə, ədəbiyyata, kilsəyə, hərbi işə, idmana, biznesə aid olan anlayışları işarə eləyən mədəni dəyərli sözlərin nüfuzu beynəlxalq leksikanın artımına təsir göstərmişdir ki, bu, çoxlu dillərdə danışılan müasir dünyada təcridolunma effektinin qarşısını almaqdan irəli gəlir. Bu cür alınmalar çoxtərəfli olmuşdur, ancaq vacib dil mənbələrin sayı təəccüb ediləcək qədər azdır. Onların içərisində ən əhəmiyyətliləri Koreya, ya-

pon və Vyetnam dillərinin leksikasını alınmalarla zənginləşdirmiş Çin dili, Mərkəzi Asiya, Hindistan və Hind-Çinin mədəni leksikasına təsiri böyük olmuş sanskrit, ərəb, yunan, latın və fransız dilləri olmuşdur. İngilis, ispan və italyan dilləri də mədəni alınmaların mənbəyi kimi böyük əhəmiyyətə malik idilər, lakin onların başqa dillərə təsiri elə də güclü olmur. Dilin mədəni təsiri heç də həmişə onun məxsusi ədəbi dəyəri və öz daşıyıcıları ilə birlikdə dünya mədəniyyətində tutduğu yerlə birbaşa proporsional deyil. Misal üçün deyək ki, fövqəladə dərəcədə dəyərli mədəni ənənəyə malik qədim yəhudi dili də ona qohum olan digər sami dillərindən arami dili kimi Asiyanın başqa dillərinə elə bir əhəmiyyətli təsir göstərməmişdir.

Xarici dilin fonetik təsiri xeyli əhəmiyyətli ola bilər. Və təsdiq etmək üçün hər cür əsas var ki, dialekt xüsusiyyətləri çox hallarda uşaqlıqda mənimsənilmiş fonetik dil vərdişlərinin sonralar öyrənilən dilə şüursuz olaraq ötürülməsi nəticəsi kimi ortaya çıxır. Nitqdə baş verən bu dəyişmələrdən asılı olmayaraq belə bir maraqlı faktı qeyd etmək mümkündür ki, səciyyəvi fonetik xüsusiyyətlər dilin həmin prosesə qoşulan leksika və strukturundan asılı olmayaraq geniş ərazilərə yayılmaq tendensiyasına malikdir. Bu cür yayılmanın ən cəlbedici nümunələrindən birini Kaliforniyanın Sakit okean sahilləri, Oreqon, Vaşinqton, Britaniya Kolumbiyası və Cənubi Alyaska hindu dilləri arasında tapmaq olar. Burada, bizim mühakiməmizə görə, mənşəcə qohum olmayan qruplara mənsub, lakin xeyli ümumi vacib və səciyyəvi fonetik xüsusiyyətlərə malik çoxlu dillər var. Eyni fonetik xüsusiyyətlər oxşar şəkildə eyni zamanda slavyan və ya ona qohum olmayan uqro-fin dillərində də paylanmışdır. Fonetik diffuziya-

nın bu cür prosesləri ona görə meydana çıxır ki, ikidilli daşıyıcılar fonetik xüsusiyyətləri şüursuz olaraq geniş ərazidə ötürüb yaymağa qadirdirlər. İnsan inkişafın ibtidai mərhələsində təcrid edilmiş şəkildə mövcud olmur. Və ikidillilik, görünür, daha inkişaf etmiş dövrlərdə olduğu kimi, bu mərhələdə də müxtəlif qrupların ünsiyyətində mühüm rol oynayır.

Bir dilin başqa dilə daha zahiri səciyyəli fonetik və leksik təsirinin əksinə olaraq saf morfoloji təsirinə gəldikdə müxtəlif mülahizələr mövcuddur. Şübhəsiz, bu təsirləri diqqətə almaq lazım gəlir, ancaq onların dəyərini qaldırmaq olmaz. Misal üçün deyək ki, sami və hind-Avropa dillərinin əsrlərlə əlaqədə olmasına baxmayaraq, biz elə bir dil tanımırıq ki, quruluşunda həmin dil qruplarının cizgiləri birləşsin. Eynilə bu cür, Çin dilindən leksik alınmalarla zəngin olan yapon dilində də Çin dili strukturu təsirinin heç bir izini tapmaq mümkün deyil.

Təsirin nə məxsusi leksik, nə də sözün adi mənasında formal olan növlərindən biri indiyəcən kifayət qədər diqqəti cəlb etməmişdir: bu, semantik modelin (meaning pattern) təsiridir. Müasir Avropa mədəniyyəti üçün, məsələn, diqqətəlayiqdir ki, müəyyən ideyaların verilməsinə xidmət edən konkret ifadələr dildən-dilə fövqəladə şəkildə fərqlənə bilər, lakin onların mənalarının həcmi oxşarlığa can atır, belə ki, bir dilin leksikası çox hallarda özünü başqa dilin leksikasının psixoloji və mədəni tərcüməsi kimi təqdim edir. Buna sadə bir nümunə: Your Excelency "Əlahəzrət" tipli ifadələrin rus dilinə tərcüməsi ekvivalent, lakin etimoloji baxımdan qohum olmayan ifadələrlə verilir. Bu cür başqa bir nümunə: ingilis, fransız və alman dillərində qohumluq terminlərinin maraq doğuran paralelizmi. Mother – in - law "qaynana"

belle - mere "qaynana" və Sehwiegermutter "qaynana" kimi qohumluq terminləri, ciddi desək, nə etimoloji baxımdan, nə də özünün hərfi mənasına görə ekvivalent deyil, ancaq onlar tamamilə eyni üsulla qurulmuşdur. Belə ki, mother – in - law "qaynana" və father – in - law "qaynata" qohumluq terminləri sistemində belle - mere "qaynana" və beau - pere "qaynata", eləcə də Schwiegermutter "qaynata" ifadələrinə uyğun gəlir. Həmin ifadələr leksik modellərin diffuz yayılmasını aydın göstərir. Görünür, öz növbəsində qan və kəbin üzrə qohumluğun bərabərmənalılığının yüksəlməsi hissini də ifadə edir.

Bütövlükdə dilin mədəniyyəti təyin və ifadə etməsi, ötürməsi şübhə doğurmur. Dil elemntlərinin, onların forma və məzmununun mədəniyyətin daha dərindən dərkindəki rolu da aydındır. Lakin buradan belə bir nəticə çıxmır ki, dilin forması ilə ona xidmət edən mədəniyyətin forması arasında sadə uyğunluq mövcuddur. Bəzi sosioloq və antropoloqlar arasında dəbdə olan, dil kateqoriyalarına xarici mədəni cizgilərin bilavasitə ifadəsi kimi baxmaq meyli faktlarla təsdiq olunmur. Mədəni tiplə dil strukturu arasında heç bir ümumi korrelyasiya yoxdur. Cəziri, aqqlütinativ, yaxud flektiv dil quruluşu sivilizasiyanın istənilən səviyyəsində mümkündür. Eynilə bu cür, hər hansı dildə, məsələn, qrammatik cinsin olub olmaması müvafiq xalqın sosial quruluşunun, dininin və ya folklorunun dərk olunmasına heç bir dəxli yoxdur. Əgər hərdən güman edildiyi kimi, belə bir paralelizm mövcud olsaydı, idxal və ixrac edən xalqlar arasında dərin dil fərqlərinin varlığına baxmayaraq mədəniyyətin yayılması sürətini anlamaq olmazdı.

Başqa sözlə, dil formalarının mədəni dəyəri müəyyən mədəni stereotiplərin fövqündən daha çox, əsasında dayanır. Necə ki faktlar şəhadət verir, dilin baza strukturuna bu və ya digər mədəni cizginin hansı üsulla təsir göstərdiyini çox təsadüfi hallarda müəyyənləşdirmək mümkündür. Uyğunluğun mövcud olmaması məlum dərəcəyə qədər belə bir vəziyyətlə şərtlənə bilər ki, adətən, böyük sürətlə baş verən mədəni dəyişmələrin çoxundan fərqli olaraq dil dəyişmələri ayrı templərlə gedir. Əgər başqa dillər qarşısında geri çəkilməsi barədə danışmasaq, onun yerini tutan dil qurumu, başlıca olaraq öz şüursuz səciyyəsinə görə öz müstəqilliyini qorumaqla yanaşı, özünün əsas forma kateqoriyalarının dəyişən mədəni tələblərin ciddi təsirinə məruz qalmasına imkan vermir. Əgər mədəniyyətin və dilin formaları bir-biri ilə tam uyğunluqda olsalar belə, dil və mədəniyyət dəyişmələrinə təsir edən proseslərin təbiəti həmin uyğunluğu dərhal alt-üst edərdi. Belə bir şey faktiki olaraq olmuşdur. Məntiqi olaraq izahedilməzdir ki, alman və rus dillərində kişi və qadın cinsləri, orta cins müasir dünyada da öz mövcudluğunu qoruyub saxlayır. Lakin bu heç bir zərurəti olmayan cinsləri məhv etmək üçün göstərilən hər cür cəhd ona görə faydasız olardı ki, dilin adi daşıyıcısı faktik olaraq burada, məntiqçilərin düşündüklərinin əksinə, hər hansı məntiqsizlik hiss etmir.

Əgər biz dilin ümumi formalarından məzmun elementlərinə keçsək, iş başqa cür olacaq. Leksika xalqın mədəniyyətinin olduqca həssas göstəricisidir. Və mənaların dəyişməsi, köhnə sözlərin dildən çıxması, yenilərinin yaradılması, yaxud alınması – bütün bunlar mədəniyyətin özünün tarixindən asılıdır. Öz leksikasının xarakterinə görə dillər qətiyyən yekcins deyil. Bizə qaçılmaz görünən fərqlilikləri tamamilə

başqa tipli mədəniyyətləri əks etdirən dillər bütünlüklə inkar edə, öz növbəsində bizə aydın olmayan fərqliliklər təqdim edə bilər.

Bu cür leksik fərqliliklər ox ucluğu, dəmir geyim və ya kanonerka kimi mədəni obyekt adları hüdudundan kənara çıxır. Onlar eyni dərəcədə mental sahələr üçün də səciyyəvidir. Bəzi dillərdə, məsələn, to kill "öldürmək" və to murder "qətl törətmək" arasında bizim hiss etdiyimiz fərqi ifadə etmək belə bir sadə səbəbə görə olduqca çətindir ki, həmin sözlərdən istifadə eləməyimizi təyin edən hüquqi normalar bütün cəmiyyətlər üçün təbii deyil. Təfəkkürümüz üçün bu qədər zəruri sayılan mücərrəd terminlərə öz davranış normalarını daha praqmatik formalaşdırmış xalqların dilində təsadüfdən-təsadüfə rast gəlimir. Digər tərəfdən, mücərrəd adların olub-olmaması dilin formal təşkilinin xüsusiyyətləri-lə də bağlı ola bilər. Çoxlu sayda "primitiv" dillər var ki, strukturu mücərrəd hərəkət və keyfiyyət adlarının asanlıqla yaradılmasına və istifadəsinə imkan verir.

Sosioloqlar üçün xüsusi maraq kəsb edən özünəməxsus digər dil stereotipləri də mövcuddur. Onlardan biri müəyyən sözlər və xüsusi adlar üzərinə tabu qoyulmasıdır. Məsələn, primitiv xalqlar arasında çox geniş yayılmış adətə görə, tabu yalnız yeni ölən adamın adının çəkilməsi üzərinə deyil, həmin adla etimoloji baxımdan əlaqədar olduğu danışanlar tərəfindən hiss ediləcək hər bir söz üzərinə qoyulur. Və bu ona gətirib çıxarır ki, müvafiq anlayış ya təsviri yolla ifadə edilir, ya da zəruri termin qonşu dialektlərdən alınır. Bəzən müəyyən adlar və ya sözlər xüsusi müqəddəslik kəsb edir. Və ona görə də yasaq edilmiş həmin sözlər istifadəsinə maneəyə yönəlmiş fövqəladə dərəcədə qəribə vərdiş modelləri-

nin meydana çıxmasına uyğun olaraq yalnız xüsusi şəraitlərdə tələffüz oluna bilər. Buna misal olaraq, yəhudilərin Allahın adını Yahvə və ya İyeqova deyil, Adonay 'mənim cənabım' kimi tələffüz etmək adətini göstərmək olar. Bu cür adətlər bizə qəribə görünür, lakin bir çox primitiv xalqlara da normal sosial situasiyalarda bizim "ədəbsiz" sözləri tələffüz etməkdən hər cür qaçmaq cəhdlərimiz bundan az qəribə görünməzdi.

Xüsusi dil hadisələrinin başqa bir növü, deyək ki, parol və ya müxtəlif təntənəli tədbirlər zamanı xüsusi terminologiya kimi ezoterik ifadələrin işlənməsidir. Eskimoslarda, məsələn, ara həkimləri xüsusi leksikaya müraciət edirlər ki, onların "gildiya"sının üzvü olmayanlar üçün anlaşılmazdır. Xüsusi dialekt formaları və ya ayrıca dil stereotipləri primitiv xalqlar tərəfindən onların mahnı mətnlərində geniş istifadə edilir. Bəzi hallarda mahnı mətnlərinə, Melaneziyada olduğu kimi, qonşu dialektlər təsir göstərir. Bu cür hadisələr bizim ingiliscədən daha çox italyanca, fransızca, yaxud almanca mahnı oxumaq adətimizlə gülməli analogiya təşkil edir. Və çox ola bilsin ki, paralel adətlərə gətirib çıxaran tarixi proseslər oxşar təbiətə malikdir. Həmçinin oğru jarqonlarını və gizli uşaq dillərini yada salmaq olar. Bu bizi çoxu bilavasitə səsli, yaxud yazılı dilə əsaslanan xüsusi jest dillərinə gətirir. Onlar, görünür, mədəniyyətin bütün səviyyələrində mövcuddur. Şimali Amerikanın düzəngah hindularının jestləri qarşılıqlı anlaşılmaz dillərdə danışan tayfalar üçün ünsiyyət vasitəsinə tələbatın nəticəsi olaraq meydana çıxmışdır. Xristian dini çərçivəsində tövbə sükutu nəticəsində monarxlarda jest dilinin ortaya gəlməsini qeyd etmək olar.

Yalnız dil və ya dialekt deyil, hətta onun yazı fiksasiyasının zahiri forması da sentimental və ya sosial simvol fərqlili-

yi mənası qazana bilər. Belə ki, xorvatca və serbcə ümumən eyni bir dili təmsil eləyir, lakin onlar müxtəlif yazı formalarından istifadə edir: birincisi latın, ikincisi isə, yunan pravoslav kilsəsinin kiril hərflərini işlədir. Dini fərqliliklə bağlı bu zahiri fərqlilik yaxın dillərdə və ya dialektlərdə danışan xalqlara mane olmaq baxımından o mənada ciddi funksiya daşıyır ki, emosional səciyyəli səbəb üzündən daha böyük birlik təşkil etmək, əslində nə qədər yaxın olduqlarını dərk eləmək istəmirlər.

Dilin nasionalizm və internasionalizmə münasibəti bir sıra maraqlı sosioloji problemlər doğurur. Antropologiya irqi birliyə, mədəni birliyə və dil birliyinə əsaslanan etnik törəmələr arasında kəskin fərqlər müəyyənləşdirir. İzah olunur ki, onların uyğunluğu mütləq deyil və faktiki olaraq, onlar təsadüfdən-təsadüfə uyğun gəlir. Nasionalizmin hər cür nəzərə çarpdırılması bizim dövr üçün səciyyəvi olmaqla ona gətirib çıxarmışdır ki, irqin və dilin simvolik mənası barədəki məsələ yeni dəyər qazanmış və alimlər nə deyirlərsə desinlər, adi insan mədəniyyətdə, dildə və irqdə yalnız İngiltərə, Fransa, Almaniya və s. kimi siyasi birliklərlə eyniləşdirilən vahid sosial qurumların müxtəlif aspektlərini görməyə meyillidir. Antropoloqların bunu necə asanlıqla etdiyini göstərmək ki, mədəni birlik və nasional qurumlar dilə və irqə görə quruplaşmaların üstünü örtürlər, o demək deyil ki, bu problemin həlli sosioloqlardan ötrüdür. Belə ki, onlar hiss edirlər ki, nasiya və ya nasionallıq anlayışlarına analitik baxmayan insan üçün, əsaslı, yaxud əsassız, özündə həm irq, həm də dil anlayışlarını ehtiva edir. Bu baxımdan yanaşdıqda, həqiqətən əhəmiyyətsiz görünür ki, tarix və antropologiya nasionallıq, dil və irqin eyniləşdirilməsi barədəki popul-

yar təsəvvürləri təsdiq edir ya yox. O məsələ daha vacibdir ki, hər bir konkret dil milli özünüdərkin əsasında dayanan ifadəyə çevrilməyə can atır. Və fiziki antropologiya üzrə mütəxəssislərin bütün qarşıdurmalarına baxmayaraq, belə bir qrup özü özünə bəzi irqlər yaradacaq ki, həmin irqlərə bəzi dillərin yaratmaq mistik qabiliyyəti və onun psixi özünəməxsusluqlarını ifadə edən bəzi mədəniyyətlər sırımaq lazım gələcəkdir.

Dil ilə irqə gəldikdə isə əhəmiyyətli dil fərqlərinə görə keçmişdə insan irqlərinin çoxu, həqiqətən, bir-birindən təcrid olunmuşdu. Ancaq həmin vəziyyətə böyük əhəmiyyət vermək lazım deyil, belə ki, bir irq hüdudunda dil diferensiasiyası əhəmiyyətli olduğu kimi, həmin əhəmiyyətlilik irqi sərhədlərin müxtəlif tərəfləri üzrə də müşahidə edilə bilər. Hərçənd diferensiasiyanın bu iki növü daha çox bölünmüş irqi birliklərin sərhədlərinə uyğun gəlmir. Hətta vacib irqi qurumlar belə heç də hər zaman dillərə görə dəqiq ayrılmır. Bu, məsələn, malaylar, polineziyalılar və qara dərili melaneziyalılar kimi irqi baxımdan müxtəlif xalqların danışdığı malay-polineziya dilləri ilə bağlı özünü göstərir. Müasir dövrün böyük dillərindən heç biri irqi bölünmənin ardınca getmir. Məsələn, fransız dilində fövqəladə dərəcədə qarışıq əhali danışır ki, buraya Fransanın şımalındakı şimal tipi, mərkəzindəki Alp tipi və cənubdakı Aralıq dənizi tipi daxildir. Və yeri gəlmişkən, bütün bu irqi yarımqruplar Avropanın başqa hissələrində də sərbəst şəkildə məskunlaşırlar.

Hərçənd dil müxtəlifliklərı həmişə mədəniyyətdə müxtəlifliyin vacib simvolları olmuşdur, lakin yalnız son zamanlar suveren millət idealının aşırı dərəcədə inkişafı və buradan nəşət edərək həmin suverenlik idealına xidmət edən dil simvollarına sahib çıxmaq cəhdlərilə əlaqədar dil müxtəlifliklərı

antaqonizm törədən amillərə çevrilmişdir. Qədim Romada və bütün orta əsrlər Avropasında dil müxtəlifliyinə paralel olaraq mədəniyyətdə çoxlu müxtəliflikl ər vardı. Fərdin cəmiyyətdə tutduğu yerin simvolu olaraq Roma vətəndaşının siyasi statusu və ya Roma katolik kilsəsinə mənsubluğu daha böyük əhəmiyyət kəsb edirdi, nəinki onun danışdığı hər hansı dil ya dialekt. Ehtimal ki, milli antaqonizmdə dil müxtəlifliklərini günahkar saymaq qeyri-dəqiqlik olardı. Güman etməyimiz daha ağlabatan olar ki, artıq yaranmış siyasi və dövlət vahidi hakim dili öz identikliyinin simvolu kimi istifadə edir. Və buradan tədricən spesifik olaraq müasir hissiyyat baş qaldırır ki, hər bir dil necə varsa dəqiq müəyyənləşmiş milli mənsubiyyətin ifadəsi olmalıdır.

Keçmiş zamanlarda, görünür, qalib xalqın dilini tabe xalqa sistemli şəkildə sırımağa, demək olar ki, cəhd edilməmişdir. Lakin mədəniyyətin yayılması ilə əlaqədar proseslərin nəticəsində tədricən kölə əhali işğalçının dilini qəbul etməli olmuşdur. Buna roman dillərinin və müasir ərəb dialektlərinin yayılması şəhadət verir. Başqa tərəfdən, ehtimal ki, işğalçılar qrupu çox vaxt mədəni və linqvistik baxımdan fərqlənmiş olmuş, onun özünəməxsus dili həmin qrupun özünün nüfuzlu mövqeyini bilavasitə təhdid etmədən yoxa çıxmışdır. Belə ki, Çində xarici sülalələr həmişə çinlilərin daha yüksək mədəniyyətinə tabe olaraq onların dilini qəbul etmişlər, həmin üsula hind müsəlman – moğolları öz dinlərinə sadiq qalaraq hind dialektlərindən biri olan hindustanini müsəlman Hindistanının möştəşəm ədəbi dili etmişlər. Tabe xalqların dil və dialektlərinə birmənalı repressiv münasibət, elə görünür ki, Avropa ölkələrinin siyasi kursu üçün yalnız nisbətən yaxın zamanlarda səciyyəvi olmuşdur. Çar Rusiya-

sının məktəblərdə tədrisini qadağan edərək polyak dilini məhv etmək cəhdi, eləcə də bu yaxınlarda Avstriyadan zorla alınmış ərazidə alman dilini məhv etməyə cəhd göstərən müasir İtaliyanın repressiv siyasəti müasir dünyada siyasi loyallıq simvolu olan dilin rolunun güclənməsinin nəzərə çarpdırılması baxımından parlaq nümunələridir.

Milli azlıqlar həmin repressiv tədbirlərə qarşı durmaq üçün can atırlar ki, öz dillərini mədəni və bədii dəyərlərin tamamilə ümumetiraf olunan ifadə vasitəsi səviyyəsinə qaldırsınlar. Həmin dirçəldilmiş və ya yarısüni dillərdən çoxu istifadəyə siyasi və ya mədəni düşmənçiliyə müqavimətin dalğalarında gəlmişdir. Irlandiyada qael dili, yeni yaradılmış respublikada Litva dili, sionistlərin ivrit dili belələrindəndir. Bu tipli digər dillər istifadəyə yerli mədəniyyətə canlı marağın nəticəsi olaraq kifayət qədər sülh şəraitində gəlmişdir. Fransanın cənubunda provansal dili, Şimali Almaniyada aşağı alman dili, friz dili və Norveç lansmolu belələrindəndir. Tamamilə aydınlaşdırılmamış qalır ki, keçmiş ədəbi əhəmiyyətini artıq çoxdan qeyb etmiş yerli dialektlərin bazasında həqiqi mədəni dillər yaratmaq uğrundakı bu daimi cəhdlər gələcəkdə uğur qazanacaqmı. Müasir provansalcanın öz mövqeyini möhkəmlətmək bacarığının olmaması və qael dilinin olduqca şübhəli uğuru güman etməyə məcbur eləyir ki, kiçik dilləri indiki diriltmək meylinin arxasınca tədricən yetişən beynəlmiləlləşməni daha münasib şəkildə ifadə edən yeni nitq tarazlanması gəlir.

Beynəlxalq dilə məntiqi ehtiyac bizim zamanda laqeydlik və hətta düşmənçilik üzündən belə qəribə bir ziddiyyətlə qarşılaşır ki, insanların çoxu onun mövcudluğunun mümkünlüyünə yanaşırlar. Həmin problemin həllinə edilən cəhdlərdən praktik olaraq müəyyən qədər uğurlusu, görünür, es-

perantonun yaradılmasıdır ki, insanların yalnız kiçik bir faizini əhatə etmişdir. Bu insanların beynəlxalq işlərə marağı və sorğuları, ola bilsin ki, uzaqbaşı müəyyən məqsədlər üçün sadə və standartlaşmış beynəlxalq ünsiyyət vasitəsinə malik olmaq arzusuna gətirib çıxarsın. Eyni zamanda Çexoslovakiya kimi kiçik Avropa ölkələrində esperantonun uğuru inamlı olmuşdur. Və niyəsi də aydındır.

Beynəlxalq dilə müqavimət həm məntiqi, həm də psixoloji baxımlardan az əsaslandırılmışdır. Esperento kimi, yaxud ona ekvivalent olaraq təklif edilən dillərin güman olunan süniliyi mənasızcasına üfürülüb şişirdilmişdir, halbuki bu dillərdə praktik olaraq elə bir şey yoxdur ki, Avropa dillərində inkişaf etmiş ümumi söz və forma fondundan alınmamış olsun. Bu cür beynəlxalq dil, əlbəttə, yalnız ciddi məhdud məqsədlər üçün nəzərdə tutulan ikinci dərəcəli nitq forması statusuna malik ola bilər. Bu baxımdan süni beynəlxalq dilin öyrənilməsi qrammatik qaydaların şüurlu şəkildə mənimsənilməsilə yaşlı vaxtı kitablardan əxz edilən hər hansı digər dilin öyrənilməsindən daha çətin psixoloji problem yarada bilməz. Böyük ehtiyac duyulduğu halda, beynəlxalq dil probleminə marağın olmaması ona parlaq nümunədir ki, məntiqi və ya intellektual ehtiyac dil vərdişlərinin mənimsənilməsi ilə nə qədər az ümumi cəhətlərə malikdir. Xarici dili hətta ən səthi şəkildə bilmək xalq və ya mədəniyyətlə hansısa dərəcədə eyniləşdirməyə gətirib çıxara bilər. Bu cür biliyinsə instrumental qiyməti çox hallarda sıfıra bərabərdir.

Hər halda şüurlu konstruksiya edilmiş beynəlxalq dilin çatışmayan cəhəti ondan ibarətdir ki, bu cür dil ayrıca bir xalqın və ya mədəniyyətin təmsilçisi olaraq hiss edilmir. Odur ki onun öyrənilməsi yaşlı adam üçün olduqca yüksək

olmayan simvolik dəyərə malikdir. Halbuki belə bir üstünlüyə göz yumur ki, ehtiyac müqabilində asan və ardıcıl olan həmin dil onun təhsildə və gündəlik həyatdakı çoxlu çətinliklərini bir göz qırpımında həll eləməyə kömək edərdi. Yalnız gələcək göstərəcək ki, beynəlxalq dilin məntiqi ləyaqəti və nəzəri zərurəti onun toqquşmalı olduğu nüfuzlu simvolik müqaviməti qıra biləcəkmi. Uzaqbaşı, hər hansı halda aydındır ki, ingiliscə, ispanca və ya rusca kimi böyük milli dillərdən biri təbii gedişatla de fakto beynəlxalq dil ola bilər ki, bu status hər hansı şüurlu cəhddən asılı olmadan veriləcəkdir.

Tərcümə edən: Nizami Cəfərov

Noam Xomski
(1928)

Amerika dilçiliyinin sonuncu mogikanı Noam Xomskinin yaradıcılığı müasir dilçilikdə inqilab kimi qiymətləndirilir. N.Xomskinin dilçilik təlimi haqqında fikirlərin müxtəlif olmasına baxmayaraq, onu qeyd etməliyik ki, o, dil haqqındakı elmin istiqamətini dəyişə bilmişdir. Onun tədqiqatları dilçiliyi riyazi, texniki, məntiqi elmlərə yaxınlaşdırır.

N.Xomski yaradıcılığının metodoloji mənbələrinə Kartezian təlimi, Dekartın rasionalizmini, xüsusilə də Por-Royal qrammatikası aiddir. Çünki adı çəkilən mənbələr məntiqə əsaslanır (universalizmə!) və bu da N.Xomskiyə yaxın ideyalar idi.

N.Xomskini müasir dilçiliyin fövqünə qaldıran kəşfi törəmə dilçiliyi (qrammatikası) idi. Onun bu ideyaları "Sintaksis strukturlar", "Sintaksis nəzəriyyənin aspektləri" və "Dil və təfəkkür"də öz əksini tapmışdır.

N.Xomski "Dil və təfəkkür" əsərinin meydana gəlməsini əsərinin "Ön söz"ündə belə formulə edir: "Bu kitabın üç fəsli 1967-ci ilin yanvarında Berlindəki Kalifoniya Universitetində oxuduğum Bekmən mühazirələrinin bir qədər işlənmiş variantlarından ibarətdir". "Dil və təfəkkür"ün hər bir fəslini "Təfəkkürün tədqiqinə linqvistik töhfə" adlandıran dilçi fikirlərini "Ön söz" də belə davam etdirir: "Birinci fəsil dilin təbiətinə dair tədqiqat və fərziyyələrə əsaslanan təfəkkür təlimini zənginləşdirən işlərin dəyərləndirilməsi cəhdidir. İkinci fəsil təfəkkür təliminin ən müasir cərəyanlarına həsr olunub. Nəhayət, üçüncü fəsil sonrakı illərdə əql və təfəkkürlə bağlı tədqiqatın mümkün istiqamətləri haqqında əsasən fərziyyələrdən ibarət müzakirələri ehtiva edir. Beləliklə, hər üç fəsil, müvafiq olaraq keçmiş, indiki və gələcək dövrlərlə bağlıdır".

Formal transformasion nəzəriyyənin məzmun aspektini (eləcə də dil və təfəkkürün əlaqələrini) araşdırdığı "Dil və təfəkkür" kitabının əsas ideyalarından biri, fikrimizcə, N. Xomskinin "universal qrammatika səviyyəsində təbii dilləri öyrənməklə (N.Xomskinin tədqiqat obyekti hindu deyil, ingilis dili idi) insan intellektinin spesifik cəhətlərini öyrənmək mümkündür" mülahizəsidir.

Dil və təfəkkür
Təfəkkürün tədqiqinə linvistik töhfə
(Keçmiş)

Mən bu mühazirələrdə bir məsələyə aydınlıq gətirmək istərdim: dilin tədqiqi insan təbiətini başa düşməkdə bizə nə kimi köməklik göstərə bilər? Bu və ya digər şəkildə təzahür

edən həmin məsələ müasir Qərb fikrində bir xətt təşkil edir. Bizim dövrlə müqayisədə daha az özünüdərkə və təcrid olunmaya yönəlmiş dövrdə geniş maraq dairəsinə, baxışlara və intellektual bazaya malik qabiliyyətli həvəskarların tədqiqat və fərziyyələrinin predmeti dilin təbiətinin insanda məhz əqli prosesləri əks etdirməsi və yaxud təfəkkürün hərəkət və xarakterinin formalaşdırılması ilə bağlı sahələr olmuşdur. Və nəhayət, XIX və XX əsrlərdə dilçilik, fəlsəfə və psixologiya, çətinliklə də olsa, öz müstəqil inkişaf yollarına qədəm qoymağa çalışarkən dil və təfəkkürlə bağlı klassik problemlər labüd olaraq yenidən meydana gəldi və bir-birindən ayrılan həmin sahələr arasında əlaqə yaratmağa və onların səylərini istiqamətləndirməyə və dəyərləndirməyə xidmət etdi. Son onillikdə bu fənlərin kifayət qədər süni şəkildə ayrılması bəlkə də sona çatmasına dair işarə var. Artıq hər bir elm sahəsinin digərlərindən tamamilə asılı olmamasını nümayiş etdirmək qürur sayılmır və klassik problemləri yeni və bəzən təklif şəklində formulə etmək kimi yeni maraqlar yaranır. Məsələn, kibernetika və ünsiyyət nəzəriyyəsi elmlərinin vəd etdiyi yeni perspektivlər baxımından və uzun müddət hakim olan fikirləri şübhə altına qoyan və bizim intellektual mühitin bir hissəsinə tanış elmi təxəyyülü, demək olar ki, şüurdankənar, müəyən buxovlardan azad müqayisəli və fizioloji psixologiyadakı inkişafın əsasına zidd mövqedən çıxış etmək imkanı verən yeni maraqlar yarandı. Bütün bunlar çox ruhlandırıcıdır. Düşünürəm ki, koqnitiv psixologiyada və onun dilçilik adlanan xüsusi bölməsində sağlam fikir bir neçə il ərzində olduğundan daha güclüdür. Və ən ruhlandırıcı əlamətlərdən biri yaxın keçmişdəki ortodoks baxışlara dair skeptisizmin hələ yaranmamış ortodoksal baxışın cazibədarlığı və qorxu-

su anlayışı ilə birləşməsidir. Bu da, mövcud olarsa, yeni və mənasız doqmanın inkişafının qarşısını ala bilər.

Hazırki mənzərənin qiymətləndirilməsində səhv istiqamətləndirmə çox asandır, buna baxmayaraq mənə elə gəlir ki, yalnız dilçilikdə deyil, təfəkkür haqqında təlimlə bağlı bütün digər fənnlərdə də doqmatizmin azalması və eyni zamanda köhnə, özü də əksərən hələ də toxunulmamış problemlərə yeni yanaşma kifayət qədər səhvsizdir. Mən özüm tələbə ikən belə bir faktla bağlı keçirdiyim hissləri aydın şəkildə xatırlayıram ki, guya bu sahədəki əsas problemlər həll olunub və yalnız yaxşı başa düşülən linqvistik təhlil texnikasını təkmilləşdirmək, eləcə də onları daha geniş linqvistik materiala tətbiq etmək qalır. Müharibədən sonrakı illərdə bu ən fəal tədqiqat mərkəzlərində aparıcı yanaşma idi. 1953-cü ildə görkəmli antropoloq-dilçi alimin mənə dediyi sözləri xatırlayıram. O qeyd edirdi ki, topladığı zəngin materialını araşdırmaq niyyətində deyil, çünki bir neçə ildən sonra artıq kifayət qədər dəqiq formalaşdırılmış texnikadan istifadə etməklə geniş məlumat bazasında qrammatika yarada biləcək kompüter proqramlaşdırmaq mümkün olacaq. İndi bu heç də əsası olmayan yanaşma kimi görünmür. Halbuki, onun prespektivi insan təfəkkünün bu prosedur və texnikanı yarada biləcəyindən daha dərin olduğunu hiss edən və yaxud ən azı buna inananlar üçün qaranlıqdır. Müvafiq olaraq, 1950-ci illərin əvvəllərində əsas fəal nəzəri fikirlər texnikanın mühüm nailiyyətlərinin bəzi yeni sahələrə, deyək ki, əlaqəli diskursun (mətnin) təhlilinə və yaxud dildən kənar başqa mədəniyyətlə bağlı hadisələrə tətbiq oluna bilən problemlərə yönəlmişdir. Mən Harvarda magistr kimi təhsil almağa gəlmişdim; bu B.F.Skinnerin U.Ceymslə oxuduqları mühazirə-

lərdən az sonra idi. Sonralar o mühazirələr «Sözlü (verbal) davranış» adlı kitabda dərc olundu. Dilin fəlsəfəsi və yaxud psixologiyası sahəsində tədqiqatlarla fəal məşğul olanlar arasında böyük şübhə var idi ki, detallar laqeydliyinə və məsələlərin heç də sadə olmamasına baxmayaraq, Skinnerin işləyib hazırladığı biheyvioristik çərçivə dildən istifadəyə geniş şəkildə adekvat olaraq uyğunlaşdırıla bilər. İndi artıq L.Blumfildin, B.Rasselin və pozitivist dilçilərin, psixoloqların və filosofların inamını, ümumiyyətlə, sual altına qoymaq üçün az əsas vardı. Yəni stimul-reaksiya psixologiyası çərçivəsi insan qabiliyyətinin ən sirli tərəflərinin məqbul izahını verə biləcək nöqtəyə qədər tezliklə genişləndirilə bilər. Ən radikal şəxslər bəlkə də hiss edirlər ki, bu qabiliyyətə tam bəraət qazandırmaq məqsədilə bilavasitə yoxlanmayan kiçik s-lar və r-lar linqvistik inikası böyük S-lər və R-lərlə (stimullar və reaksiyalar – A.M.) birgə psixoloji şüurda saxlanmalıdır. Lakin bu genişlənmə ümumi mənzərə ilə uyğunlaşmamışdır. Hətta kifayət qədər nüfuzlu alimlərin tənqidi fikirləri də sadəcə eşidilməmiş qaldı. Məsələn, Karl Ləşli 1948-ci ildə aparıcı ideyalar çərçivəsini kəskin tənqid etmiş və dildən istifadəyə və bütövlükdə təşkil olunmuş davranışa diqqət yetirmək üçün assosiyasiya baxımından təhlil olunmayan və hər hansı sadə vasitələrlə inkişaf etdirilə bilməyən bəzi abstrakt mexanizmlərin labüdlüyü barədə mülahizə irəli sürmüşdü. Lakin onun mülahizələri və təklifləri aydın və anlaşıqlı olsalar da, bu sahənin inkişafina heç bir təsir göstərməmiş və hətta, o zaman psixolinqvistik tədqiqatların aparıcı mərkəzi olan Harvard Universitetində də hiss olunmamışdı. On il sonra da Ləşleyini tədqiqatı qiymətləndirilməmiş qaldı, lakin məhz onun dərin təhlili nəticəsində digər kontekstdə müstəqil olaraq həyata vəsiqə almışdır.

1940-ci illərin texnologiya sahəsində irəliləyişləri sadəcə ümumi eyforiyanı gücləndirdi. Artıq kompüterlər uzaq gələcəyin işi deyildi və onların qarşısı alınmaz prosesə çevrilməsi belə bir inamı möhkəmləndirdi ki, yalnız ən sadə və tam aydın olan fenomenin nəzəri cəhətdən başa düşülməsinə nail olmaq kifayət edərdi. Bütün digər hadisələr «ən çox» eyni məsələdən, yəni ən mürəkkəb məsələlərin elektron möcüzələrin həll edə biləcəyini aydın anlamaqdan başqa bir şey deyildir. Müharibə illərində təkmilləşdirilmiş səs spektroqrafı danışıq səslərinin fiziki təhlili üçün oxşar vədlər verirdi. 1950-ci illərin əvvəllərində danışıq səsləri ilə bağlı sahələrarası konfranslar bu gün oxucunu maraqlı edir. Yalnız bir neçə cahil texnoloji vasitələrin danışığı yazıya çevirmək probleminin yekun həllinin dərhal mümkünlüyünü faktiki olaraq sual altına qoyur. Ancaq bir neçə ildən sonra artıq maşınla tərcümənin və avtomatik təhlilin mümkünlüyünün çox da uzaq olmadığının aşkarlanması sevinclə qarşılandı. Əsas proseslərin daha çox riyazi baxımdan işlənib hazırlanmasını arzulayanlar üçün o zaman yenicə inkişaf etmiş riyazi kommunikasiya nəzəriyyəsi meydana gəldi və 1950-ci illərin əvvəllərində geniş yayılmış fikrə görə, fundamental konsepsiya olan «informasiya» konsepsiyasını təmin etdi. Bu konsepsiya ictimai və davranışla (behovorizmlə) bağlı elmləri birləşdirdi və ehtimal əsasında insan davranışının möhkəm və məqbul riyazi nəzəriyyəsinin işlənib hazırlanmasına imkan verdi; Təxminən həmin dövrdə avtomatlaşdırma nəzəriyyəsi onunla sıx əlaqəli riyazi anlayışlardan istifadə etməklə müstəqil sahə kimi inkişaf etdi. Bu öncə əsəb sistemi nəzəriyyəsi sahəsində aparılan tədqiqatlara dərhal və kifayət qədər möhkəm zəmin yaratdı. Bəziləri, məsələn Con fon Noyman hesab

edirdilər ki, bütöv inkişaf ən yaxşı halda anlaşılası deyildir, çox zaman hətta çox müəmmalıdır. Lakin bu şübhələr belə bir fikri istisna etmir ki, riyaziyyat, texnologiya, biheviorist dilçilik və psixologiya hansı məsələnin sirr olaraq qalmasının dərindən başa düşülməsini çox sadə, aydın və tamamilə münasib şəkildə şərh edəcək iqtidarında olacaqlar.

Ən azı Birləşmiş Ştatlarda bu gün müharibədən sonrakı ilk illərdəki illyuziyaların kiçik izləri qalır. Əgər biz struktur dilçilik metodologiyasının stimul-reaksiya psixolinqvistikasının («vasitəçilik nəzəriyyəsinin» genişlənməsindən asılı olmayaraq) və dilin işlənməsinin ehtimal olunan və ya avtomatik nəzəri modellərinin hazırki vəziyyətini nəzərdən keçirsək, onda biz hər halda paralel inkişafın baş verdiyini aşkar edəcəyik. Təfsilatı ilə aparılmış təhlil göstərmişdir ki, konsepsiyalar və prinsiplər sistemi tam dəqiqləşə biləcəkləri səviyyəyədək inkişaf etdirilsə də, fundamental istiqamətdə qeyri-adekvatlıq nümayiş etdirilə bilərlər. Bu cür nəzəriyyələr baxımından reallaşmaq imkanı olan strukturlar adekvatlığın empirik şərtlərinə riayət olunacağı təqdirdə sadəcə dildən istifadəyə az əhəmiyyət vermək üçün tətbiq edilməli olan strukturlar deyildir. Hətta, uğursuzluğun və qeyri-adekvatlığın xarakteri həmin yanaşmaların düzgün istiqamətdə olduqlarına inamın möhkəmlənməsi üçün az əsas verir. Bu, qeyd edək ki, istənilən halda kifayət qədər mübahisəli mövzudur. Qəti şəkildə bildirirəm ki, bu yanaşma yalnız qeyri-adekvat deyil, eyni zamanda əsas və mühüm aspektlərdə yanlış istiqamətlərdəndir. Artıq tamamilə aydın olmuşdur ki, biz nə vaxtsa dildən istifadə və yaxud mənimsəmənin necə baş verdiyini başa düşsək, onda erkən uşaqlıqda inkişaf edən və bizim müşahidə etdiyimiz davranış növlərini müəyyən etmək üçün bir çox digər amillərlə qarşılıqlı əlaqədə olan

bilik və inam sistemini, yəni koqnitiv sistemi ayrıca olaraq müstəqil tədqiqata cəlb etməliyik; texniki şərt kimi biz, davranışı göstərən lakin davranışda hər hansı birbaşa və yaxud sadə yolla reallaşmayan linqvistik səriştə sistemini təcrid etməli və öyrənməliyik. Və bu linqvistik səriştə (competence) sistemi struktur dilçiliyin taksonomik metodları, S-R psixologiyası və yaxud kommunikasiyanın riyazi nəzəriyyəsi, ya da sadə avtomatlaşdırma nəzəriyyəsi çərçivəsində yaranmış anlayışlar baxımından təsvir oluna bilənlərdən keyfiyyətcə fərqlənir. Sadə və bilavasitə verilmiş fenomeni təsvir etmək məqsədilə hazırlanmış nəzəriyyə və modellər linqvistik qabiliyyətin real sistemini özlərinə birləşdirə bilmir; sadə təsvirlərdən «ekstrapolyasiya» linqvistik səriştənin reallığına yanaşa bilmir; mental strukturlar sadəcə «daha eyni» deyil, əksinə, onlar elə bir neçə il bundan öncə çoxsaylı alimlərə belə vədverici görünən konsepsiyaların işlənib hazırlanması mürəkkəb əlaqə sistemlərindən və strukturlarından keyfiyyətcə fərqlənirlər. Burada diqqəti cəlb edən mürəkkəbliyin dərəcəsi deyil, daha çox mürəkkəbliyin keyfiyyətidir. Müvafiq olaraq, mövcud texnologiyanı ciddi şəkildə dərindən öyrənməyə və ya başa düşməyə, ya da faydalı nailiyyətlər təmin edə biləcəyini gözləməyə heç bir əsas yoxdur; artıq aydındır ki, bu təşəbbüs uğursuzluğa düçar oldu və faktiki olaraq dilin tədqiqi üçün kompüterlərin tətbiqinə sərf olunmuş vaxt, enerji və maliyyə vəsaitlərindən ibarət sərmayə nəzərə çarpacaq (yəni dilçilik kimi kiçik sahənin standartları baxımından nəzərə çarpacaq) bizim dildən istifadəmizi və yaxud dilin təbiətini başa düşməyimizdə hər hansı bir mühüm irəliləyişə səbəb olmamışdır. Bu cür mülahizələr sərt olsalar da, onları müdafiə etmək mümkündür. Onlar sonralar fəal linq-

vistik və yaxud psixolinqvistik tədqiqatçılar tərəfindən qızğın mübahisə mövzusuna çevrilmişlər.

Eyni zamanda, inanıram ki, linqvistik səriştənin (competence) təbiətini başa düşməyimizdə və onların istifadəsindəki bəzi istiqamətlərdə əhəmiyyətli irəliləyişlər olmuşdur. Lakin həmin bu irəliləyişlər nəzərdən keçirdiyimiz dövrdə fəal şəkildə irəli sürülmüş fərziyyələrdən köklü şəkildə fərqlənir. Və maraqlı cəhət bundan ibarətdir ki, həmin irəliləyişlər artıq məlum olanlarla başa düşülmə və texnikanın əhatə dairəsindən kənara çıxan kimi görünə bilən reallıq arasındakı uçurumu daraltmadı; əksinə, hər bir irəliləyiş belə bir məsələni aydınlaşdırdı ki, bu intellektual üfüqlər indiyədək təsəvvür edildiyindən çox-çox uzaqdadırlar. Nəhayət, məncə tam aydındır ki, bu gün məhsuldar olmuş fikir və yanaşmalar məhz onlara aid ənənəvi xüsusiyyətə malikdir; ümumiyyətlə isə tamamilə rədd edilmiş ənənə son illərdə yenidən canlanmış və bu ənənənin verdiyi töhvələrə isə ciddi və layiqli diqqət yetirilmişdir. Həmin faktların dərk edilməsində öncə haqqında danışdığımız ümumi və kifayət qədər sağlam skeptik münasibət doğur. Qısası düşünürəm ki, ümumiyyətlə dilçiliyin və psixologiyanın inkişafının hazırki səviyyəsində başlıcası klassik məsələlərə yenidən qayıdış və onlarla bağlı hansı yeni dərindən işlənmiş nəticələr əldə olunduğunu, eləcə də klassik məsələlərin müasir tədqiqat və təlimlərə neçə istiqamət verə biləcəyini müəyyənləşdirməkdir.

Təfəkkürün və xüsusilə, insan dilinin təbiətinə dair təlim və fərziyyələrin tarixinə nəzər salanda, diqqətimiz, təbii olaraq, XVII əsrə yönəlir. «Dahilər əsri» adlanan bu əsrdə müasir elmin əsaslarının möhkəm zəmini qoyulmuş və hələ də bizə çətin gələn problemlər tam aydın və tələqinedici şəkildə müəyyən edilmişdir. Bir çox ötəri baxımdan kənara çıxan bu

günün intellektual mühiti Qərbi Avropada on yeddinci əsrdə olduğuna bənzəyir.

Bu gün xüsusi əhəmiyyət kəsb edən avtomatlaşdırmanın potensialına və gücünə olan çox böyük maraq bizi düşündürdüyü kimi eynilə on yeddinci əsr mütətəfəkkirlərini də düşündürürdü. Yuxarıda qeyd etdik ki, getdikcə öz təsdiqini tapan belə bir fikir var ki, əhəmiyyətli bir uçurum, daha dəqiq desək, böyük boşluq, bir tərəfdən tam aydınlıqla dərk etdiyimiz, digər tərəfdən isə insan təfəkküründün təbiətinə dair konsepsiyalar sistemini bir-birindən ayırır. Oxşar anlam Kartezian fəlsəfəsinin əsasını təşkil edir. Dekart, həmçinin, kifayət qədər erkən tədqiqatında belə bir nəticəyə gəlmişdi ki, təfəkkür haqqında təlim bizi sadəcə mürəkkəbliyin dərəcəsi ilə deyil, keyfiyyət problemilə üz-üzə qoyur. O hiss edirdi ki, o, ən mürəkkəb avtomatlaşmanı həyata keçirə bilmədiyi qabiliyyət və prinsiplərin cəlb olunduğu insan təfəkküründün iki fundamental xüsusiyyətini başa düşməni və iradəni nümayiş etdirmişdir.

Həmin mülahizənin inkişafını o qədər də tanınmayan və indi kifayət qədər unudulmuş Kardemoy kimi Kartezian filosoflarının tədqiqatlarını da izləmək xüsusilə maraqlıdır. O, Dekartın dil haqqında irəli sürdüyü bir neçə fikri genişləndirərək, heyrətamiz bir əsər yazmışdır və ya digər alim Lə Forjun «İnsan şüurunun əsası» adlanan uzun və təfsilatlı əsərində Dekartın bu predmetlə bağlı, yəni onun insan haqqında fiziologiyadan kənar nəzəriyyəsini genişləndirməklə bağlı nə demək istədiyini öz iddialı mülahizələrində ifadə etmişdir. Bəziləri həmin mülahizələrin detallarını sual altına qoya bilər, bəziləri isə onların sxolastik doktrinaların (məsələn, materiya və formanın çərçivəsi haqqında olan fikirlərini) müəy-

yən dərəcədə qarşısının necə alındığını və alt-üst edildiyini göstərə bilərlər. Lakin bu mülahizələrin ümumi strukturu heç də əsassız deyil. O daha çox, mənim bu mülahizəmin əvvəlində xatırlatdığım müharibədən sonrakı ilk illərin ideya çərçivəsinə qarşı olan mülahizələrə bənzəyir. Kartezian alimləri göstərməyə çalışırdılar ki, maddi varlıq nəzəriyyəsi formalaşanda, aydınlaşanda və öz sərhədlərində genişlənəndə, o, özünümüşahidə üçün aydın olan və başqa insanların fəaliyyətələrini müşahidə ilə təsdiq olunan faktları izah etməyə hələ qadir deyildir. Xüsusilə, bu nəzəriyyə təfəkkürün təməl xüsusiyyətələrini izah edə bilmədiyi kimi, eyni ilə insan dilindən normal istifadəni də izah edə bilmir. Nəticədə Kartezian fəlsəfəsi baxımından tamamilə yeni bir prinsipin əsasını qoymaq zərurəti yarandı. Məqsəd, əsası düşünmə eyni zamanda genişlənmə və hərəkət kimi mühüm xassələrə malik orqanizmdən ibarət ikinci materiyanı bərqərar etməkdir. Bu yeni prinsip qismən qanun və prinsiplərə münasibətdə unikallığı ilə seçilən və təfəkkürün ümumi xüsusiyyətlərini əks etdirən və mədəniyyət məhsulu olan dil, yəni «canlı dil» (instituted language) çərçivəsində olan «yaradıcı aspektə» malikdir. Qəbul olunmuşdur ki, həmin qanun və prinsiplər davranışın təhlilinə və fiziki varlıqların qarşılıqlı əlaqəsinə münasib olan, hətta incəliyinə qədər işlənmiş konsepsiyaların genişlənməsi baxımından müəyyənləşmirlər. Faktiki olaraq, Dekart belə bir mülahizə irəli sürürdü ki, başqa varlığın insan təfəkkürünə malik olmasının yeganə qəti göstəricisi, yəni sadəcə avtomat olmamasına işarə, normal qaydada onun dildən istifadə etmək qabiliyyətidir: və o, mülahizə irəli sürmüşdür ki, bu qabiliyyət heyvanda və yaxud bəzi məqamlarda insan ağlını üstələyən avtomatda müşahidə oluna bilməz. Halbuki, bu cür orqanizm və yaxud maşın nitq üçün

zəruri olan fizioloji orqanlara malik insan qədər tam təbii şəkildə bütün məziyyətlərlə təchiz oluna bilər.

Mən bu mülahizəyə və onun təşəkkül tapdığı istiqamətlərə yenidən müraciət edəcəyəm. Ancaq vurğulamaq lazımdır ki, bütün boşluq və çatışmazlıqlara baxmayaraq bu mülahizə ciddiliklə qəbul olunmalıdır. Ümumiyyətlə, heç nə bütövlükdə absurd deyil. Mənə belə gəlir ki, Qərb təfəkküründə inkişafının bu xüsusi anında psixologiyanın hələ də mövcud olmayan qolunun yaranması üçün kifayət qədər əsas gətirmək mümkündür. Yəni həmin psixoloji istiqamət insan biliyinin müxtəlif sistemlərinin səciyyələndirilməsi problemi onların təşkili və baxımından konsepsiyadan və onları qabardan prinsiplərdən başlanır və yalnız bundan sonra həmin sistemlərin daxili struktur və təşkilinin ətraf mühitlə qarşılıqlı əlaqəsinin müəyyən dərəcədə birləşməsi vasitəsilə necə inkişaf etdiyini tədqiq edir. Bütün bilik və inamın qavranmasının nəzərə çarpdırılması iddia olunan, müəyyən spesifik mexanizmlərin apriori irəli sürülməsi ilə başlanan bu cür psixologiya insan ağlına yanaşma ilə kəskin ziddiyyət təşkil edir. Bu fərq məsələsinə gələcək mühazirələrdə toxunacağıq. Hazırda isə, mən rədd edilmiş alternativin əsaslılığını və bir də XVII əsrdə fizikada baş vermiş inqilabda öz uğurluluğunu isbat etmiş yanaşmaya uyğun gəlməsini qeyd etmək istəyirəm.

Mahiyyəti təfəkkür olan materiyanın Kartezian postulatı ilə onun ən kiçik hissəciyinin təbii xüsusiyyəti kimi cəlb edən Nyutondan sonrakı prinsip, yəni orqanizmlərin hərəkətini tənzimləyən fəal prinsipin qəbul olunması arasında, yəqin ki, qeyri-adekvat şəkildə qiymətləndirilmiş metodoloji paralellər mövcuddur. Mümkündür ki, müasir düşüncədə Karte-

zian fəlsəfəsinin ən uzaq görən töhvəsi onun maddi formaların bütün bu «havada var-gəl edən kiçik təxəyyüllərə», yəni Dekartın kinayə ilə istinad etdiyi və real keyfiyyətləri haqqında sxolastik anlamı inkar etməsi idi. Həmin gizli keyfiyyətlərin aradan götürülməsi ilə hərəkətdə olan materiya fizikasının və təfəkkürün xüsusiyyətlərini tədqiq edən psixologiyanın yüksəlişi üçün bir mərhələ başlandı. Lakin, Nyuton bununla razılaşmayaraq bildirirdi ki, Dekartın mexaniki fizikası işləməyəcək. «Prinsiplərin» (Principia) ikinci kitabı əsasən bu fikrin nümayiş etdirilməsinə həsr olunub və orada bildirilir ki, orqanizmlərin hərəkətini müəyyənləşdirən yeni qüvvə yaratmaq lazımdır. Uzaqdan cəlbedici qüvvə hərəkəti postulatı sağlam düşüncə haqqında aydın və fərqli ideyalarla ziddiyyət təşkil edirdi və mötədil Kartezian tərəfindən qəbul edilə bilməzdi. Bu cür qüvvə sadəcə başqa bir gizli keyfiyyət idi. Nyuton bununla razılaşmış və yer cazibəsinin səbəbinin mexaniki izahını tapmaq üçün təkrar-təkrar cəhdlər etmişdir. O, belə bir fikri rədd etmişdir ki, cazibə «materiyaya münasibətdə əhəmiyyətlidir və onun üçün səciyyəvidir» və israr etmişdir ki, əşyaların hər bir növünün gizli spesifik xüsusiyyətlə zənginləşməsi (cazibə kimi) haqqında fikir irəli sürmək bizə heç nə vermir. Bəzi tarixçilər elmi araşdırmalar nəticəsində iddia etmişlər ki, Nyuton da Dekart kimi «Fəlsəfənin prinsipləri» adında əsər yazmaq fikrində olub, lakin cazibənin səbəbini mexaniki əsaslarla izah edə bilməməsi onu öz fəaliyyətini «Təbiət fəlsəfəsinin riyazi prinsipləri»lə məhdudlaşmağa məcbur edib. Beləliklə, Nyutonun, Kartezianlarda olduğu kimi, sağlam düşüncəyə əsasən fizikanı adekvat şəkildə əsaslandırılmırdı, çünki o iddia edirdi ki, mistik bir qüvvə hərəkəti uzaqdan idarə edir. Analoji olaraq, Dekartın izahedici prinsip kimi qələmə verdiyi təfəkkür postulatı em-

pirik xarakter üçün qəbuledilməz idi. Lakin riyazi fizikanın füsunkar uğuru həmin sağlam düşüncəli etirazlara qarşı arqumentə çevrildi və yeni fizikanın nüfuzu o dərəcədə yüksək idi ki, maarifçilik dövrünün bir qədər spekulyativ psixologiyası tamamilə fərqli məsələni Nyuton ideyaları çərçivəsində deyil, məhz Nyuton analogiyası əsasında işləmək məcburiyyətində qaldı. Cazibənin gizli qüvvəsi izah olunmadan fiziki dünyanın aşkar elementi kimi qəbul olundu və həmin çərçivədən kənar tezliklə yeni bir «sağlam düşüncə» yə çevrilən funksiya daşımağın və quruculuğun tamamilə yeni prinsiplərini yarada bilmək ağlasığmazlıqdır. Qismən bu səbəblə bağlı təfəkkürün hər bir prinsipini tədqiq edəcək analoji elmi psixologiya axtarışı o vaxt da, elə indi də mümkün qədər tam təfsilatı ilə aparılmamışdır.

Mən cazibədə və *res Cogitans* postulatları arasındakı fundamental fərqi, yəni inkişaf etdirilmiş izahedici nəzəriyyələrin gücündəki nəhəng uyğunsuzluğu görməməzliyə vurmaq istəmirəm. Buna baxmayaraq, düşünürəm ki, Nyutonun, Leybnisin və mötədil karteziançıların yeni fizikadan razı qalmalarının səbəblərini dualistik rasionalist psixologiyanın tezliklə rədd edilməsinin əsaslandırılması ilə güclü oxşarlığını qeyd etmək lazımdır. Qeyd etmək düzgün olardı ki, təfəkkürün xüsusiyyətlərinin və quruluşunun tədqiqi, qismən, kifayət qədər düzgün olmayan əsaslarla vaxtından əvvəl kənara qoyulub. Həmçinin, bu tədqiqatdan imtinanın daha ümumi «elmi» yanaşmanın tədricən yayılması ilə əsaslandırıldığı haqqında ümumi bir fikrə müəyyən kinayəli münasibətin mövcudluğu vurğulanmalıdır. Mən on yeddinci əsrin intellektual mühiti ilə bugünkü intellektual mühit arasındakı bəzi oxşarlıqlara diqqəti cəlb etməyə çalışdım. Düşünürəm ki, tə-

fəkkür və ümumilikdə, davranış haqqında təlim kontekstində müasir mərhələdə linqvistik nəzəriyyənin inkişafının spesifik istiqamətinin bir qədər daha təfsilatı ilə öyrənməsi bir çox məsələlərə işıq salar.

XVI əsrin sonunda nəşr olunmuş və bir çox dillərə tərcümə edilmiş ispan həkimi Xuan Huartenin insan əqlinin təbiətinə dair təlimi haqqında söhbət burada yerinə düşür. Huarte öz tədqiqatı zamam belə bir fakta təəccüblənmişdir ki, «əql» məfhumunu bildirən «*ingenio*» sözü «engender» və yaxud «generate» (törəmək) mənasını verən müxtəlif sözlər kimi eyni latın mənşəyinə malikdir. O, bu amili təfəkkür təbiətinin açılması üçün açara çevirir. Nəticədə bir nəfər insanda iki törədici (generativ) qüvvə ayırır, bunlardan biri bitkilərlə eynilik təşkil edir, digəri isə mənəvi materiyada iştirak edir. İdrak törədici (generativ) qüvvəyə malikdir. Anlama törədici (generativ) mahiyyət daşıyır. Huartenin etimologiyası faktiki olaraq çox uğurlu olmasa da, dərin təhlil cəhdi baxımından kifayət qədər əhəmiyyətlidir.

Huarte daha sonra intellektin üç səviyyəsini göstərir. Bunlardan ən primitiv «müti əqlidir» ki, o səhvən Aristotelin ayağına yazılan Leybnisi və bir çox digərlərini maksimum qane edir, yəni bu o deməkdir ki, təfəkkürdə sadəcə mənalarla ötürülməyən heç bir şey yoxdur. Növbəti daha yüksək səviyyə, normal insan intellektidir ki, o, təcrübi məhdudiyyətin sərhəddini aşır. O «özlüyündə, öz qüvvəsilə hansı bilgi qalıqlarının prinsiplərini «törətmək» qabiliyyətinə malikdir. Normal insan təfəkkürü belə bir mahiyyətə malikdir ki, «yalnız şəxsin özü bədənin heç bir yardımı olmadan minlərlə cümlə düzəldər ki, onların heç birini mənsub olduğu cəmiyyətdən və ya hər hansı bir başqasından məlum olmayan əşya və ya məfhumlar haqqında heç vaxt deyilməyib və heç vaxt

eşidilməyib. Beləliklə, normal insan əqli daxili resurslarını səfərbər etməklə bilgilər mənimsəmək iqtidarındadır; ola bilər ki, bu insan əqli məna haqqında məlumatdan istifadə edərək müstəqil əsaslara söykənib inkişaf etdirilmiş konsepsiyalar və prinsiplər baxımından koqnitiv sistem qurmaqda davam edir və o yeni fikirlər yaratmağı və onların hər hansı bir təlim və yaxud təcrübəyə tamamilə şəffaf yollarla münasib və yeni ifadə vasitələrini tapmağı bacarır.

Huarte əqli fəaliyyətin üçüncü növünü müəyyənləşdirir və «onun vasitəsilə bəziləri öyrənmədən və ya məşq etmədən təlim görmədiyi, eşitmədiyi və yaxud öncə heç vaxt yazmadığı, şeylərdən təəccübləndirici şəkildə danışır». Burada həqiqi yaradıcılığa, yəni yaradıcı təxəyyülün normal ağıldan kənara çıxmasına və «ağılsızlığın qarışmasına» ehtiva edə bilməsi yolları ilə çalışmağa istinad edilir.

Huarte təkid edir ki, empirik maksimuma cavab verən üzüyola ali əqli fəaliyyətlə törədici qabiliyyətə malik normal ağıl arasındakı fərq heyvan ilə insan arasındakı fərqdir. Həkim kimi Huarte daha çox patologiya ilə maraqlanırdı. Xüsusilə, o qeyd edirdi ki, yüksək əqlin insana təsir edə biləcək ən kəskin qabiliyyətsizliyi həmin üç səviyyənin ən primitiv olanı ilə, yəni empirik prinsiplərə söykənən üzüyola əqli fəaliyyətlə məhdudlaşır. Huarte bu cür qabiliyyətsizliyi axtalanmışların nəsil törətmək bacarığının olmaması ilə müqayisə edir. Huarte deyir ki, əqlin yalnız hissiyatdan ötürülən stimulları qəbul edə və onları bir-birilərilə eyniləşdirə bildiyi bu qəmgin şəraitdə əsl təhsil, əlbəttə ki, mümkün deyil. Buna səbəb bilik və başa düşülmənin inkişafına imkan verən ideya və prinsiplərin yoxluğudur. Həmin halda nə qışqırıqlar, nə metod, nə nümunələr, nə vaxt, nə təcrübə, təbiətdə mövcud

heç bir şey onu kifayət qədər həyəcanlandıra bilməz.

Huartenin konsepsiyası sonrakı dövrdə «psixoloji amili» müzakirə etmək üçün faydalı oldu. Bu da onun daha sonrakı düşüncə tərzinə, dildən istifadənin insan əqlinin göstəricisinə çevrilməsinə, yəni insanı heyvandan fərqləndirən amilə istinad etməsi və, xüsusilə də, normal əqlin yaradıcı qabiliyyətini önə çəkməsidir. Bu cür problemlər rasionalist psixologiya və dilçilik üçün mühüm idi. Romantizmin inkişafı ilə diqqət əqlin üçüncü növünə, yəni həqiqi yaradıcılığa yönəldi. Bununla belə normal insan əqlinin unikal olaraq sərbəst və yaradıcı olduğu və mexaniki izahın çərçivəsindən çıxdığı haqqında rasionalist qavrama kənara atılmamış, əksinə, romantizmin psixologiyasında və hətta onun fəlsəfəsində mühüm rol oynamışdır.

Artıq qeyd edildiyi kimi, dərinliyi və nailiyyəti baxımdan həddən artıq zənginliyi təsdiqlənmiş dilin rasionalist nəzəriyyəsi digər canlıların təfəkkür problemlərindən qismən ayrı inkişaf etmişdir. Heyvanların danışıq əmrlərinə tabe olması, öz emosional vəziyyətlərini ifadə etmək, bir-biriləri ilə ünsiyyətə girmək və hətta bəlkə də ümumi məqsəd naminə əməkdaşlıq etməsi qabiliyyətlərinin nəzərdən keçirilməsinə böyük səylər göstərilmişdir. Lakin digər mülahizələrə görə bütün bunlar «mexaniki əsaslarla» baş verə bilərdi, həmin anlayış sonralar bəzilərinin refleksi şərtləndirrnə və gücləndirmə, assosiasiya və s. xüsusiyyətlər kimi formalaşdırdığı fizioloji mexanizmlərin funksiyası kimi başa düşüldü. Heyvanlar lazımı ünsiyyət orqanlarına və hər hansı bir «ümumi intellektə» malik deyillər.

Faktiki olaraq, Dekartın özünün də müşahidə etdiyi kimi, dil məhz spesifik olaraq insanlara məxsusdur və hətta aşağı səviyyəli ağıl və yaxud patoloji xüsusiyyətləri olan şəxslərdə

də biz əla dil qabiliyyəti görə bilərik. Lakin konkret problem həll etməkdə və digər məşqli davranışda insanı üstələyə biləcək imkana malik meymun tamamilə bundan məhrumdur. Mən daha sonra heyvan ünsiyyəti haqqında müasir dövrdə məlum olanlarla bağlı hissədə bu məsələyə qayıdacağam. Dekart belə bir mülahizə irəli sürmüşdür ki, heyvanlar və tam şərtləndirmə və assosiasiya, yəni Huartenin ikinci növ əqli konsepsiyası baxımından, öz intellektual strukturlarını inkişaf etdirən hətta ən mürəkkəb avtomat da fundamental elementdən məhrumdur. Bu düşüncənin sərbəst aləti kimi normal insanın dildən istifadəsində özünü büruzə verən ümumi qabiliyyətdir. Əgər eksperiment nəticəsində biz digər orqanizmin dildən normal, yaradıcı istifadə sərişẗəsinə inansaq, güman etməliyik ki, həmin orqanizm də bizim kimi təfəkkürə malik olacaqdır. Və bu, fəaliyyət mexaniki izahat sərhədlərindən, müvafiq xüsusiyyətlərdə bu gündən əhəmiyyətli dərəcədə fərqlənməyən, lakin texniki mükəmməlliyi və informasiyanın miqyası və düzgünlüyü baxımından geridə qalan dövrün stimul–reaksiya psixologiyası çərçivəsindən kənarda mövcuddur.

Düşünmək lazım deyil ki, heyvan mexanizmi fərziyyəsi ilə bağlı Kartezian mülahizələri yalnız heyvanların dildən istifadənin yaradıcı tərəfini reallaşdırmaqda aciz olmalarından irəli gəlir. Həmçinin bir sıra digər məqamlar, məsələn, hər bir ağcaqanadın da qəlbə malik olduğu fikri təsdiqləndiyi təqdirdə insanların ruhla bağlı təbii qorxusu mövcud olmuşdur. Və yaxud Kardinal Melçior de Polinyakın heyvan mexanizmi fərziyyəsini Allahın mərhəmətliliyindən irəli gəldiyi haqda mülahizəni nümunə kimi gətirmək olar. Belə ki, o hər bir şəxsin «heyvanların ağrıdan iztirab çəkmədiklərinə dair

fikrin nə dərəcədə insani olduğunu» görə biləcəyini qeyd etmişdir. Və yaxud atası dramaturq olmuş Lui Rasinin aşağıdakı mülahizəsi maraqlıdır: «Əgər heyvanlar qəlbə malikdirlərsə və hiss etmək iqtidarındadırlarsa, onlar Dekart tərəfindən edilmiş təhqirə və ədalətsizliyə etinasızlıq göstərərdilərmi? Məgər onları bu qədər aşağılamış liderə və sektaya qarşı onlar çıxmazdılarmı? Lakin fakt ondan ibarətdir ki, digər təfəkkürlərin mövcudluğu və əksinə heyvanların, mexaniki təbiəti barədə müzakirə davamlı olaraq dildən istifadənin yaradıcılığına dair formalaşdırdığı iddiaya müraciət etmişdir. XVII əsrin digər kiçik miqyaslı şəxsinin dediyi kimi «heyvanların motivasiyası olsa, onlar qeyri-müəyyən rəngarəngliyə malik əsl nitqə sahib olardılar».

Dilin məhz hansı xüsusiyyətlərinin Dekarta və onun davamçılarına daha çox təsir göstərdiyini başa düşmək vacibdir. Mənim «dildən istifadənin yaradıcı aspekti» adlandırdığım məsələnin müzakirəsi üç mühüm müşahidəyə əsaslanır. Birincisi odur ki, dildən normal istifadəmiz o mənada yenidir (innovativdir) ki, danışıq zamanı dediyimiz şeylərin çoxu tamamilə normal dil istifadəsi yenidir, öncə eşitdiklərimizin heç cür təkrarı deyil, hətta model «oxşar» və «model» terminləri anlamında hər hansı bir çalarda keçmişdə eşitdiyimiz cümlə və yaxud söyləmin təkrarı deyildir. Bu, truizmdir, ən mühümdür, lakin mənim öncə istinad etdiyim dilçiliyin bixeyviorist dövründə tez-tez diqqətdən kənarda qalan və mütəmadi olaraq inkar edilən truizmdir; demək olar ki, universal olaraq iddia olunur ki, insanın dil haqqında bilgisi daim təkrar və mükəmməl məşq ilə əsasən «analogiya» ya söykənən yeniliklə birgə öyrənilmiş modellər şəbəkəsindən ibarətdir. Bununla belə, qətiyyətlə demək olar ki, hər hansı bir şəxsin öz ana dilində heç bir çətinlik çəkmədən ani başa

düşəcəyi cümlələrin sayının astronomik olması faktdır. Və bu da faktdır ki, bizim dildən normal istifadəmizi vurğulayan və dilimizdə mənalı və asan qavranılan cümlələrə çevirdiyimiz müvafiq modellərin sayı bir insan həyatı boyu yaşadığı saniyələrin sayından daha böyük miqyasda sıralanmaya malikdir. Məhz bu mənada dildən normal istifadə yenidir (innovativdir).

Bununla belə Kartezian nöqteyi-nəzərinə görə hətta heyvan davranışı potensial olaraq öz rəngarəngliyində sonsuzdur. Yəni spesifik mənada eyni ilə deyilə bilər ki, spidometrin oxunuşu da potensial olaraq öz müxtəlifliyi ilə qeyri-müəyyəndir. Bu, o vaxt mümkün olur ki, heyvan davranışı kənar stimul və ya daxili vəziyyət (sonuncuya şərtləndirmənin qurduqları da aiddir) tərəfindən nəzarətdə saxlanılsa, onda stimulun qeyri-müəyyən sirrə görə fərqlənməsi ilə bağlı heyvanın davranışı da müxtəlif ola bilər. Lakin hər halda dildən normal istifadə təkcə yeni (innovativ) və miqyası etibarı ilə potensialda qeyri-müəyyən deyil, həmçinin daxili və ya xarici stimulun nəzarətindən azaddır. Çünki məhz stimul nəzarətindən azad olduqda dil düşüncə və özünüifadə aləti kimi xidmət edə bilər; özü də bu yalnız xüsusi qabiliyyətli və istedadlı şəxslərə deyil, hər bir adi insana da aiddir.

Məhdudiyyətsiz və stimul nəzarətindən azad olmaq kimi xüsusiyyətlər özlüyündə mexaniki izahatın sərhədlərindən kənara çıxır. Və bununla da mexaniki izahatın sərhədləri haqqında Kartezian diskusiyası dildən normal istifadənin məna bitkinliyini, yəni onun «situasiyaya uyğunluq» əlaqəsini, əlbəttə ki, onun kənar stimul nəzarətindən tamamilə fərqli olması məsələsini nəzərə almışdır. Biz, «uyğunluğ»un və «məna bitkinliyi»nin nədən ibarət olduğunu aydın və ya

müəyyən konkret şəkildə deyə bilməsək də, şübhə yoxdur ki, onlar mənalı konsepsiyalardır. Biz dildən normal istifadəni manyakın və yaxud kompüterlə əldə edilən nadir təsadüfi elementlərdən ibarət nəticədən fərqləndirə bilərik.

Ədalət bizi etiraf etməyə məcbur edir ki, bizim hazırki vəziyyətimiz Dekartın üç əsr bundan əvvəl düşdüyü vəziyyətdən heç də fərqlənmir. Həm Dekart, həm də biz insana yenilikçi, stimul nəzarətindən azad, uyğun və məna cəhətdən bitkin tərzdə danışmaq qabiliyyətinin necə verildiyini başa düşməkdən eyni dərəcədə uzağıq. Bu psixoloqların və bioloqların nəticə etibarilə üzləşməli olacaqları ciddi problemlərdir və «adət» yaxud «şərtilik» və ya «təbii seleksiya» ilə izah olunmaqla müzakirədən kənarda qala bilməz.

Dildən istifadənin yaradıcı aspekti və mexaniki izahat məhdudiyyətinin oxşar göstəriciləri baxımından digər təfəkkürlər probleminin Kartezian təhlili müasir yanaşmanı tam qane edə bilməmişdir. Məsələn, Beylin lüğəti təfəkkürlərin mövcudluğu haqqında qaneedici sübut gətirə bilməməsini Kartezian fəlsəfəsinin ən zəif elementi kimi qələmə verir. Həmçinin, Dekartın qaldırdığı problemlərlə bağlı uzun və mübahisə dolu müzakirələr olmuşdur. Əsrlər boyu biz bu müzakirələrin nəticəsiz qaldığını görə bilərik. Karteziançılar tərəfindən qeyd edilmiş insan təfəkkürünün və insan dilinin xüsusiyyətləri kifayət qədər realdır; onlar o vaxt da, indi olduğu kimi hər hansı bir anlaşıqlı fiziki izahatın sərhədlərindən kənarda qalırdılar. Nə fizika, nə biologiya, nə də psixologiya bu məsələlərlə bağlı tədqiqatlar üçün hər hansı bir açar rolunu oynayan heç nə verməmişdir.

Digər çətin problemlərdə olduğu kimi, məsələnin bəzi konseptual qarışıqlığın nəticəsi olaraq düzgün başa düşülmədiyini göstərə bilən başqa bir yanaşmaya da cəhd edilir.

Bu, müasir fəlsəfə də mövcud, lakin, fikrimcə uğursuz mülahizədir. Aydındır ki, Karteziançılar Jilbert Rayl və digər müasir tənqidçilər kimi bir tərəfdən əqli davranış üçün kriteriya verilməsi, digər tərəfdən bu cür davranışın mümkünlüyünə dair şərh arasındakı fərqi başa düşürlər. Lakin Rayldan başqa onların hamısı hər iki problemlə maraqlanmışlar. Bir alim kimi onlar öncə toxunduğumuz xüsusi mənada digər yaradıcı orqanizmin davranışını göstərə bilən eksperimental təcrübələrin təqdim etdiyi nəticələrlə kifayətlənə bilməzdilər; onlar həmçinin digər bir fakt ilə bağlı çox düzgün olaraq, narahatlıq keçirirdilər. Bu cür təcrübələr və müşahidə meyarları ilə səciyyələnən qabiliyyətlər onların başa düşdükləri cismani bədənin imkanlarını üstələyir; eynilə bizim hazırda başa düşdüyümüz onların fiziki izahatın əhatəsi xaricində olmalarıdır. Müşahidə təcrübələrinin dəqiqləşdirilməsi və müşahidə olunanların bəzi nəzəri izahının formalaşdırılması üçün sübutların toplanmasından əlavə tədqiqat cəhdində, əlbəttə ki, düzgün olmayan heç bir şey yoxdur. Məhz bu təfəkkür problemi Kartezian yanaşmasında diqqət mərkəzindədir. Lə Forj və digərlərinin təkid etdikləri kimi, hər hansı bir şəxs Nyutonun planetlərin hərəkəti təbiətini başa düşmək uğurlu cəhdi kimi «İnsan ruhunun» («l'Esprit de l'hommi») təbiətini anlamaq istəyirsə, onu dərk edə və ya «təxəyyülünə gətirə» (bu terminin texniki, klassik mənasında) bildiyindən də irəli getməsi zəruridir. Digər tərəfdən, Karteziançıların təklifləri özlüyündə heç bir real mahiyyət daşımırdı; müzakirə olunan hadisələr «fəal prinsiplərə» aid edilərək, «təfəkkür» adlandırılmış, məqbul şəkildə izah edilməmiş, onun xüsusiyyətləri bitkin və yaxud hərtərəfli şəkildə inkişaf etdirilmir.

Mənə belə gəlir ki, bu cür ən ümidverici yanaşma dil hadisələrini və əqli fəaliyyəti mümkün qədər dəqiqliklə təsvir etmək, həmin hadisələri mümkün dərəcədə maksimum izah edəcək abstrakt nəzəri aparatın işlənib hazırlanmasına çalışmaq və, nəhayət hazırki mərhələdə nəzəri cəhətdən müəyyənləşdirilmiş əqil strukturlarını və proseslərini hər hansı bir fizioloji mexanizmlərə aid etmədən və yaxud əqil funksiyasını «fiziki səbəblər» baxımından şərh etmədən dil hadisələrinin təşkili və funksiyası prinsiplərini aşkarlamaqdır. Biz gələcək üçün yalnız həmin abstrakt struktur və proseslərin bəzi konkret terminlərdə, yəni hazırda başa düşülən fiziki proseslər əhatəsindən kənar mövcud olan terminlərdə necə dərk və yaxud izah edilməsi məsələsini açıq qoya bilərik. Belə bir nəticə düzgün olarsa, heç kim üçün gözlənilməz olmaz.

Dilin bu rasionalist fəlsəfəsi XVII əsrdəki digər çeşidli müstəqil inkişaf proseslərilə birləşərək «fəlsəfi» və yaxud «universal» qrammatika kimi tanınmış dil strukturunun ilk real əhəmiyyətli ümumi nəzəriyyəsidir. Təəssüflər olsun ki, bu gün fəlsəfi qrammatika çox az tanınır. Yalnız bir neçə texniki və yaxud tədris xarakterli, bir qədər də üzrxahlıq və etinasızlıqla yazılmış tədqiqatlar istisnadır. Dil haqqında müasir əsərlərdə fəlsəfi qrammatikaya istinadlar saxtadır və kifayət qədər dəyərsizdirlər. Hətta çox yüksək səviyyəli alim L.Blumfildin fundamental «Dil» əsərində fəlsəfi qrammatikaya verilən izah onun əsl mahiyyətilə demək olar ki, heç bir oxşarlıq təşkil etmir və əksər hallarda həmin dilçilik ənənəsi üçün səciyyəvi olan baxışlara diametral əks fikirlər söylənilir. Məsələn, L.Blumfild və bir çox digərləri fəlsəfi qrammatikanı latın modelinə əsaslanan preskriptiv, danışıq (nitq) səslərinə heç bir maraq göstərməyən, danışıq ilə yazı arasında qarışıqlıq yaradan bir təlim kimi təsvir edirlər. Bütün bu itti-

hamlar əsassızdır və əslində hansı nailiyyətin əldə olunduğunu obyektiv qiymətləndirilmək üçün həmin mifləri dağıtmaq lazımdır.

Fəlsəfi qrammatikaya qarşı onun latın yönlü olması ilə bağlı ittiham irəli sürmək xüsusilə gülüncdür. Əslində orijinal əsərlər, xüsusilə Por-Royal Qrammatikasının və Məntiqinin fransız dilində yazılması əhəmiyyətli bir hadisə olaraq latın dilinin ana dililə əvəz edilməsi prosesinin tərkib hissəsi idi. Fakt bundan ibarətdir ki, latın dilini süni və saxta dil kimi nəzərdən keçirmiş karteziançıların çox böyük əhəmiyyət verdikləri sadə və sağlam düşüncə baxımından məqbul sayılmamışdır. Fəlsəfi qrammatika müəllifləri onların bəzi dil materiallarından real əldə edə bildikləri kimi istifadə etmişlər; qeyd etmək lazımdır ki, bir əsrdən artıq müddət ərzində böyük diqqət və ardıcıllıqla tədqiq olunmuş bəzi mövzular hətta latın dilində analoqu olmayan qrammatika məsələlərini əhatə etmişdir. Belə demək mümkünsə, fransız dilində qeyri-müəyyən artikllə nisbi budaq cümlə arasında münasibət buna əla nümunədir. Vaqelas qaydası yüz əlli il ərzində dil hadisələrinin rasional izahına nail olmaq məqsədilə aparılan təsvirdən kənara çıxan «rasional qrammatikanın» inkişafına dair mübahisələrlə bağlı mərkəzi məsələ olmuşdur.

Səhv olaraq fəlsəfi qrammatikaya qarşı irəli sürülmüş «preskriptivizim» ittihamına səbəb, şübhəsiz, rasional izah məsələsinin tamamilə səhv başa düşülməsidir. Əslində heç bir «preskriptivizim» məsələsi yoxdur. Çox yaxşı başa düşülən və tez-tez təkrar olunan işlənmə faktlarının real mövcudluğu və qrammatistlərin bunu qaydaya salmaq imkanlarının olmamasıdır. Burada müzakirəyə tamamilə fərqli məsələ kimi dilin və nəticə etibarilə insan düşüncəsinin təbiətinə dair

izahedici fərziyyələr əsasında işlənmə faktlarının izahı problemi çıxarılır. Filosof-qrammatistlər məlumatın toplanmasına (məlumatın böyük ümumiləşdirmənin daha dərin proseslərini daşıyan sübut kimi istifadə olunacağı hallar istisna təşkil edir) az maraq göstərirdilər. Ziddiyyət əslində deskriptiv və preskriptiv qrammatika arasında deyil, təsvir ilə izah arasında, «təbiət tarixi» kimi götürülən qrammatika ilə «təbiət fəlsəfəsi» kimi götürülən və ya müasir terminlərlə desək, «təbiət elmləri» kimi götürülən qrammatika arasındadır. Bu cür izahedici nəzəriyyələrə bir çox hallarda irrasional etiraz müasir dilçilik üçün həmin proseslərdə də əslində müzakirə məsələsinin nədən ibarət olmasını dəyərləndirməkdə çətinliklər yaratdı və fəlsəfi qrammatikanın yüksəlişdə olan orta təbəqəyə daha yaxşı nitq mədəniyyəti qaydalarını öyrətmək cəhdi ilə qarışıq salınmasına gətirib çıxartdı.

Bütün bu məsələlər maraq kəsb edir. Yuxarıda qeyd etmişdim ki, XVII əsr baxışları ilə müasir koqnitiv psixologiya və dilçilik arasında çox böyük oxşarlıqlar var. Oxşar aspektin izahedici nəzəriyyəsinin məhz bu problemilə uzlaşan bir nöqtəsi var. Fəlsəfi qrammatika müasir generativ (törəmə) qrammatikaya çox bənzəyir. O da generativ qrammatika kimi qrammatistin vəzifəsinin təbiət elmlərinə xas sadəcə faktiki materialın işlənməsi məqamlarını qeydə alan və təşkil edən deskriptiv (təsviri) ənənəyə qarşı şüurlu surətdə çıxaraq təşəkkül tapmışdır. Mən inanıram ki, belə bir məhdudiyyət zəif və qeyri-zəruri idi və onun xeyrinə hansı izahın ola bilməsindən asılı olmayaraq, elmi metodla heç bir əlaqəsi yoxdur. Elmi metod məlumatı özlüyündə deyil, əksinə onun arxasında daha dərin, gizlənmiş təşkiledici prinsiplər üçün sübut toplayır. Bu prinsiplər astronomik mexanika prinsiplərinin bu cür strukturlara müvafiq inkişaf etdirə bildiyindən

daha çox nə «hadisələrdə» müəyyənləşdirilə, nə də taksonomik məlumat işlənməsi əməliyyatları vasitəsilə həmin «hadisələrdən» hasil ola bilməzlər.

Müasir elm fəlsəfi qrammatikanın nailiyyətlərinə müəyyən qiymət vermək iqtidarında deyil. Bu cür qiymətləndirmə üçün bünövrə qoyulmayıb, orijinal əsər mövcud olsa da, özlüyündə qeyri-məlum olaraq qalır və əksəriyyətini, demək olar ki, əldə etmək mümkün deyil. Məsələn, mən bir əsrdən çox əvvəl buraxılmış «Por-Royal qrammatikasının» yeganə bir nüsxəsindən başqa heç bir nüsxə Birləşmiş Ştatlarda tapa bilməmişəm. Və onun fransız orijinalını yenidən əldə etmək imkanının yaranmasına baxmayaraq, bu mühüm əsərin ingilis dilinə yeganə tərcüməsini, yəqin ki, yalnız Britaniya Muzeyində tapmaq olar. Təəssüflər olsun ki, həmin əsərə o dərəcədə etinasız münasibət göstərilib ki, onun haqqında kiçik bir bilik də maraq kəsb edir və mübhəm məsələlərə kifayət qədər işıq salır. Bura həmin əsərin ilkin qiymətləndirilməsinə cəhd etmək, hətta müasir və kifayət qədər az bilgi əsasında meydana çıxan əsas müddəalarını formalaşdırmaq yeri deyil.

Bununla belə mən ən azı bir neçə məsələni xatırlatmaq istəyirəm. Düşünürəm ki, fəlsəfi qrammatika ənənəsini irəli sürən, 1660-cı ildə yaranmış Por-Royal Qrammatikasının yeniliklərindən biri fraza anlayışının qrammatik vahid kimi vacibliyinin tanınmasıdır. Bundan əvvəlki qrammatikalar əsasən söz qruplarından və fleksiyalardan bəhs edirdi. Por-Royalın Kartezian nəzəriyyəsində fraza mürəkkəb ideyaya uyğun gəlir və cümlə ardıcıllıqlarına fraza, onlar isə öz növbəsində frazalara bölünür və beləliklə, bu üzvlənmə söz səviyyəsinə qədər davam edir. Bu yolla biz həmin cümlənin,

belə demək mümkünsə, «üst strukturunu» əldə edirik. Artıq standart nümunəyə çevrilmiş /İnvisible God created the visible world/ («Görünməyən Allah görünən dünyanı yaratdı») cümləsini misal gətirsək, onda «görünməyən Allah» mübtəda və «görünən dünya yaratdı» isə xəbərdir. Bu xəbər «görünən dünya» mürəkkəb ideyadan və «yaratdı» felindən ibarətdir. Lakin maraqlıdır ki, Por-Royal Qrammatikası, bəlkə də, ilk dəfə olaraq sistem şəklində üst struktur təhlilinə əsaslansa da, eyni zamanda həmin təhlilin qeyri-adekvat olduğunu etiraf etmişdir. Por-Royal nəzəriyyəsinə əsasən, üst struktur yalnız səsə, yəni dilin maddi aspektinə uyğun gəlir; ancaq siqnal öz üst strukturunda səslənəndə, ona müvafiq mental təhlil dərin və ya alt strukturda baş verir, başqa sözlə, formal struktur birbaşa səsə deyil, mənaya aid olur. Yuxarıda qeyd olunan «Görünməyən Allah görünən dünyanı yaratdı» misalında dərin struktur üç hökmdən ibarət sistemi ehtiva edir: /the God is invisible/ «Allah görünmür», /that he created the world/ «O, dünyanı yaratdı», /that the world is visible// «dünya görünür». Dərin strukturu formalaşdırmaq üçün qarşılıqlı əlaqəyə girən hökmlər cümlədən nəyi isə bəyan etmək üçün istifadə olunarkən əlbəttə ki, isbat olunmurlar. Məsələn, əgər mən deyirəm ki, /a wise man is hanest// «müdrik insan düzgündür» Por-Royal nəzəriyyəsində «insan müdrikdir» və «insan düzgündür» hökmlərinin dərin struktura daxil olduğuna baxmayaraq, mən hökm etmirəm ki, insanlar müdrik və yaxud düzgündürlər. Bu hökmlər təfəkkürdə mövcud mürəkkəb ideyalara daxil olurlarsa da, cümlə ifadə olunarkən nadir hallarda siqnal kimi tələffüz edilirlər.

Dərin struktur üst struktura müəyyən mental əməliyyatlar, müasir terminologiya ilə desək, qrammatik transformasiyalar vasitəsilə aid edilir. Hər bir dil səslə məna arasında xü-

susi münasibət kimi nəzərdən keçirilə bilər Por-Royal nəzəriyyəsinin məntiqi nəticəsi bundan ibarətdir ki, dil qrammatikası dərin və üst strukturları və onlar arasındakı transformasiya münasibətini səciyyələndirən qaydalar sistemini ehtiva edir və əgər qrammatika dildən istifadənin yaradıcı aspektini uyğunlaşdırmalıdırsa, bu dərin və üst strukturların qeyri-məhdud sahəsində baş verir. V. Fon Humboldtun 1830-cu ildə istifadə etdiyi terminologiyaya əsasən, danışan şəxs məhdud mənalardan qeyri-məhdud sayda yararlanır. Onun qrammatikası belədə qeyri-məhdud sayda müvafiq əlaqəli dərin və üst strukturlar törədən məhdud qaydalar sisteminə malik olmalıdır. Bu qrammatika qaydalar ehtiva edir ki, onlar həmçinin, həmin abstrakt strukturları səs və mənanın müəyyən təzahürlərinə aid edirlər. Təzahürlər isə mümkündür ki, müvafiq olaraq universal fonetika və universal semantikaya mənsub elementlərdən ibarət olsun. Qısaca, bu, hal-hazırda inkişaf etdirilən və müzakirə obyekti olan qrammatik strukturun konsepsiyasıdır. Onun kökləri mənim indi toxunduğum klassik ənənədə aşkarlanır və fundamental konsepsiyalar həmin dövrdə bəzi uğurlu nəticələrə gətirib çıxartmışdı.

Dərin və üst struktur nəzəriyyəsi ən azı ilk baxışdan kifayət qədər birmənalı görünə bilər. Buna baxmayaraq o, özündən əvvəlki fikirlərdən fərqlənir və bir məsələ də maraqlıdır ki, XIX əsrin sonunda müasir dilçilik nəzəriyyəsinin inkişafı ilə birgə, demək olar ki, heç bir iz buraxmadan yox oldu. Burada isə mən dərin və üst struktur nəzəriyyəsi ilə dil haqqında ondan əvvəlki və sonrakı fikirlər arasında münasibət haqqında söz demək istəyirəm.

Düşünürəm ki, dərin və üst struktur nəzəriyyəsi ilə daha qədim ənənələr arasındakı mövcud oxşarlıq son dərəcə yanlışlığa gətirib çıxardır. Fəlsəfi qrammatika müəllifləri bu nəzəriyyənin təfsilatı ilə işləməsi prosesində həmin oxşarlığı vurğulayarkən çox diqqətli olmuş və klassik qrammatika, eləcə də, intibah dövrü qrammatikasının ən nəhəng nümayəndələrindən biri olan ispan alimi Sanktius haqqında şübhələrini ifadə etməkdə tərəddüd etməmişlər. Xüsusilə Sanktius fəlsəfi qrammatikaya böyük təsir etmiş ellipsis nəzəriyyəsini inkişaf etdirmişdir. Artıq qeyd etdiyim kimi, fəlsəfi qrammatika hazırda pis qavranılır, lakin bu qrammatikaya qədər mövcud olmuş Sanktius isə tamamilə unudulmuşdur. Bundan əlavə bütün bu cür işlərdə yalnız onun nə dediyini müəyyən etmək deyil, bundan da vacib olanı - onun nəyi nəzərdə tutduğunu müəyyən etmək problemi var.

Şübhəsiz, Sanktius dilin fundamental xüsusiyyəti kimi ellipsis konsepsiyasını inkişaf etdirərərkən bir çox dil nümunələri vermişdir. Bunlar, ilk baxışdan, həm klassik fəlsəfi qrammatikada və ondan qat-qat eksplisit müasir variantlarda dərin və üst strukturları nəzəriyyəsini inkişaf etdirmək üçün istifadə olunan nümunələrlə üst-üstə düşürlər. Bununla belə, görünür ki, Sanktiusun ellipsis nəzəriyyəsini inkişaf etdirməkdə məqsədi, ondan mətnləri şərh etmək üçün bir alət kimi istifadə etməkdir. Beləliklə, Sanktiusa əsasən bir bədii əsər parçasının əsl mənasını müəyyənləşdirmək üçün onu tez-tez daha geniş şəkildə işlənmiş parçanın elliptik variantı kimi nəzərdən keçirirlər. Lakin Por-Royal nəzəriyyəsi və onun sonrakı inkişaf mərhələsinin nümayəndəsi olan ensiklopediyaçı Dü Marse ellipsisə kifayət qədər fərqli şərh vermişdir. Fəlsəfi qrammatikanın aydın nəzərə çarpan məqsədi mətnin şərhi texnikasını deyil, psixoloji nəzəriyyəni in-

kişaf etdirmək idi. Bu nəzəriyyəyə əsasən, linqvistik formalar abstrakt quruluş ilə birgə siqnal kimi verilir və bədən üzvü tərəfindən həyata keçirilir, yəni ötürülür və yaxud qəbul edilir. Və dərin və üst strukturlara aid trasformasyon əməliyyatlar faktiki mental əməliyyatlardır və onlar cümlə formalaşarkən və yaxud başa düşülərkən təfəkkür tərəfından həyata keçirilir. Fərq fundamentaldır. Son şərhə görə, təfəkkürdə dərin və üst strukturları müəyyən yolla səciyyələndirən və onlarla assosiasiya edilən generativ (törəmə) prinsiplərin qeyd olunmuş sistemi təmsil olunmalıdır, başqa sözlə, söhbət danışıq aktı (diskurs) kimi yaranmasında və yaxud şərhində eyni qaydada istifadə olunan qrammatikadan gedir. Bu qrammatika, mənim əvvəllər də istinad etdiyim linqvistik kompetensiyanı (səriştəni) ehtiva edir. Bu cür qrammatikaların xarakterinin və onları idarə edən prinsiplərin müəyyənləşdirilməsi problemi elmin səciyyəvi problem olaraq, yəqin ki, çox çətindir. Lakin prinsip etibarilə, düz və yaxud səhv olan müəyyən cavablar əqli baxımdan etiraf edilir. Buna rəğmən, ellipsis nəzəriyyəsinin mətnin şərhi texnikası kimi, normal insan qabiliyyəti və ağlının bir aspekti qismində təfəkkürdə təmsil olunmuş prinsiplər toplusundan ibarət olmasına ehtiyac yoxdur. Hətta o qismən müəyyən zaman kəsiyi üçün, yəni müvəqqəti də ola bilər və təhlil olunan ədəbiyyat nümunəsinə uyğun bir çox mədəni və insani amilləri cəlb edə bilər.

Dərin və üst strukturlara dair Por-Royal nəzəriyyəsi psixologiyaya aid olaraq Huartenin ikinci növ ali əql konsepsiyasını nəzərdən keçirmək, yəni normal insan əqlinin xüsusiyyətlərini tədqiq etmək cəhdidir. Əgər mən düzgün başa düşürəmsə, Sanktiusun ellipsis konsepsiyası sübut şərtləri

kimi tətbiq olunmalı və o normal əqlin bir aspekti kimi heç bir zəruri mental təmsilçisi olmayan bir çox vasitələrdən biridir. İstifadə olunan linqvistik nümunələrin çox zaman eyni olduğuna baxmayaraq, onların təqdim olunduqları kontekst və uyğun gəldikləri çərçivə fundamental şəkildə fərqlənir. Xüsusilə, onlar Kartezian inqilabı ilə biri-birindən ayrılır. Relevant mətnlərin və onların intellektual sirlərinin aydın olmağı ilə əlaqədar mən bunu bir qədər tərəddüdlə təklif edirəm. Lakin bu cür izahatı mən düzgün hesab edirəm.

Por-Royal nəzəriyyəsinin müasir struktur və deskriptiv dilçiliyə münasibəti daha aydındır. Sonuncu istiqamət mənim üst struktur adlandırdığım təhlil siqnalda açıq-aydın təmsil olunmuş formal xüsusiyyətləri və üzvlənmə və təsnifat vasitəsilə siqnalda müəyyən oluna bilən söyləm və vahidlərlə məhdudlaşdırır. Bu məhdudiyyətin çox zəif cəhətləri var və, fikrimcə, çox səhv olaraq o, böyük bir irəliləyiş kimi qələmə verilmişdir. XIX və XX əsrlərin qovuşuğunda müasir struktur dilçiliyin əsasını qoymuş böyük İsveçrə dilçisi Ferdinand de Sössür belə bir fikir irəli sürmüşdü ki, linqvistik təhlilin yeganə düzgün metodları üzvlənmə və təsnifatdır. Həmin metodları tətbiq edərək dilçi təhlil olunan vahidlərin daxil olduğu konstruksiyaların sintaqmatik (yəni danışıq aktında onların dəqiqliklə əvəzlənməsi) və ya paradiqmatik (yəni danışıq aktında eyni mövqeyi tutan vahidlər arasında münasibət) münasibətdə olduqlarını müəyyən edir. O bildirmişdir ki, bütün bu cür təhlil tamamlandıqda dil strukturu, zəruri olaraq, tam şəkildə açıqlanır və dilçilik elmi öz vəzifəsini tamamilə həyata keçirmiş olur. Göründüyü kimi, bu cür taksonomik təhlil fəlsəfi qrammatika mənasında dərin struktur üçün heç bir yer qoymur. Məsələn, /Invisible God created the visible world// «Görünməyən Allah görünən dünyanı ya-

ratdı» cümləsindəki üç hökm sistemi həmin cümlənin sadəcə seqmentasiyası və seqmentasiyaya məruz qalmış vahidlərin təsnifi vasitəsilə əldə oluna bilməz, həm də alt və üst struktura dair transformasiya əməliyyatları bu halda paradiqmatik və sintaqmatik strukturlar baxımından ifadə oluna bilməzlər. Müasir struktur dilçilik zəruri sayılan bu məhdudiyyətləri qəbul edir.

Faktiki olaraq, Sössür hətta bəzi məsələlərdə fəlsəfi qrammatika ənənəsindən çıxış edərək bir qədər də irəli getdi. O təsadüfən belə bir fikir ifadə etmişdir ki, cümlənin əmələ gəlməsi prosesi ümumiyyətlə dil sisteminə aid deyildir və dil sistemi səslər, sözlər və ola bilsin ki, bir neçə sabit söz birləşməsi ilə az miqdarda çox ümumi konstruksiyalarla məhdudlaşır; cümlənin əmələ gəlməsi mexanizmləri linqvistik struktur tərəfindən qoyulmuş hər hansı bir məhdudiyyətdən azaddır. Belə ki, onun sözləri ilə desək, cümlə formalaşması sırf dil (langue) problemi deyil, əksinə onun danışıq (parole) adlandırdığı sahəyə aiddir və buna görə də dilçilik tədqiqatlarından kənarda qalmışdır; sərbəst yaradıcılıq prosesi olaraq, o söz formalarını və səs sistemlərini tənzimləyən qaydalardan başqa linqvistik qaydalarla məhdudlaşmır. Onun fikrincə, sintaksis kifayət qədər trivial bir məsələdir və, faktiki olaraq, struktur dilçiliyin inkişafı dövründə bu sahədə çox az iş görülmüşdür.

Bu mövqeyə gəlməkdə Sössürə, Humboldtun dilçilik nəzəriyyəsinin ciddi tənqidçisi olan məşhur amerikan alimi Uilyam Duayt Uitninin böyük təsiri olmuşdur. Uitneyə görə, Humboldtun dilçilik nəzəriyyəsi, mənim yuxarıda göstərdiyim kimi, müəyyən məqamlarda Kartezian yolunun davamıdır fikri kökündən səhvdir. Əksinə dil sadəcə «böyük sayda

olan və hər biri öz vaxtına, məqamına və təsirinə malik hissələrdən ibarətdir». O göstərir ki, «dil konkret olaraq, insanın öz fikirlərini ifadə etmək üçün istifadə etdiyi söz və sintaqmların (frazaların) cəmidir», dilçinin vəzifəsi isə həmin dil formalarını qayda ilə sıralamaq və onların hər birinin inkişaf tarixini tədqid etməkdən ibarətdir. Fəlsəfi qrammatikanın əksinə olaraq, Uitni belə bir fikir irəli sürür ki, dil formasında universallıq yoxdur və sadəcə, insan dilini təşkil edən formaların ixtiyari yığımını tədqiq etməklə insan əqlinin ümumi xüsusiyyətləri haqqında heç bir şey öyrənmək olmaz. O deyir: «Yalnız bir insan nitqinin məhdudiyyətsiz rəngarəngliyi qəlbin gücünün başa düşülməsinin, həmçinin nitqin izahını ehtiva etməsi fıkrinə kifayət qədər maneədir». Eyni ilə, Hind-Avropa dillərinin müqayisəli sintaksisinə dair tədqiqatında Delbrük ənənəvi qrammatikanı «bu sahədə ən böyük doqmaçı» kimi Sanktiusa istinad edərək müşahidə olunan siqnallara xitabən ideal cümlə tipləri qurmaqda ittiham edirdi.

Bu cür fikirləri izah edərək biz artıq dil haqqında təlimin müasir dövrünə qədəm qoyuruq. XIX əsr elminin ən böyük nailiyyətləri sırasına daxil edilməli Hind–Avropa dillərinin müqayisəli tədqiqi sahəsində nəzərə çarpan uğurlar fəlsəfi qrammatikanın sonunu yaxınlaşdırdı. Uitni, Sössür və bir çox digər alimlərin yaratdıqları dil konsepsiyası çatışmazlıqlarla dolu idi və dəqiqliklə demək olar ki, qeyri-adekvat idi. Lakin bu konsepsiya dil tədqiqatlarının hazırki mərhələsi üçün tamamilə məqbul olduğunu sübut etdi. Nəticə etibarilə, bu konsepsiyanın sübuta ehtiyacı olması qeyri-təbii deyil, əksinə səhv əminlikdir.

Müasir struktur-deskriptiv dilçilik eyni intellektual çərçivədə inkişaf edərək əhəmiyyətli dərəcədə tərəqqi əldə etmiş-

dir. Bu məsələyə mən qayıdacağam. Bundan fərqli olaraq, fəlsəfi qrammatika yeni müqayisəli qrammatika və yaxud tədqiqatçı üçün məlum olmayan ekzotik dillərin tədqiqinə dair məqbul bir konsepsiya ortaya qoymamışdır və nəticədə öz-özünə sıradan çıxmışdır. Bu təlim mümkün ideya və vasitələrin mövcud olduğu çərçivədə əldə edə biləcəyinə çataraq bu çərçivə ilə məhdudlaşmışdır. Bir əsr bundan öncə «məhdud mənaların qeyri-məhdud istifadəsini təmin edən» və insan dilinin «orqanik formasını» ifadə edən generativ (törəmə) qrammatikaların necə yarana biləcəyi haqqında aydın təsəvvür yox idi. Por-Royal Qrammatikasının təbirincə desək, belə bir füsunkar ixtira vasitəsilə biz 25 və ya 30 səsdən qeyri-məhdud sayda ifadələr formalaşdırırıq. Bu ifadələrin təfəkkürümüzdə baş verənlərlə özlüyündə heç bir oxşarlığı olmasa da, bu, bizə anladığımız və həyata keçirdiyimiz bütün müxtəlif növlü əqli fəaliyyətimiz haqqında sirri digərlərinə bildirməyə imkan verir.

Beləliklə, dil haqqında təlim bir tərəfdən belə bir vəziyyətə düşmüşdür ki, orada sadə konsepsiyalar toplusu bəzi parlaq uğurların əsasını qoymuş, digər tərəfdən isə bəzi dərin, lakin qeyri-müəyyən ideyaların hər hansı bir məhsuldar tədqiqatlara aparacağı görünmürdü. Nəticə qaçılmaz idi və heç də təəssüflənməli deyildi. Sahənin professionallaşması inkişaf etmiş, maraq ümumi xarakterli klassik problemlərdən Arno və Humboldt kimi zəkalı insanlara, əksər hallarda peşənin özünün müəyyən problemlərin həllində özündən düzəltdiyi vasitələrlə müəyyən olunmuş yeni sahəyə tərəf yönəlirdi. Bu cür inkişaf təbii və düzgün olsa da, həm də təhlükəli idi. Nəzakətli həvəskarlıq kultunu yüksəltmək arzusunda olmasaq da, etiraf etməliyik ki, klassik məsələlər yaşama-

ğa meyilli və əhəmiyyətlidir. Bunlar isə özlüyündə həqiqi marağa səbəb olan problemlərdən daha çox müəyyən olunmuş tədqiqat sahəsində bəlkə də mövcud deyildirlər.

Mənəviyyat heç də faydalı alətdən məhrum olmalı deyil. Əksinə, birincisi həmin alətlərlə həyata keçirilə bilən tədqiqatın artıq heç bir əhəmiyyət daşımadığı qaçılmaz bir günün gəlməsini müəyyənləşdirməyi bacarmaq üçün kifayət qədər uzaqgörənlik olmalıdır və ikincisi, məsələyə dair ideya və dərin araşdırmalar qeyri-yetkin, dumanlı və tədqiqat üçün qeyri-məhsuldar üsul və başa düşülmənin müəyyən mərhələsində olsalar da, qiymətləndirilməlidirlər. Öncə düşünmək qabiliyyətinin faydasından istifadə edərək güman edirəm ki, biz indi aydın şəkildə zəngin ənənənin qiymətləndirilməməsi və ona etinasızlığın uzun müddət üçün dil haqqında təlimə kifayət qədər ziyan yetirəcəyini sübut edə bilərik. Bundan əlavə, həmin qiymətləndirilməmə və etinasızlıq qətiyyən zəruri deyildi. Ola bilsin ki, bu, psixoloji cəhətdən çətinlik yaratsın, lakin prinsip etibarilə tarixi və deskriptiv tədqiqatlarda strukturalizmdən uğurla istifadənin onun müvəqqəti və kifayət qədər əsaslı əvəzlədiyi ənənə ilə müqayisədə əhəmiyyətli məhdudluqların və bunun son nəticə kimi qeyri-adekvatlığın açıq etirafı ilə birləşdirilməsi mümkünsüzlüyünü deməyə səbəb yoxdur. Dil və təfəkkürün gələcək tədqiqi üçün dəyərli ibrət dərsi, məhz, buradadır.

Nəticə etibarı ilə düşünürəm ki, hazırda dil haqqında təlimlə məşğul olan hər kəs üçün, sözsüz, iki real məhsuldar tədqiqat ənənəsi mövcuddur. Bunlardan biri XVII əsrdən başlayaraq romantizm dövrü də daxil olmaqla çiçəklənmiş fəlsəfi qrammatika ənənəsidir. İkincisi isə ən azı erkən 1950-ci illərədək bütün keçmiş əsr ərzində aparıcı tədqiqat istiqaməti olmuş və mənim bir qədər səhv olaraq istinad etdi-

yim strukturalizm ənənəsidir. Struktur dilçilik bizim əldə etdiyimiz informasiya sərhədlərini heyrətamiz dərəcədə genişləndirmiş və bu cür məlumatın həqiqiliyini ölçüyəgəlməz miqyasda artırmışdır. O, göstərdi ki, dildə abstrakt şəkildə tədqiq oluna biləcək, struktur münasibətlər mövcuddur. Strukturalizm dil haqqında diskursların dəqiqliyini tamamilə yeni səviyyələrə qaldırdı. Lakin düşünürəm ki, həmin istiqamətin verdiyi ən böyük töhvə, qəribədə də olsa, çox güclü tənqidə məruz qalmışdır. Mən «ixtira prosedurlarına», yəni Sössürün də əsaslandığı üzvlənmə və təsnifat texnikasını yaratmaq üçün diqqətlə və ciddi-cəhdlə müraciət edirəm. Həmin cəhd uğursuz idi və bu indi artıq ümumən qəbul olunub. Uğursuzluğun səbəbi bu cür üsulların ən yaxşı halda üst struktur hadisələrilə məhdudlaşdığı və buna görə də dildən istifadənin yaradıcı aspektini və semantik məzmunun ifadəsini vurğulayan mexanizmləri açıqlaya bilməməsindədir. Lakin bu cəhdin ilk dəfə olaraq açıq və ağıllı yolla dil haqqında təlimin təməl məsələsinə yönəlməsi fundamental əhəmiyyət daşıyır. Qaldırılmış problemin qarşısında duran məqsəd hissiyyat göstəricilərini idarə edən və dil bilgisinin linqvistik sərişdə (competence) yaradan mexanizimlərini müəyyənləşdirrnəkdən ibarətdir. Aydındır ki, bu cür mexanizimlər mövcuddur. Uşaqlar birinci dili (ana dilini) öyrənirlər; onların öyrəndikləri dil ənənəvi mənada «müəyyən olunmuş dil» olaraq anadangəlmə spesifik sistem deyildir. Struktur dilçilik metodologiyasında təklif olunan cavab qeyri-düzgün göstərilmiş, lakin bu problemin özünün indi aydın formula aldığı faktla müqayisəsi az əhəmiyyətlidir. Bir dəfə Uaythed müasir elmin mentalitetini «təfsilatı faktlara ehtiraslı marağın mücərrəd ümumiləşdirmə ilə eyni dərəcədə ittifa-

qı» kimi təsvir etmişdi. Müasir dilçiliyi təfsilatı faktlara ehtiraslı maraq kimi, fəlsəfi qrammatikanı isə mücərrəd ümumiləşdirməyə eyni həvəs kimi təsvir etmək, demək olar ki, dəqiqdir. Mənə elə gəlir ki, bu iki əsas cərəyanı birləşdirmək və onların müvafiq nailiyyətlərindən çıxan sintezi inkişaf etdirmək vaxtı gəlib çatmışdır.

Tərcümə edən: Azad Məmmədov

Mündəricat

Ön Söz 3
Por-Royal qrammatikası.....7
Antuan Arno, Klod Lanslo. Ümumi və rasional qrammatika. Seçmələr (Ön söz) 8
Frans Bopp 16
Yunan, latın, fars və german dilləri ilə müqayisədə sanskrit dilinin təsrif sistemi haqqında. Ön söz.....17
Müqayisəli qrammatika (Seçmələr).....21
Rasmus Rask 29
Qədim şimal dili sahəsində araşdırma, yaxud İsland dilinin mənşəyi. Giriş.....30
Vilhelm fon Humboldt 39
İnkişaflarının müxtəlif dövrlərinə tətbiq edilməklə dillərin müqayisəli öyrənilməsi haqqında 40
Bəşər dilləri quruluşunun müxtəlifliyi və bunun bəşəriyyətin mənəvi inkişafına təsiri haqqında. Fərdlər və millətlər arasında qarşılıqlı əlaqə.....66
Avqust Şlayxer 106
Darvin nəzəriyyəsinin dil haqqındakı elmə tətbiqi. Seçmələr.....108
Hind-Avropa dillərinin müqayisəli qrammatikasının kompendiumu. Ön söz.....116
Boduen de Kurtene 122
Fonem.....222

Ferdinand de Sössür 124
Ümumi Dilçilik Kursu. Dilçilik tarixinə ümumi baxış....126
Praqa dilçilik dərnəyi.....155
Praqa dilçilik dərnəyinin tezisləri 156
Lui Yelmslev.....181
Dil və nitq 182
Dilçilikdə struktur təhlil metodu 191
Frans Boas 201
Frans Boas «Amerika hindu dillərinə dair əl kitab»ına giriş.....202
Leonard Blumfild 218
Dil. Dil kollektivləri.....218
Eduard Sepir 238
Dil 239
Noam Xomski 278
Dil və təfəkkür. Təfəkkürün tədqiqinə linvistik töhfə (Keçmiş) 279

ÜMUMİ DİLÇİLİK MÜNTƏXƏBATI

Bakı Dövlət Universitetinin Ümumi dilçilik kafedrasının 100 illiyinə

Qeyd üçün

"Elm və təhsil" nəşriyyatının direktoru:
professor **Nadir MƏMMƏDLİ**

Dizayner: Kamran İbrahimov
Texniki redaktor: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 07.02.2020
Şərti çap vərəqi 20. Sifariş № 16
Kağız formatı 60x84 1/16. Tiraj 500

Kitab “Elm və təhsil” nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib, çap olunmuşdur
E-mail: nurlan1959@gmail.com
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4